AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# BAKI FOLKLOR ÖRNƏKLƏRİ

1-ci kitab

- 15729 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2014

LAYİHƏ RƏHBƏRİ: AMEA-nın müxbir üzvü,
fil.ü.e.d. Muxtar KAZIMOĞLU
(İMANOV)

TƏRTİBÇİLƏR
VƏ ÖN SÖZÜN
MÜƏLLİFLƏRİ: fil.ü.f.d. Rza XƏLİLOV
fil.ü.f.d. Afaq RAMAZANOVA

REDAKTOR: fil.ü.e.d., prof. İsrafil ABBASLI

**Bakı folklor nümunələri, 1-ci kitab,** Bakı, Elm və təhsil, 2014, 308 səh.

folklorinstitutu.com

Y 4603000000 Qrifli nəşr
N-098-2014

© Folklor İnstitutu, 2014

# TƏRTİBÇİLƏRDƏN

Azərbaycan folklorunun regionlar üzrə toplanması və nəşri xəritəsini bir anlıq gözlərimiz önündə canlandırsaq, burada bir çox ağ ləkələrin, boşluqların yer aldığını görərik. Bu boşluqlar sırasında Azərbaycan folklorşünasları arasında təəssüf hissi doğuran bir ağ ləkə də mövcuddur. Bu da indiyədək Bakıda, Abşeronda yayılmış folklor örnəklərinin sistemli şəkildə toplanması işinə başlanmaması və kitab şəklində nəşr edilməməsidir. Halbuki keçən əsrin 70-ci illərində Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun Folklor şöbəsi Bakı və onun ətrafından folklor örnəklərinin toplanması məqsədi ilə ilk cəhdi etmiş və bu regiona üç ekspedisiya təşkil etmişdir. Təəssüflər olsun ki, bu ilk təşəbbüs toplanan materialın kitab formasında nəşri ilə nəticələnməmiş, yığılan material itib-batmışdır.

Son illər Azərbaycan folkloru örnəklərinin respublikanın müxtəlif regionları üzrə toplanıb nəşri işində diqqətəlayiq işlər görülmüşdür. Folklor örnəklərinin regionlar üzrə toplanması toplanmış mətnlərin tədqiqinə, folklor mühitləri arasında fərqli və oxşar cəhətlərin üzə çıxarılmasına, hər bir regionun özünəməxsusluğunu müəyyənləşdirilməsinə və məntiqi nəticə olaraq Azərbaycan folklorşünaslarının uzun illərdən bəri nəzərdə tutduqları Azərbaycan folklor xəritəsinin işlənib hazırlanmasına, tərtibinə kömək edə bilər.

Heç şübhəsiz Bakının folklor örnəklərini toplamadan sözügedən xəritə tam mükəmməl olmayacaqdır, bu xəritə Azərbaycan folkloru haqqında dolğun məlumat verməyəcəkdir. Məhz bu səbəbdən Bakı folkloru örnəklərinin toplanması və nəşri bu şəhər qarşısında mənəvi borcumuz olmaqla yanaşı, tə-

xirəsalınmaz vəzifəmiz və işimizdir. Gec-tez Azərbaycan folklorşünaslığı bu şəhərə olan borcunu ödəməyə başlamalıdır.

Bakı-Abşeron folkloru örnəklərinin ilk nəşrləri əsas etibarilə XIX əsrin ikinci yarısına və XX əsrin ilk illərinə təsadüf edir. Belə ki, 1881-ci ildən Tiflisdə Qafqaz Tədris İdarəsi tərəfində rus dilində nəşr edilən "Сборник материалов для описания местностей и племен Кавказа" ("СМОМПК") toplusunda, Bakıda XX əsrin əvvəllərindən başlayaraq nəşr edilən "Tuti", "Məktəb", "Dəbistan", "Rəhbər" və başqa jurnallarda və o dövrdə Azərbaycan və rus dillərində nəşr edilən qəzetlərdə bu regiondan toplanmış folklor örnəklərinə rast gəlmək olur. XX əsrin əvvəllərində Azərbaycan dilində ərəb qrafikası ilə nəşr edilmiş bu jurnallardakı folklor örnəkləri toplumuzda latın qrafikasına transliterasiya edildiyindən buradakı materiallar yenidən Azərbaycan, Bakı folklorunu geniş oxucu kütləsinə qazandırmışdır.

Görkəmli Azərbaycan folklorşünasları Hənəfi Zeynallı, Vəli Xuluflu və Əbdurrəhman Dai öz yazı və kitablarında Bakı folklorundan, atalar sözü və tapmacalardan və s. geniş istifadə etmişlər.

Azərbaycan folklorunun tərkib hissələrindən biri olan Bakı-Abşeron folkloru janr, mövzu, əsərlərin sujet quruluşu, obrazlar sistemi, ideyası və s. göstəricilər cəhətindən folklorumuza xas olan özəllikləri özündə əks etdirməkdədir.

Son 150 ildə sənayeləşmənin sürətlənməsinin, xüsusilə də neft sənayesinin inkişafının nəticəsi olaraq Azərbaycanın sənaye, mədəniyyət, təhsil, maarif mərkəzinə çevrilən Bakı bir çox müxtəlif mədəniyyətlərin qaynayıb qarışdığı yer olmuşdur. Buna baxmayaraq, o öz folklorunun milliliyini, etnik mənsubiyyətini, özünəməxsusluğunu qoruyub saxlaya bilməmişdir. Bu illər ərzində buradakı iqtisadi inkişafın nəticəsi olmaqla yanaşı, müxtəlif iqtisadi və sosial səbəblərdən dolayı Azərbaycanın müxtəlif yerlərindən, ərazilərindən Bakıya edilən kütləvi köçlər regionun folkloruna öz milliliyini, ona xas olan cəhətləri qorumaq imkanı verməmiş, onu yeni mövzu, məzmunla zənginləşdirmiş, qidalandırmışdır. Bu proses indi də davam etməkdədir. Hər halda Bakı-Abşeron folkloru örnəklərinin toplanması yolunda görülməkdə olan işlərin bu ilkin mərhələsində müxtəlif mənşəli qaynaq və mənbələrdən əldə edilmiş folklor materilları ilə tanışlıq belə qənaətə gəlməyə imkan verir.

AMEA Folklor İnstitutu Bakı-Abşeron folklorunun toplanması və nəşri işinə indiyədək mövcud olan materialların bir araya gətirilməsi, sistemləşdirilməsi və nəşri ilə start vermək qərara almışdır. Bunun üçün Azərbaycan dövri mətbuatının böyük bir zaman kəsimi izlənilmiş, XIX əsrdən üzübəri qəzet və jurnallar araşdırılmış, elmi-kütləvi nəşrlər "ələk-vələk" edilmişdir.

"Bakı-Abşeron folkloru" kitabı üçün toplanmış folklor örnəklərinin böyük həcmini, müxtəlif xarakterdə olmasını – bu vaxtadək nəşr edilmiş məcmuə jurnal və kitablardan və ən başlıcası, arxiv materiallarından ibarət olmasını nəzərə alaraq ilk mərhələdə onun iki cildlik formatda nəşri nəzərdə tutulmuşdur.

Birinci cildin əsas qaynaqlarına gəlincə isə, bunlar ilk növbədə, vaxtilə Bakıdan toplanmış və indi AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən folklor və etnoqrafik materiallardır. Burada göstərilən, qeyd olunan materiallar görkəmli aktyor Hüseynqulu Sarabskinin fondunda yer almaqdadır. Bakı folkloru, etnoqrafiyası və məra-

simlərini əhatə edən həmin materiallar H.Sarabskinin özü tərəfindən müxtəlif illərdə toplanmışdır. Hüseynqulu Sarabski arxivindən Bakının mərasim folkloruna və uşaq folkloruna dair rusca mətnlər də üzə çıxarılmışdır. Bu mətnləri elə əlyazmanın dilində, yəni rusca kitaba salınmaq qərara alınmışdır. Çünki bu mətnlər vaxtilə Azərbaycan ədəbi-mədəni fikrinin görkəmli nümayəndəsi Əziz Şərif tərəfindən ruscaya tərcümə edilmişdir. Rusca əlyazmaların bu dəyərini, mətnlərin indiyədək heç yerdə çap olunmadığını nəzərə alaraq və ən əsası Əziz Şərifin əziyyətini yerdə qoymamaq üçün onların kitaba rus dilində daxil edilməsi vacib bilinmişdir.

Ərtoğrol Cavidin Bakıdan topladığı mərasim və musiqi folkloru materiallarını da birinci cildə salmaq məqsədəuyğun sayılmışdır.

"Məktəb", "Dəbistan", "Rəhbər", "Tuti", "Azərbaycanı öyrənmə yolu" dərgilərində, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin nəşrlərində yer almış Bakı folkloru örnəkləri də birinci cildə salınmışdır.

Ötən əsrin 20-ci illərinədək Bakıda əski əlifba ilə nəşr edilmiş meyxana kitabları, el şairlərinə həsr olunmuş yazılar da bu cilddə toplanmışdır.

Bu cilddə yer almış materialların bir hissəsi də AMEA Arxeologiya və Etnoqrafiya İnistitutunun arxivində qorunan əsas etibarilə etnoqrafik mahiyyətdə olan örnəklərdir.

Bakının ətraf kəndlərindən toplanmış və bu nəşrin ikinci cildinin əsasını təşkil edən materiallara gəlincə isə, bunlar yuxarıda adları çəkilən dövri nəşrlər, jurnallarla yanaşı, görkəmli dilçi alim M.A.Şirəliyevin toplama materialları, Bakı və Abşeron etnoqrafiyası və folklorunun tanınmış və fədakar



toplayıcısı və tədqiqatçısı t.ü.e.d. Təvəkkül Səlimov-Şağaninin toplama və tədqiq kitabları və s. materiallardır.

Hər cildin sonuna folklor mətnlərinin götürüldüyü mənbə barəsində qeydlər və izahlar bölməsi əlavə edilmişdir.

Sonrakı mərhələdə ikicildliyin davamı olaraq Bakıdan və ətraf ərazilərdən toplanacaq folklor materiallarından tərtib ediləcək kitabların nəşr edilməsi nəzərdə tutulur.

İkicildliyi təşkil edən folklor materiallarının kompüterdə yığılmasında İnstitutumuzun "Klassik folklor" şöbəsinin əməkdaşları Hüseynova Aynur, Cəfərli Samirə, Əsgərova Vildan, Məmmədova Nurlana, Haqverdiyeva Şəbnəm böyük zəhmət çəkmişlər, fürsətdən istifadə edərək onlara və bu materialların toplanmasında bizə yardım etmiş hər bir şəxsə öz minnətdarlığımızı bildiririk.

***Rza Xəlilov***
***Afaq Xürrəmqızı***

## ATALAR SÖZLƏRİ
## MƏSƏLLƏR

**A**

Abbasını bəyənməyən beş şahını çıxardar.
Abırsızdan abrını gözlə.
Abırsızdan abrını saxla.
Ac deyər doymazam, tox deyər acmaram.
Ac qarnına soyux su?
Ac qılınca çapar.
Ac qulağım, dinc qulağım.
Ac toyuq yuxusunda darı görər.
Ac yalavac qudurğan olar.
Acın qarnı doyar, gözü doymaz.
Acın qurşağında çörək durmaz.
Acıqlı başda ağıl olmaz.
Aclıq adama oyun öyrədər.
Acmısan soyuq su iç.
Açıq ağız ac qalmaz.
Adam adama gərəkdir.
Adam adama lazım olar.
Adam adamı bir kərə aldadar.
Adam odur ki, iqrarından dönməyə.
Adam öz tayını tapmasa, günü ah – vahla keçər.
Adam paxıl olmasa bağ çəpəri neynir.
Adam var ki adamların naqşıdır, adam var ki heyvan ondan yaxşıdır.
Adam sözünü adama deyər.
Adamı adam eyləyən paradır.
Adamın başına nə gəlsə dilindən gələr.



Adamın başına nə gəlsə özündəndir.
Adımı sənə qoyum, səni yana-yana qoyum.
Adın nədir Daşdəmir! Yumşalısan yumşalı.
Adın nədir? Rəşid, bir de min eşit.
Adını dut (çək), qulağını bur.
Adını mənə qoydu, məni yana-yana qoydu.
Ağ at arpa yeməz?
Ağ ayranı itə tökərlər, qara mövüzü (möyücü) cibə tökərlər.
Ağ dolağım sağ olsun, tapılmayan qız olsun.
Ağ gün ağardır, qara gün qaraldır.
Ağ gün hara gedirsən? Ağarmağa. Qara gün hara gedirsən? Qaralmağa.
Ağ libas tez çirklənər.
Ağ pul qara gün üçün yığılar.
Ağa götürür navala, xanım salır çuvala.
Ağa gətirdi (gətirər) navala, xanım salar çuvala.
Ağac səmtinə yıxılar.
Ağac bar verəndə başını aşağa tutar.
Ağacı əlinə alarsan oğru və it özünü bildirər.
Ağacı qurd içindən yeyər.
Ağıl yaşda deyil, başdadır.
Ağıl yaşda olmaz, başda olar.
Ağılın zənni, cahilin yəqinindən yaxşıdır.
Ağıllı evləninçə dəli bir oğul da doğurdu
Ağıllı düşmən ağılsız dostdan yaxşıdır.
Ağıllı düşmən ağılsız dostdan iyidir.
Ağıllınız kimdir? Qabaqdakı zəncirli.
Ağılsız dostun olunca ağıllı düşmənin olsun.
Ağıllı düşmən ağılsız dostdan iyidir.

Ağın adı var, qaranın dadı.
Ağır otur, batman gəl.
Ağızdan çıxan başa dəyər.
Ağızdan çıxar quşa dəyər.
Ağıznan plov bişməz yağ ilə dügü gərək.
Ağladım başarmadım, güldüm günüm keçirdim.
Ağlama gözəl gözüm, verməsən də olmasar.
Ağlamayan uşağa məmə verməzlər.
Ağlamayan uşağa süd verməzlər.
Ağlayışını bilməyən ölüsünü mundarlayar.
Ağrılardan göz ağrısı, hər kişinin öz ağrısı.
Ağrısız başa saqqız yapışdırma.
Ağrımayan başına dəsmal bağlama.
Ağzıyla quş dutur.
Ağzında mərcimək durmaz (islənməz, iyəməz)
Ağzında mərcimək iyiməz (islanmaz).
Ah-vayla çıxar kasıbın canı ölənəcən deyər: "Allah kərimdir"
Ahıl ilə daş daşı, cahil ilə bal yemə.
Ahıla gedən quyruq yeyər, cahıla gedən yumruq.
Axırkı peşmanlıq fayda verməz.
Axan su yolu tapar.
Axşam isə yat, sabah isə get!
Axşam oduna gedən çox olar.
Axşam səbri xeyir olar.
Axşamın xeyirindən səhərin (gündüzün) şəri yaxşıdır.
Axşamın işini sabaha qoyma.
Axtaran tapar.
Al ver deyiblər, al vermə deməyiblər.
Ala itdən (köpəkdən) məşhurdur.



Aləmə it hürər, bizə çaqqal.
Alim olmaq asandır, adam olmaq çətin.
Allah adama ya ağıl verər, ya dövlət.
Allah bir, söz bir. .
Allah dağına baxar qar verər.
Allah, divan sağ əli sol ələ möhtac eyləməsin.
Allah eşşəyə buynuz versə idi, dünyanı dağıdardı (versə, vırar ölkəni dağıdar).
Allah əli hamı əllərdən ucadır.
Allah insanın ömründən kəsib baxtına calasın.
Allah heç kimi arxasız eyləməsin.
Allah xana ömür versin, yoxsa tüklü-tüklü yeyəcəkdi.
Allah ona qoturluq versin, dırnağ verməsin.
Allah ona verdigi canı ala bilməyir.
Allah saxlayanı qurt yeməz.
Allah tənbəl kimsəni sevməz.
Allahı çağıran məhrum qalmaz.
Almazı palçığa atsalar, yenə almazdır.
Allah verəndə bacadan da tökər.
Allah yolunda yox(?) şeytan çox
Allah verə, bazar ola.
Alt dəgirman güclü olar.
Altım daş, üstüm daş (yaş) yenə oğul çörəgi.
Altmışda zurna öğrənən qəbrində çalar.
Aman deyənin boynun vurar.
Ana ağaca çıxanda qızı budağ-budağ gəzər.
Anadan yaxşı yavər olmaz.
Anasına bax qızını al, qırağına bax bezini al.
Anlayan bir teldən anlar.
Anlayana bir bəsdir, anlamayana min azdır.

Anlayana qul ol, anlamayana ağa olma.
Annamaz eşşəkdən də (heyvannan da) pisdir.
Annıyannan daş daşı, anlamazla bal yemə.
Annıyanın quluyam, annamıyanın ağası.
Aparanda el aparar, yel aparar, sel aparar.
Araba cırıldamaqdan ban cırıldayır.
Araz! Altını da bilirəm, üstünü də.
Arxalı köpək qurt basar.
Arı yeyib namusı dalına atıb.
Arığa batman da yükdür.
Arpa verilməyən at qamçı vurdurmaz.
Arpa verilməyən at qamçı gücü ilə yeriməz.
Arpaya qatsan at yeməz.
Artıq tamah baş yarar.
Artıq tikə baş yarar.
Arvad ər saxlamaz.
Arvad nədir ki, dedigi nə ola.
Arvad şeytana papuş tikər.
Arvadın göyçəgin al, işsiz çıxdı baxtunnan, işli çıxdı baxtınnan.
Arvadın xirtdəgi (qırtlağı) olmaz.
Arvadın saçları (saçı) uzun olar, ağlı gödək.
Arvadnan atı amanat vermə (ya: özgəyə tapşırma)
Aşağı aşağı kor Mahmuddan da aşağı.
Aşı bişirən yağ olar, gəlinin üzü ağ olar.
Aşı yox, ipəgi yox, bol suyu var Səlyanın.
Aşıq üz görən yerdə yatağandır qalağan.
Aşığın beş gün dövranı olar.
Aşığın sözü qurtaranda yaram-yaram çağırar.
Aşığınkı haydan, mollanınkı vaydan.



Aşın cuyulluğu dənin yoxsulluğundandır.
Aşna, saqqala salam vermirsən.
At almağa cahil (cayıl), qız almağa ahıl göndər.
At almamışdan axurunu bağlayır (tikir).
At minənindir, qılınc bağlayanın.
At olmayan yerdə eşşək də atdır.
At öləndə yəhəri qalar, adam öləndə adı.
At ölür meydan qalır, igid ölür şan (adısan) qalır.
At təpiginə at dözər.
Ata ol, ata qədri bil.
Ata olarsan ata qədrini bilərsən.
Ata olmayan, ata qədrini bilməz.
Atam eylə bicdir ki, kündələri sayır, anam da eylə bicdir ki, kündələrdən kəsir.
Atam eylə fətdi ki kündəni sayardı, anam eylə fənd fətdi ki yandan kəsərdi.
Atamla atandan deyincə özümlə özündən danış
Atan soğan, anan sarımsaq, sən hardan (oldun) gəldin belə gülməşəkər.
Atanın duası əsər eylər, ananın ahı-naləsi.
Atasına oxşamayan bicdir.
Atdar ölüb, itdərin bayramıdır.
Atdı ilə piyadanın yoldaşlığı olmaz.
Atı atası ilə tanıdarlar, qatırı anası ilə.
Atı atın yanına bağlarsan ya halını götürər, ya xasiyyətini.
Atılan ox geri qayıtmaz (dönməz).
Atın ölməgi itin bayramıdır.
Atla arvada etibar yoxdu (ya: ata, arvada etibar yoxdu).
Atlı ilə atsız bir dəgildir.
Avcı avda, yolçu yolda.

Avcı ovda, yolcu yolda gərək.
Ay özünü bəgənmiş, qoy səni el bəgənsin.
Ayaq – ayaq nərdivana çıxarlar.
Ayağı bir-bir qoyarlar nərdiyana.
Ayağı yarpaq xınadadı.
Ayağının altında yumurta qalıb.
Ayı kim gördü Kor Xoçatur.
Ayı meşədən küsüb meşənin xəbəri yox.
Ayıq it ələ düşməz (ələ geç düşər).
Ayın on beşi qaranlıq olsa, on beşi aydınlıq olar.
Ayını öldür, sonra dərisini sat (say).
Ayrana getməgə utanmaz (utanmır) çanağı dalında gəzdirər (gizlədər, qısdırar).
Ayranındı, şorundu, indi nobat korundu.
Ayrı qardaş, yad qonşu.
Az aşın qatığı dögürsən (dəgilsən)
Az danışmaq qızıldır.
Az ye bir nökər dut.
Az iş çox sözdən yaxşıdır.
Azacıq aşım ağrımaz başım.
Azacıq aşın duzu dögüsən.
Azarlı yanında armud yemə.
Azdan az demişlər, çoxdan çox.
Azı bilməyən, çoxu heç bilməz.

**B**

Baba igit oğluyam qurt basaram.
Bablı babıyla, atlası qabıyla.
Bacarana baş qurban.
Bağa qınınnan çıxdı, qınını bəgənmədi.



Bağa özün çəkə bilməz, evin dalına alar.
Bağa (ya tısbağa) yol gedə bilməz, dayısını dalına götürər.
Bağda ərik var idi, salam əleyk var idi, bağda ərik qurtardı salam əleyk qurtardı.
Bağda görsən budağa sarı.
Baxmaqdan şey olsa, itdən qəssab (qəsab) olar.
Baxtım olsaydı anadan qız olardım.
Bahalıqda çörəyini əsirgəyən ucuzluqda ac qalar.
Bal bal deməklə ağız dadlı olmaz.
Bal dedim bəlaya düşdüm.
Bal tutar barmaq yalar.
Bal tutan barmaq yalar.
Bala baldan şirindir.
Bala candan şirindir.
Balıq başdan qoxar.
Balıq başından iylənər.
Balığın ölümü sudan çıxmağıdır.
Balta ağacı kəsməzdi, ağac sapı olmasa.
Baş yoldaşı qazan!
Aş yoldaşı çoxdur.
Baş vermək olar, gizlin sirri açmaq olmaz.
Başda oturan bəy olmaz.
Başımı yarıb ətəgimə qoz tökür.
Başına gələn başmaxçı olur.
Başından böyük danışma.
Başmaqçının başmağı yırtıq olar.
Bayram sümüyü ilə it kökəlməz.
Bazarda tapılmaz, tərəzidə çəkilməz, baldan şirin yemək olmaz.
Beş barmağın beşi də bir dögü.

Beşdə alacağım yox, üçdə verəcəgim.
Bədəsildən əsil olmaz gidən (geydən) qızdan xanım.
Bədrəng də (rəngsizlik) bir rəngdi (rəngdir).
Bəg verən atın dişinə baxmazlar;
Bəlkəni əkərsən, çuxundur bitər.
Bəndi selə vermə.
Bərkdir fələgin payı.
Bildir yedim bir əncil, indi gödənim incidir.
Bildirçinin bəgliyi darı sovulanadəkdir.
Bir adam qayğına qalsın (qorxsun) ki, arvadı öləndə qız
ərində) baldızı olmasın.
Bir ac qudurar (gülər), bir də yalavac.
Bir budağa çıxıb min budaq silkələyir.
Bir-birinin bəsinə (bəhsinə), qılını yolar tərsinə.
Bir – birinin ətin yeyirlər (ya: qanın içirlər)
Bir daş altda bir daş üstə.
Bir dəfə görmək, min dəfə eşitməkdən yaxşıdır.
Bir çırağın işığına qırx adam oturar.
Bir çörək bir çörəyə daldadır.
Bir əli yağda, bir əli balda.
Bir fəslin bir meyvəsi olar.
Bir gül ilə bahar olmaz.
Bir igidə bir ovuc torpaq bəs dünya.
Bir koma abad qalmaz.
Bir qız bir oğlanındı.
Bir naxırın adını bir dana xarablar
Bir təxtdə iki padşah divan eyləməz.
Bir tikəni bilməyən min tikəni də bilməz.
Biri əgri, biri düz.
Biri qızılgülü, biri bənövşəni çox sevər.



Bitdi hər yarağım, qaldı saqqal darağım.
Biz ağa nökəriyik badımcan nökəri dəgilik.
Biz ümid olduq daza, daz özün qoydu naza.
Bizə gələn bizə oxşar.
Bıçaq zarafat sevməz.
Bığının altından keçdi.
Borcunu verən dövlətlənər.
Bostançının sovqatı kəlik olar.
Boş anbar, boş dağarcıq, ha ölç ha.
Boş anbar boş kisə.
Boş çanağı dolu çanağa verməzlər.
Boş torba ilə at dutmazlar;
Boynum qıldan nazikdir.
Boynum sındı yerini almaz.
Boynuna yayılsa ala olar.
Bu ağıl məndə, o dua səndə səhərəcən yatarıq.
Bu boynum, bu qılıncım.
Bu dünya vəfasız dünyadır.
Bu iş dəryada balıq sevdasıdır.
Buğda çörəyinin buynuzu olar.
Bu gün mənə isə sabah sənədir.
Bu gün mənə olunan xeyir sabahın səadətini təşkil edər.
Bu günkü yumurta sabahkı tavuqdan yaxşıdır.
Bu günün işini sabaha qoyma.
Bu ilki sərçə bildirki sərçəyə cik-cik (cib-cib) ögrədir.
Bu yol gedər gəlməz yoludur.
Bulaq başdan bulanar.
Bulamaca nə "bismillah".
Buraxılan ox geri qayıtmaz.
Burda mənəm, Bağdadda kor xəlifə.

Buğdan götürüb saqqala qoyur.
Burnuna şam iyi dəgməyib.
Burun, qulaq başa sədəqədir.
Buz üstə çıxmış danaya dönüb

## C

Cahıla gedən keyf çəkər, ahıla gedən of çəkər.
Camış ilə gəzən dananı qurd yeyər.
Camışın xoşbəxtliyi dananı öldürür.
Can de, can eşit.
Cayıllıqada (cahillikdə) dövran sürək, qocalıqda (ahıllıqda) dövran bizə yar olmaz.
Cəfa çəkməsən, səfa görməzsən.
Cəhd carıq yırtar.
Cəhd çarıx yırtar, işi odur Haqqa vara
Cənnətin yazlığı, cəhənnəmin qışlığı.
Cidanı cibə qoymaq olmaz.
Cidanı oğruyan yerin tapar.
Cin ayrı, şeytan ayrı!
Cins cinsə əsər eyləməz.
Culfa kəfənsiz ölər.
Cücəni payızda sanarlar.
Cücünün axır yorğanıdı.
Cümə axşamı ocaqlar yanar.
Cütə getməyən öküzün olsun, işə getməyən oğlun.

## Ç

Çaqqal var gödən çıxardır, qurdun adı bədnamdı.
Çalışgilən dost qazan, düşmən ocaq başında.
Çalışmaq hər nəyə sarılsa qızıl olur.



Çarıq çamursuz olmaz.
Çarşaf altında hamı arvad gözəldir.
Çaş biri iki görər.
Çəkişməsə bərkiməz.
Çərşaf başmaqsızlıqdan evdə oturmuş.
Çibin qana uyuşur, çibin murdar deyil, amma könül bulandırır.
Çibin qana yığışır.
Çibin murdar deyil, amma könül bulandırır.
Çibin şirniyə yığılar.
Çiy süd içənin çiy ədası olacadır.
Çox bilib az danışmaq igidin ləngəridir.
Çox çalışan çarıq yırtar.
Çox ömür edən çox bilməz, çox oxuyan çox bilər.
Çox safsan, follu soğan yeginən
Çox sevinmə, sevincək olarsan.
Çox söyləyən çox yanılar.
Çox yaşayan çox bilməz, çox gəzən, çox bilər.
Çox yemək insanı az yeməkdən qoyar.
Çolaq dedi durun qaçaq.
Çölmək dığırlanı (küvəc yumbalanı ya: qazan gillənib) qapağını tapar.
Çörək açanı qılınc açmaz.
Çörəyi çörəkçiyə ver birini də artıq ver.
Çörəyi çörəkçiyə ver, birini də üstəlik.
Çörəyin zora nə tabı.

## D

Dadanannan quduran bir olur.
Dadanıbsan dolmaya, bəlkə bir gün olmaya.

Dadanmısan qudurmusan.
Dadlı dil ilanı yuvasından çıxardar.
Dağ dağa yovuşmaz, insan insana yovuşar.
Dağ dağa qovuşmaz, adam adama qovuşar.
Dağ nə qədər yüksək olsa da yol üstən aşar.
Dağ üstəki tısbağa çöldəki gomuşdan böyük görünər.
Daldan gələn əldən (aldan) gəlsə, hər fağır padşah olur.
Dam üstə maral gəzər.
Dama-dama göl olar.
Dama – dama göl olar, axa- axa sel olar.
Danışmaq gümüş olsa, danışmamaq qızıldır.
Daruya girən donuz yabanı özünə qəbul eylər.
Daş qayaya rast gəlib.
Daş quyuya düşən kimi düşdü.
Davanı iki kərə salmaq nahaqdı.
Davanı qılınc aralar (ayırar)
Davanı qılınc kəsər, sövdanı pul.
Davşanın (dovşanın) yügürməgin gördüm ətindən umud kəsdim (tovbə etdim).
Dedilər: Əzrayıl uşaq paylayır.
Dedi: "Özününükü özünün olsun, mənimkinə dəgməsin".
Dedim bir ağız agla, demədim ya elləri güldür bizə.
Deşik mıncıq yerdə qalmaz.
Dev qurbağaya aşıq olub.
Deyəcəyini fikir eylə söylə.
Deyəcəyin sözü fikirsiz söyləmə.
Dədə görməyib elə bilir Şaqqulu (Şahqulu) da bir dədədir.
Dədə görməyən Şaqqulunu dədə bilər.
Dəgirman bildigin eylər, çax-çax baş ağrıdar.
Dəgirman işin işlər, çaxçax (baş) ağrıdar.



Dəgirman nobatnan işlər
Dəgmə mənə, dəgməyim sənə.
Dəli dəliyə xoş gələr.
Dəli dəlini görəndə çomağın belinə qısar (yaxud sancar).
Dəli dinc oturmayır.
Dəli dostdan ağıllı düşmən yaxşıdır.
Dəli ol baxtun (bəxtin) olsun.
Dəli sevinər ki, bayram gəlir.
Dəli utanmaz yiyəsi utanar.
Dəlinin nə toyu olsun nə bayramı.
Dəliyəm güclüyəm (gücdüyəm).
Dəliyə halva, gicə bal neyləsin.
Dəliyə hər gün bayramdır.
Dəliyə zabitə yoxdu (yoxdur) (yazılmayıb).
Dərə xəlvət, tülkü bəy.
Dərdini gözləyən davasını bulamaz.
Dərdli deyinən olar.
Dərgahın qapısı açıq olanda köpəgin yuxusu gələr.
Dəryadan nə əstik (əksik) olacaq.
Dərziyə köç dedilər, qəçisin belinə sancdı
Dərziyə köç dedilər, iynəsini yaxasına sancdı.
Dəvə bu ağıl ilə uşaqmış.
Dəvə gördünmü? Qığın da görmədim.
Dəvə gözünü yumar, girər pambuğa, deyər heç kəs məni görmür.
Dəvə ölsə, dərisi eşşəyə yükdür.
Dəvə nalbəndə baxan kimi baxır.
Dəvədən böyük fil var.
Dəvədən düşüb höt-hötündən düşməyib.
Dəvəni buxovla sonra Allaha tapşır.

Dəvəni əvvəl bağla, sonra Tanrıya ismarla.
Dəvəni yatırmasan yüklənməz;
Dəvəni yatırmasan yükləməzlər.
Dəvənin azanı Ağcaqabula gedər.
Dəvəyə dedilər: "boynun əgridir".
dedi: "haram düzdür, boynum düz olsun (ola)".
Dəvəyə qanqal lazım olsa, boynunu yüz yerdən uzadar.
Dəyirman bildiyin eylər, çaqçaq başını ağrıdar.
Dəyirman xoruzuna oxsayır.
Dəyirmana gedəndən sonra ulağ verən çox olar.
Dibsiz çıxan qız kimi geri qayıtdı.
Dil adamı bəyan eylər.
Dil var bal gətirər, dil var bəla gətirər.
Dil var bal gətirər, dil var vəfa gətirər.
Dildən gələn əldən gəlsə, hər fağır padşah olar.
Dilənçi saxlayan salam olur.
Dilənçinin üzü qara olur, torbası dolu.
Dilim dilim olasan başım güdaza vermə.
Dilini zəbt edən başını qurtarar.
Diş ilə dırnaq ilə yığıb ağız ilə yemək gərəkdir.
Dilivü saxla başıvu qutar.
Diriyə hay verməz, ölüyə vay.
Divanxana qapısı girəndə darvazadı, çıxanda ignə gözü.
Divar binadan qaim olur.
Divarın da qulağı vār.
Divarların qulağı, qapıların gözü var.
Doğa doqqazacan, qatıqlı aş qapıyacan.
Doğru dostluq qərəzsiz olur.
Doğruya Allah yoldaşdır.
Dolu dənizə (dəngizə) yağar.



Dolunu yeyib boşa təpik atır. Harınnığa ögrənib.
Dost ilə ye, iç, alış-veriş eyləmə.
Dost min isə azdır, düşmən bir isə çoxdur.
Dostluğa min adam azdır,
Düşmənliyə bir adam çoxdur.
Dostun min isə az, düşmənin bir isə çoxdur.
Döğmə qapımı, dögərlər qapunu.
Dögülməmiş dügüdən aş olmaz.
Döymə qapımı, döyərəm bərk qapını.
Dönmüş eşşəyi basmaq olmaz.
Dövlət ağıllının xidmətçisi, axmağın ağasıdır.
Dövlətli yanın qaşıyanda kasıb eylə bilər pul verir.
Dövlətliyə "bəli", fəqirə "dəli" deyərlər.
Dövranı sürən sürsün, hər kəsi macalı var.
Duzu yeyib duz qabını sıdırma.
Dünya halı dəgildir.
Dünya gedib ucu qalıb, adamların bici qalıb.
Dünya malı dünyada qalır.
Düşmən səni daş ilə, sən düşməni aş ilə.
Düz danışanın papağının yanı yırtıq olar.

## E

Ehtiyatlı iş görən peşiman olmaz.
El ağzı faldı.
El ağzı çuval ağzı dəgil ki bağlayasan.
El dəlisini atmaz, el dəlisini çölə atmaz.
El yiyəsiz qalanda donuz təpəyə çıxar.
Elçisi gülüm olanın başına külüm olar.
Elə dalaş ki, barışanda utanmayasan.
Erkək itin qarnı tox gərək.

Erməni hammalına dönmüş.
Ermənidən kətxuda hansı vilayətdədir?
Ermənının sonrakı ağlı.
Eşidib parağı qırxarlar bilməyir necə qırxarlar.
Eşqin tərs avandı olmaz.
Eşşək palçığa bir dəfə batar.
Eşşək olasan tükün bu narınlıqda.
Eşşək nə bilir zəfəran nədir.
Eşşəgə dedilər mərifətini (mərifətivi) görkəz (göstər) yıxıldı (yıxıldı külə) ağnadı.
Eşşəgin anqırtısı (anqırmağı) özünə xoş gələr.
Eşşəyi öldürüb nalı üçün axtarır.
Eşşəyin buynuzu olsa, bir öküz sağ qalmaz.
El arxası çəmən olur.
El üçün ağlayan gözsüz qalar.
Elə dalaş ki, barışanda utanmayasan.
Elm və mərifət gözəlliyi həmişəlikdir.
Ev alma, özünə qonşu al!
Ev danası ev danasından qorxmaz.
Ev kirə, arvad sigə, pul müzaribə.
Ev sahibi müsafirin xidmətkarıdır.
Evi tikmiş al, arvadı bişmiş (ya: bilmiş).
Evdə gəlinim olsun, bayırda yeznəm.
Evi odlanan, mən əli kösövlu sən?
Evində yox urfalıq könlündən keçir darğalıq (yaxud: koxalıq)
Eyibsiz dost axtaran dostsuz qalar.
Eylə ye ki, həmişə yeyəsən.
Eylə yerdə oturma ki altına su çıxa.



## Ə

Əbləh odur dünya üçün qəm yeyə.
Əcəl Allahdan gələr.
Ədəbi ədəbsizdən öyrən.
Ədəbi kimdən ögrəndin ədəbsizdən.
Əgri otur, düz danış.
Əgrini tox görmədim, doğrunu ac.
Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş.
Əl əldən ötgündür (üstündür).
Əl əli yuyar, əl də burnu.
Əl əli yuyar, əl də üzü.
Əl üstə çox əl var.
Əl məndən, ətək səndən.
Əldəki sərçə, havadakı göyərçindən yaxşıdır.
Əldən qalan əlli il qalar.
Əlhəzər kürəndən.
Əli aşınnan da oldum, Vəli aşınnan da.
Əli boş olanın üzü də qara olar.
Əli yanan ağzına təpər.
Əli papağını Vəli başına qoyur,
Əlidən də oldum, Vəlidən də.
Əlim xamır, qarnım ac.
Əlimin duzu yoxdu.
Əlin vurub dizinə, indi gəlib özünə.
Əlinin xəmiri ilə erkək işinə qarışır.
Əlisi dəli, Vəlisi dəli, qırılmışın hamısı dəli.
Əlli - əlli üstə bir əllidə onun üstə (üstəlik)
Əlündən gələni beş qab (qaba) cək.
Əmanətə xəyanət olmaz.
Ər atanı el atar, ər tutanı el tutar.

Ər eldəndi, oğul beldəndi, aralıqda qardaş tapılmaz.
Ərə gedəndə böyük qız, işə gedəndə kiçik qız.
Ərri (ərli) ağlar, ərsiz ağlar, qırx oynaşlı saçın yolar.
Ərnən arvadın torpağı bir yerdən götürülüb.
Əsil olan əsilligini itirməz.
Əsnəmək əsnəmək gətirir.
Əsnəmək niyəbətlik (pislik) gətirir.
Ət yeyən quş, dimdiyindən məlum olar.
Ətə baxma, dona baxma, içindəki cana bax.
Ətə pul verməz, küftənin böyügündən yapışar.
Əti yeməz suyuna əppək doğruyur.
Ətnən dırnağı ayırmaq olmaz.
Əvvəl zəhmət çəkən sonra rahat olur.
Əvvəlində düşünməyən, sonra peşman olur.
Əvvəl təam, sonra kəlam.
Əvvəl yoldaş, sonra yol.
Əyri otur, düz danış.
Əyrini tox görmədim, doğrunu ac.
Əyyamda düşər şənbəyə Novruz.
Əzizinin evinə get əzilə-əzilə.
Əzrayıl gələndə soruşmaz ki, "oğul – uşağın necədir"?

## G

Gah qıla qılmaya yeri cəhənnəmdədir.
Gedər bağlar qarası, qalar üzlər qarası.
Gecə qara, cücə qara.
Gendən gələnə döyüş asan gələr.
Getdim kabab iyinə gördüm eşşək dağlanır.
Getdin gördün gözü qıpıq, sən də ol gözü qıpıq.
Gədə qırdan ağa olmaz, küldən təpə.



Gəldi qaşın qayırsın vırdı gözün çıxartdı.
Gələr əcəl verməz macal.
Gəlin ocağa gələr.
Gəlin deyəndə qucmağım gəlir, axça deyəndə qaçmağım.
Gəlini pərdədə, uşağı bələkdə.
Gətirəndə el gətirər, yel gətirər, sel gətirər.
Gəzən ayağa daş dəyər.
Gəzənin qarnı şişər, oturanın başı.
Gic dedi bağ mənimdir.
Gic doğrudan bic oğru yaxşıdı.
Gicişməyən (qaşınmayan) yerdən qan çıxardır.
Girmə tülkü kölgəsinə qoy yesin aslan səni.
Gögdə döğü (dəgil), yerdədü(dir).
Gögdən gələn yerə qəbuldu.
Gördün molla oradan yollan,
Gördün seyid oradan qayıt.
Gördün lotu orada otu (otur).
Göz gördü könül sevdi, mənim nə günahım var?
Göz görməsə könül sevməz.
Göz var görmək için.
Gözəl ağa çox gözəldi, vurdu çiçək çıxardı.
Gözəl ağa çox gözəldi, bir çiban da yandan çıxartdı.
Gözəl eybsiz olmaz.
Gözəl söz dövlətdən artıqdır.
Gücünə bax, şələni bağla.
Gücüvə (gücünə) bax, şələni bağla.
Güclü yanında gücsüz günahkardır.
Gül istəyən tikanını da istəmək gərək.
Gül xarsız, gözəl nazsız olmaz.
Gülü istəyən tikanlarını da istəməlidir.

Gül tikansız (xarsız) olmaz.
Gülmə qonşuva, gələr başuva.
Gülmə gülünc olana, aşı lınc olana, gülürsən gülgünən qulağı dinc olana.
Gülün qədrini bülbül bilər.
Gün doğar (çıxar) aləm görər.
Gün çıxdı kosanı allatmaq olmaz.
Gün keçər ömür gedər, dəlisə... ki, bayram gəlir.
Gün keçər, ömür tükənər.
Güvəc yumbalanar qapağını tapar.

## H

Haqq doğrunun yarıdır.
Haqq doğruya yardır.
Haqq gəldi şahidligə.
Haqq yandıran şamı söndürmək olmaz.
Halal artar, haram batar.
Halal mal hara gedər?
Halal mal heç yerə getməz.
Halal mala bir şey olmaz.
Halva halva deməklə ağız şirin olmaz.
Halvacı qızı daha şirin.
Hap gopla plov olmaz, yağ ilə düyü gərək.
Hamam suyu ilə dost dutur.
Hamam suyu ilə xətir, könül görür (dost dutur)
Hamamın bu qapısından gir, o qapısından çıx!
Haram gəldi, halalı da apardı.
Haram harama gedər.
Haram mal bərəkət dutmaz.
Haram şirin olar.



Haramın bərəkəti olmaz.
Harda aşdır orda başdır.
Hardan belə gəlsə soruşur Səlyan hardadır?
Hardan incəlsə, ordan üzülər.
Hay hayı gedib, vay vayı qalıb.
Hayıf ki, yazdı burnumun dibi yazdı.
Haynan gələn, vaynan gedər.
Heç bilməz harda bişib deyir: "bir çömcə ver".
Heç bilməzsən kim qazanar, kim yeyər.
Heç kəs ayranına turş deməz.
Heç kəsin çırağı başacan (sabahacan) yanmaz.
Heç kəsin çörəyi heç kəsin qarnında qalmaz.
Heç kim qabaqdan yara götürməz.
Heç kimin adı vay qanlı olmasın.
Heç kimin qara papağı yatmasın.
Heç yatanın dalınca oyağ olmasun.
Hesabı pak olanın üzü ağ olar.
Hesabıya dağlar əyilər.
Heyvan ölür, səməri qalır, insan ölür əsəri qalır.
Heyvanın erkəginə pul verərlər, insanın dişisinə.
Heyvası yox, narı yox görən desin: "Şahbudağın bağı var".
Həftə səkkiz mən doqquz.
Həftədə, çərşənbədə lotu yaman xəstə olur.
Həmişə saban bir dəfə ramazan.
Həmnisinin bab eylə,
Hər adam öz eybini bilməz.
Hər atılan daşın dalınca getməzlər.
Hər enişin bir yoxuşu var.
Hər eşşəyi bab eylə, görən desin ha belə.
Hər əlifba oxuyan, qarei- Quran olmaz.

Hər işin sonu.
Hər fəslin bir meyvəsi olur.
Hər iş öz ustadının əlinda hasantdı.
Hər işin sonu.
Hər işıldayana qızıl deməram.
Hər kəs hər nə eyləsə, özünə eylər.
Hər kəs öz əkdiyini biçər.
Hər kəs öz kəndindən dən vurar.
Hər kəs yeyər fətiri, gedər odun gətiri.
Hər kəsin alında nə yazıldı onu gördü.
Hər kəsin xeyir və şəri axırda özünə qayıdar.
Hər meyvənin bir dadı olar.
Hər nə doğrarsan çanağına o da çıxar qaşığına.
Hər nə əkərsən, onu biçərəsən.
Hər saatın hökümü (hökmü) var.
Hər saqqaldan bir tük çəksən kosa da saqqalı olar.
Hər sübhün bir axşamı var, hər axşamın bir sübhü.
Hər şey öz vaxtında bitər.
Hər şeyin təzəsi, dostun köhnəsi.
Hər meyvənin bir dadı olar.
Hər yağan (həmişə yağan) qar olmaz.
Hər yoxuşun bir enişi var.
Hərə bir ip versə, yazığa günlük olar.
Hərəkət məndən, bərəkət səndən.
Hərzə sözün mərzə gələr.
Həsən də qəlyan çəkər, Hüseyn də qəlyan çəkər.
Həyası olmayanın imanı da olmaz.
Həyası olmayanın imanı da olmaz.
Hirs gəlir göz qaralır, hirs gedər üz qaralır.
Hiylə ilən tikilən filə ilə dağılar.



Hırnan gələn, zırnan gedər.
Hörmət hörmətdən qalxar.
Hurə bilməz (bilməyir) itləri başa salar.
Hurər dutmaz.
Hürəndə anası kimi hürər.
Hürüşünü (hürüşün) bilməyən it (köpək) başına ögnə qurt gətirər.

## X

Xain adam xəfli olar.
Xalamdam bir şey istərəm, versə də xalamdı, verməsə də xalamdı.
Xalqın ağzını bağlamaq olmaz.
Xana toxuram qıl olar,
Xanım qıran qabın səsi çıxmaz.
Xarrat bazardan keçməyib,
Xata məndən əta səndən.
Xasiyyətini bilmədigin atın dal-qabağına keçmə (quyruğunu əlləmə).
Xasiyyətini bilmədiyin atın quyruğuna əl vurma!
Xəlvətdə buğaya gələn aşkarda doğar.
Xəncər yarası sağalar, dil yarası sağalmaz.
Xər gəlib gor (gavur) gedir.
Xəstə tələsər, armud vaxtında dəgər.
Xəta məndən, əta səndən.
Xoruz bir kərə bəzənər.
Xoruz olmasa sabah açılmaz.
Xörəgi doyunca yemə.

## İ

İçərim özümü yandırır, bayırım özgəni.
İgid meydanda məlum olar.
İgid meydanda bilinər.
İgidin səri sağ olsun, varlı da olur, varsız da.
İgnəni özüvə, çuvalduzu yoldaşuva.
İki adam bir adama qoşundur.
İki arvadlı ev zibilli olar.
İki baş bir qazanda qaynamaz.
İki canbaz bir ipdə oynamaz.
İki dovşan dalınca yüyürən heç birini tutmaz.
İki əlin var öz ağzuvu dutarsan.
İki it bir aslana dov (do) gələr.
İki gəmiçi bir gəmini batırar.
İki güləşənin biri yıxılar.
İki qarpız bir ələ sığışmaz.
İki qoçun başı bir qazanda qaynamaz.
İki qulağ iki eşitmək, bir ağız bir demək üçündür.
İki yumruq bir başa gücdür.
İki yüz eşşək öldürməyincə baytar olmazsan.
İkisinə üç lənət, hərəsinə beş lənət.
İqrar imandır.
İlahi çağıran məhrum qalmaz.
İlanı (ilan quyruğun) basmasan sancmaz (vurmaz).
İlanı görənə nələt, görüb öldürməyənə nələt, öldürüb basdırmayana nələt.
İlanı Seyid Əhməd ilə dutur.
İlanın acığı yarpızdan gələr, o da gəlib burnunun dibində bitər.
İlanın ağına da lənət, qarasına da.



İlin yaxşılığı çar fəslindən məlum olur.
İlğarı olmayanın imanı da olmaz.İnək su içsə süt, ilan su içsə zəhər əmələ gələr.
İnsan çalışmaq üçün doğulmuşdur.
İnsan xoş günə dözməz.
İnsan paxıl olmasa bağlar çəpəri neynir.
İnsana nə gəlsə dilindən gələr.
İnsana hər nə olursa toxluqdan olar,
İnsanın axır günü xeyir olsun.
İnsanın bir əvvəli, bir axırı.
İnsanın dəlisi daşa güc eylər, öküzün dəlisi başa.
İnsanın əbləhi gədə olar, itin əbləhi tula.
İncələn yerdən üzülər.
İnək kimi süd verməyən, öküz kimi kotan sürər.
İriz eşşəgin, fel gəlinindi.
İstərəm dosta varam, əlim boş, üzüm qara.
İstərsən bal-çörək, al əlinə bel kürək.
İstəmirəm heyvasını, narını desinnər: "Şahbudağın bağı var".
İstəyənin bir üzü qara, verməyənin iki üzü (qara)
İsti (çıxtı) cörək təndirdən minnəti yox pəndirdən.
İstiyənin bir üzü qara, verməyənin iki üzü qara.
İş bədənin cövhəridir.
İş işi göstərər.
İş odur haqqa vara.
İşləməyən dişləməz.
İşləmək canı sana çıxardar.
İt adına alıb özü yeyir.
İt acanda oğurluğa gedər.
İt aşığı udan kimi uddu.

İt ayağını kim əsirgər.
İt getdi, ipi də getdi (ipi də apardı).
İt itdigini (itligini) tərgitsə, sümsüklügünü tərk etməz.
İt itdigindən əl çəkər, sümsüklügünü tərk etməz.
İt iti yeməz, it it əti yeməz.
İt itin ayağını basmaz.
İt itin dişindən qorxar.
İt itlə boğuşar, yolçunun işi rast gələr.
İt-itnən boğuşdu, yolçu yolına düşdü
İt qorxduğu yerə hürər.
İt qulağı çəpik eşitti.
İt qursağı yağ götürməz.
İt qulağını kəsəndən qorxar.
İt nədir ki, yunu nə ola.
İt özünü mundar bilməz.
İt uluya-uluya başına qal gətirər.
İt urar, karvan keçər.
İtdən çox çarıq aparan olmaz yenə ayaqları yalındır.
İtə dedilər: "Gündə neçə kərə dögülürsən?" dedi: "Köpək oğluna (mərdimazar) rast gəlməknəndi".
İtə də bir çörək borcludur.
İtimizin (dayımızın) qurt dayısı.
İtin dişi donquzun dərisi.

## K

Kamil insan kəlamından bəllidir.
Kar dedi səs (xışıltı) gəlir, kor dedi gəlirlər (qaraltı görünür).
Kar könlündəkini anlar.
Karın könlündəki.



Kasa aşdan irəli olub (ya: kasa aşdan isti oldu?)
Kasa aşdan istidi (oldu)
Kasa düşdü, ya cınqılladı.
Kasıb çıxarın bilsə, gündəligə mahut geyər.
Kasıb xərcini bilsə gündə məxmər geyinər.
Kasıb pul tapdı, yer tapmadı.
Keçəl bəzənincə toy əldən gedər.
Keçəl çara bilsə, öz başına eylər.
Keçəl hiyləbaz olar, kürən fitnə.
Keçən keçdi, gələn günün xeyir olsun.
Keçən keçdi, vay gələcək dərdidir.
Keçənə güzəşt deyərlər.
Keçi handa (hayanda), qaya handa (hayanda)
Keçi can qayğusunda, qəssab piy axtarır.
Keçi sənin, bez mənim.
Keçinin qoturu bulağın (çeşmənin) gözündən su içər.
Keçmə namərd körpüsündən qoy aparsın su səni.
Keçiyə bir sürü qoyundan bir keçi yaxşıdır.
Keçiyə qurd dəyməsə Həccə gedər.
Kəbə yıxmaq bir evdir, könül yıxmaq yüz qandır.
Kənd koxasız olmaz.
Kəndə molla gəlib hər kim ölürsə ölsün.
Kəndi düşən ağlamaz.
Kərki olub öz tərəfinə yonma, mişar al iki tərəfə yon.
Kəsək oturub daş üçün ağlayır (ağlar)
Kəsək oturub daş üçün ağlayır (ağlar)
Kəsik baş söyləməz olar.
Kəsilən baş danışmaz (söyləməz)
Kəsilsin iki əl ki bir başı saxlamaya.
Kiçik bulaqlardan böyük nəhrlər hasil olur.

Kim gəldi kim bacardı, gic dedi bağ mənimdir.
Kimə lov, kimə plov.
Kimin əvvəli, kimin axırı.
Kiminin başında tac, kimin boynuna xarac.
Kiminin başında tac, kiminin ayağı yalavac.
Kimiyə bir eşşək, kimiyə min köşək.
Kimsənin tikəsi kimsənin qarnında qalmaz.
Kişi kişidən qorxmaz, amma utanar.
Kişi öz tayı ilə gəzər.
Kişinin hörməti öz əlindədi.
Kol dibində xış yoxdu.
Kor atın kor da nalbəndi olar.
Kor bazara, varmasın, nə bazar korsuz qalmasın.
Kor bazara getməsə, bazar korsuz qalmaz.
Kor da bilir balıq şordu.
Kor istədiyi nədir, iki göz.
Kor kora "kor" deməsə, korun da bağrı çattar.
Kor koru tapar, su çuxuru.
Kor (tənbəl) günortayacan neynəyib ki, günortadan sonra neynəsin.
Kor ya burada, ya Bağdadda.
Kora da versənə mənə, şilə də versən mənə ver.
Kora gecə gündüz birdir.
Kordu, şildi qəbuldu.
Kosa getdi saqqal gətirməyə bığını da üstə qoydu.
Kosa kəndə girməmiş yallısını başladı.
Kosanı gün var ikən aldatmaq olmaz.
Kosaya rixşənd edənin top qara saqqalı gərək.
Kotan nə bilir qayış nə çəkir.



Köçən (köhnə) yurdun qədrini düşən (qonaq, təzə) yurdda bilərlər.
Köhnə şəhərə təzə qaidə qoyur.
Kök arıxlayınca, arığın canı çıxar.
Könlü balıq istəyən özünü soyuq suya verər.
Könül sevən göyçək olar.
Kömürcü üzünün qaralıqdan nə arı.
Köpəgin quyruğunu kəsməklə köpək olmaz.
Köpək köpəyi yeməz.
Köpək qaya kölgəsində yatar, elə bilər ki, öz kölgəsidir.
Köpək qocalanda qurdun gülüncü olur.
Küftə atdanar, noxudu cımcıqlar.
Kül başına Araz, üstündən təzək keçir.
Kül başına, ay Araz üstündən təzək atdanır (batlanır).
Kül başına Şərif, hamamçı səndən pul istəyir.
Küləkli gündə pambuq atır.
Külü ocaqdan götür!
Kürən atla, kürən adama yaxın düşmə.
Kurkər uçmasa, Yasamal dolmaz.
Küpəyə verə-verə qazan bahası çıxar.
Küsülü qardaş, gəl yükü çataq yenə küsümüz küsü.

## Q

Qabağı yazdı, ömrü azdı.
Qabil şakird ustasından artıq olar.
Qadadan çıxan peşiman olar.
Qağayı haram, tulmuğu halal
Qan yol verməz.
Qanı qan ilə yumuyublar.
Qanı qan ilə yumazlar, qanı su ilə yuyarlar.

Qannını (qanlını) qan dutar.
Qapılar açıq olan nisbət (nikbəti) yuxu basar.
Qarında o qədər qurqu var ki baş başa çatmayıb.
Qara qızın dərdi var.
Qara itin balası qara olar,
Qardaşına bax, bacısını al.
"Qarğa, məndə qoz var" deyər, zəvzək.
Qarışqaya dedilər: "Hardan gəlirsən?"
Qarışqanın evində şəbnəm tufandır.
Qaş qayırarkən göz çıxararsan.
Qaşımağa dırnaq istər.
Qatıq tökülsə yeri qalar, ayran tökülsə nəyi qalar.
Qayidədən çıxan peşman olar.
Qaz vur qazan doldur.
Qazan üstü örtülü qaynar (qəynəyir)
Qazanc qudurub mayanı yedi.
Qazıya yalqız gedən razı gələr.
Qələmin ucu qılıncın gücü.
Qərib quşun yuvasını Tanrı yapar.
Qəriblikdə ölənin börkü nişanə gedər.
Qəzadan oyun olmaz.
Qıraq salamatdır (salamatlıq qıraqdadır).
Qılın misir, arvad yesir, döşənəcək həsir.
Qılınc yarası gedər dil yarası gedməz.
Qılınc yarası sağalar dil yarası sağalmaz.
Qır satıb qazanc eylədiniz, indi dağarcıq da bada getdi.
Qırqavul başını kola soxar gerisindən xəbəri olmaz.
Qırx işləyib imdi miyandar olmuşam.
Qışda ondan buz almaq olmaz.
Qız alanın bir cuval ya qızılı gərək, ya bir cuval yalanı.



Qız idim sultan idim, nişanlandım xan oldum, gəlin oldum qul oldum, ayağlara çul oldum.
Qız on beş yaşında ya ərdə gərək, ya gorda.
Qız qaytarılanda dayısının boynuna düşər.
Qız yükü, duz yükü
Qızıl gümüşü sərraf bilər.
Qızıldan çarıq geysən yenə də çarıqdı.
Qızılın qiymətini sərraf yaxşı bilər.
Qızım sənə deyirəm, gəlinim sən eşit.
Qızını dögməyən dizini dögər.
Qocalıqda (ahıllıqda) dövran bizə yar olmaz.
Qocanın iştədigi (işlədiyi) xeyirdi (qazancdı) yedigi zərər.
Qoça öz buynuzları ağırlığıq eyləməz.
Qonşu iti qonşuya ürməz.
Qonaq qonağa hesabın könlündə saxlar.
Qonaq qonağı istəməz, ev yiyəsi hər ikisin.
Qonağa hörmət elə, əgərki kafir də olsa.
Qonağdan saldıran yağıdan saldırıb.
Qonağı evə qoymazlar, oxunu gögdən asar.
Qonağın ruzisi özündən qabaq gələr.
Qonşu çörəyi qonşuya borcdur.
Qonşu əppəyi qonşuya borcdur.
Qonşu iti qonşuya hürməz.
Qonşu qonşunun itini bayatı çağıra-çağıra tapar.
Qonşu qonşuya baxar, canını oda yaxar.
Qonşu payı dolu gələr, dolu gedər.
Qonşu pisdi köç qutar, halın pisdi öl qutar.
Qonşunu iki inəkli istə ki, özün bir inəkli olasan.
Qonşunun da rahat yaşamasına çalış.
Qonşununki qonşuya borcdur.

Qonşuya ümüd olan şamsız yatar.
Qorx o adamdan ki qorxmaz Allahdan.
Qorxan gözə çöp düşər.
Qorxanın cütə faydası yoxdur.
Qorxulu (qorunan) gözə çöp düşər (düşməz)
Qorunan gözə çöp düşməz.
Qoyun quzusunun ayağını basmaz.
Qoçun buynuzu qoça ağırlıq eyləməz.
Qoyun olmayan yerdə keçi kərəm ağadır.
Qoyunu qoyun ayağından asarlar, keçini də keçi ayağından.
Qoyun quzusunun ayağını basmaz.
Qoyunu qurda tapşırdı.
Quduran qırx gün yaşar.
Quduran qırx gündən artıq yaşamaz.
Qul xətasız olmaz, ağa əsilsiz.
Qul xətasız olmaz, ağa axalsız (əsilməz).
Qulaq asan öz sözünü eşidər.
Quldan xəta, ağadan əta.
Qum göyərəndə, keçi ağaca çıxanda.
Qumarbazın axırı yoxdur.
Qumarı oynarlar aşıqla.
Qurbağanı bir vurarsan iki sıçrar.
Qurban olum zərgara, saldı səni (məni) pərgara.
Qurd ilə qoyun, qılıncla oyun bir yerdə olmaz.
Qurd qaranlıq sevər.
Qurd nə bilir qatır bahadır.
Qurd tükünü dəyişər xasiyyətini dəyişməz.
Qurd yuvasından sümük əksik olmaz.
Qurda rəhm eyləmək qoyuna zülmdür.



Qurddan çoban olmaz.
Qurdun dəvətinə gitsən köpəgi özünlə apar.
Qurt qaranlıq sevər.
Qurt dartdığını bilər, ovladığını bilməz.
Qurt ilə qoyun, qılıncla oyun bir yerdə olmaz.
Qurt tükünü dəgişər, xasiyyətini dəgişməz
Qurda təhər edən qoyuna zülm edər.
Qurtdan çoban olmaz.
Qurtdan qurt olar, itdən it.
Quru divara un yapışmaz.
Quru süfrəyə dua olmaz.
Quru torpağı divara yapışdırma.
Qurunun oduna yaş da yanar.
Quş dənə yığılar, cibin şitinə.
Quşu quşnan tutarlar.
Quşlara xərc (xərəc?) gəldi, gecə duşu dişini görkəzdi.
Quyruğ dögü (dəgil) tuğdu, tuğ.
Quyuya su tökməklə sulu olmaz.
Quyunu qazan kəs əvvəl özü düşər.

**L**

Laf ilə pilav bişməz yağ ilə düyü gərək.
Lay-lay bilirsən neçin yatmayırsan.
Lalın dilin anası bilir.
Lat lut zəvvar imam Rza
Lazımalı (lazımlı) yerə sərf eləməz, lazımsız yerə su kibi axıdar.
Loləpən aftafa yerin tutar girov qoyanda alan olmaz.
Lotu lotunu tapmasa, qara giyər, yasda olur.
Lotudan insana (adama) zərər gəlməz.

Lotunun balası lotu olar.
Lotunun dilini lotu bilər.
Lotunun pisi olmaz.
Lotunun pulu qurtaranda soğan cörək də salamatdır.
Lüləyinə verə-verə, cıxar aftafa bahası (aftabə pulu çıxar).

M

Mal gedər bir yerə, iman gedər min yerə.
Mal yeməyinin malın yeyərlər.
Mal zay olunca can zay olsa yaxşıdı.
Malı gedənin imanı gedər.
Malın ortaqlı olunca, arvadun ortaqlı olsun.
Malını talan apardı, camalına nə gəldi.
Malını yaxşı saxla, qonşunu oğru dutma.
Malım getdi, pulum getdi, qonağım məndən gileyli getdi.
Malımız yoxsa, ərimiz olsun.
Malımız yoxsa ərzimiz olsun.
Maya doğmaz, nər doğar?
Meşə çaqqalsız olmaz.
Meyvəsini ye, ağacını soruşma.
Meyvəsiz ağaca daş atmazlar.
Mən deyirəm "Xədiməm". Bu soruşur: "Oğul uşaqdan nəyin var?".
Mən qaçıram qadadan, qada çıxır qabaqdan.
Məndən çıxdı yoldaşıma dəgdi, helə bildim saman çuvalına dəgdi.
Mənə məndən olur hər nə olursa..
Mənə usta deyərlər, arvadıma ustarən.
Məni aparan suya dərya deyərəm.
Məni tanıyanı qurt yesin.



Mənzil yaxın, kirə çox (ya: mənzili yaxın, kirəsi cox bu da bir əlamətdir.)
Mərd özündən (Allahından) bilər, Namərd (n) yoldaşından.
Mərdin qapusu açıq olar (gərək).
Məscidin qapısı açıq oldu itin həyasına nə?
Məsləhətli aş dadlı olur.
Milçək qana yığışar.
Min dost az, bir düşmən çox.
Minarə başında girdəkan dayanmaz.
Mis gəldi saxsı qaç!
Mis sındı, cingildədi.
Mıs-mıs-Mustafa.
Mis düşməsə cingildəməz.
Molla alacağın unutmaz.
Molla aşı gördü, "Yasin" yaddan çıxdı.
Molla Nəsrəddinə dedilər örkənini ver,
Dedi üstə darı səpmişəm.
Mollaya "al molla" demişlər, "ver molla"deməmişlər.
Mundarı mundar aparar.
Müftə sirkə baldan şirin olar.
Mürdəşir haqlıdır, ölü necə ölür ölsün.

N

Nağdı qoyub nisyə dalınca düşmə (ya getmə).
Naxırçının könlü naxır çörəgi istər.
Naxoşun ağzını könlü armud istəyəndə yoxlallar.
Nakişidən borc eyləmə.
Namərdi qova-qova axırda mərd eylərsən.
Neylim (nəmə lazım) qızıl teşti (teşt) ki içində qan qusaram.

Neyləyim qızıl teşti ki, içində qan qusum.
Nə balını istəyirəm, nə bəlasını.
Nə dərin suya gir, nə Xızır peyğəmbəri (Xıdır İlyası) çağır.
Nə diriyə hay verir, nə ölüyə pay.
Nə eyləyim qızıl teşti ki içinə qan qusum.
Nə eylərəm qızıl teşti içində qan qusaram.
Nə ölən var, nə göruna gömən.
Nə sən gəl, nə də ilin axır çərşənbəsi.
Nə yaraşır arığa gedə girə qoruğa.
Nə əkərsən, onu biçərsən.
Nəcabət adamın özündə olur.
Nəcabət (nəciblik) ataynan dəgil.
Niyyətin hara, mənzilin ora.
Niyyətin hara (harda) mənzilin ora (orada).
Nökərin yoxdur həyətin yoxdur.
Nuh nəbidən qalıb

## O

O ki, var buğdayı yeyib cənnətdən çıxıb.
O haqq verməzdi, bu haqq alan (batırmaz).
Od ilə oyun (oynamaq) olmaz.
Od ilə pambığın nə aşnalığı, yaxud aşnalığı olmaz.
Od kökü üstə bitər.
Od olub aləmi yandırmayacaqsan ki!
Oddan kül törər, küldən od.
Oğluna qız axtarınca, qızına oğul axtar.
Oğru elə xəyal eyləyir ki, aləm oğrudur.
Oğru hamını oğru bilir.
Oğru hələ bilər hamı oğrudur.
Oğrudan qalanı da falçı aparar



Oxuduğunu demə, anladığını de.
Olacağa çarə yoxdur.
Oldu ilə öldüyə çarə yoxdur.
Onlar ki, yanırlar odu buradan aparırlar.
Onu-bunu hirsləndirənin özü də rahat olmaz.
Ortaqlı tavuqdan yalquz yumurta yaxşıdır.
Oturan yerdə oyuna düşdüm.
Oruc dutmayasan, namaz qılmayasan işin böylə dür gəlsin.
Ot kökü üstündə bitər.
Oturduğum yerdə oyuna düşdüm, güldügüm yerdə korşada.
Oynamaq bilməyir deyir: "yerim dardır".

## Ö

Öküz öldü, ortaqlıq ayrıldı.
"Öldürrəm" deyəndən qorxma, "ölləm" deyəndən qorx.
Ölmə eşşəyim ölmə, yaz gələr yonca bitər.
Ölü kibi ölgünən (öl) mürdəşir kibi yuyum (yuvum).
Ölülər öylə bilər dirilər halva yeyir.
Ölünün üzü soyuq olur.
Ölünün vəsiyyəti özü ilə gedər.
Ölüm istərsən keç (get) Mazandarana.
Ölüsü bir gün, şivənə bir gün.
Ördək istər qaz yerişi yerisin vurar pətənəgin yırtar.
Örtülü bazar dostluğu pozar.
Öylə söz deyir ki, pişmiş toyuğun gülməgi gəlir.
Öylə ye ki, həmişə yeyəsən.
Ölən inək südlü olar.
Ölmə eşşəyim, yaz gələr yonca bitər.
Ölü bit dəgiləm dırnaq altında öləm.

Ölüm həqq (haqq), miras halal.
Özgə atına minən tez düşər;
Özgə gözündə qıl seçir, öz gözündə tır seçmir.
Öz doşabına qənaət eyləmək özgənin balından yaxşıdır.
Öz gözündə tiri görmür, özgənin gözündə qılı seçir (qıl axtarır).
Öz gözündən tiri görməz, özgə gözündə tükü seçər.
Özgə atına minən tez düşər.
Özgə gözündən qıl seçir, öz gözündən tir görmür.
Özgə oğlundan oğul olmaz.
Özgənin atına minən tez düşər.
Özgənin mal mülkü var, mənim bir Qənbərim var!
Özgənin qarğası özgəyə qırğı gələr.
Özgəyə quyu qazan əvvəl özü düşər.
Özgəyə quyu qazan özü düşər.
Özgəyə quyu qazma, özün düşərsən.
Özgəyə kömək et ki, sənə də kömək etsinlər.
Özgəyə yaxşılıq edən, özünə yaxşılıq edir.
Özgəyə yamanlıq edən, özünə edir.
Öz-özünü bəgənən ağam may (vay).
Özü eyləyənə çarə yoxdur.
Özü içün əriştə kəsə bilməz, özgəyə umac ovar.
Özü yıxılan ağlamaz.
Özümə yer eyləyim, gör sənə nə eylərəm.
Özünə rəva bilmədiyin şeyi özgəsinə rəva bilmə.
Özünə umac ova bilməz, özgəsinə əriştə kəsir.

**P**

Padşahda qırx adamın ağlı olmasa, padşah olmaz.
Paxıl artsa qurda artar.



Paltarı ziynətləndirməkdən ağlı ziynətləndirmək faydalıdır.
Pambuğu yelli gündə atılıb.
Papaq at, yıxılmasa ərə getməlidir.
Papaqçının qaçağı papaqçı dükanıdır.
Papağı tülkü dərisindən xəbəri yoxdu gerisindən.
Pas dəmirdən qılınc olmaz.
Pir mənimdi, kəramətin bilirəm.
Pis (yaman) günün ömrü gödək (az) olar.
Pis söz yiyəsinə qayıdar.
Pişigin arxası yerə dəgməz.
Pişik kimi yeddi canı var.
Pişik sıçan martılayan (marıtdıyan) kimi marıtdayır.
Pişigə dedilər:"atandı yaxşı, anan?" dedi: "nəu-nəu"
Pişiyin qanadı olsa,
Quşların başın üzər.
Pişiyin olmadığı yerdə siçanlar baş qaldırar.
Pişmiş aşına soyuq su qatdı.
Piyadanın qaydasıdır atlıya gülər.
Pul əl çirki kimidir.
Pul özü vurağandır.
Pul pul qazanar, yaxşı igid palçıq basar.
Pul versəm məçitdə molla tikərəm.
Pulların getdiginə baxma, işin bitdiginə bax!
Pulsuz bazara gedən, imansız gora gedər.
Pulsuzu pula tapşır.
Pulu az olanın qüssəsi də az olar.
Pulun getdiyinə baxma, işin bitdiyinə bax.
Pulun oldu yüz, gir içində üz.
Pulum cibimdə, ağlım başımda.

R

Rizq artmaz, möhnət artar.

S

Sabahın şəri axşamın xeyrindən yaxşıdır.
Sakit olan salim olar.
Saqqalım yox sözüm ötməyir.
Saqqız çignənəndə (çignədikcə) çürür.
Saman altında su yeridir (buraxır) (yaxud: buraxma).
Saman düşdü Zaman öldü.
Sayanın quluyam, saymayanın ağası.
Səbr cənnət açarıdır.
Səbr eyləyən fərəc tapar.
Səbr eyləyən çox yaşayar.
Səbr eyləyənləri Tanrı dost tutar.
Səbr eylərəm səbr daşı, çatdı ürəgimin (bağrımın) başı.
Səbrlə halva bişər ey qora səndən,
Saxlasan atlas olar tut yarpağından.
Səhər gedər naxıra, axşam gələr axıra.
Səhvini göstərənlərə hörmət et.

Sən mənim bir üzümü ağart ki, mən də sənin iki üzünü ağardım.

Sən saydığuvu say fələk gör nə sayır.
Sən vurmadın, mən yıxmadım bəs nə oldu?
"Sənə sovqat gətirərəm". Dedi: "Bəlkə getdin gəlmədin".
Sənət insanın xəzinəsidir.
Sənətkar oğru olar.
Sərçə anasından haçan süd görüb?
Sərçədən qorxan darı əkməsin.
Sərt sirkə zərər edər.



Sərvətli olub qəmm qüssə ilə yaşamaqdan isə, fəqir olub şad və məsrur yaşamaq faydalıdır.

Siçan sidiyinin dənizə xeyri var.
Siçana dedilər: "Bu deşikdən çıx, o deşigə gir".
Siçandan torba kəsən olar.
Sicim nə qədər uzun olsa, genə doğanaqdan keçəcəkdir.
Sifarişlə həcc olmaz.
Soyub soyub quyruğunda pıçağı sındırdı.

Söhbətin şirin yerində moltanı (ya: ərməni) gəldi. Allah saxlasın.

Söymə (sögmə) rəiyyət atamı, söyməyim (sögməyim) bəy atanı (atavı)

Söz bir – Allah bir!
Söz gəldi məqamında di getsin (saxlama).
Söz qılınc yarasından pis kar eylər.
Söz sözü götürər, arşın bezi.
Sözün doğrusunu uşaqdan xəbər al.
Sözün yaxşısı baldan dadlıdır.
Sözünü bilməyəni bayıra atarlar.
Söz var xalq içində, söz var xulq icində
Söz vaxtına çəkər.
Sözü at yiyəsi götürər.
Sözün qanatı var.
Su axar çuxurunu tapar.
Su axdığı yerdən bir də axar.
Su aydınsa, öz qapuva (qapuna) cala.
Su bərk yerdə dayanı.
Su bir yerdə qalanda iylənər.
Su bir yerdə çox qalsa qoxur (dursa iylənər).
Su mundarlıq ( mırdarlıq) götürməz.

Su hər şeyi təmizlər, yalnız üz qarasını təmizləməz
Su hər şeyi təmizlər, yalnız yüz təmizləməz.
Su girdi qaba oldu içməli.
Su görər suzuyar, at görər oxşıyar.
Su sənəyi suda sınar.
Su suya tapar, su cuxuru.
Suda gəldigi yetməz sərincidə dalında dutur.
Suda boğulan ilana sarılır.
Sulu-sulu yudum, çamırlı, kirli sərdim.
Susuz (susamış) it kəhrizə baxar.
Süd ilə girən sümüklə çıxar.
Südlü inək ol, vur badyanı dağıt.
Südlü qoyun sürüdən ayrılmaz.
Südün dadını qısır əmən bilər.
Süleymana qalmayan dünya görəsən kimə qalacaq.
Sürü çobansız olmaz.
Sürüdən ayrılan qoyunu qurd qapar.
Süt ilə girən sümük ilə çıxar.
Sütlü inək ol, vur badyanı dağıt.
Suyun lal axanından adamın yerə baxanından (qorxmaq gərək).

## Ş

Şadlığına şitlik eyləyir.
Şah ilə şilə plov yemir.
Şah ilə pilov yemirəm (yemi) əngim əngisi yağa (yaxud bığlarım) yağa batar.
Şahbudağın bağı var, Baratın dəgirmanı.
Şahin ilə dəvə ovlanmaz.
Şahın (da) qaraçıya (ya: dərvişə) işi düşər.



Şap hələ bilər şupdayam, şup eylə bilər şapdayam, nə şapdayam, nə şupdayam hələ şərab şurupdayam.
Şeytan əzabda gərək.
Şələni elə bağla götürəndə gücün çatsın.
Şələvi qoy gəl dögüşək (vuruşaq)
Şorbanın (aşın) sıyıqlığı dügünün (dənin) azlığındandır

## T

Taxça mənə qaldı Seydalı,
Boxça mənə qaldı Seydalı.
Taxt yaratmaq olar, baxt yaratmaq olmaz.
Tamahkarın gözü kor olar.
Tapan tapanın olsa, naxırçı bəy olur.
Tarı mənəm yağmaram.
Tavuq bir su içər, bir Allaha baxar.
Tavuq bir yumurta yumurtlayınca yüz əlli qonşuya xəbər eylər, gamuş doğsa heç səsi çıxmaz.
Taylı tayını tapmasa günü ax-vaynan keçər.
Tez çörək yiyənnən (yiyənlə) tez evlənən peşiman olmaz.
Təbibin zəhəri mənfəətli olur.
Tək əli ilə düyün dügülənməz.
Tək əldən səs çıxmaz.
Tək gəldi səbr eylə, cüt gəldi xeyirdir.
Təqdirə tədbir yoxdur.
Təqsir (günah) öləndə olar, öldürəndə olmaz.
Tənbəki bol olanda siçan da qəlyan çəkər.
Tənbəl adam bədbəxt olar.
Tənbəl kimsəni Tanrı sevməz.
Tənbələ iş buyur, sənə ağıl öyrətsin.
Tənbəllik azar törədir.

Tənbəllik azar törədər, işləmək canı safa çıxardar.
Tərlan yerini sar tutmaz.
Tikən əkən gül dərməz.
Tikan olub ayağa batınca, gül ol yaxaya sancıl.
Tikə ilə dost olan illərlə küsülü (düşmən) olur.
Tikəsini yalnız yeyən,
Tayını dişi ilən tutar.
Tısbağa özü yeriyə bilməz, damını dalına götürər.
Tısbağanı ya öldürün, ya arxası üstə çevirin.
Tısbağaya xalası, hər kəsə öz balası.
Toxikən yeyən qəbrin dişlə qazar.
Toxun acdan nə xəbəri.
Toxun acdan xəbəri olmaz.
Toy da olsa, tavuğundur, vay da tavuğundur.
Toy mənim gərək, xeyrat babamın.
Toydan sonra hənanı itə yaxarlar.
Toyuq bir su içər, bir Allaha baxar.
Tovuq bir qışdıdı (qıçdıdır).
Tökülən çanaq dolmaz.
Tökülən öz kisəsindən tökülər (ya: gedər).
Turşu küpündən bal sıza bilməz.
Tüfəngin dolusundan bir adam qorxar, boşundan iki.
Tülkü tülküdən qalsa, ya burnudur, ya qulağı.
Tülkü var gödən dağıdır qurdun adı bədnamdır.
Tülkünün meydanda nə işi var ki, dərisinə qiymət qoysunlar.

**U**

Ucada (yuxarıda) yeri yoxdur.
Ucalıq alçaqlıqdır.



Ucuzluqda o qədər yemişəm,
bahalıqda yadıma düşmür.
Uman yerdən küsərlər.
Urum urum, rəngi rəng.
Urus dovşanı araba ilə tutar.
Ustakanın oğrusunu dutmaq olmaz.
Ustadına kəc baxanın gözlərindən qan damar.
Uşaq atasından güçdüsün bilməz.
Uşağın şüurlusu bələkdə özün görkəzər.
Uzun müddət vəd eyləməkdən dərhal vəd eyləmək yaxşıdır.
Uzundıraz binamaz.

**Ü**

Ürək öz dostunu tanır.
Üz döndü, göz (könül) döndü.
Üz ki var ürəgin aynasıdır.
Üz vermə, astar da istər.
Üzrü günahından bətər (bədbər)

**V**

Vaxtın qiyməti puldan artıqdır.
Varın verən utanmaz, yoxun verən axmaqdı.
Varlığına tələsən yoxsulluğa tez düşər.
Ver dayıya saxlasın.
Ver doqquzu al onu.
Verən əl alan əlin üstündə olar.
Verən əl, alanın üstündə olar.
Verəndə imam olar, verməyəndə Şümür.
Verərsən adındı, verməsən dadındı.

Verib yaman olunca, verməyib yaman ol.
Vətənə gəldim, imana gəldim.
Vicdanı olmayanın imanı da olmaz.
Vuran oğul atasına gənəşməz (baxmaz)
Vuraram ölər, "kiş" deyərəm getməz.

## Y

Ya dövlət başa, ya qurğun leşə.
Ya keçəl Həsən, ya Həsən keçəl
Ya lələ şələni basar, ya şələ ləl əni.
Yağ yağ ilə qaynar, yağmur quru qalar.
Yağ yağa qovuşar yarmalar yavan qalar.
Yağışdan çıxdım, yağmura düşdüm.
Yağışdan götürüb novun altına qoydu.
Yağışdan qalanı yağmur apardı.
Yağlı əlin var sürt öz başına, başın yağlısa sox ocağa.
Yaxşı dost qara gündə məlum olur.
Yaxşı igit dalı gözlər, yaxşı at qabağı.
Yaxşı günə dözməyən yaman günə heç dözməz.
Yaxşı günə dözməyən, pis günə heç dözməz.
Yaxşı gündə yad yaxşı, yaman gündə vay qardaş.
Yaxşı qızımdan pis gəlinim yaxşıdı.
Yaxşılığa yaxşılıq hər kişinin işidir,
Yaxşılığa yaxşılıq bir kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir.
Yaxşılığa yamanlıq, kor eşşəyə samanlıq.
Yaxşılıq bilməyən adam, adam yerinə sayılmaz.
Yaxşılıq edəni Allah unutmaz.
Yaxşılıq eylə at dəryaya, balıq bilməsə Xalıq bilər.
Yaxşılıq zay olmaz.



Yalan ki, var doğrunun satırıdır.
Yalançılıq üz qızardır.
Yalançını mənzilinə kimi qovarlar.
Yalançının yaddaşı olmaz.
Yalançının evi od tutdu heç kim inanmadı.
Yalançının evinə od düşdü, ona kimsə inanmadı.
Yalnız əldən səs çıxmaz.
Yaman arvad çox danışar, danışmasa savaşar.
Yaman günün ömrü az olur.
Yaman yoldaş ilandan betərdir.
Yamanlıq yolları yüngül, yaxşılıq yolları ağırdır.
Yamanlığa yaxşılıq ər kişinin işidir.
Yanan yerdən tüstü çıxar.
Yanana yanmazlar.
Yandırdığı yovşan, ağlatdığı dovşan.
Yaşın oduna quru da yandı.
Yaşından qabaq (irəli, irəlini) danışma.
Yar baqi, söhbət baqi.
Yarı hənək, yarı dəgənək.
Yatan ilanın quyruğundan basma.
Yatanın oyaxdan xəbəri olmaz.
Yatanın oyaqdan xəbəri olmaz, yaxşı günə dözməyən, yaman günə heç dözməz.
Yavaş gedən yorulmaz.
Yay günü hamama getsəm baltakəsməz buz olur.
Yaylağın dağı sağ olsun, qarlı da da olur, qarsız da,
Yaz əkinçi, qış dilənçi.
Yaz gününün yağışı, ər arvadın dalaşı.
Yazan da sən, pozan da.
Yazıdan qaçmaq olmaz.

Yazıq o adama ki, yaxşılıq etməyir.
Yegin at özünə qamçı vurdurmaz.
Yel qayadan nə aparar.
Yeli tutmaq olmaz.
Yeməgin qulu, işləməyin xəstəsi.
Yerin qulağı var.
Yerişinə haram qatmaz.
Yersiz gəldi, yerli qaç.
Yerli gəldi, yersiz qaç.
Yetmişində zurnaçılıq öyrənən, axirətdə çalar.
Yeyən bilməz doğrayan bilər.
Yeyən maldır, qalan miras, dala qoyanı it yeyər.
Yeyərsən qaz ətini, görərsən ləzzətini.
Yeyərsən qismətdir, yeməzsən yox.
Yeyin at özünə qamçı vurdurmaz.
Yigit meydanda məlum olar.
Yıxılana balta vuran (çalan) çox olar.
Yıxılana təpik vuran çox olar.
Yoxsulluğu görüm yox olsun.
Yol ilə gedən yorulmaz.
Yolçudan yolçuya pay düşməz.
Yoldan çıxanı yol vurar.
Yoldan çıxmaq eyb deyil, yola gəlməmək eyibdir.
Yoldaş yoldaş ilə tən gərək, tən olmasa gen gərək.
Yorğanına görə ayağını uzat.
Yuxa, beşın yedim tıxa-tıxa
Yun dararam külək olar, qız doğaram mələk olar.
Yumutlamadı falı da yidi.
Yumurtamadığı bəs dəgil, falı da içir.
Yuyulmamış çömçə kimi düşüb ortalığa



Yügürən yıxıldığına baxmaz.
Yüz bilici olsan yenə bir bilməznən (bilməz ilə) danış.
Yüz gün sel oya bilməyən yeri bir gün dərd oyar yeri.
Yüz gün yaraq, bir gün gərək.
Yüz qayğı borcu dövlətlənər.
Yük təkməsə ( təkməzsə), daş qəribəliyə düşməz.

## Z

Zamana uymaq gərək.
Zamanə (zəmanə) öylə köpəkoğlu zamanadır.
Zəhmətsiz bal yeməzlər.
Zənn eyləmədigin yerdən tülkü çıxar.
Zər qədrini zərgər bilər.
Zimistan çəkməyən bülbül, baharın qədrini bilməz.
Zirəklik comərdlik gətirər.
Zurnaçının göz nəyinə lazımdır.
Zurnanın səsi uzaqdan xoş gələr.

## ZƏRBİ-MƏSƏLLƏR
## İDİOMLAR

Ala itdən (köpəkdən) məşhurdur.
Ayağının altında yumurta qalıb.
Buz üstə çıxmış danaya dönüb
Daş quyuya düçən kimi düşdü
Dəyirman xoruzuna oxsayır.
Dəvə nalbəndə baxan kimi baxır.
Dibsiz çıxan qız kimi geri qayıtdı.
İt aşığı udan kimi uddu.
Falın bal olsun, falmanın (fərmanın) Allah
Nuh nəbidən qalıb
Ölü bit dəgiləm dırnaq altında öləm.
Pişik sıçan martılayan (maritdıyan) kimi marıtdayır.
Şaftalı tabağı kimi girmə ortalığa.
Yuyulmamış çömçə kimi düşüb ortalığa
Zavod serçəsinə bənzəyir.



## TAPMACALAR

A, yol ilə gedən kişi,
Bizə bir girvənkə ət al gətir.
Nə ərkək olsun, nə dişi.
**(Bal)**

Ay ilə gələr, gün ilə gedər,
Yüz ilə gələr, min ilə gedər
**(Ulduzlar)**

Ağ at biyan içində,
Quyruğu qan içində
Getdim qanın silməyə,
Qaldım qan içində
**(Pambıq qozası)**

Ağ atı atda gördüm,
Qızılı soratda gördüm.
Altı ildızı,
Bir ayın altda gördüm.
**(At nalı və mıxları)**

Ağ çöldə qara toxum.
**(Kağız və mürəkkəb)**

Agac başında darı quyusu.
**(Əncir)**

Ağ başında nohur,
Onu tapmayan gour.
**(Ayna-güzgü)**

Ağamın bir donu var
qatdamaq olmaz,
O qədər pulu var ki, sanamaq olmaz.
**(Səma və ulduzlar)**

Ağzı bir, dili iki, canı yox,
Danışdığı sözün sanı yox.
**(Pero, qələm)**

Ay gedir adamınan,
Bir xonca badamınan.
Nə dili var, nə ağzı,
Danışır adamınan.
**(Ay, ulduzlar və kitab)**

Ala qapı, səncir sapı,
Beş budağı, bir yarpağı
**(Əl)**

Altı taxta, üstü taxta,
Oturub bir ağ otaxda,
Qoyun dəgil otlayır,

Toyux dəgil yumurtlayır.
**(Tısbağa)**

Ana bir qız doğdu,
Nə əli var, nə ayağı.
Qız bir ana doğdu,
Əyağı da var əli də.
**(Yumurta)**

Araba gedər izi yox,
Zerzəmidə bəslənib,
Qabığı var, özü yox.
**(İlan)**

Babam toxuyub culfa – badən,
Heç mən onu geyməmişəm.
**(Şeytan toru)**

Başı yaşıl əlamət,
Dili qırmızı qiyamət,
Yaş vururam quru çıxır,
Səlli əla Məhəmməd.
**(Təndir və çörək)**

Başına ağ bağlayır,
Yürəyi qabar bağlayır.
Balalarım yığıb başına,
Gildir – gildir ağlayır.
**(Samavar)**

Bəngi-bəngi başını tut
**(Cilav)**

Bir atım var minə bilmirəm,
Bir cılovum var yığa bilmirəm
Bir qamçım var tuta bilmirəm
**(Əjdaha, pul, ilan)**

Bir tikanım var məxməl furuş,
Bir tikanım var un furuş,
Bir tikanım var odun furuş.
**(İydə)**

Bir beləcə boyu var,
Hər gecədə toyu var
**(Lampa)**

Bir tabax alma, səhərə qalma.
**(Ulduzlar)**

Bir atım var quyruxlamasan suya girməz
**(Qaşıq)**

Bir damım var tək dirəkli
**(Göbələk)**

Bir dağım var əzimlərin əzimi,
İldə verir otur salxım üzümü
Ağı haramdı, qarası halal.
**(Oruşdux)**



Bir balaca hil daşı,
Yandırır dağı daşı.
**(İstiot)**

Bir quyu var, suyu var,
Su içində bir ilan var.
Ağzın da günəş var
**(Lampa, neft və fitil)**

Bir balaca boyu var,
Al atlasdan donu var.
**(İnnab)**

Biri gedir,
Biri oturur,
Biri yatır.
**(Çay, ağac, topraq)**

Biz idik, bizlər idik,
Otur iki qız idik,
Əzildik, büzüldük,
Bir sandığa düzüldük.
**(Dişlər)**

Burda vurdum qılıcı,
Fələkdə oynar ucu.
**(İldırım)**

Taxcadan düşdü tap elədi,
Qızxanım onu hap elədi
**(Siçan)**

Çil toyux, çil-çil toyux,
Başını kəsdim qanı yox.
**(Arı)**

Dağda tapbıldar,
Çayda şapbıldar.
**(Balta, balıq)**

Dağdan gəlir Banı xanım,
Əlləri hənalı xanım.
Dindirərsən fars danışar,
Tühləri tehranı xanım.
**(Kəklik)**

Dağdan gəlir dadı suyu, mən onu dadmamışam.
**(Canavar südü)**

Dağdan gəlir dağ kimi,
Qolları budağ kimi,
Əgilir su içməyə,
Bağırır əjdaha kimi.
**(Mancılıx)**

Dam üstə daylağ oynar.
**(Dolu)**

Dam üstə at kişnər.
**(Novalça)**

Dam üstə qara yaylıq.
**(Qır)**

Dəniz qırağı düzdü,
Qiyməti əlli, yüzdü.
**(Üzüm)**

Dərindədi, dərində,
Yuvası var sərində.
Gecə - gündüz yol gedir,
Yerində, yerində.
**(Dəgirman)**

El yatdı, ola yatdı,
Ölü nəstəsin uzatdı.
**(Qapının cəftəsi)**

Əhanı məhanı,
Gəzər cümlə cəhanı,
Gələrsən başın kəsməyə,
Nə əti var, nə qanı.
**(Yel)**

Əlsiz ayaxsız
Dırmanır nərdivansız
**(İlbiz)**

Hacıya gedəllər hac eşqinə,
Başındakı tac eşqinə,
Mana elə bir kilim gətir ki,
Nə ərişi olsun, nə argacı.
**(Gecə)**

Haça, haça üstündə paça,
Paça üstündə küp,
Qup üstündə meşə,
Meşə içində şaqqal eşə
**(Parça, qılçalar, baş, tük, bit, bədən)**

Hamam hamam içində,
Kəlbir saman içində,
Dəvə dəlləklik elər,
Köhnə hamam içində.
**(Yumurta)**

Hıqqana, hıqqana,
Yaxım atoun bığına.
**(Xna)**

Hənunu, hənunu,
Pıçax kəsməz gönünü.
**(Çanaqlı bağa)**

Həp həpə, qızıl küpə,
Döyrən ötər, çiçək səpər.
**(Təndir və çörək)**

Həsən bəyim xəsdədi,
Zənciri qəfəsdədi.



Nə yerdədi, nə göydə
Çərx fələy üsdədi.
**(Baca)**

Hövək hövək içində,
Hövəngi zəng içində,
Nə yerdədi, nə göydə
Əsil firəng içində.
**(Telefon)**

İynə gözündən baxaram,
Cümlə cahanı yıxaram.
**(Tüfəng və gülləsi)**

Yəlda gecəsi birdir,
İldə bir olur peyda.
Ya rəb bu necə sirdir,
Bir ayda iki yelda.
**(Ay və ləqəsi)**

Yol üsdə qazan qaynar
**(Qarışqa)**

Kapıda qara qul
**(Dəstək)**

Qara qatır qapıda yatır,
Qəlib gedənə şıllax atır.
**(Qıfıl)**

Qaradı qanı yoxdu,
Nəfəsi çoxdu canı yoxdu.
**(Körük)**

Qat – qat donlu qarış boylu
**(Kələm)**

Qızıl tas qırmızı tas
Birin götür, birin bas
**(Körük)**

Quşlardan necə quşdur,
Qanadı fırran quşdur
Ot otlar qoyun kimi,
Su içməz necə quşdur
**(Kərənti(dər)yaz)**

Mən dururam o gedir.
**(Səs)**

Mən gedirəm o qalır.
**(İz (ləpir))**

Mən gedirəm o da gedir.
**(Kölgə)**

Məndə var, səndə var,
İnsanda var, adamda yox,
Cahanda var, aləmdə yox
**(n hərfi)**

Min milit, ağzı kilit

**(Qəbir)**

Min minarə,
dibi qara,
yüz min çiçək,
bir piyala

**(Göy)**

Nə yerdədi, nə göydə
Halqa vurub bir yerdə

**(Baca)**

O yanı taxta
Bu yanı taxta,
İçində alabaxta.

**(Beşik)**

O yanı çəpər,
Bu yanı çəpər,
İçində atlar çapar.

**(Nəhrə)**

O nədir ki, ya, göydən düşdü yapışdı.

**(Ad)**

O nədir ki, göydən yerə sallanır.

**(Yağış)**

Ömüzdə bir kişi var,
Xor – xor yatışı var.

**(Pişik)**

Ömizdə bir kişi var,
Aşın içər, noxudun seçər.

**(Pambıq maşını)**

Körpü altında dört duduq.

**(İnək məməsi)**

Gedər – gedər izi yox,
Kəsir tökür qanı yox.

**(Gəmi)**

Gedirdim bəntdən,
Səs gəldi bənddən,
Ağzı sümükdən,
Saqqalı ətdən.

**(Xoruz)**

Gündüz xanım,
Gecə qulluqçu.

**(Yorğan-döşək)**

Gecə soyunar,
Gündüz bəzənər.

**(Yük, yorğan-döşək, camagatan)**



Sarıdı zəfəran dəgil,
Yazılıdı Quran dəgil,
Buynuzu var, goç dəgil,
Qanad var quş dəgil.

**(Pərvanə kəpənəgi)**

Tap tapmaca qab altında
qonşu pay.

**(Xörəg)**

Üçü ata minib,
Özü piyada gedir.

**(Karandaş)**

Uzun qız oba gəzər

**(Oxlov)**

Uzun-uzun dərvişlər,
Bu gecə bizə gəlmişlər
O qədər oynamışlar
Xurd xəşilə dönmüşlər.

**(Əriştə (makaron))**

Zər zərə yapışdı,
Zər divara yapışdı,
Zərgər baba gəlməmiş,
Zər divarda qopbadı

**(Qıfıl, açar)**

Şıldırım, şıldırım su keşdim,
Şıldırıma batmadım,
Qızıl, gümüş don geydim,
Kıxmığın da tapmadım

**(Yuxu)**

Budur gəlir adam ilə.
Yaylıqda badam ilə.
Nə ağzı var nə dili.
Söyləyir adam ilə.

**(Məktub)**

Ay gedər il gedər.
Gecə gündüz yol gedər.

**(Su)**

Aləmi gəzər, özü lüt gəzər.

**(İynə)**

Atdım ot atana.
Dəydi kotana.
Dəryada balığa,
Düzdə ceyrana.

**(İldırım)**

Dəryada bir gül bitib adı yox.
Şirinlikdən yemək olmaz
dadı yox.

**(Övlad)**

İki qardaş var
Biri yolun bu tayında oturur
O biri o tayında.
**(Göz)**

Suya girdi dağıldı.
Sudan çıxdı yığıldı.
**(At quyruğu)**

Sarıdır zəfəran deyil
Yazıdı Quran deyil.
**(Əşrəfi)**

Otuzunda ölür, on dördünə
kamala yetir.
**(Ay)**

Həmli qaşların tuşdur,
Hər zaman baxsa qışdır.
Həştad ayaq qırx buynuz
Bu nə quşdur.
**(Kotan)**

Öküz bir inək doğub,
Onların adı nədi
**(Adəm və Həvva)**

Burdan vurdum baltanı
Ordan çıxdı qaltanı.
Anam bir oğlan doğub
Yerin, göyün sultanı.
**(Gün)**

Qapı qaldı, dam qaldı
Süpürülmədi nəm qaldı
Göydən üç xələt endi.
Əl dəyməmiş xam qaldı.
**(Ay, Gün, Yağış)**

Tu, tu, tovulğa
Tutda bitər tovulğa
Ağzı günəş dağlara
Heç açılmaz tovulğa.
**(Qəbir)**

Göydən bir ağa düşdü, pərsiz, budaqsız,
Onu bir quş yaladı dilsiz, damaqsız.
**(Qar, Gün)**

Alt hovuz içərlər,
Üstü zəmi biçərlər
**(......)**

Suda Süleyman gördüm,
Dağda düleyman gördüm
Yatar gövsər daş gördüm
Duzsuz bişmiş, aş gördüm.
**(........)**



Ağamın bir donu var
qatdalamaq olmaz.
İçi dolu əşrəfi sanamaq olmaz.
**(........)**

Aşıq eldən yuxarı,
Sana teldən yuxarı.
Aşıq bir şey görübdür
Dizi beldən yuxarı.
**(......)**

Günlər gün ortalandı,
Qapılar taxtalandı.
Meydana bir at çıxmış
Yeddi yerindən noxtalandı.
**(Meyit)**

Atdan hündür, itdən alçaq.
**(Yəhər)**

Qaradan ağ boyanıb, tap
görüm adı nədi.
**(Saqqal)**

Bir tabaq alma
Sabaha qalma
**(Ulduz)**

Bir balaca boyu var
Dam dolusu toyu var.
**(Çıraq)**

O nədi ki kölgəsiz
Yeyin gedər kölgəsiz.
Çox yerlər dağıdacaq
Axırsında kölgəsiz.
**(Yel)**

Suya girər lillənər
Sudan çıxar dillənər.
**(Yuxu)**

Şah ölkəsi, virana qapı.
**(Qəbristan)**

O tayda duran kişi
Qoltuğunda Quran kişi
Atama de at alsın
Nə erkək olsun, nə dişi.
**(Göbələk)**

Xananın oxu düzdü,
Sana, gör, neçə yüzdü.
Oğlu padşahlıq eylər
Anası hələ qızdı.
**(Pilə qurdu)**

Tat tatı götürür,
Tat oğlunu götürür.
Qızı torpax
Oğlu yarpax gətirir.
**(Mal damı)**

Yatanda yumru yatar,
Ətini dərmana satar.
Hər kim istəsə onu tuta
Tikənləri əlinə batar.
**(Kirpi)**

Bir balaca kişi
Bir dağdan ilxı tökür.
**(Ülgüc)**

Ağamın bir donu var
qatlamaq olmaz,
İçini zəri var, sanamaq olmaz.
Özü tox, kölgəsi yox.
**(Quyu)**

Xam durmuş,
Bişməmiş xam durmuş.
Bir ilən göy arasında
Gördüm bircə dam durmuş.
**(Təyyarə)**

Qəfəssizdi,
Bülbüldü, qəfəssizdi
Uçanda quştək uçar
Canı yox nəfəssizdi.
**(Maşın, makina)**

Çil toyux, çiləmə toyux,
Başını kəssən, qanı yox.
**(Soğan, balıq)**

Dal küçədə, qulun kişnər
**(Tüfəng)**

Tap tapmaca, kül yapmaca
Məməli xatın, dişləri yox.
**(Toyuq)**

Ağacdan yuvası var
Daşdan yumurtası var.
**(Tərəzi)**

İki ləyən qapa-qap
Birin deyim, birin tap.
**(Ay, Gün)**

Su düzdən, palçıq qurşaqdan
Ha yüyürürəm toz qopur.
**(Dəyirman)**

Bir otağım var, çıq yarmaca.
**(İş)**

Bir balaca mil başı,
Yandırır dağı daşı.
**(Kibrit)**

Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi.
Əyilir su içməyə
Bəyirir oğlaq kimi.
**(Araba)**



O tayda bir quş durdu,
Boynunu burmuş durdu.
Saray sandıq içində
Səmərək adlı quş durdu.
**(Quran)**

Oyanı daş, bu yanı daş,
İçində qırx əlli baş.
**(Hamam)**

Damda dana bükrüşür
Qızlar yügürüşür.
**(Toy)**

Bir balaca midilli,
Vurdu, yıxdı güdüllü .
**(Güllə)**

Doqquz aya, doqquz günə
Qaranlıqdan qalan qayıdar.
Doqquz aya, doqquz günə.
**(Uşaq)**

Atdım atana
Dəydi kotana
Dəryada balığa
Düzdə ceyrana
**(Tüfəng)**

Hilit – hilit qapısı kilit
Ya bunu tap, ya burdan get
**(Açar)**

Həşi dərili huşu dərili,
Yaz əkili qış dərili.
**(Pambıq)**

Dağlar bizə qar göndər.
Əsirgəmə var göndər.
Açılmamış boxçadan
Əl dəyməmiş nar göndər.
**(Qız məməsi)**

Ay gedər, il gedər, gecə
gündüz yol gedər.
**(Su)**

Sarıca kişi yer dəlir.
**(Damcı)**

Aləmi bəzər özü lüt gəzər.
**(İynə)**

İki qardaş var,
biri yolun bu tayında oturur,
biri o tayında.
Nə bu onu görur, nə o bunu.
**(Gözlər)**

Otuz iki qoşunun bir
sərkərdəsi var.
**(Diş, dil)**

Dam dolusu ağ yarmaca.
**(Diş)**

Bir qutum var firəngi,
özü açılar özü yumular,
heç kəs bilməz onun fəndini.
**(Fikir)**

Atdım atana,
Dəydi kotana,
Dəryada balığa,
Düzdə ceyrana.
**(İldırım)**

Dam üsdə dana dingildər.
**(Dolu)**

Göydən düşdü yerə yapışdı.
**(Yağış)**

Həmalı qaşların tuşdur,
Hər zaman baxsa qışdır,
Səksən ayaq qırx buynuzdur,
Bu nə dövlətli quşdur.
**(Kotan)**

Ağamın bir donu var,
Qatdan olmaz;
İçi dolu əşrəfilər sanmaq
olmaz
**(Göy)**

Otuzunda olur,
On dördündə kamala yetdi
**(Ay)**

Ətindən kabab olmaz,
Qanından kasa dolmaz.
**(Nar)**

Bir damım var içi dolu adəm
ilə qapısı yox.
**(Qarpız)**

Bir quşum var iki qanadlı,
Ha uçar, yerində qalar.
**(Qapı)**

Suya girdi dağıldı,
Sudan çıxdı yığıldı.
**(At quyruğu)**

Kök atar yarpaq çıxartmaz o
nə ağacdır?
**(Göbələk)**



Bir tirim var yonduqca
yoğunuyur,
Kəsdikcə uzanır.
**(Quyu)**

Bizlərdə bir kişi var,
iki dişi var.
**(Otaqın küncləri)**

Bizim evdə dörd gəlin var,
dördü də bir boydadır.
**(Masanın ayaqları)**

Dağdan gəlir dağ kimi
Qolları budağ kimi,
Su içəndə bağırar ulax kimi.
**(.....)**

Altı hovuz içərlər,
Üstü zəmi biçərlər.
**(Qoyun)**

Getdim gördüm bir dərədə
yeddi təpə,
Hər təpədə yeddi dəlmək,
Hər dəlməkdə yeddi tülkü,
Hər tülkinin yeddi balası.
**(......)**

Gecə gəzər leylaxan,
Gündüz lelaxan,
Otlarxən başında
Dügmə düzər leylaxan
**(Qoyun)**

Altı qoyun,
Üstü keçi,
Başı fındıq,
Quyruğu qayçı.
**(Qırlan qıç)**

Bir bardagda iki su
**(Yumurta)**

Dört yanı qaya
İçində sarı maya.
**(Yumurta)**

Gökdən gedən yüz qaz,
Nə deyirsən yalqız qaz!
Bizə-biz çəndə gərək,
Bizim yarımız çəndə gərək,
Dörddən birimiz çəndə gərək,
Sən bizim içimizdə onda olaq
yüz qaz
**(Baramaqurdu)**

Bu quş necə quşdur
Qanadları fırlanquşdur.
Ot otlar qoyun kimi,
Su içməz necə quşdur.
**(Baramaqurdu)**

Aşıq eldən yuxarı,
Şana teldən yuxarı,
Aşıq bir şey görüb
Dizi beldən yuxarı.

**(Qarınca)**

Pul üstə qaynar qazan.

**(Qarınca)**

Ağac başında ünlü dağarcıq.

**(İydə)**

Ağac başında sarı yumaq.

**(Heyva)**

Bir quşum var alaca
Getdi qondu ağaca,
Bir yuva tikdi
Nə qapısı var, nə bacası

**(Qabaq)**

Çatı su içər, dana köpər.

**(Qarpız)**

Yer altında qızıl qamçı.

**(Boyağ)**

Suya girir lillənir,
Sudan çıxır dillənir.

**(Buxov)**

Quyruğu ilə su içər,
Dimdiyi ilə balalar.

**(Taxıl)**

Hacılar həccə gedər,
Cəhd edər gecə gedər.
Bir yumurtanın içində
Yüz əlli cücə gedər.

**(Nar)**

Bir küçücük sel daşı,
İçində bəslər aşı.
Bişirirsən aş olur
Bişirməzsən quş olur.

**(Yumurta)**

Bab balaca boyu var,
Dam dolusu toyu var.

**(Lampa)**

Saçın ucu gümüşdür,
Sal boynuna ilişdir.
Yemişlərdən yarpaqsız
Tap gör necə yemişdir.

**(Göbələk)**

Bir quş gördüm daldan
yuxarı.

**(Çəyirtgə)**



Kəkligəm qan ayağı
Qan əlli, qan ayağı
Aşıq bir şey görübdür
Üç başı on ayağı

**(İnək, buzov gəlin)**

Allahın əmrindədir,
Bəndənin telindədir.
Altı ayağı, iki gözü
Quyruğu belindədir.

**(Tərəzi)**

Xəstədir ay xəstədir,
Təxt-təvan üstədir.
Comuş qədər ot yeyər
Su içməyə xəstədir.

**(Baramaqurdu)**

Bazarda satılmaz,
Tərəzidə çəkilməz
Baldan şirin yemək olmaz

**(Uşaq)**

O yanı daş, bu yanı daş,
İçində qırx əlli baş.

**(Hamam)**

İynə gözündən baxaram,
Cümlə cahanı yaxaram.

( ........ )

Bir ağacım var
Kəsildikcə uzanır
Yonduqca yoğunlanır

( ....... )

Canı su içər,
Dana köpər.

( ...... )

Dəryada bir gül bitib, adı yox,
Şirinlikdən yemək olmaz,
dadı yox

**(Övlad)**

Allah yapar yapısını,
Dəmir açar qapısını.

**(Qarpız)**

Bir ovuc şəkər
Dünyanı gəzər

**(Günəş)**

Qarşıma bir quş qonmuş
qolsuz qanadsız
Bən onu duttum, topsuz
tüfəngsiz,
Bən onu bişirdim odsuz
ocaqsız
Bən onu yedim dilsiz
damaqsız.

**(Könül)**

Əl ilə yapılır,
Ətə asılır.
**(Küpə-sırğa)**

Quşlardan bir quşum var,
Dimdiyi var gözü yox.
**(Gəmi)**

Ağanın bir donu var,
Qatlamaq olmaz.
İçi dolu əşrəfdi,
Sanamaq olmaz.
**(Göy və ulduzlar)**

Uzaq uzaq yollardan,
Bir əcaib quş gəlir.
Qırma badam dilləri
Söylədikcə xoş gəlir.
**(Məktub)**

İynə gözündən baxaram,
Cümlə canı yıxaram.
**(Tüfəng)**

Allah yapar yapısın,
Dəmir açar qapısın.
**(Qarpız)**

Yeddi dəlikli toxmaq,
Onu bilməyən axmaq.
**(Baş)**

Yazı yazar katib deyil,
Ağaca çıxar adam deyil,
Buynuzu var inək deyil,
Yük daşıyır eşşək deyil.
**(İbliz)**

Ağac başında yumaq.
**(Heyva)**

Bir damım var tək dirəkli
**(Göbələk)**

Anamın oğludur,
Qardaşım deyil.
**(Tək özüm)**

Bir kişi gördüm saqqalı ətdən.
**(Xoruz)**

Bir kiçicik sel daşı,
İçində bəslər aşı.
Bişirərsən aş olur,
Bişirməzsən quş olur.
**(Toyuq)**

Bizdə bir kişi var,
Ağzında üç dişi var.
**(Sacayaq)**



Sarıdır zəfəran deyil,
Yazılıdır Quran deyil.
**(Əşrəfi)**

Uzun uzun uzanar,
Həftədə bir bəzənər
**(Kəndir)**

Qazan əridi,
Quyruq qaldı.
**(........)**

Bu yanı daş, o yanı daş,
İçində qırx, əlli baş.
**(Hamam)**

Bir dağım var bu buynuzuna qar yağar,
O buynuzuna dolu.
**(Pambıq, çiyid)**

Bazardan aldım bir dana,
Evə saldım yüz dana.
**(Nar)**

Qapıdan içəriyə hay etdim,
Yükümü yükünə tay etdim,
Bir almanı qırx kişiyə tay etdim.
**(Salamlaşmaq, salam verib almaq)**

Uçur quş deyil,
Ulayır heyvan deyil.
**(Külək)**

Mənə yoldaş dayanmış,
Evinizdə boş dayanmış,
Bir papağın altında
Dörd qardaş dayanmış.
**(Miz, masa)**

Qara it hürməyir,
Evə adam buraxmayır.
**(Qıfıl)**

Əl ilə yapılır
Ətə asılır
**(Sırğa, küpə)**

Əlsiz ayaqsız,
Çıxar nərdivansız.
**(Duman)**

Əkdim noxud,
Bitdi söyüd.
Yarpağı tut,
Özü armud.
**(Pambıq)**

Nə yerdədir, nə göydədir,
Cümlə ailəm içindədir.
**(Ayna)**

Bir quyu var,
içində ilan var,
Ağzında mərcan var.
**(Lampa)**

Yaşıl taxt üstündə oturmuş bir pəri,
Ləl, mərcana bənzər ləbləri.
Bir iki növrəstə ilə söhbət edərkən
Gəldi rəqib vurdu xəncəri.
**(Gül)**

Çayda şappıldar,
Meşədə guruldar
Obada keşikçi
Kənddə azançı.
**(Balıq, aslan, köpək, xoruz)**

Göydən düşdü yapışdı,
Adamlara qarışdı
**(Ad)**

Allahın əmrindədir,
Bəndənin felindədir
Altı ayağı, iki gözü
Quyruğu belindədir.
**(Tərəzi)**

Səhradır əkmək olmur,
Daşlarını saymaq olmur.
**(Göy)**

Altı taxta, üstü taxta
Oturub bir ağ otaqda.
Qoyun deyil otlayır,
Toyuq deyil yumurtlayır.
**(İpək qurdu)**

Ay gəzir adam ilə
Bir xonça badam ilə
Nə dili var, nə ağzı
Danışır adam ilə.
**(Kitab)**

Bir bağım var əzimlərin əzimi,
İldə verər otuz salxım üzümü.
Ağını yemək haramdır
Qarasını yemək halaldır.
**(Bağ, orucluq, ağı-gündüz, qarası-gecə)**

Ahəstə ahəstə,
Bülbül qəfəsdə.
Yem yeyər, su içməz
Bu ola bir növrəsdə.
**(İpək qurdu)**



Ufacıq məzar
Dünyanı gəzər.
**(Ayaqqabı)**

Hacılar həccə gedər,
Cəhd edər gecə gedər.
Bir yumurtanın içində
Yüz əlli cücə gedər.
**(Nar)**

Bir kiçicik sel daşı,
İçində bəslər aşı.
Bişirərsən aş olar
Bişirməzsən quş olar.
**(Yumurta)**

Saçın ucu gümüşdür
Sal boynuna ilişdir.
Yemişlər yarpaqsız
Tap gör necə yemişdir.
**(Göbələk)**

Bir quş gördüm daldan yuxarı.
**(Çəyirtgə)**

Kəkligin qan ayağı,
Qan əlli qan ayağı.
Aşıq bir şey görübdü
Üç başı, on ayağı.
**(İnək, buzov, gəlin)**

Bazarda satılmaz,
Tərəzidə çəkilməz.
Baldan şirin
Yemək olmaz
**(Körpə uşaq)**

Uzun uzun vurğunlar ucu bənim əlimdə
Bülbüllər fəryad edər, ruhu bənim əlimdə
Bir ağacı oymuşlar, içində nəğmə qoymuşlar
**(Qarışqa)**

Yanılmış yalan söyləmiş,
Qulaqcığını burmuşlar.
**(Kaman)**

Yol üsdündə qazan qaynar.
**(Qarışqa yuvası)**

Ağac başında unlu dağarcıq.
**(iydə)**

Bir gümüşdən qala gördüm,
Həbs olunmuş onda ab.
Atdı zərin topunu
Fəth etdi onu ab.
**(Buz)**

Müşkülü müşkül açar,
Müşkülü üç gül açar.
Gündə bir, saatda iki
Həftədə üç gül açar.
**(Nöqtə)**

A, yol ilə gedən kişi
Bizə bir girvənkə ətal gətir
Nə ərkək olsun, nə dişi
**(Bal)**

Ay ilə gələr, gün ilə gedər
Yüz ilə gələr, min ilə gedər
**(Ulduzlar)**

Ağ at biyan içində,
Quyruğu qan içində
Getdim qanın silməyə,
Qaldım qan içində
**(Pambıq qozası)**

Ağ atı atda gördüm
Qızılı soratda gördüm
Altı ildızı,
Bir ayın altda gördüm
**(At nalı və mıxları)**

Ağ çöldə qara toxum
**(Kağız və mürəkkəb)**

Agac başında darı quyisi
**(Əncir)**

Ağ başında nohur,
Ona baxmıya gour.
**(Ayna-güzgü)**

Ağamın bir donu var
qatdamaq olmaz,
O qədər pulu var ki, sanamaq
olmaz
**(Səma və ulduzlar)**

Ağzı bir, dili iki, canı yox
Danışdığı sözün sanı yox.
**(Pero, qələm)**

Ay gedir adamınan,
Bir xonca badamınan
Nə dili var, nə ağzı,
Danışır adamınan
**(Ay, ulduzlar və kitab)**

Ala qapı, səncir sapı,
Beş budağı, bir yarpağı
**(Əl)**

Altı taxta, üstü taxta,
Oturub bir ağ otaxda,
Qoyun dəgil otlayır,



Toyux dəgil yumurtlayır.
**(Tısbağa)**

Ana bir qız doğdu,
Nə əli var, nə ayağı
Qız bir ana doğdu,
Əyağı da var əli də
**(Yumurta)**

Arala gedər izi yox,
Zerzəmidə bəslənib,
Qabığı var, özü yox
**(İlan)**

Babam toxuyub culfa – badən,
Heç mən onu geyməmişəm
**(Şeytan toru)**

Başı yaşıl əlamət,
Dili qırmızı qiyamət,
Yaş vururam quru çıxır,
Səlli əla Məhəmməd
**(Təndir və çörək)**

Başına ağ bağlayır,
Yürəyi qabar bağlayır
Balalarım yığıb başına,
Gildir-gildir ağlayır
**(Samavar)**

Bəngi-bəngi başını tut
**(Cilav)**

Bir atım var minə bilmirəm,
Bir cılovum var yığa bilmirəm
Bir qamçım var tuta bilmirəm
**(Əjdaha, pul, ilan)**

Bir tikanım var məxməl furuş,
Bir tikanım var un furuş,
Bir tikanım var odun furuş
**(İydə)**

Bir beləcə boyu var,
Hər gecədə toyu var
**(Lampa)**

Bir tabax alma,
səhərə qalma
**(Ulduzlar)**

Bir balaca ləndərə,
Bəyləri atdan endirə
**(Sidik)**

Bir atım var quyruxlamasan
suya girməz
**(Qaşıq)**

Bir damım var tək dirəkli
**(Göbələk)**

Bir dağım var əzimlərin əzimi,
İldə verir otur salxım üzümü

Ağı haramdı, qarası halal.
**(Onuşdux)**

Bir balaca hil daşı.
Yandırır dağı daşı
**(İstiot)**

Bir quyu var, suyu var,
Su içində bir ilan var.
Ağzın da günəş var
**(Lampa, neft və fitil)**

Bir balaca boyu var,
Al atlasdan donu var.
**(İnnab)**

Biri gedir,
Biri oturur,
Biri yatır
**(Cay, ağac, topraq)**

Biz idik, bizlər idik,
Otur iki qız idik,
Əzildik, büzüldük,
Bir sandığa düzüldük
**(Dişlər)**

Burda vurdum qılıcı,
fələkdə oynar ucu
**(İldırım)**

Taxcadan düzdü tap elədi
Qızxanım onu hap elədi
**(Siçan)**

Çil toyux, çil-çil toyux,
Başını kəsdim qanı yox
**(Arı)**

Dağda tapbıldar,
Çayda şapbıldar.
**(Balta, balıq)**

Dağdan gəlir Banı xanım,
Əllər hənalı xanım
Dindirərsən fars danışar,
Tühləri tehranı xanım
**(Kəklik)**

Dağdan gəlir dadı suyu
mən onu dadmamışam
**(Canavar südü)**

Dağdan gəlir dağ kimi,
Qolları budağ kimi,
Əgilir su içməyə,
Bağırır əjdaha kimi
**(Mancılıx)**

Damın qırağında bir parça
çörək.



Dam üstə daylağ oynar.
**(Dolu)**

Dam üstə at kişnər
**(Novalça)**

Dam üstə qara yaylıq.
**(Qır)**

Dəniz qırağı düzdü
Qiyməti əlli, yüzdü
**(Üzüm)**

Dərindədi, dərində
Yuvası var sərində
Gecə - gündüz yol gedir,
Yerində, yerində
**(Dəgirman)**

El yatdı, ola yatdı,
Ölü nəstəsin uzatdı.
**(Qapının cəftəsi)**

Əhanı məhanı,
Gəzər cümlə cəhanı,
Gələrsən başın kəzməyə,
Nə əti var, nə qanı
**(Yel)**

Əlsiz ayaxsız
Dırmanır nərdivansız
**(İlbiz)**

Hacıya gedəllər hac eşqinə,
Başındakı tac eşqinə,
Mana elə bir kilim gətir ki,
Nə ərişi olsun, nə argacı
**(Gecə)**

Haça, haça üstündə paça,
Paça üstündə küp,
Qup üstündə meşə,
Meşə içində şaqqal eşə
**(Parça, qılçalar, baş, tük, bit, bədən)**

Hamam hamam içində,
Kəlbir saman içində,
Dəvə dəlləklik elər,
Köhnə hamam içində
**(Yumurta)**

Hıqqana, hıqqana,
Yaxım atoun bığına
**(Xna)**

Hənunu, hənunu,
Pıçax kəsməz gönünü
**(Çanaqlı bağa)**

Həp həpə, qızıl küpə,
Döyrən ötər, çiçək səpər.
**(Təndir və çörək)**

Həsən bəyim xəsdədi,
Zənciri qəfəsdədi.
Nə yerdədi, nə göydə
Çərx fələy üsdədi.
**(Baca)**

Hövək hövək içində,
Hövəngi zəng içində,
Nə yerdədi, nə göydə
Əsil firəng içində
**(Telefon)**

İynə gözündən baxaram,
Cümlə cahanı yıxaram
**(Tüfəng və gülləsi)**

Yəlda gecəsi birdir,
İldə bir olur peyda
Ya rəb bu necə sirdir,
Bir ayda iki yolda
**(Ay və ləqəsi)**

Yol üsdə qazan qaynar
**(Qarışqa)**

Kapıda qara qul
**(Dəstəg(k))**

Qara qatır qapıda yatır,
Qəlib gedənə şıllax atır
**(Qıfıl)**

Qaradı qanı yoxdu,
Nəfəsi çoxdu canı yoxdu
**(Körük)**

Qat – qat donlu qarış boylu
**(Kələm)**

Qızıl tas qırmızı tas
Birin götür, birin bas
**(Körük)**

Qauşlardan necə quşdur,
Qanadı fırran quşdur
Ot otlar qoyun kimi,
Su içməz necə quşdur
**(Kərənti(dər)yaz)**

Mən dururam o gedir
**(Səs)**

Mən gedirəm o qalır
**(İz (ləyir))**

Mən gedirəm o da gedir
**(Kölgə)**



Məndə var, sən də var,
İnsanda var, adamda yox,
Cahanda var, aləmdə yox
Min milit ağrı kilit
**(Qəbir)**

Min minarə, dibi qara,
Yüz min çiçək, bir piyala
**(Göy)**

Nə yerdədi, nə göydə
Halqa vurub bir yerdə
**(Baca)**

O yanı taxta
Bu yanı taxta,
İçində alabaxta
**(Beşik)**

O yanı çəpər,
Bu yanı çəpər,
İçində atlar çapar
**(Nəhrə)**

O nədir ki, ya, göydən
düşdü yapışdı
**(Ad)**

O nədir ki, göydən yerə sallanır
**(Yağış)**

Ömüzdə bir kişi var,
Xor-xor yatışı var
**(Pişik)**

Ömizdə bir kişi var,
Aşın içər, noxudun seçər.
**(Pambıq maşını)**

Körpü altında dört duduq
**(İnək məməsi)**

Gedər-gedər izi yox,
Kəsir tökür qanı yox
**(Gəmi)**

Gedirdim bəntdən,
Səs gəldi bənddən,
Ağzı sümükdən,
Saqqalı ətdən
**(Xoruz)**

Gündüz xanım,
Gecə qulluqçu
**(Yorğan-döşək)**

Gecə soyunar,
Gündüz bəzənər
**(Yük, yorğan-döşək, camagatan)**

Sarıdı zəfəran dəgil,
Yazılıdı Quran dəgil,
Buynuzu var, goç dəgil,
Qanad var quş dəgil
**(Rərvanə kəpənəgi)**

Tap tapmaca qab altında
qonşu pay
**(Xörəg)**

Üçü ata minib,
Özü piyada gedir
**(Karandaş)**

Uzun qız oba gəzər
**(Oxlov)**

Uzun-uzun dərvişlər
Bu gecə bizə gəlmişlər
O qədər oynamışlar
Xurd xəşilə dönmüşlər
**(Əriştə(makaron))**

Zər zərə yapışdı,
Zər di vara yapışdı,
Zərgər baba gəlməmiş,
Zər divarda qopbadı
**(Qıfıl, açar)**

Şıldırım, şıldırım su keşdim,
Şıldırıma batmadım,
Qızıl, gümüş don geydim,
Kıxmığın da tapmadım
**(Yuxu)**

Altı hovuz içərlər, üstü zəmi biçərlər.
**(................)**

Suda Süleyman gördüm,
Dağda Düleyman gördüm.
Yatar guşar daş gördüm
Duzsuz bişmiş aş gördüm
**(..............)**

Ağamın bir donu var
qatlamaq olmaz
İçi dolu əsrəfidir sanamaq
olmaz.
**(...............)**

Aşıq eldən yuxarı,
Şana teldən yuxarı.
Aşıq bir şey görübdür,
Dizi beldən yuxarı.
**(...........)**

Yol üstə qaynar qazan.
**(............)**



## BAYATILAR

Bayquş mənəm bayquş mən
Hər quşdan say quş mən
Nə bahalı başım var
Sızıldaram yay-qış mən

Bir yaram var qolumda
Sağımda həm, solumda
Görüm haçan gəlirsən
Gözüm qaldı yolunda

Qaradır qaşın ördək
Yaşıldı başın ördək
Gəzəndə cüt gəzirdin
Hanı yoldaşın ördək?

Yavalandım yanımdan
Quşlar doymaz qanımdan
Nə pulum var, nə malım
Ələ gəlmişəm canımdan

Qızılgül dən-dən oldu
Dərmədim xəndan oldu
Mən səndən ayrılmazdım
Ayrılıq səndən oldu

Su doldur küçədən
Dərdim artıb tarədən
Nə yaşımı kəsən var
Nə qibləmi düzəldən

Əslim Qarabağlıdı
Sinəm çarpaz dağlıdır
Nə gələn var, nə gedən
Məgər yollar bağlıdı

Dərya səndə üzmərəm
Boyda versən üzmərəm
Ölləm özümü öldürərəm
Əlimi səndən üzmərəm

Nictana düşdü yolum
Qaraldı sağım solum
Həsrətinin əlindən
Sındı büküldü qolum

Gözləri yedi məni
Qurd olub yedi məni
Bir namərdə sir verdim
Aləmdə dedi məni

Hancarı getdi yollar
Canımı qayqu alar
Bir yandan el tənəsi
Bir yandan ayrıldı yar

Bu bağda gəzən mənəm
Əhdim var dözən mənəm
Yuvasız quşlar təkin
Avara gəzən mənəm

Dəryada mayağam mən
Əl vurma oyağam mən
Qaş altından göz eylə
Yatmamışam oyağam mən

Bu gələn yar olaydı
Əlində nar olaydı
İkimiz bir köynəkdə
Yaxası dar olaydı

Qızılgül oyum-oyum
Verin qoynuma qoyum
Sən məndən doymuşsan
Mən səndən necə doyum

Ağlamaqdan heyim yox
Qanadım yox, mayam yox
Yükləndə qəm karavnı
Qəmdən artıq mayam yox

Dağlara çən döşəndi
Gül üsdünə nəm döşəndi
Könlüm xafdan oyanar
Yadıma sən düşəndə

Aşıq allahı neynər
Gərdən sürahi neynər
Sən orda dur mən burda
Görək ilahi neylər.

Dəryada mahı neynər
Mah surah neynər
Göz gördü, könül sevdi
Görək ilahi neynər

Mənim baki dərdim var
Şirvan, Şəki dərdim var
Sən məndə əhval sor
Deyim nəki, dərdim var

Şirvanın ağ üzümü
Ölürəm baş üzümü
Əzrayıl canım alma
Yaya deyim sözümü

Burdan bir atlı getdi
Quş tək qanadlı getdi
Həsrətlə baxdı mənə
Yurdumu yaxdı getdi

Fələgin qəhri mənə
Gəlməz rəhmi mənə
Doldurub qəm piyaləsini
İçirdir zəhri mənə



Bu qala nə qaladı
Torpağı Kərbaladır
Aşnalıq yaxşı şeydir
Ayrılıq bir bəladır

Mən aşığam amandı
Dağlar dolu dumandır
Gəlişinə mən qurban
Gedişin nə yamandı

Mən aşiq alma dura
Zülfi yürə salma dara
Xəlvət bir yar sevmişəm
Kim salda qalmaqala

Mən aşiq ay doğar indi
Alıbda salma ələ
Sən haqq aşıq deyilsən
Məni sən salma ələ

Mən aşıq sürmə məndən
Göz səndən sürmə məndən
Sən özgənin yarısan
Dövranı sürmə məndən

Əzizim alma məni
Al, yerə salma məni
Apar sərrat yanına
Qəlp olsam, alma məni.

Qərənfil abi gərək
Yar yarın babı gərək
Zərrəcə eşqi olanın
İllərcə tabı gərək

Əzizim nərdivana
Ayaq qoy nərdivana
Zərr qədrin zərgar bilə
Nə bilər həə divana

Aşıq aşım bişdi gəl
Bişib yerə düşdü gəl
Yaxşı günün sahibi
Yaman günüm düşdü gəl.

Şaftalıyam kalam mən
Dilim yoxdur lalam mən
Çərxi -fələk qoymadı
Arzu kam olam mən

Əzizim dağ başına
Gün getdi dağ başına
Bostancı şamama
Dolanı tağ başına

Əzizim suda yandı
Sünbülüm suda yandı
Su səpdim eşq oduna
Od tutdu oda yandı

Haray a dumanlı dağlar
Solğun çiçəkli dağlar
Qurbət eldə can versəm
Bəs məni kim ağlar?

Əzizim üzə düşdü
Sürmə gözə düşdü
Hər kəs öz kefində
Ayrılıq bizə düşdü

Əzizim salyanax
Qara zülfün sal yana
Ne dersən bir ah çəkim
Kür .............. sal yana

Əzizim səlli əla
Ay çıxdı səlli əla
Görüm haçan gəlirsən
Yürəğim təsəlli ala

Mən aşıq can sanə
Qurban sanə, can sanə
Sən məni şirin çağır
Mən deyim can sənə

Mən aşıq bad apardı
Meh vurdu, bad apardı
Cəfa çəkdim yar sevdim
Axırda yad apardı

Əzizim şirindir yar
Yeməyə şirindir nar
Sağ olsun qohum qardaş
Hamıdan şirindir yar

Əzizim qardaşı
Get dağlardan qar daşı
Bayram o gün olar
Bacı görsə qardaşı

Mən aşıq ha səni
Haqq saxlasan ha səni
Xəstə könlüm nar . istər
Mənim könlüm ha səni

Mən aşıq harən ağlasın
Zülfüni harən ağlasın
Mən ki, gün görmədim
Günü görən ağlasın

Əzizim üşüdüm yar
Ac qoynun üşüdüm yar
Gəl. desən can deyərəm
Bircə səsin eşidim yar

Əzizim bir dənəsən
Şirinsən, bir dənəsən
Mən ölsəm, sənə qurban
Sən ölmə bir dənəsən



Bu gələn Ələmlidir,
Qaşları qələmlidir
Dindirmə qan ağlaram
Yürəğim vərəmlidir

Şirvandan dəstə gəlir
Boyları bəstə gəlir
..... ölkə sizə
Şad gedən xəstə gəlir

Qarabağın meşəsi,
Qaradağ bənövşəsi
Bakıda bir anam var
Ağlamaqdır peşəsi

Kağızın ağına bax
Soluna, sağına bax
Haçan yadına düşsəm
Şirvanın dağına bax

Əzizim ellər ayrısı
Bülbüllər güllər ayrısı
Var gününə dözmədim
Ölmüşəm illər ayrısı

İpin çərxə dalandı
Çərxdən çərxə dalandı
Mənim bu yazıq canım
Qorxa-qorxa dolandı

Dağlar dağladı məni
Zəncir bağladı məni
Eylə qərib olmuşam
Görən ağladı məni

Dağlar başı dolama
Bəylər gəlir salama
Qız özü bostançıdır
Məndən istər şamama

Toxum əkdim bel ilə
Suvardım sey ilə
Mən yarımdan dönməzdim
Döndərdilər bel ilə

Mən aşiqəm necə alım
Əlfi bey ilə alım
Yarım məndən inciyib
Könlünü necə alım?

Qızılgüləm xəstəyəm
Bülbüləm qəfəsdəyəm
Baş yasdıqda, göz yolda
İntizaram xəstəyəm

Sarı qovun dilimi
Uçurtdum bülbülümü
Bir otağa xəlb eylə,
Danışım dərd dilimi

Yerişin qara bənzər
Boyun Şahbaza bənzər
Girəydim yar qoynuna
Qış günüm yara bənzər

Dağda duman yeri var
Qaşda kaman yeri var
İtirmişəm yarımı
Səndə güman yeri var

Sən mənim ağa dostum
Gəl gedək bağa dostum
Gözlərin bahar bulutu
Qorxuram yağa dostum

Əzizim zülfü qara
Qaş qara, zülfü qara
Balam məndən eyləyən
Tez gəlsin zülfü qara

Arazın daşı sənsən
Dibinin daşı sənsən
Dünyada dostum çoxdur
Hamının başı sənsən

Bağında üzüm dəgdi
Meh əsdi, üzüm dəgdi
Qan olmaz, qada olmaz
Üzünə üzüm dəgdi

Araza gəmi gəldi
Sanadım hamı gəldi
Evin yıxılsın fələk
Ayrılıq dəmi gəldi

Əzizim bir il gərək
Sədəf dur ilə gərək
Dünyada asna çoxdur
İqrar bir ilə gərək

Gəlirdim ağdaşdan
Papax sürüşdü başdan
Səndən mənə yar olmaz
Oldum qohum qardaşdan

Bağlarda bostan oldum
Dillərdə dastan oldum
Bivəfa yardan ötrü
Aşnadan, dostdan oldum

Bağlarda xəzələ bax
Dibində gözələ bax
Ayaq yalın baş açıq
Sərkərdən gəzənə bax

Başımda külahım var
Bəndəyəm ələmim var
Göz gördü könül sevdi
Mənim nə günahım var



Mən aşıq alma qara
Yeməgə alma qara
Mən səni gizlin sevdim
Kim saldı qalmaqala .

Mən aşiqəm gülə naz.
Bülbül eylər gülə naz.

Əzizim dünyaya bax.
Ağlayan çox gülən az.

Başı pəlməli dağlar.
Dibi kölgəli dağlar
Oturub yol gözlərəm
Haçan el gəli dağlar.

# LƏTİFƏLƏR

## Molla Nəsrəddin

Molla Nəsrəddin bir dəfə bir baxçaya gedir. Beş-altı nəfər adamı orada əyləşmiş görüb yanlarınca varır. İçlərindən biri: bu baxçada bir həftə qalıb keyf edək deyir. Biri də: çox əçəb, bir həftəlik yem mənim olsun. O biri: çalğı da mənim boynuma olsun. Başqası: çayv vaxtında məsiəfi də mənim üzərimə olsun deyir. Molladan sorurlar: Sən nəyi üzərinə alırsan? Mən də əgər bir həftə burda bir yerə getsəm Allahın lənəti mənim üzərimə olsun deyir.

* * *

Bir gün molla Nəsrəddin su kənarında dəstəmaz alırmış, birdən su mollanın başmağını götürüb aparır. Molla fəryad edir ki,

– Ey su,gəl dəstəmazını al, başmağımı ver!

* * *

Bir uşaq molla Nəsrəddinə üç alma gətirib deyir:

– Molla, bu üç almanı dörd uşaq arasında bərabər təqsim et!

Molla deyir:

– Üç uşağın hərədinə bir alma ver!Dördüncüyə de ki, hələ gözləsin ha vaxt Allah göydən bir alma göndərər,onda o almanı da ona verərik.

* * *

Bir uşaq molla Nəsrəddinə üç alma gətirib deyir:



– Molla bu üç almanı dörd uşaq arasında bərabər təqsim et!

Molla deyir:

– Üç uşağın hərəsinə bir alma ver. Dördüncüyə de ki, hələ gözləsin ha vaxt Allah göydən bir alma göndərər onda o almanı da ona verərik!

* * *

Bir gün Molla Nəsrəddin su kənarında dəstamaz alırmış, birdən su Mollanın başmağını götürüb aparır. Molla fəryad edirki:

– Ey su, gəl dəstəmazını al, başmağımı ver!

## Molla və arvadı

Molla arvadına:

– Mənə biraz pendir gətir, çünki pendir mədəmə qurd verib iştahanı artırandır.

Arvad:

– Pendirimizdir

Molla:

– Yaxşı ki qurtarmışdır. Yoxsa, mədəmi xarab edib, dişləri laxladandır.

* * *

Bir hərif dəllək dükanına gedir. Dəllək onun başını tiraş (qırxarkən) edərkən bir neçə yerini kəsir. Əyyar ona iki qat muzd verir. Dəllək yüzünə baxanda hərif degir: Biri tiraş, biri də həçəmət pulidir.

## Dörd yoldaş

Bir dəfə kar, kor, çılpaq və axsaq yol ilə gedirdilər. Bunlar bir qədər yol gedəndən sonra yorulub, bir göy çəmənin üstündə nahara əyləşdilər. Burada çörək yeyib, şirin söhbətə məşğul idilər. Söhbət arasında kor dedi:

– Ay yoldaşlar, sakit olunuz, deyəsən gözümə uzaqdan üç-dörd qaraltı görünür, yoldaşlar qorxub sakit oldular. Kar dedi:

– Bu gələnlərin ayaqlarının səsindən, deyəsən hamısı atlıdır!

Çılpaq dedi:

– Deyəsən quldurdular, adam soymağa gəlirlər.

Axsaq dedi:

– Elə isə durunuz qaçaq!

## Kəndli

Bir kəndli hakimin yanına gəlib şikayət elədi ki, vergi-yığan bundan bir pud buğdanən əvəzində on pud alır.

Hakim dedi:

– Üç girvəngə saqqalından utanmırsan yalan danışırsan?

Kəndli dedi:

– Hakim, mənim üç misqal ağırlığında saqqalımı üç girvəngə hesab edəndə xidmətçilərdə bir pudun əvəzində on pud alacaqlar.

* * *

Bir dəllək birinin başini qırxırdı və ülgücü küt olduğu üçün çox incidirdi.Bir qədər başını qırxandan sonra dəllək soruşdu ki, necə qardaşsınız?



Bu adam cavab verdi:

– Sənin əlindən salamat qurtara bilsəm üç qardaşıq.

## Xan və vəzir

Nəğl edirlər ki, bir xan əyan və Ərkanı dövlətilə bir məclisdə oturmuşdu. Əsnayi-söhbətdə xana ərz etdilər ki, dəllək gəlibdir. Xan buyurdu ki, gəlsin. Dəllək içəri girdikdə adət üzrə xana ayna verdi ki, xan salavatı şərifə gətirsin. Xan aynaya baxıb ağlamağa başladı. Məclisdə bulunan qoca bir vəzir bu hadisəni gördükdə daha uca bir səslə başladı ağlamağa. Hər ikisi bir müddət ağlaşıb ağlamaqdan fariq oldular. Vəzirin ağlamağına xan təəccüb edib dedi:

- Vəzir! Mən aynaya baxmaqda sifətimi bəd və çirkin görüb ağladım ki xudaya bu cah və cəlalı sən mənə vermisən bu dövlət bu təntənə səni mərhəmətinindir! Amma mənim sifətim bu busata layiq deyil, kaş ki mənə bir xoş sürət də mərhəmət edəydin! İmdi de görüm vəzir sən niyə ağladın?

Vəzir ərz etdi:

- Cənab xan! Əgər sənömründə bir kərə o pis sifəti görməklə bu qədər qəmgin oldun isə bəs mən bədbəxtin halını gör ki qırx ildir ki, sənə qulluq edib hər sabah o sifəti görürəm!

## Yuxu

Bir kişi birisinə dedi:

– Bu gecə yuxuda gördüm ki, turpdan boranı bişirirəm.

O birisi bunun cavabında dedi:

– Bir abbası ver yuxunu yozum!

* * *

Biri:

– Görəsən padşahın başını nə ilə isladıb və nə ilə qırxırlar?

O biri:

– Onu da bilmirsən? Doşab ilə isladıb, qızıl balta ilə qırxırlar!

* * *

Bir şəxs əbasının altında gizlin bir şey aparırdı. Küçə ilə gedən bir adam bundan soruşdu ki,

– Əbanın altındakı nədir?

O adam cavabında dedi:

– Əgər bunu demək lazım olsa idi daha əbanın altında qoymaz idim.

* * *

Bir gün bir arvad oğluna deyir ki,

– Oğlum, get atana de ki, əmim azarlayıb. Burnu xiyar kimi, başı qabağ kimi, qarnı qarpız kimi şişmişdir. Tez gedib doqtur gətirsin.

Bunun cavabında oğlu deyir ki,

– Anam! Yoxdur söz! Yadımda qalmaz!

Olar ki, atama bir dəfəlik müxtəsər deyəm ki, əmim bostan olmuşdur.

* * *

Bir səhər tezdən Həsən kişi qonşusu Rəsul kişinin qapısını döyüb deyir ki,



– Rəsul əmi! Oyaqsan, yoxsa hələ yatmışsan?

Rəsul:

– Nə var? Nə eyləyirsən? Bir sözün varmı?

– Bir şahı borc pul istəyirəm!

– Elə isə yatmışam.

* * *

Padşah at ilə ova gedirdi, qabağına bir çirkin adam çıxdı. Padşah bu çirkin adama rast gəlməsini özü üçün nəs bilib, bollu döydürüb və əmr etdi ki, onu dustağa salsınlar. İttifaqən o gün padşah üçün çox xoş keçdi, ona görədə kişini döydürməsindən peşman oldu, dustağdan çıxartdırdı ki, onu böyük bəxşişlə yola salsın. Kişi dedi:

– Ürəgimdə bir söz var, onu deməyincə, bəxşişi qəbul etməyəcəm.

Padşah izn verdi. Kişi dedi:

– Padşah bu gün sənə rast gələn adam sən idin. Bu gün sənə xoş keçdi, mənə bəd! İndi özün insaf et, nəs sənsən ya mən?

Bu söz padşahın xoşuna gəlib, bəxşişi daha da artdırdı.

## Üç axmaq

Birisi Allaha yalvarır ki, ona min qoyun versin buda onunla dolansın.Yoldaşı bunu eşidib dedi ki,

– Aşna, qoyunların südündən, pendirindən mənə də verərsənmi?

– Sənə nə üçüm verirəm? Dəli ki,deyiləm!

– İndi ki, belədir, məndə allaha dua edərəm ki, mənə min qurd versin, sənin qoyunlarını yesin.

Kişi bu sözləri deyən kimi bunların arasında bəhs düşdü. Bu onu, o da bunu vuraraq bir-birinin başını yardılar.

Bu əsnada qabağında ağ eşşək, üstündə iki tulux doşab bir kişi yol ilə gedirdi. Bu kişi bunların savaşmalarını görüb yanlarına gəldi və davalarının səbəbini xəbər aldı, əhvalatı biləndən sonra cibindən bıçağını çıxarıb öz doşab tuluğunu yırtdı və dedi:

– Mənim qanım bu doşab kimi axsın ki, ikiniz də axmaqsınız.

## Qəzəbin nəticəsi

Bir dəfə bir çoban çöldə qoyunlarını otarırdı və axşama qədər asudə vaxt keçirirdi. Bir gün bu çoban düzdə ağacın altında olan daşın üstündə oturub yuxulayırdı.Yuxu içində başını gah aşağı və gah yuxarı qaldırırdı. Qoyunların arasında olan bir qoç çobanın yuxuladığı daşın yanında otlayırdı.Bu qoç çobanın aşağı yuxarı başını oynatmasını görüb elə zənn etdi ki, çoban onu döyüşməyə çağırır. Ona görə də qızdı, acıqlandı və sonra dal-dalı gedib özünü yığışdırdı və çobanın üstünə hücum edib ona istədiyi kimi bir kəllə vurdu. Çoban şirin yuxudan sərasimə durub artıq dərəcədə qəzəbləndi və dərhal qoçu tutub bir quyuya tulladı. Bu halı görən qoyunlar sürü ilə gəlib quyuya tullandılar. Çoban başına vurub qəzəbindən çox peşman oldu.

## Yalançı

Bir misgər ilə bir bostançı yol ilə gedirdilər.Bunlar bostanın yanı ilə keçərkən bostançı dedi:



– Bax gör,nə gözəl bostandır. Ləklərdə əkilən kələmlərə diqqət ilə tamaşa et,gör nə böyük və nə ağ kələmlərdir! Amma kələmi mənim bostanımda görmüsən? Heç bir bostan mənim bostanım kimi kələm yetirə bilməz. Keçən il mən kələm almışdım, içində elələri var idi ki, iki mərtəbə ev böyüklüyündə olardı.

Misgər bunu eşidib dedi:

– Sən kələmi deyirsən. O təəccüblü bir şey deyil.Mən keçən il yayda bir qazan qayırmışdım ki, üç mərtəbə bir ev böyüklüyündə idi.

Bostançı dedi:

– Yoldaş, bu yalan oldu! Bir de görüm, o böyüklükdə qazan nəyə lazımdır?

Misgər:

– O böyüklükdə qazan sənin iki mərtəbə ev böyüklüyündə kələmini bişirməyə lazımdır! deyib cavab verdi.

## Kəndli

Bir kəndli hakimin yanına gəlib şikayət elədi ki, vergi yığan bundan bir pud buğdanın əvəzində on pud alır.

Hakim dedi:

– Üç girvənkə ağırlığında saqqalınla utanmırsan yalan danışırsan?

Kəndli dedi:

– Hakim mənim üç misqal ağırlığında saqqalımı üç girvənkə hesab edəndə xidmətçilərdə bir pudun əvəzində on pud alacaqlar.

* * *

Padşah ova çıxmışdı. Yolda dalında odun aparan bir odunçuya rast gəlib dedi:

Ay kişi məndən ya yüz manat pul, ya bir at, ya iyirmi qoyun və ya bir bağ istə sənə verimik bu zəhmətdən qurtarsan!

Odunçu dedi :

– Padşahım pulu cibimə qoyaram, ata da minərəm, sonrada qoyunları qabağıma salıb düz bir bağa gedərəm, nə yaxşı olar!

Padşah gülüb odunçunun istəyini verdi.

## Çaş göz

İki kişi bir çaşdan soruşdu:

– Doğurdanmı ki, deyillər çaş biri iki görər?

Çaş dedi:

– Bunlara bax dörd nəfər yanıma gəlib gör məndən nə soruşurlar? Nə gah elə olsaydı mən göydəki iki ayı dörd görərdim!

## Dörd yoldaş

Bir dəfə kor, Kar, çılpaq və axsaq yol ilə gedirdilər. Bunlar bir qədər yol gedəndən sonra yorulub bir göy çəmənin üzərinə nahara əyləşdilər. Burada çörək yeyib şirin söhbətə məşğul idilər.

Söhbət arasında kor dedi:

– Ay yoldaşlar sakit olun deyəsən gözümə uzaqdan üç-dörd qaraltı görünür.



Yoldaşlar qorxub sakit oldular. Kar dedi:

– Bu gələnlərin ayaqlarının səsindən, deyəsən hamısı atlıdır.

Çıplaq dedi:

– Deyəsən quldurdurlar adam soymağa gəlirlər.

Axsaq dedi:

Elə isə durunuz qaçaq!

* * *

Birisi:

– Görəsən padşahın başını nə ilə isladıb və nə ilə qırxılar?

O biri:

– Onu da bilmirsən? Doşab ilə isladıb , qızıl balta ilə qırxırlar!

* * *

Bir şəxs əbasının altında gizlin bir şey aparırdı. Küçə ilə gedən bir adam bundan soruşdu ki:

– Əbanın altındakı nədir?

O adam cavabında dedi:

– Əgər bunu bilmək lazım olsa idi daha əbanın altına qoymaz idim.

* * *

Bir dəllək birinin başını qırxırdı və ülgücü küt olduğu üçün çox incidirdi. Bir qədər başını qırxandan sonra dəllək soruşdu ki:

– Siz neçə qardaşsınız?

Bu adam cavab verdi:

– Sənin əlindən salamat qurtara bilsək üç qardaşıq.

## İki kəndlinin södəsi

Bir gün iki kəndli bir-biri ilə södə edirdilər. Birincinin atı, digərinkinin isə tənbəkisi vardı. Birinci dedi:

– Malımızın eybini deməliyik qardaş.

Tənbəkisi olan dedi:

– Tənbəkimin eybi budur: narın doğra, çubuğa bərk basma, qırımızı odu isə üsündən iksiq em əvə çəkəndə heç kim ilə danışma. Yanmadı mənim malım.

Atı olan kəndli dedi:

– Mənim də malımın eybi budur: yoxuşda götür dalıva, enişdə qat qabağıva, qırmızı çubuğu da sağrısından əksik etmə! Yerimədi ənim malım.

## Dərviş və əkinçi

Bir kəntli əkin əkirdi. Bu zaman bir dərviş bunun zəmisinin yanına gəlib dayandı və oxumağa başladı. Kişinin xoşuna gəlib dərvişə dedi:

– Ağa dərviş, xırman vaxtı gələrsən, xəcalətindən çıxaram.

Dərviş gedi. Əmma xırman vaxtı gəldi əkinçinin xırmanına nə dedi:

– Ay kəntli qardaş, mənə vədə vermişdin ki, xırman vaxı gələrsən hesablaşarıq. İndi mən də gəlmişəm.

Əkinçi buna böylə bir cavab verdi:

– Əkin vaxtı gəldin, mənim üçün oxudun, mənim də xoşuma gəldi. Mən də sənə bir söz dedim, sənin xoşuna gəldi. Oldu əvəz-əvəz. Dəxi məndən nə istəyirsən?



## Möhtəbər molla və hiyləgər qadın

Bir şəhərdə möhtəbər bir molla vardı. Camaatın hər bir işinə o çatar idi. Camaat ona çox inanırdı. Bir gün o şəhərin dövlətli bir taciri səfərə gedirdi. Bu evində olan bir para qiymətli şeyləri gətirib mollaya verdi.

Və özü səfərə gedib alış-verişini edikdən sonra qayıdaraq dübarə mollanın yanına gəldi və əmanətini molladan geri istəyəndə molla bus-butun haşaladı. Tacir nə qədər yalvardıyaxardısa molla boyun olmadı.

Bu yazıq hər kəs üçün bu əhvalatı danışdı, heç kəs buna inanmadı. Buna dedilər molla düz adamdır. Yazığın əli hər yerdən üzülüb, bikeyf evə qayıtdı. Bunun arvadı gördü ki, kişinin qanı qaradı, əhvalı sarımsaq dad verir. Xəbər aldı:

– Ay kişi, nə var belə fikirdəsən?

Kişi başına gələn əhvalatı arvadına söylədi. Arvad buna cavabında:

– Ay kişi, heç fikir emə, bən onun atasını yandırıb əmanətimizi geri alaram. Sən bənim sözümə qulaq as. Bən nə təvr tədbir töksəm, siz də o evr rəftar edərsiniz.

Kişi dedi:

– Qadavı alım, arvad görək nə edəcəksən.

Arvad gedib qomşulardan çoxlu daş-qaş yığıb gətirdi evə. Qulluqçusu ilə ərini ögrədib özünə zinət verərək dedi:

– Ay kişi, mən gedib mollanın evinə girəcəm beş dəqiqə keçdikdən sonra gəlib içəri girərsən və əmanətüvü istərsən.

Qulluqçuya dedi ki:

– Ağan bayıra çıxandan sonra sən içəri girib deyərsən ki. muştuluğumu ver ağam gəldi.

Arvad getdi birbaş mollanın evinə. İçəri girib molla ilə çəm-xəm ilə danışmağa başladı. Arada üz-gözünü və bir yaylıq daş-qaşı da mollaya göstərirdi. Molla arvadın gözəlligini və bir yaylıq qiymətli şeyləri gördükdə ağlı başından çıxdı.

Arvad:

– Molla əmi, sahibim səfərdədir. Bən də tək qadın olduğumdan, bunları evdə saxlamağa qorxuram. İstəyirəm.....

Arvad sözünü qurtarmamış kişi içəri girir və deyir:

– Molla əmi. Mənim əmanətimi zəhmət çək ver!

Molla xəyal edir ki, qoy bunun əmanətini verim arvad bənə bir yaxşı inansın. Azı verməsəm çoxa sahib ola bilmərəm.

Molla:

– Bu saat, bu saat deyib getdi sandığı açdı. Kişinin əmanətini geri qaytardı.

Kişi getdikdən sonra arvad:

– Molla əmi, bu əmanəti sənə tapşırıram. Sən Allahın mömin bəndələrindənsən.

Bu əsnada qulluqçu içəri girib oynaya-oynaya deyir:

– Xanım! Xanım! Muşuluğumu ver ağam gəldi.

Arvad bunu eşidən kimi oynamağa başlayır. Kişi də içəri girib görür ki, qulluqçusu ilə arvad oynayır. Bu da oynamağa başlayır. Molla görür ki. hamısı oynayır, bu da qarışır onlara. Sonra arvad dayanıb mollaya deyir ki:

– Bənim ərim gəlib oynayıram, onun da ağası gəlib oynayr, frimin də qazala əlinə çatıb onun üçün oynayır. Bəs sən nə üçün oynayırsan?

Molla cavabında:

– Bən də sənin kimi hiyləgər qadının feylinə düşdüm, onun üçün oynayıram.



## Qoz üstə qoz

Bir gün bir qozbel kişi hamama getdi. Və gördü ki, hamamda toydur. Bu kişi ortaya düşüb başladı oynamağa. Kişinin bu hərəkətindən xoşlanıb belinin qozunu götürdülər. Bunun beli düzəlib sevinə-sevinə bazara gəlir.

Bi kişi bir qozbel yoldaşı varmış. Bu da buna rast gəlib gördü ki, bunun beli düzəlib. Bundan xəbər aldı:

– Belinə nə edin ki, belivin qozu yox oldu?

Bu kişi dedi:

– Hamama getmişdim, gördüm ki, hamamda toydur, çalıb oynayırlar. Bən də ortalığa düşüb oynadım. Odur ki, bu işdən xoşları gəlib bənim belimin qozunu götürdülər, belim də düzəldi.

Bu da xəyal etdi ki, bən də gedib oynaram bənim də belimi düzəldərlər.

Bu kişi də yügürdü hamama. Tələsik soyunub içəri girdikdə gördü ki, ağlayırlar. Bu heç QULAQ asmadan oynadı. Bundan ötəri ona çox acıqları tutdu. Hə birinci kişinin qozunu da buna qoydular. Və oldu qoz balayı qoz.

## Ağız duası

Bir gün bir taciri ehsan çağırmış idilər. Nahar edib qurtarandan sonra qonaqlara əl suyu gətirdilər ki, əllərini və ağızlarını yusunlar. Qaidə belə idi. Ən əvvəl gərək ki, molla yuya idi. Molla ağzını yuyanda bir ağız duası oxudu. Bu dua da tacirin xoşuna gəldi. Sonra isə molla ilə görüşdükdə o, duanı ondan öyrəndi.

Nə isə... Tacir xörək yeyən zamanda bu dua onun yadına düşməzdi ki. oxusun. Bir dəfə bu tacir ayaqyolunda ikən bu dua bunun yadına düşdü. Və başladı ağız duasını ayaqyolunda oxumağa. Bunun bir çoxbilmiş nökəri vardı. Nökər gördü ki, ağası zaxotda ağız duası oxuyur. Nökər gülə-gülə bərkdən dedi:

– Ağa! Duan düzdür, əmma deşigi itirmişsən.

## Muşduluq

Bir kənddə bir kişinin arvadı doğmuşdu. Qomşunun uşağı yügürüb bu kişinin yanına gəldi və dedi:

– Əmi! Muşduğulumu ver, arvadın oğlan doğdu.

Bu kişi çox xəsis olduğu üçün pul vermək istəmədigindən oğlana dedi:

– A balam, arvadın peşəsi doğmaqdır. Burada təəccüblü bir iş yoxdur ki. əgər gəlib desəydin ki, qardaşın doğub, onda bu təəccüblü ola bilərdi. İmdi mən sənə nə muşduluq verim?

## Qələm düşmən əlindədir

Bir nəfər şeytanın əksini çəkib divarlardan asmışdı. Böyləki cırım-cındır və pis sifətli idi. Burnu uzun, bir gözü də kor idi. Bir nəfər də buna tamaşa edirdi. Tamaşa edən adam yanına baxıb gördu ki, bu təmiz paltarlı gözəl bir şəxs də bu əksə tamaşa edir. Bar az baxdıqdan sonra birinci kişi xəbər aldı:

– Balam, bu kimin şəklidir?

Kişi cavab verdi:

– Şeytanın şəklidir.

Və bu adam güldü. Dedi ki, şeytan mənəm.



Birinci kişi güldü və təəccüblə dedi:

– Yaxşı, sən ki, böylə gözəlsən, səni bu günə bəs niyə salıblar?

O gözəl oğlan bir az güldükdən sonra dedi:

– Qələm düşmən əlindədir.

## Xəbərçilik ev yıxar

Bir gün bir tacir Ərəbistana qul bazarına qul almağa getdi. Gördü bir gözəl qul satırlar. Xəbər aldı:

– Bu qulu niyə satırsınız? Bunun bədəni dürüst, özü gözəl, eybi nədədir?

Şəxs cavab verdi:

– Bunun çox bir eybi vardır ki, büsbütün gözəlliyini korlayır.

Tacir xəbər aldı:

– Nə eybi var?

Fəqət sahib cavab verdi:

– Xəbərçidir, söz gəzdirəndir.

Tacirin bu quldan sox xoşu gəldigi üçün fikir etdi ki, xəbərçilik bir şey dəgil, bən bunu ona tərgidərəm. Tacir qulu alıb evinə qayıtdı. Bu qul soq yaxşı qulluq edir idi. Ev adamları bu qulun xatirini çoq istəyirlərdi. Böylə ki, hamının əzizi olmuşdu.

Bir gün xanımın yanına gəldi. Xanım da bunun əhvalın soruşdu. Gördü qulun əhvalı xarabdır. Xanım:

– Sənə nə olub? Kim incidib?

Qul:

– Bəni incidən yoqdur. Əmma...

Xanım:

– Necə əmma. Tez ol de görüm nə olub.

Qul köhnə adətini başladı:

– Xanım, bəni bağışlayınız. Çünki bən sənin çörəgivi yeyirəm və borcumdur. Tez ol de görüm nə olub?

Qul:

– Xanım, sən ki böylə gözəl, heç bir yerində eybin yoq...bilmirəm ağam niyə səni evdə qoyub gedib özgə qadına möhöbbət yetirir?

Xanım çoq acıqlandı və dedi:

– Sən haradan bilirsən?

Qul:

– Onları bu gözlərim ilə bir yerdə görmüşəm. İmdi sən bu işə bir çarə tapmalısan.

Xanım:

– Əgər bilirsən, de!

Qul:

– Deyərəm. Ancaq səbr etməlisən və heç kəsə də bir söz söyləməməlisən.

Xanım:

– Xatircəm ol, demərəm.

Qul:

– Sən bir iti ülgüc taparsan. Gecə ağa yatanda gedib onun boynun ardından bir az tük qırxıb gətirərsən bənim üçün. Bən də dua yazaram. O zaman ağa o qadından sovuyar.

Xanım:

– Çoq yaxşı.

Qul sonra ağanın yanına gəlir. Ağası gördü qulun əhvalı yoxdur. Və xəbər aldı:

– Sənə nə olub belə bikeyfsən?

Qul:



– Bənə bir şey olmayıb. Əmma... sənə...

Ağa:

– Bənə nə olub, de görüm?

Qul:

– Ağa, deyərəm, qorxuram acığın duta

Ağa qışqıraraq:

– Tez de görüm, nə olub?

Qul:

– Ağa xanımın oynaşı var.

Ağa:

– Sən haradan gördün və haradan bildin?

Qul:

– Bən çoqdan bilirəm, amma danışmırdım. Sözü bu ediblər ki, səni gecə öldürsündər.

Ağa:

– Əşi nə deyrisən?

Qul:

– Vallahi ki, doğru deyirəm.

Ağa axşam evə gəlib şamını etdi və getdi yatmağa. Amma yatmamışdı, gözləyirdi. Gördü ki, gecənin bir aləmində arvadı əlində ülgüc içəri girdi. Ağa orayı belə gördükdə qan başına vurdu. O saat duraraq arvadını vurub öldürdü.

Aləm qarışdı bir-birinə. Səhər arvadın adamları gəlib bu kişini öldürdülər. Və kişinin adamları başladılar arvadın adamları ilə davaya. Hər iki tərəf qırılıb çatılaraq tumbur oldular. Böylə ki, hər iki tərəfin əqrabasından bir rihayət qalmadı.

## Tamarzı

Bir gün bir baqqal dükanın qabağında bal boşaldırdı. Bir nəfər şəxs də oradan keçirdi. Gördü ki, baqqal bal boşaldır.

Dayandı və baxdı bala yedi çörəgi. Axırda çörəgi qurtardı. İstədi ki, getsin. Fəqət baqqalın fikri bu kişidə idi. Baqqal kişini saxlayıb dedi:

– Ay kişi, balın pulunu ver!

Kişi bir az baqqalın üzünə baxdıqdan sonra dedi:

– Aç əlivi!

Baqqal əlini açdı. Kişi isə əlini yumurulayaq baqqalın ovcuna qoydu.

Baqqal baxıb ovcunda bir şey görməyib dedi:

– Ay kişi. Sən bəni ələ salmısanmı?

Kişi dedi:

– Bən səni nə ələ salıram, sən bəni ələ salırsan. Elə bal yeməgin böylə də pulu olar.

Nə keçəl bu küçədən keçər,
Nə də o ox o halqadan keçər

Bir padşah gözəl bir qızı vardı. Bu qız üçün çox yerdən elçi gəlmiş idi. Qızı istəyənlər şahzadələr idi. Şah vəzirinə dedi ki. necə edək ki. heç kəs bizdən inciməsin?

Vəzir:

– Padşah sağ olsun, əmr verin meydançada bir ağac basdırılsın və o ağacın da başında halqa asılsın. Nər kəs o halqaya ox atıb oxu o halqadan keçirsə, qızı ona verərsən.

Padşahın bu təklifdən xoşu gəldi və bunu əmr etdi. Meydana halqalı ağac sancıldı və camaat oraya cəm oldu. Şahzadələr də gəldilər.

Bir nəfər keçəl şəxs gördü ki, şəhərin meydançasında izdiham var. Oraya yügürüb soruşdu nə olubdur ki. camaat buraya toplaşıb?

Ona cavab verdilər:



– Hər kəs ox atıb ağacın başındakı o halqadan keçirsə, padşah qızını ona verəcəkdir.

Keçəl soruşdu:

– Olar ki. bən də atım?

Dedilər:

– Olar.

Keçəl oxu kamana qoyaraq, nişan alıb atdı. Ox da gedib halqadan keçdi. Padşah məəttəl qalıb vəzirdən tədbir istədi. Vəzir dedi:

– Qurbanın olum, bir dəfə atmaq şahzadələr üçündür. Qara adam gərək iki dəfə atsın. Əgər oxu bir də halqadan keçirsə qız onun olar.

Keçələ dedilər əmr böylədir. Bir də at. Əgər halqadan keçsə qız sənindir.

Keçəl çox fikirdən sonra dedi:

– Ay qardaşlar, nə keçəl bu küçədən keçər, nə də o ox o halqadan keçər.

Keçəl əlini başına uzadıb dedi ki, qurbanın olum, nə verəcəksən ver, çıxım gedim.

Padşahın keçəldən çox xoşu gəldi, keçələ istədigini verdi. O da alıb gedi.

### Pinəçi Məmi

Bir gün bir ölkənin padşahı ölür. Orada böylə bir qaidə var idi. Dövlət quşu deyilən bir quş uçurdardılar. Bu quş hər kəsin başına otursa idi o şəxsi o ölkədə padşah tikərdilər.

Camaat şahlıq meydançasına yığılıb dövlət quşu uçurdular.

O cümlədən o şəhərin bir pinəçi Məmişi var idi. O da bir tərəfdə dayanıb tamaşa edirdi. Quş birbaş gəlib Məminin

başına qondu. O saat yapışdılar Məminin yaxasından ki gəl padşah ol. Bu yazıq bir belə çığırdı, bağırdı, yalvardı, yaxardı, ay kişilər, bəndən əl çəkin, bəndən padşah olmaz.

Olmadı... dedilər olmaz, sən gərək padşah olasan. Bu yazığın əlacı kəsilib razı oldu. Məmi əmr verdi:

– Ölən padşahı yuyun, gətirin mənim hüzuruma.

Meyidi yudular, gətirdilər bunun hüzuruna. Məmi meyidin kəfənini açıb, ağzını qoyur meyidin qulağına. Bir söz deyir və əmr verir ki, aparsınlar basdırsınlar.

Bunu basdırıb qayıdandan sonra bundan xəbər alırlar:

– Meyidin qulağına nə dedin?

Məmi cavabında deyir:

– Onun qulağına dedim ki, əgər o dünyadan səndən xəbər alsalar ki. filan ökənin əhvalı necədir? Sən deyərsən necə olacaq? Bir ölkənin ki, padşahı pieəçi Məmi olsun, vay o ölkənin halına

## İt bilir dağarda nə var

Bir dilənçi küçə ilə gedərkən bir i gəlib başladı buna hürməyə. Dilənçi iti nə qədər qovdusa. İt əl çəkmədi. Dilənçinin çiynində bir dağarı vardı. Dağarı fırladıb itin sağrısına çəkdi. Dağar itə dəgən kibi it iç palan zingildəyə-zingildəyə qaçdı. Bir nəfər bundan soruşdu:

– Balam, bu dağarın içində nə vardı ki, itə buran kibi belə zigildəyərək qaçdı?

Dilənçi cavab verdi:

– İt bilir dağarda nə var.

Deməyinin, dağardakı daş imiş.



## Dalağa qane olmayan pişik qənarədən asılı qalar

Bir gün bir qəssab küçədən keçərkən gördü ki, bir yazıq pişik divarın dibində acından miyoldayır. Qəssabın bu pişiyə yazığı gəlib düşündü ki, bunu apararam dalağdan, cigərdən verərəm kökələr. Dükandakı siçanları da dükanda qoymaz. Pişigi dükana gətirdi. Pişik bir neçə gün burada qalıb, yeyib, içib əmələ gəlmişdi.

Bir qəssab ələri satıb təzə ətləri şapalayıb, qənarədən asmışdı. Və pişigi də dükanda qoyub dükanı bağlayıb gemişdi.

Pişik ətlərə baxıb dedi ki, dalağ. Cigər yeyincən qənarədəki ətlərlən yeyərəm.sahibim nə biləcək.

Atlandı ki, qənarədən ət yesin. Pəncəsi ədən rədd olub boğazı keçdi qənarəyə. Hə çırpındı xilas olsun, olmadı. Pişigin canı çıxdı və qənarədən asılı qaldı.

Səhər qəssab gəlib dükanı açarkən nə gördü? Gördü pişik asılıb qənarədən. Onda qəssab dedi ki, ey dalağa qane olmayan pişik, qənarədən asılı qalarsan.

## Papaqçı

Bir nəfər müştəri papaqçıya tikdirirdi. Papaqçı bunun başını ölçüb dedi:

– Balam, papağın nə rəng olsun?

Papaq tikdirən dedi ki. papağın rəngi nə qara, nə ağ, nə boz olsun və nə də çal.

Papaqçı dedi ki, baş üsə.

Müştəri soruşdu ki. hə, usta, nə vaxt gəlim aparım?

Usta cavab verdi:

– Nə cümə gəl, nə şənbə gəl, nə yek şənbə gəl. Nə düşənbə gəl, nə seşənbə gəl, nə çahar şənbə gəl, nə də cümə axşamı gəl.

Papaq tikdirən dedi:

– Bütöv həftə günlərinin heç birində gəlməyim, bəs haçan gəlim?

Usta:

– haçan sən papağın rəngini deyəndə mən də günün adını deyərəm.

Arvadı yaxşı olanın günü də xoş keçər

Bir gün Şah Abbas dərviş libasında şəhəri seyr edirdi. Bir dülgər dükanına rast gəlib gördü ki, bu ustanın əli, ayağı, üstü, başı tərtəmiz, keyfi kök oxuya-oxuya işləyir. Şah buna yaxınlaşıb dedi:

– Usta, maşallah olsun, keyfin çox kökdür. Yəqin bir səbəb var bu şadlığuva?

Usta:

– Ağa dərviş, niyə olmasın? Axşam evə gedən kibi, arvadım yügürür qapıya, qollarını dolayır boynuma, bəni öpə-öpə aparır otağa. Əlimi-ayağımı yuyur, altıma döşək, dalıma yasdıq qoyur. Və dəvrişin nə olduğundan bişiribsə, gülə-gülə yedirdir, başımı qoyub yatıram. Səhər də bəni can-can ilə yola salır. Əlbətdə bu cür yaxşı arvadı olanın günü də xoş keçər.

Şah özi-özinə mən sənin fərəkəligivə gör nə tor od salaram.

Şah evinə gələrək, əmr edir ki, buna bir küpəgirən qarı çabırsınlar. Qarını tapıb gəirirlər. Şah o qarıya əmr edir gedib o xarraın evini tapsın, onun arvadını tovlayaraq onun üçün alsın.

Qarı gedib xarratın evini tapır və başlayır dilənçi kibi zarlamağa:



– Ay ev yiyəsi, bənə bir parça çörək ver, acından ölürəm.

Haman arvad həyətə çıxdı. Qarını görərkən yazığı gəldi. Çörəkdən-zaddan qarının qabağına qoydu. Qarı doğrudan-doğruya bu qadının gözəlliyinə aşiq oldu. Qarı o yana bu yana baxmağa başladı. Arvad dedi:

– Ay qoca, niyə belə təəccüb evə baxırsan?

Qarı hiyləsini başladı:

– Sən ki belə gözəlsən, sənin ərin kimdir?

– Heç, kasıb bir kişi. Nə üçün xəbər alırsan, ay qarı nənə?

Qarı dedi ki:

– Sən heyifsən, sənin bu saat yeyib içən, giyən, gəzən vaxındır. Nə üçün bu donuz daxmasına girmisən?

Arvad:

– Bəs nə edim, ay qarı nənə?

Qarı:

– Qadan alım, acığın tutmasa, sənə bir söz deyərəm.

Arvad:

– Ay qarı nənə, de görum!

Qarı:

– Doğrusunu deyim, bəni buraya padşah göndərib. Özü də səndən ötəri aramı yoxdur. Bilmirəm səni harada görüb sənə aşiq olub. Sən də fırsəti fot eləmə. Qoca, kasıb kişidən sənə nə olacaq?

Nəhayət arvadı tovlayıb yoldan çıxardı. Arvad da padşaha gəməgə razı oldu. Qarı dedi:

– Mən gedirəm, iki gündən sonra gələrəm bənə axır sözünü deyərsən.

Qarı çıxıb gedi

* * *

Gözü çaş olan bir şəxs bir göz həkiminin yanına gedib dedi:

– Biri iki görürəm, bu səbəbə görə *halım yaman* keçir.Amandır mənə bir əlac eylə!

Həkim başını qaldırcaq sual etdi:

– Sizin məgər dördünüz də bu illətə mübtəlasınız?

Çaş adam fikrə gedib dedi:

– Əcəb həkim tapmışam, mən biri iki görürümsə, o biri dörd görür.

* * *

Bir ağa nökərini tənbeh edib bərk tapşırmışdı ki, hər gün sübh tezdən durduqda diqqət edib iki qarğanı bir yerdə gördükdə tezcə ona xəbər versin. Guya iki qarğanı bir yerdə görmək xeyir əlaməti imiş.

Nökər bir gün iki qarğanı bir yerdə görüb dərhal ağasına xəbər verdi. Ağa qarğaları görmək üçün bayıra çıxınca qarğaların biri uçmuşdu. Tək bir qarğanı gördükdə ağa qeyzlənib nökəri həddən ziyadə söyüb döydü. Əz qəza o gün ağa üçün dostlarının birindən hədiyyə gəlmişdi. Nökər dərhal hədiyyəni alıb ağası qənşərinə qoyub dedi:

– Ağa! Siz qarğanı tək gördüyünüz üçün böylə bir hədiyyə aldınız. Hərgah mənim kimi iki qarğanı görmüş olsaydınız çox kötək yeyəcəkdiniz.

## Xan və vəzir

Nəql edirlər ki, bir xan əyan və ərkani dövlətilə məclisdə oturmuşdu. Əsnayi-söhbətdə xana ərz etdilər ki, dəllək



gəlibdir. Xan buyurdu ki, gəlsin. Dəllək içəri girdikdə adət üzrə xana ayna verdi ki, xan salavatı-şərifə gətirsin. Xan aynaya baxıb başladı ağlamağa. Məclisdə bulunan qoca bir vəzir bu hadisəni gördükdə başladı ağlamağa. Xan və vəzir hər ikisi bir müddət ağlaşıb ağlamaqdan fariğ oldular (dayandılar). Vəzirin ağlamağına xan təəccüb edib dedi:

– Vəzir! Mən aynaya baxmaqda sifətimi bəd və çirkin görüb ağladım ki, xudaya, cah və cəlalı sən mənə vermisən, bu dövlət, bu təntənə sənin mərhəmətindir! Amma mənim sifətim bu busata layiq deyil, kaş ki, mənə bir xoş sifətdə mərhəmət edəydin! İndi de görüm vəzir, sən niyə ağladın?

Vəzir ərz etdi:

– Əgər sən ömründə bir kərə o pis sifəti görmək ilə bu qədər qəmgin oldunsa bəs mən bədbəxtin halını gör ki, qırx ildir ki, sənə qulluq edib hər sabah o sifəti görürəm.

# NAĞILLAR

## ÇÖMÇƏNİN BAŞI

Bir neçə kəndli axşamdan öz aralarında söz qoydular ki, səhər meşəyə odun qırmağa getsinlər. Bunlardan biri:

– Təvəqqə edirəm meşəyə gedərkən gəlib,məni oyadasınız, çünkü mənim yuxum çox bərkdir! Bunu deyib yoldaşlarındam ayrıldı və evlərinə gəlib baltasını itilədi.

Gecənin bir vaxtı idi.Yoldaşıarı gəlib bayırdan qışqırdılar və dedilər ki,

– Biz getdik,sən də gəl!

Bu da cəld yuxudan oyandı və tələsdiyindən yanılıb balta yerinə bir böyük çömçə götürərək yoldaşlarının dalınca meşəyə yüyürdü. Gəlib meşəyə çıxdısa da yoldaşlarını tapa bilmədi.

Hələ hava çox qaranlıq idi.Nə idisə, yalnız olsa da odun qırmaq üçün ağaca çıxdı və bismillah deyərək əlindəki çömçəni yuxarı qalxızıb ağaca sapladı. Bu halı görən kişi özözünə dedi ki, bu nə bədbəxtlikdir ki, bu gün məni tutmuşdur?

Kişi aşağı düşüb baltasının başını nə qədər axtardısada tapa bilmədi. Ona görə nəzir eylədi ki, əgər baltamın başını taparsam Allah üçün bir çanaq buğda verərəm. Bu nəziri edib, yenə baltasının başını axtarırdı ki,birdən gözünə çömçənin başı sataşdı.Kişi bunu götürüb üzünü yuxarı tutdu və dedi ki:

– Ey Allah!Mən baltamın başını tapmamış sən buğda üçün çanaq göndərdin!



## DƏVƏ ZƏMİDƏ

Bir dəvə zəmiyə girib oradaotlayırdı. Zəminin sahibi gəlib gördü ki, dəvə taxılı yeyir və basıb xarab edir. Bu kişi zəminin kənarında durub fikir edirdi:-Nə təhər etsin ki, dəvəni zəmidən çıxarsın, amma zorba ayaqları ilə taxılı tabdayıb xarab eləməsin. Kişi nə qədər fikir elədisə, buna bir əlac tapa bilmədi. Bütün kənd ahali qoca cavan bir-bir gəlib bu kişinin başına yığıldılar və onlarda bu barədə fikir etməyə başladılar. Bir çox danışıq və məsləhətdən sonra hamısının rəyi bir yerə gəldi ki, dəvəni bir yerə yıxmalı və ayaqlarını bir kəndirə bağlayıb ona bir necə kəl qoşaraq sürüyüb bayıra çıxarmalıdırta ki, dəvənin zorba ayaqları taxılı tələf eləməsin. Hamısı bu qərarı verdilər və dedilər ki, bunun başqa çarəsi yoxdur. Odur ki, kəndlilər bu qayda ilə dəvəni sürüyüb zəmidən bayıra çıxardılar, amma taxıl... tapdalanib tələf oldu.

## GÜLİ-QAHQAH

Bir qoca öz arvadı ilə yoxsul-fağır halda yaşayırdılar. Qoca hər gün səhər gecədənnən çıxardı dağın başına, günortayacan bir şələ odun qırar, gələr bazara,axşamacan satar və axşam da bir parça çörəyi qoltuğunda evinə gələrdi. Qoca odunçuluqdan bərk yorulmuşdu.

Bir gün arvad dedi:

– Ay kişi, haçanacan belə fağır-yoxsul bir halda dolanacağıq. Sən də bir dünyaya çıx, bəlkə, Allah kərimdir, bizi bu əziyyətdən çıxardasan?

– Kişinin ürəgində söz qeynəyirdi. Bu fikirnən də yatdı. Yuxuda gördü ki, bir yanında gün, bir yanında ay, sinəsində də ulduz var. Durdu ayağa, dedi:

– Arvad, mənimçin çörək bağla. Bir yuxu görmüşəm, mən yuxumun dalınca gedəcəgəm.

Bir xeyli getmişdi, bir Məhəmməd adda çobana rast gəldi. Çoban bunnan hal-əhval soruşur:

– Hara gedirsən, qoca?

– Yuxu görmüşəm, yuxumun dalınca gedirəm.

Çoban bunu bir az dindirdi.Bu da yuxusunu danışdı. Çoban dedi ki, iki qoyun verim, bu yuxunu sat.

Qoca ürəgində deyir:məni ələ salır.

– Üç qoyun verirəm.

– Məni ələ salma.

– On qoyun verirəm.

– Özüvü ələ sal.

– Bax, ağac ataram, sürünü yarı bölərik.Odunçu dedi ki, bu kişi məni ələ salır, mən də razı olacağam.

– Hə, – dedi, – satdım.

– Aldım!

Çoban ağacı atdı,qoyunu yarı böldü:

– Ha qoca, hansını istəyirsən, al apar.

Qoca öz qoyunlarını götdü getdi, təpdi həyətə. Arvad soruşdu:

– A kişi, bu qoyunları oğurramısan?

Dedi:

– Vallah, yuxu satmışam.

Arvad inandı, qoyunları satdı, pulun yeməgə başladı!

Çoban yerdə qalan qoyunları satdı-sovdu.Çomağını qoydu çigninə, yola düşdü dəşti-biyabanə, gəldi çıxdı bir



şəhərin qırağına. Bu, şəhərə girməkdə olsun, darvazadan da qapını bağlamaqda, bı illah eylədi, darvazadan qulaq asmadı, çarəsi kəsildi. Qapıdan bir az yan bir yerdə düzülmüşdü, ta səhəri açsın. Gecədən bir az keçmişdi ki, at ayağının səsi gəlir. Başını götürdü gördü ki, bir nəfər atdı gəlir: yedəgində də bir yəhərri at var. Atdı gəldi qapuya çatdı.O yana baxdı, bu yana baxdı, gördü ki, bir xəbər-ətər yoxdu. Çox oturdu, yuxusu tutdu, yatdı. Çoban durdu ayağa ,gördü oğlan yatıb, dedi:

– Bu doğu, görək axırı nə olar.

Cilovları kəsdi, çəkdi özünü, qapunun bu biri tərəfində oturdu. Bir xeyli keçənnən sora, divar üstə bir qız görünür.

Qız çağırır:

– Əmioğlu, oyaxsan, yatmısan?

Çoban hay verir ki, əmiqızı, oyağam. Deyir ki, tut, gəldi.

Çoban qucağın açıb gördü bir dənə heybə dolu ağzınacan. Heybəni götdü, bağladı atın qancığasına.

– Əmioğlu, tut, gəldim.

Çoban açdı qucağın qızçın. Qız düşdü bunun qucağına. Çoban götdü qızı, qoydu atın üstünə.

– Əmioğlu, sür, o vaxt dögü.

Çoban dəgənəgini qoydu qucağına, atı sürdü. Bir xeyli gedənnən sonra qıza baxdı.Əmisioğlu həmişə bununnan hənək mazağ edərdi, qıdıxlardı, amma bu heç yaxın düşmür. Hələ atını bir az aralı sürür. Diqqətnən baxdı, gördü ki, belə çobanın biri dəgənəgi də qucağındadır.

– A kişi, sən kimsən?

– Mən Məhəmməd çoban.Qoca kişinin yuxusunu almışam, onun dalınca düşüb gəlmişəm ki, sən mənə tuş gəlmisən.

Qız da deyir ki, mən də bu şəhərin padşahının qızıyam. O da mənim əmimoğlu idi. Məni istəyirdi atam vermirdi. Danışdığımız heylə idi ki, bu gecə gəlsin, məni aparsın.Hindi də onu ölüm yuxusu tutdu, mən də sənə qismətmişəm.

– Sür çoban!

İki gün getdilər, gəldilər bir şəhərin qırağına qəbiristanlığa tuş gəldilər. Qız deyir ki, Məhəmməd, mən burda sovməədə (sovməə-hücrə,mağara,sığınacaq) gizdənərəm, sən get, şəhərə. Bir dənə böyük ev tut! Lazım olan şey-meyi də al. Gəl, məni gecəynən apar, ta ki məni görməsinnər.

Çoban getdi, bir ev tutdu. Gərəkli şeylərin hamısını ta döşəməsinəcən aldı. Sora gəldi. Qız dedigi kimi, gecəliynən onu apardı. Qoydu evə. Bunlar nökər, naib tutub, bir xonca hazırrayır. Xonçanın üstünə bir ləl qoyub deyir:

– Məhəmməd, apar padşahın hüzuruna, heç bir şey demə. Bir az otur, sora xudafis eylə, gəl!

Bu da xonçanı verir nökərin başına, özü də düşür yanına, aparır padşahın qulluğuna. Padşah xonçanı açıb gördü ki, yeddi yaşında uşağı göyə atsın, altını qızılla doldursun, bu ləlin qiyməti olmaz. Heç xəzinəsində belə ləl yoxdur.

Bir neçə gün sora Məhəmmədin arvadı gənə bir xonça bağlayır, bir ləl qoyur, verir nökərin qoltuğuna, çoban munun yanıncan.

Padşah açır baxır görür ki, həmən o ləldən birisi də gəldi. Oturdular, bir az söhbətdən sora çoban deyir ki, biz qərib adamıq,gəlmişik süzün vilayətə. Bizə bir parça yer versöz, öy-eşik salarıq.

Padşah buna öz imarətlərinnən təklif edir ki, hansın da xoşdıyırsan, gəl otur.



Qız çobana demişdi ki, padşah nə qədər sənə öz öylərin bağışlamaq istəsə,deginən, yox.

Çoban deyir ki, padşah, bizə bir parça yer ver.Əlüvün kölgəsi bizim üstümüzdə olsa, yetər.Padşah deyir ki, çıx, şəhərin ətrafında harda bəgənsön,oranı verərəm. Çoban gəlir, qıznan bir yerdə ətrafı gəzirlər. Qız bir yeri bəgənir, ənini, uzununu ölçür, verir çobana və deyir ki, get ver padşaha, nə qədər "bağışladım" desə, qəbul eyləmə!Padşaha qəbələsin (Qəbələ-qəbalə,qəbz) yazdır,gəl pulunu apar.

Çoban gəlir, ənini, uzununu yrin deyir. Padşah bağışlamaq istir. Çoban dəgərini təklif eyləyir, ta ki,padşahın dilinnən bir kağız alır, gəlir.Sabahı qız bənnəni, fələni tökdürür. İki-üç aya bir imarət tikdirir ki, heç padşahcun müyəssər olmazdı.

İmarət bitdikdən sora köçdülər, getdilər,əgləşdilər öylərində.

Bir neçə günnən sora padşahın qonaqlığa çağırır ki, nə badə padşahı qabağa salasan, əvvəlcə özün gəl, birdən həyətdə başıaçıq ollam. Padşah məni görsə, dayı sənün əlünnən çıxaram.

Çoban padşahçün gəldi, onu öyünə aparır, qapıya gəlib çatanda çoban, padşah,buyur, dedi:

– Padşah qapudan girəndə arvadı gördü:

– Vay, məni sancı tutdu!

– Padşah, nə oldu?

– Ölürəm.

Padşahı apardılar yuxarı, bir az toxtadı. Yedilər, içdilər. Padşah genə də hıqqana-hıqqana öyünə getdi.Arvad yapışdı çobanın yaxasınnan:

– A kişi, sənə demədim ki, padşahı qabağa salma! Bax, o sancı mənim sancımdı. Hindi, sabah səni apatdıracaq, sənə bir çox qulluğ təklif eyləyəcək. Nə badə boynuma tutasan!

Çoban dedi:

– Heç tutaram!?

Padşahın bir ağıllı vəziri vardı, padşah bunuylə qöftgu (Göftgü-söhbət, danışıq, məsləhət) eylədi:

– Vəzir, mən necə eyləyim ki, çobanın başın batırım?

Vəzir dedi:

– Padşah, sən özüvü salarsan azara, bizdə onu madyanın dalıycan göndərərik. Bu yol gedər-gəlməz yoldur.Sabah olacaq padşah çobanı istədi.Çoban gəldi, gördü ki, padşah yorğan-döşəkdədir.

Vəzir dedi:

– Məhəmməd çoban! Bax padşah azarlayıb, biz də onunçun həkim gətirmişik. Həkim dedi ki,padşahçun çil madyanın sütünnən gəlsin, içsin, yaxşı olsun.

– Kim getsin?

– Kim getsin?

Çoban dedi ki, mən gedərəm!

Çıxdı bayıra, oldu peşiman. Başına vura-vura döndü evinə. Arvad balxonda durmuşdu, gördü ki, kişi sallana-sallana gəlir. Aşnamın kefi özündə dögü. Kişi içəri girəndə arvad bunu qabaxladı.

– Hə,gənə də tələ çərtmisən?

Kişi dedi ki, ay arvad, bir qələtdir, eyləmişəm. Padşah azarrayıb, ona da çil madyanın sütü olmasa sağalmaz. Mən də dil verdim ki, mən gedib çil madyanın sütünnən götürərəm!

Arvad bir güldü.



– A kişi!-dedi,-bu səfər sənə yolunu öyrədəcəyəm. Nə badə munnan sora belə işləri boynuva çəkəsən. Bax, al bu pulu, get bazardan bir qətir al ki, tuluq da çəxir al. Min qətirin dalına, düş bax bu soldakı yola, get. İki günnən sora, qabağuva bir meşənin içində üç yol çıxar. Nə sağa get, nə sola, tüşərsən yolun ortasıyla gedərsən.Qabağuva bir dəryanın qırağında bir çərhovuz çıxar. Çeşmədən bu çərhovuza su axar tökülər. Çil madyan balasıyla günortalar dəryadan çıxıb hovuzdan su içər, sora bir oynaxlar və genə də özünü vurar dəryaya, qərq olar.O çeşməni bağlarsan, çəxiri axıdarsan çərhovuza. Nə badə çil madyan səni görsün, yoxsa atovu yandırar. Çil madyan dəryadan çıxar, çəxiri içər, məst olub düşəndə yəhəri vurar dalına, oturarsan üstünə, o qədər vurarsan ki, hər tükündən bir çeşmə açılsın.Onnan sora hara istəsən ora sürə bilərsən.

Çoban bazardan bir qətir ilə iki tulux çəxir aldı, getdi arvadı dediyi kimi eylədi: bir meşəyə çıxır. Meşə içindəki yollardan ortasını tutub gedir. Qabağına bir çərhovuz çıxır, gəlir əvvəlcə qətiri gizlədir, çeşməni bağlayır, çəxiri əndərir hovuza. Günorta vaxtına gələndə dərya təlatümə gəlir, sular yarılır, çil madyannan balası dəryadan çıxır. Çil madyan gəlib ağnayır, kişnəyə-kişnəyə bir oyana gedər, bir bu yana gedər, gəlib qablanır hovuza, o qədər içər ki, məst olub düşür. Çoban öz marığınnan baxırdı. Çıxdı, topuxlarını çəkib bərkidib yəhəri vurdu! Mindi atın dalına, onun dalına o qədər vurdu ki, qorxudan hər tükündən bir çeşmə açıldı.Mindi çil madyanın dalına, sürdü.

Arvad külafirəngidən baxırdı, gördü ki, çoban Məhəmməd gəlir, çil madyan altında, balası da yanında.

Sabah olu, çil madyanın sütünnən sağıb apardı. Padşah sütü aldı, dedi ki:

– Mən nə bilim ,bu at sütüdü, eşşək sütü, keçi sütüdü, nədir? Gedib hardansa tapıb gətirmisən.

Məhəmməd dedi ki:

– Sən çil madyanın sütünnən deyirsən, mən özünü də gətirmişəm, inanmırsan, adam göndər, getsin baxsın.

Padşah əlaltınnan adam göndərir. Gəlib xəbər gətirirlər ki, evin yıxılsın, çil madyanı gətirib, balası da yanında.

Padşah deyir:

– Vəzir, tədbir.

Vəzir deyir ki:

– Padşah! Tədbiri yoxdur. Sabah gələr, çobana deyərik, padşahçın Güli-qahqahın gülünnən birini gətirərsən, padşah yaxşı olar.

Sabah olur, Məhəmməd gedir padşahın yanına, görür ki, padşah nağğıllayır.

– Padşah, genə nə var?

– Nə olacax, ta Güli-qahqahın ağzınnan bir dəstə gül gəlməsə, sağalmıyəcəgəm.

– Kim getsin?

Məhəmməd deyir ki:

– Mən gedərəm.

Genə çıxır bayıra, olur peşiman.Arvad balxondan baxırdı. Gördü ki, Məhəmməd gəlir. Amma necə? Bir ayağı gəlir, o biri ayağı gəlməyir. Kişi gəldi içəri. Arvad onu qabaxladı.

– Ay kişi,genə nə tələ çərtmisən?

– Ay arvad, bir qələtdir, eyləmişəm.Padşah deyir ki, həkim gətirmişəm. Gərək Güli-qahqahın kolunnan olsun, iyləyəsən, sağalasan...Hindi, arvad, demişəm də!

Arvad buna qapaz, buna qapaz.



– Ay zalım oğlu, bilmirsən ki, padşah boşuvu əkmək istəyir, məni özü için alsın. Dayı yazıqsan, bu səfər də yolunu diyəcəgəm, nə badə bunnan sora boynuva alasan ha!

– Baş üstə, arvad.

– Bax, minərsən çil madyanı,gedərsən. Qabağuva üç yol ayrıcı gələr. Gedərsən bu yolun soluyla.İki gün gedərsən, qabağuva bir meşə çıxar. Meşəynən gedərsən, qabağuva bir dərya çıxar. Dəryaçanın yanında çil madyanı gizlədəsən, özünçün də bir kodan misal qayırarsan. İki göz yeri qoyarsan. Günorta çağı dəryaçanın üstünə üç gögərçin gələr.Birisinin adı Güli-qahqahdır, hər haçan güldü, ağzınnan bir gül düşər. Gül öylə iy verir ki, dünyada misli olmaz. Olar üç bacıdı, olar oynar, tazadan suya girər. Baxarsan, güləndə hansının ağzınnan bir dəstə gül düşdü, onun çildini gətirərsən, gizdədərsən, o çaxacan verməzsən ki, o deyər, anamın süti haqqı gedərəm.

Çoban mindi çili, düşdü yolun soluna, getdi, çıxdı arvadının dedigi dəryaçanın qırağına, çil madyanı gizdətdi. Özü için kodan misal qayırdı, üstünə də haşavar töküir, göz yeri qoyur ki, baxmağa. Günorta çağı üç gögərçin gəlib dəryaçanın qırağında cildini soyunur. Üç qız olurlar. Məhəmməd görür ki, bunun arvadı buların yanında heç qaravaş da dögü. Məhəmməd dedi ki, kaş ki, bulardan birisini aparaydım, tamaşa eyləyərdi, gördü ki, üç bacı çimdilər, gülüşdülər, birisinin ağzınnan bir dəstə gül düşdü dəryaçaya. Məhəmməd yavaşcığnan çıxdı, onun cildini gətirdi, genə girdi yerinə.

Qızlar çıxdı, ikisi geyindi, üçüncüsü o yana baxdı, bu yana baxdı. Gördü ki, cildi tapılmayır. Dedi:

– İnssən,cinssən, bəni-adəmsən, hər nəsən, gəl mənim paltarımı ver.

Məhəmməd çıxdı dedi:

– Ey qız, çoxdan bəri sənin sorağındayam, sənin için göydə gəzirdim, yerdə əlimə düşmüsən!

Qız dedi ki:

– Cildimi ver sənnən gedərəm.

Məhəmməd çoban dedi ki:

– Deginən anamın sütü haqqı sənnən gedərəm!

Sora qız gördü ki, verməyəcək.Dedi ki:

– Anamın sütü haqqı sənnən gedərəm!

Məhəmməd çoban Güli-qahqahın cildini verdi özünə. O da geyindi, oldu bir gögərçin. Aldı qucağına, mindi çil atı, döndü evinə. Qırx günnük yolu iki günə gəldi. İki arvadnan kef çəkdi, ta ki otuz doqquz gün başa gəlincə ,Güli-qahqah güldü, danışdı və hər güləndə ağzınnan bir dəstə gül düşürdü. Qırxıncı gün Məhəmməd çoban iki dəstə gül götürdü, apardı padşahıçun. Padşah gülü aldı, iylədi, gördü, doğurdan, belə gül heç onun bağında yoxdu. Bildi, bu zalım oğlu əsl Güli-qahqahı tapıb.

– Məhəmməd çoban! Görəsən, hansı dərədən, dağdan bu güli yığıb gətirmisən. Mən nə bilim, bu gül Qahqahanın ağzınnan düşən güldü.

Məhəmməd çoban dedi ki:

– Padşah! Sən Güli-qahqahanın gülün deyirsən, mən özün gətirmişəm.İnanmırsan adam göndər gedib baxsın.

Padşah əlaltınnan adam göndərdi. Gəldi xəbər verdi, evin yıxılsın, Güli-qahqahanı gətirib! Sən əvvəlki arvada aşiq olmuşdun, Güli-qahqahın yanında o kənizligə yaramaz!

Bu xəbəri eşidən kimi padşahın sancısı daha da artdı.

– Vəzir, tədbir!Sancı məni öldürdü.

– Padşah sağ olsun, tədbiri yoxdu. Hər yerə göndərdin gəldi. Bir daha gedər-gəlməz yolum qalmış. Atovun dalınca



göndərmək. Səni atovun ruhu tutub. Onnan sənə xəbər götür-sələr, sən yaxşı olacaqsan.

Sabah Məhəmməd çoban padşahın yanına gedəndə böyük arvad buna dedi, nə badə boynuva bir şey alasan! Padşah səni bir yerə göndərsə,dayı mən sənə yol göstərə bilməyəcəgəm! Bu səfər padşah ikimizi də özünə alar!

– Yox, arvad, heç boynuma alaram,dəli dögürəm ki!

Məhəmməd çoban gəldi gördü ki, padşahın rəngi pozulmuş! Xəbər aldı, nə olub.

Padşah dedi ki:

– Rəmçi götürmüşdüm. Rəm atıb deyir ki, məni atamın ruhu tutub, bilmirəm atama nə olub. O dünyaya gedən yoxdu ki, onnan xəbər götürsün. Onu incidirlər ki, məni tutub.

– Mən gedərəm!

Çoban sözü dedi,oldu peşman. Gördü ki, dayı bu səfər işi pisdi. Üz qoydu öyə. Arvattar balxonnan tamaşa eyləyirdilər. Gördülər ki, kişi gələ bilmir. Ölüm-zülüm həyətə gəldi. Arvad bunu qabaxladı.

A kişi, genə tələ çərtmisən?

– Ay arvad, bu dəfə qələtdir eyləmişəm, dayı bir də belə qələt eyləmərəm. Hindi yolum qiyamətə tüşüb. Padşahı atasının ruhu nöş (nə üçün) tutduğundan xəbər götürən olmasa, onu buraxmayacaq.

Arvad dedi ki:

– Bu səfər mənim heç fənnim keçməz, padşah səni ölümə göndərir.

Güli-qahqah güldü, dedi ki:

– Oları sən düzəldibsən, buları da mən düzəldim. Get padşahdan qırx gün möhlət al. Sabah axşam padşah şəhərin qırağına odun yığdırsın, səni qoysunlar oların üstünə, eşələr-

sən vursunlar odu. Qırx günnən sora gəlib külü eşələrsən, çıxarsan, sən heç qorxma! Mən gəlləm, səni otun içindən çıxartaram!

Məhəmməd çoban getdi padşahından qırx gün möhlət aldı. Şəhərin qırağında onu odun qalağının üstünə qoyub od vurulmasını istədi. Dedi ki:

– Qırx günnən sora, padşah sağ olsun, atannan sənə bir namə gətirərəm.

Sabah axşam padşah hökm eylədi, meşədən odun daşıdılar, Məhəmməd çobanı qoydular qalağın üstünə, altınnan odu vurdular otu. Qız gəldi, göznən qaş arasında çobanı apardı. Otuz doqquz gün kef eylədilər,qırxıncı gün çatanda səhər ertədən qız bir kağız yazdı, verdi çobanın əlinə, apardı basdırdı külə, tapşırdı ki, padşah soruşsa ki, atamın ruhunu gördün? Deyərsən ki, atovu asmışdılar cəhənnəmin qapısından. Gedən də onu kötəkləyirdi, gələn də. Yüz tümən atovun borcu var. Deyir ki, oğlum özünü mənə yetirsin.

Padşah adam göndərdi, külü axtardı. Məhəmməd çoban özünü haçandı atdı, əlində bir parça kağızı.

– Bu nədir?

– Padşahın atasından namədir!

Bunu götürdülər.Naməni verdi padşaha, gördü ki, atası yazıb, yüz tümən istəyir ki, əzabdan qurtulsun.

Məhəmməd çoban dedi ki:

– Padşah, atovu gördüm, yazığım gəldi. Onu asmışdılar cəhənnəmin qapısından. Sən gedənəcən onu döyəcəklər.

Padşah yüz tümən götürdü, şəhərin qırağında odun yığdırdı, özünü qoydurdu odunların üstünə, dedi ki:

– Mən gedirəm atamın yanına. Qırx günnən sora gəlib məni burada axtararsız, çıxaram.



Vurdular padşaha otu, padşaha yandı!

– Qırx günnən sora gəlib axtardılar, kəllə çanağın bir yandan, əlləngələrini bir yandan tapdılar.

Vəzir-vəkir yığışdı. Məhəmməd çobandan ağıllısını görmədilər. Onu özlərinə padşah tikdilər. Yeni padşahın əvvəlki arvatdan – şah qızınnan bir qızı oldu.

Bir gün padşah Məhəmməd hərəmxanada yatmışdı, balasını da qoymuşdu sinəsinin üstünə. Bir yanında Güli-qahqah, bir yanında şah qızı yatmışdı.Yadına qocanın yuxusu düşdü, dedi ki:

– Ha, hindi yuxuma çatdım.

Bu cürnən allaverdi (Allaverdi-əlavə etdi) çoban Məhəmməd qocanın yuxusunun dalınca getdi. Axırda iki arvadınan, bir qizinan mətləbi-muradına çatdı. Onlar yedi, içdi, orda qaldı, mən də bu yana gəldim. O gün olsun ki, çatmayanlar çatsın, inşallah.

Bakı dastan firaş<br>
Nağıl qurtardı, qardaş.

## AĞILLI QIZ

Bir kənddə iki qardaş olurdu.Buların biri dövlətli,o biri isə kasıb idi.Kasıb kəndlinin bir qızı var idi.Dövlətli əmisi bu qıza bir buzov bağışladı.Qız buzovu yemləyib saxladı.Buzov böyüdü və inək oldu.Onun bir balası oldu.

Bir gün dövlətli kəndlinin qızları əmisi evinə qonaq gəldilər. Buzov böyüyüb inək olmağın və bir bir balasın olmağın atalarına xəbər verdilər.Dövlətli kəndli inəyin balasını tələb etdi və dedi:

– Mən sizə ancaq inəyin özünü bağışlamışam,törəyən balalarını bağışlamamışam.

Bunların arasına bəhs düşdü.Axırda hökm tutdular.Qazı dedi:

– Sizə üç sual verəcəm,hansınız yaxşı cavab versə,işi onun tərəfə kəsəcəm!

Kəndlilər razı oldular.Qazı dedi:

– Tapınız görüm dünyada ən iti gedən şey nədir?

Kəndlilər getdilər ki, fikir etsinlər və sabah gəlib cavab versinlər. Kasıb kəndli bikef qayıdıb gəldi. Qızı əhvalatı xəbər aldıqda atası dedi ki, qazı deyir ki, üç sual edəcəyəm, hər kəs yaxşı cavab versə, işi ona tərəf kəsəcəyəm. O üç sualın biri budur: ən iti gedən nədir? Qız dedi:

– Qəm eləmə, yat Allah mədəd kərimdir, axşamın xeyrindən, sabahın şəri yaxşıdır deyiblər. Sabah fikir edərik. Kəndli yatdı, sübh tezdən qız atasını oyadıb dedi:

– Dur get qazının yanına və deginən ki, dünyada hər şeydən iti gedən xəyaldır.

Kəndli yola rəvan oldu. Hər iki qardaş qazının hüzuruna gəldilər. Qazı dövlətli qardaşdan xəbər aldı:

– Tapdınmı dünyada ən iti gedən şey nədir?

Dövlətli kəndli dedi:

– Mənim atım!

Qazı gülüb dedi:

– Sən nə deyirsən?

Kasıb kəndli dedi:

– Hər şeydən iti gedən fikir və xəyaldır.

Qazı bunun cavabından ziyadə təəccüblənib dedi:

– Bunu sənə kim dedi?

Kəndli-qızım-deyib cavab verdi.



Qazı dedi:

– İ ndi tapınız görüm dünyada ən yağlı şey nədir?

Qardaşlar hər ikisi öz evlərinə getdilər. Kasıb kəndlinin qızı atasından soruşdu yenə qazı nə dedi:?

Atası dedi:

– Qazı deyir:dünyada ən yağlı nədir?

Qız-qəm eləmə, yat, Allah kərimdir, sabah durub fikir edərik!

Sabah tezdən qız durub atasını oyatdı və dedi:

– Get qazının yanına deginən ki, dünyada ən yağlı yerdir, hər bir şey yerdə bitir və əmələ gəlir.

Kəndli qardaşı ilə qazının yanına gəldi. Bular içəri daxil olduqda qazı xəbər aldı:

Dünyada yağlı nə olduğunu bildinizmi?

Dövlətli kəndli cavab verdi:

– Bəli, mən bildim, dünyada ən yağlı mənim qoçum var,odur!

Qazı gülüb kasıb kəndlidən soruşdu:

– Sən nə deyirsən?

Kasıb kəndli dedi:

– Dünyada ən yağlı yerdir, çünkü yerdə hər bir şey bitir və hər bir şey əmələ gəlir.

Qazı bunun cavabından çox xoşnud olub soruşdu:

– Buları sənə kim öyrədir?

Kəndli: Qızım öyrədir-deyib cavab verdi.

Qazı dedi:

– İndi biliniz görüm dünyada əziz və istəkli nədir?

Kəndlilər yenə evlərinə qayıtdılar. Kasıb kəndlinin qızı atasını məyus görüb dedi:

– Niyə belə qəmginsən?

Atası cavab verdi:

– Qızım,qazı bizdən sual edir ki,dünyada ən sevimli və istəkli nədir?

Qız:

– Çox qəm eləmə,yat Allah kərim padşahdır,sabah fikir edərik və bir cavab taparıq!

Kişi yatdı. Sübh tezdən qız durub atasını oyatdı və dedi:

– Atacan! Dur qazının yanına get və deginən ki, dünyada ən əziz və sevimli yuxudur, çünkü yuxuda insan hər bir qəmi unudar.

İki Qardaş ikisi də qazının hüzuruna gəldilər.Qazı bunlardan xəbər aldı:

– Mənim sualıma kim cavab verir?

Dövlətli qardaş qabağa yeriyib dedi:

– Sizin sualınızın cavabı budur:

Dünyada ən sevimli və əziz mənim zövcəmdir.

Qazı gülümsünüb kasıb kəndliyə dedi:

– Sən nə deyirsən?

Kasıb kəndli dedi:

– Dünyada ən sevimli yuxudur,çünkü insan yuxuda hər bir qəmi unudur.

Qazı bunun cavabından çox xoşu gəlib soruşdu ki:

– Bəs bu cavabı sənə kim öyrədib?

Kəndli:qızım-deyib cavab verdi. Qazı kasıb kəndliyə buyurdu:

– Sən qızına deginən mənim hüzuruma gəlsin,nə piyada, nə atlı, nə arabada və kərisədə gəlsin, nə çılpaq və nə geyinmiş olsun və mənim üçün bir şey gətirsin ki, nə bəxşeyiş və nə də qazılıq haqqı olsun!

Kəndli evə gəlib qazı buyuran sözləri qızına nəql elədi.



Qız o biri gün paltarını çıxardıb bir balıq toruna büründü və bir göyərçin götürüb qazının qulluğuna gəldi. Göyərçini qazıya verdi.Göyərçin qazının əlindən səpçənib çıxdı.Qazı qızın ağıllılığın bəyənib qıza çoxlu ənam etdi.

O gündən kasıb kəndlinin də işi yaxşılaşdı.

## TÜLKÜNÜN NAĞILI

Tülkünün əlinə çoxdan av düşməmişdi, acından qarnı dalına yapışırdı. Dan yeri ağarandan yuvasından çıxıb dağı, dərəni, kolu-kosu bir-birinə vururdu. Kolların dibini qoxulurdu ki, görəsən quş yuvasından-zaddan varmı, yumurtasını, ətcə balasını yesin. Sən demə kolların birinin dibində bildirçin yuvası varmış, anaş bildirçin də yumurtalarının üstündə oturubmuş. Tülkünü uzaqdan görər-görməz özünü itirməyib yumurtalarının hayına qalıb başlar tülküyə kələk gəlməyə: yuvasından bir az o yana qaçıb pırıldar və ağılsız kimi tülkünün yaxınlığına qonar. Tülkü bunu görən kimi sevinərək ağzını açıb quyruğunu qalxızıb üstünə tullanar. Bildirçin yerindən qalxıb bir az o yanda qonar, tülkü genə özünü onun üstünə atar. Bildirçin qalxıb bir az da o yanda qonar, get-gedə yuvasından uzaxlaşıb yox olar.

Tülükünün bildirçindən əli çıxıb aclığı qatda artar. Başının üzərindən qarğalar qağıllaya-qağıllaya uçub gedirdi. Dayanıb ağzının suyu axa-axa onlara baxır ürəgindən də keçir ki, ah olardan biri əlimə keçəydi necə sevə-sevə yeyərdim, sümüklərini belə buraxmazdım!".

Tülkünün gözü qarğalarda ikən, yaxınlaşdığı kolun dibindən bir dovşan sıçrayıb qaçdı və bir az o yanda dayanıb dönüb tülküyə baxdı. Tülkü dovşana gözü sataşan kimi, se-

vindigindən az qalıb ürəyi partlasın, ağzını açıb quyruğunu qalxızıb özünü onun dalınca atır. Dovşan üzünü baş yuxarı tutub tullana-tullana bunun əlindən qurtulur.

Tülkünün acından başı hərrənir, gözü qaralır. Genə başlayır oranı-buranı iyləyib özünə av axtarmağa.

Gəlir bir quyunun başına, əylir içinə baxır, görür quyuda bir yekə quyruq ağarır. Aclığa dözə bilməyib, özünü salır quyunun içinə, əyilir quyruğu yeməyə görür quyruq deyil mərmər daşdıdır.

Bunun üstündən çox keçir, sən demə bir qurt da tülkü kimi ac qalıb av axtarır, o da gəlıb quyuya baxır.

Tülkü onu görən kimi özünü atır mərmin quruq yeyən kimi ağzını da marçıldadır. Qurt bunu görüb, o da özünü salır quyuya.

Bir azdan bir qaplan da gəlir, onu da aldadırlar, atılır quyuya bir aslan da gəlir, o da atılır quyuya, bir aslan da gəlir, o da atılır, bir ayı da atılır, bir ilan, bir xoruz da atılır. Hamılar da düzülürlər quyunun dibinə, bir-birindən qorxa-qorxa dururlar əsməgə.

Hamısından güclü olan aslan istər yoldaşlarını yesin. Tülkünü agıllı bilib üzünü ona tutub deyər:

- Tülkü qardaş, ürəgimiz sıxılır, acından da ölürük, bir mahnı oxu, kimin adı hamidan sonra çəkilsə onu yeyək.

Tülkü başlar çağırmağa:
Tülkü, tülkü tümbəki,
Quyruq üstə münbəki.
Aslan ala, qaplan qara,
Ayı axmaq, qurd toxmaq.
İlan qamçı, xoruz bançı.



Xoruzun adı ayaqda çəkilməginə görə onu parçalayıb yeyirlər. Bununla qarınları doymaz, aslan yenə tülküyə:

Tülkü qardaş bir də mahnını çağır.

Tülkü də başlar:

Tülkü, tülkü tümbəki,
Quyruq üstə münbəki
Aslan ala, qaplan qara.
İlan qamçı....

İlan görür ki, bunu yeyəcəklər, qıvrılıb qalxır, dilini çıxardır. Ağına-bozuna baxmayaraq bunu da parçalayıb yeyirlər, kimsə doymaz, aslan yenə tülküyə:

- Tülkü qardaş, mahnını bir də çağır acından öldük! " – deyir.

Tülkü də qalxıb genə çağırır:

Aslan ala, qapaln qara
Ayı axmaq, qurd toxmaq.

Mahnı çağrılıb qurtaran kimi istəyirlər qurdu yesinlər. Qurd isə arxalanıb iti dişlərini açıb üstünə gələni parçalamaq istəyir. Bunun üstünə yeriməgə kimsənin ağzı olmayıb, aslan yerindən qalxıb başından bir neçə sillə vurub yıxır, dişilən dartıb parçalayır. Hamı daraşıb doyunca yeyirlər.

Bunun üstündən bir-iki gün keçir, bunlar genə acırlar, aslan tülküyə üzünü tutub:

– "Tülkü qardaş, o gözəl mahnını bir də çağır, acından qırıldıq " – deyir.

Tülkü də başlar:

---------------------
---------------------
Ayı axmaq

Mahnının son sözü tülkünün ağzından cıxan kimi aslan ayını vurub öldürdü. Daraşdılar yeməyə, yeyirlər, doyurlar, ertəyə də saxlayırlar, o biri günə də. Üç-dörd günə ayının əti qurtulur, bunlar başlar aclıq çəkməyə. Aslan genə tülküyə deyir:

- Tülkü qardaş! Mahnını çağır görək!

Tülkü də başlar:

--------------------

--------------------, qaplan qara

Qaplanı da basmarlayıb aslan yerə yıxır. Doyunca yeyirlər, neçə gün də saxlarlar. Qaplanın qarnını sökəndə tülkü onun bağırsağından bir azını gizlicə götürüb basdırır. Neçə gün də qaplanın ətini də qurtararlar, genə acırlar.

Aslan yuxulu ikən tülkü basdırdığı bağırsaqları götürüb qoltuğunda gizlədir. Hərdən bir ağzını uzadıb bir azını qoparıb yavaşca yeyir. Aslan bunun ağzının tərpəşməginə göz yetirib soruşur:

- Tülkü qardaş nə yeyirsən?

Tülük isə:

- "Heç şey yemirəm, acımdan bağırsaqlarımı söküb yeyirəm" --deyir. Ağzını uzadıb qoltuğundan genə bir parça bağırsaq çıxarıb yeyir. Aslan bunu doğru bilib:

- "Elədirsə, mən də söküb yeyərəm"– deyib, ağzını uzadıb haf eylayib öz qarnını yırtır. Qarnından qan fışqırır, tülkü özünü atıb başlayır qanı yalamağa. Aslan soruşur:– Tülkü qardaş, nə qayırırsan? Mənə kömək eylə, ölürəm!

Tülkü isə:

- Acıqlanma aslan baba, qoy buraları əridim, yerin yaş olmasın, indicə yaranı da tikərəm yaxşı olarsan deyir. Ağzını uzadıb aslanın yarasından çıxan bağırsaqları yeyir. Aslan yalvarır:



- Tülkü qardaş, ölürəm, nə qayırırsan? Yaramı tez tik!

Tülkü isə ağzını uzadıb aslanın ürəyini də yeyir. Aslan ağzı köpüklənərək uzanıb gəbərir. Tülkü tək-təkinə yeyir, içir. Bir aya kimi bununla özünü saxlayır. Genə ət qurtarır. Tülkü acır, durur quyunun dibində quyruğunu qaldırıb dolanır, özünü bu duzağdan necə çıxartmağın qayğısını çəkir. Heç bir zad düşünə bilmir. Axırda söz verir ki, Allah bunu buradan qurtarsın, bu da yoxsullara beş arşın bez ilə bir çanaq qoz versin. Bunun üstündən çox keçmir orda bərk yel əsir, göydən boğanaq sallanır-qabaqlarına nə gəlsə dağıdıb göyə qalxızıb ucadan aşağa salır. Dənizdə suları dirək-dirək göyə çəkib uzaq yerlərdə yağmuru sel kimi yağdırır, kimidə dənizdən su içində qalxan balıqlar tökülür. Bağda almanı, armudu yolub göyə çəkir, sonra uzaq yerlərin birində görürsən göydən alma, armud, nar tökülür. Bu boğanaqlardan biri də tülkü olan quyuya düşər, tülkünü götürüb yuxarı qalxızır və tappıltı ilə yerə salır, tülkü özündən gedir... Handan-hana özünə gəlib, gözünü açır özünü bir göy otluğun içində görür, sözü yadına düşür. Ayağa durub bir yana baxır, uzaxda bir sürü qoyun görüb qaçır, qaçdıqca deyir:

Arşın harda, bez harda
Çanaq harda, qoz harda
Arşın harda, bez harda
Çanaq harda, qoz harda.

Ac tülkü sürüyə sarı gəlir ki, qoyundan, quzudan birini aparıb yesin. Köpəklər bunu görən kimi basdılar dalınca düşdülər. Tülkü gücilən özünü qurtara bildi. Yolilən gəlirdi, gördü bir arabaçı arabası dolu balıq aparır. Gəlib yolun keçəcəgində uzandı, özünü ölülüyə qoydu. Gözlərini bərəltdi, dilini ağzından çıxarıb salladı. Arabaçı gəlib bunu ölü bilib götürüb

arabanın üstünə qoydu, özü də atın yedəgindən yapışıb çəkib sürdü. Bunun üzü o yana ikən, tülkü balıqları bir-bir arbadan salıb sonra özü də düşdü. Blıqları yuvasına yığıb başladı dimağ ilə yeməyə. Bir ac qurd oradan keçirdi. Burnuna balıq qoxusu dəydi. Qoxuluya-qoxuluya tülkünün yuvasına gəldi, tülükünü balıq yığımının yanında xartıldada-xartıldada balıq yeyən görübağzının suyu axdı. Yaxınlaşıb danışdılar:

- Tülkü qardaş, xoş gördük.

- Xoş gəlibsən qurd dayı!

- Nə çox balığın var, bircəsinidə mənə ver!

- Vermirəm!

- Yarısını ver!

- Verməŕəm!

- Başını ver!

- Vermərəm!

- Quyruğunu ver!

- Vermərəm!

- Olmasa sümüklərindən ver gəmirim.

- Vermərəm, itil get başımdan.

- Tülkü qardaş acından ölürəm, vermirsən vermə, bir de görüm hardan tutubsan mən də gedim tutum.

- Çox yaxşı, qurd dayı öyrədim qulaq as:

- Gedərsən çayın qırağına, çay indi başdan-başa donubdur, ancaq kəndin yanında bircə yarğan var ki, ordsan su götürürlər. Gedərsən o yarğanın başına, quyruğunu sallarsan suyun içinə durmayıb deyərsən: yapışın balıqlar quyruğuma balıqlar yapışar, çəkərsən qırağa, yeyərsən.

o Qurd gecəilən gəldi çayın qırağına yarğanı tapdı, quyruğunu salladı suya bir ağızdan da deyir: " yapışın balıqlar, yapışın yekələri, yağlıları, yapışın." Hərdən birdən də



quyruğunu bir balaca tərpədir, görür ki, quyruğu çıxmır. Tülkünün sözləri beyninə batır, sevinir ki, balıqlar yapışır, gözüaclığından isə, çəkmir, deyir: "qoy çox yapışsın" Ertəyə kimi yarğan donub tutuşur, qurdun quyrugu da yapışır.

o Kənddə də xoruzlar banlayır, dan yeri ağarır, sonra günçıxan qızarıb, günün işığı uzun-uzun qızıl iynələr kimi dörd bir yana saçılır, günəşion özü isə hələ\ görünməyir, sonra yavaş-yavaş günəş də çıxır, qarlı təğələr, düzlər işım-işım işıllayır. Ağaclar, kollar qurovlu, qarlı budaqlarını sallayıb eylə biləsən gümüşdən qayrılıblar.

Kəndin adamları yuxudan oyandı, bacalardan tüstü qalxdı, qadınlar, kişilər çiyinlərində çiyinlik uclarında dolçalar, hər dolçanın içində su daşımamaqdan ötrü girdə təmiz taxta parçaları, çayın başına yarğana yönləndilər.

Qurd bunları görüb başladı dartınmağa kişilər də qurdu görüb yanlarındakı köpəkləri saldırdılar, özləri də dolçaları yerə qoyub çiyinliklərini əllərinə alıb töküldülər durdun üstünə.

Qurd bu yana dartıldı, o yana dartıldı, quyrugu qırılıb buzun içində qaldı, özü isə quyruğunun qırağından qanı axa-axa qaçıb qurtuldu.

Tülkü uzaxdan gördü ki, qurd gəlir, necə gəlir, quyruğunun qanı axa-axa. Tez qaçıb uca təpəyə çıxdı, ağlaya-ağlaya söyüdün budaqlarından qoparıb başladı tez tələsik səbət toxumağa.

Qurd acıqlı, qaça-qaça tülkünün üstünə gəlib: "sən məni işə qoyursan, az qala öldürmüşdülər, indi mən səni yırtaram "

- Qurd dayı belə deyil, mən sənə doğru demişdim mən nə edim ki, az balıq yapışanda quyruğunu çəkməyibsən, o boyda yapışıbdır ki, ağırlıqdan quyruğun qırılıb balıqların

ağzında qalıbdır. Təqsir özündədir, qurd dayı, boş yerə mənə acıqlanırsan.

Bu sözlərdən qurd anlar ki, təqsir bunun özündə imiş, dönüb tülküdən nə qayırdığını soruşar. Tülkü isə deyir:

- Qurd dayı, bu il qış çox bərk olasıdır. Özümə səbət toxuyuram ki, içinə girim isinim

- Qurd:

- Tülkü qardaş, mənə də toxu!

- Çox yaxşı bu elə səninki olsun, gəl gir içinə.

Qurd girir səbətin içinə, tülkü əlüstü səbətin səbətin ağzını da hörüb qurtarır. Qurd qalıb içində təpənin başından itələyir baş aşağa .Səbət dığırlana-dığırlana bu daşa dəyir, o kola dəyir, gəlir düşür bir kəndlinin bağına.

Kəndli də gəlmiş imiş bağa ağacların qırığından, qurusundan yığıb aparıb şəhərdən yenicə alıb gətirdiyi dəmir sobada yandırmağa, gözü sataşır qurdun səbətinə, bal koması bilib çox sevinir, odunu şələləyir, komanı da bir əlinə zıqqana-zıqqana koxusuna gətirir.

Evliginə, balalarına deyir ki, Allah bizə bir koma bal yetiribdir.

Gecəilən bunlara bir qonaq gəlir, qaymaqdan, xamadan, şor-kərədən onun qabağına gətirilər. Kəndlinin bal koması yadına düşüb qızına deyir ki:

- Qızım dur get bir az da bal gətir.

Qız baş üstə deyib qaxır, bir çini tabaqça ilə qaşıq da götürür gedir bal koması bildikləri səbətin yanına. Qaranlıqda qurdun gözü çıraq kimi işıllayır. Qız bunu görcək qorxub qaçır içəri, çığıra-çığıra töyşüyərək deyir:

Baba, cücü baladır, cücü bala .



Koxuda oturanlar bir-birinin üzünə baxışır. Kəndli qızını qorxmuş bilib evliginə:

- "Qadın, dur sən get" – deyir. Qızcığaz görəsən nədən qorxub?

Qadın durub tabaqçanı, qaşığı qızın əlindən alıb çıxır eşiyə. Bu da qurdun parlaq gözlərindən qorxub qaçaraq gəlir içəri, deyir:

– Kişi cücü baladır, cücü bala

Kəndli özü tabaqçanı, qaşığı alıb qadının qorxaqlığına gülümsəyərək eşiyə çıxır., qurdun gözlərini görüb tanıyır, içəridən qonağı səsləyib çağırır, balta, tüfəng götürüb səbəti bir az o yanda baltalayıb yarırlar.

Qurd əlüstü sıçrayıb qaçır. Kəndli dalınca əlindəki baltanı tollamazlayır qonaq tüfəngi doldurub atar, birisi də dəyməz.

Tülkü uzaqdan görür ki, qurda yenə duzaxdan qurtulub gəlir. Əlüstü buna bir kələk gəlmək istər. Qaçıb girir bir baş dəyirmana, üzünü unlayıb, çıxıb eşiyə. Qurd tülkünü görüb yanına gəlir. Acıqlı, acığından az qalır tülkünü yırtsın, deyir:

- Genə bu kələk nə idi mənim başıma gətirmişdin, gör sənə mən nə eyləyərəm!

- Qurd dayı, and olsun ərənlərə, yeddilərə, qırxlara mən sənə kələk gəlməmişdim, doğrudan doğrusu soyuqdan toxuyurdum. İndi, dayı mən sənə eyləyim, özün dinc yatmayıb şıllaq atırsan, dığırlanıb düşürsən.

Bu sözlərilən qurdun acığı yatılr, tülkünün üz-gözünü unlu görüb soruşur:

– Tülkü qardaş,genə bu nə üz-gözün ağarıbdır, nə isdəsən?

– Qurd dayı,gəzməkilən dolanmaq olmayır, odur ki, indi gəlib dəyirmançılıq edirəm.

– Tülkü qardaş bu boş gəzmək məni candan saldı, başına dönüm mənə də öyrət.

– Çox yaxşı, başım üstə, gəl bəri, bu iki böyük girdə yastı daşları görürsənmi? Bunlar dəyirman daşlarıdı buğdanı, hər bir dəni üyüdən bunlardır. Gəl indi başıma bunların arasına qoy, mən də işlədim, bax öyrən, dünya gör-götür dünyası deyilmi?

Qurd gəlib başını daşların arasına qoydu. Gözünü də baş yuxarı bərəltdi ki, hər işə göz yetirib öyrəşsin. Tülkü də dəyirmanı işə saldı, suyunu açdı, eşikdəki böyük təkər fırlandı, ucu gəlib dəyirman daşını işlətdi, qurdun başını xurdxəşil əzdi. Tülkünün canı qurtuldu yoxsa, quyruğu kəsik qurd bunun başına bir qara gün kəsilmişdi, nə kələk gəlirdisə, genə dişlərini qıcamış üstünə qaçıb gəlirdi.

Bu boyda işlərdən çıxandan sonra tülkü çox ustalaşmışdı, acıyan kimi tezcənə əlinə av keçirdə bilirdi, kol-kos gəzəndə qabağına bir ölüvay quş çıxıb yaralıkimi yavaş-yavaş cırıldasa tülkü üzünə baxmayıb yaxın kolların diblərini axtarıb, onun yuvasını ttapırdı. Yumurtalarını, ətcə balalarını ağız dadı ilə yeyirdi, quş özü də yaxına gəlib çox çığır-bağır eyləsə onu da göydə qapıb tüklərini yolub balalarının yanına göndərərdi. Bir doyunca yemək istəsə, gecə kəndə gəlib toyuqlar yatan ağacın altında durub gözlərini onlara tikir, toyuqlar bunu görcək tir-tir əsir, qaq-qaq-qaqqıllaşır, get-gedə gücdən düşüb bir-bir baş aşağı tülkünün qucağına düşürlər. Tülkü tez tələsik bunları bağrına basıb başlarını iti dişləri ilə qırır, arxasına atıb balalrına qaçırdırdı.

Avcılar bunu tutmaq istəsə, tazı tula ilə ormana düşüb izini izləyib tapa bilirdilər. Ancaq uzunayaq tazılardan tülkü tez can qurtara bilirdi. Onlar bunu çatıb basmarlamaq ikən.



tülkü birdən yerə yatar, tazılar başının üstündən sıçrayıb oyana qaçar, tülkü də fırlayıb bu yana qaçar, gözlərindən itərdi. Çox çətinə düşsə, qaçıb yuvasına girərdi tazılar, tulalar da yuvanın ağzında dayanıb gözlərdi ki, tülkü çıxan kimi basmarlıasınlar. Tülkü isə yuvasının bu ağzından girib o birisindən çoxdan çıxıb qaçmış olurdu. Tülkü ən çox qorxduğu avçıların əlindəki qoşalülə tüfəngləri idi. Budur ki, artıq çalışırdı ki, onların gözünə görükməsin, bilirdi ki, görünsə , düzəldilib atcaqlar, vurub yerə yıxacaqlar.

Qışda bir az tülkünün işi çətinə düşürdü. Soyuq düşüb qar hamı yeri örtəndə bunun acından genə qarnı az qalırdı dalına yapışa. Genə ah çəkə-çəkə qarğalara baxırdı nə kələk qursa bu ağıllı quşlaradan əlinə keçirə bilmirdi, tək-tək əyilə-əyilə çayın qırağında gəzib orda üzən ördəklərdən qapa bilirdi.

Bir günü tülkü çox getmişdi, kəndə yaxın gəlib həyətdə gəzən gözəl xoruzu, toyuqları görüb ağzının suyu tökülürdü. Yayda ağac altında durub bulardan bir neçəsini birdən əlinə götürdüyünü yadına salırdı. Axşamüstü bunların harada yatmağını görüb ürəyində qoydu ki, gecə ikən gəlib bunlaradan bir neçəsini aparsın.

O gecə bərk soyuq, qaranlıq bir gecə idi. Yel əsib bacalarda guvulluyurdu, gecə yarısına yaxın tülkü yavaşca-yavaşca kəndə yaxınlaşırdı. Kəndin itləri hərə bir bucağa sıxılıb yatmışdılar. Tülkü yavaşca gəlib toyuq hininə yetişdi. Yavaşca içəri girib taya üstə başlarını qanatlarının üstünə qoyub yatan xoruz ilə toyuqlar seçdi. Ayaq üstə durub toyuqlardan birinin qıçından tutub aşağı saldı. Toyuq çırpınıb qaqqıldadı. Xoruz ilə o biri toyuqlar oyanıb ucadan qaqqıldaşdılar. Tülkü endirdiyi toyuğun başını qırpdı. Qalxdı ki, bir-ikisini də endirsin toyuqların qaqqıldısına kəndli ilə evligi yuxudan oya-

nıb eşiyə çıxdılar, gəlib hinin qapısını kəsdilər. Tülkü isə öz işinə başı qarışıb eşikdən duyuq deyildi. Kəndli qapını kəsib evliginə səsləndi:

Təndirə qoydum parçanı,
Qadın gətir yarmaçanı
Qoyma deşikdən qaçanı.
Tülkü səni, tülkü səni,
Vurum yıxım indi səni.

Evligi tez tələsik bir yaxşı yarmaça gətirdi. İtlər də oyanıb hürə-hürə, mırıllaya-mırıllaya hinin ağzını kəsdilər.

Kəndli hinə soxulub gördü ki, xoruz ilən toyuqlar bir bucağa sıxılıb qaqqıldaşırla, aralıqda başı üzülmüş birisi sarı, birisi çil, iki fərə düşüb o biri bucağda tülkü sıxılıb ağzını açıb iti dişləri ağarır, gözləri şam kimi işıllayır. Kəndli başsız fərələri görəndə daha da acıqlanıb tülküyə:

Hinin qapısın açıbsan,
Yaxşı fərələr seçibsən.
İkisinin başın üzübsən
Tülkü səni, tülkü səni
Vurum öldürüm mən səni. -

deyib yarmaçanı var gücü ilə tülkünün başına vurdu, yerə yıxılan kimi bir iki də vurub lap ölümcül etdi. Boğazından yapışıb çıxartdı eşiyə, tez-tələsik cibindən bıçağı çıxardıb qarnını yardı. Yaran kimi çalanıb vurnuxdu, qarnından bağırsaqları tökülüb qan fışqırdı. İtlər tökülüb qanı yalayardılar ki, tülkü son ağzını açıb yumdu.

Kəndli qorxusuz tülkünün qarnını, qoxunu arıdıb koxoya gətirdilər, burada yavaş-yavaş bunu soyub gözəl tülkü dərisini mıxdan asdı, ətini də çıxarıb qapıda mırıllaşan itlərə atdı.



Ertəsi gün kəndli tülkünün dərisini aparıb şəhərdə satdı, pulunu da özünə, evliginə çalpaqlıq alıb gətirdi. Evligi də tülkü başını üzmüş fərələrdən bir dadlı qovurma bişirmişdi. Yedilər, dedilər, danışdılar, gülüşdülər, durub yerlərini salıb yatdılar.

## ŞAH ABBAS VƏ DƏRVİŞLƏR

Hamam hamam içində, qəlbil saman içində, dəvə dəlləklik edər, köhnə hamam içində, qarışqa şıllaq atdı, dəvənin qıçı sındı.

Günlərin bir günündə Şah Abbas əleyhi rəhmə dərviş libasına pusidə olub öz adəti üzrə şəhərə gəzməyə çıxmışdı. Bir neçə saatdan sonra şah üç nəfər dərvişə düçar düşüb onlar ilə söhbətə məşğul oldu.

Dərvişlər Şah Abbası tanımayıb onu da öz yoldaşları hesab etdilər. Şah Abbas dərvişlərə sual etdi:

– Qardaşlar, nə işin sahibisiniz?

Dərvişlərdən biri şaha cavab verdi:

– Mənim sənətim budur ki, hər cür heyvan olsa mən onun dilini bilərəm.

İkinci dərviş dedi:

– Mən də hər cür bağlı qapı olsa, ona barmağımı çəkən kimi o qapı açılar.

Üçüncü dərviş dedi:

– Mənim də sənətim budur ki, indi gördüyüm adamı sonralar hər vaxt görsəm, tanıyaram.

Dərvişlər hərəsi öz sənətlərindən xəbər verəndən sonra Şah Abbasdan sordular:

– Bəs babacan, sən nə sənətin sahibisən?

Şah Abbas əlini sinəsinin üstə qoyub cavab verdi:

– Mənim də sənətim budur ki, sağ əlimi sağ buğuma çəksəm şəhəri viran edərəm, sol əlimi sol buğuma çəksəm şəhəri abad edərəm.

Şah Abbas dərvişlərin sənətlərinin doğruluğunu bilməkdən ötrü onlara dedi:

– Dərvişlər, bizim hər birimiz bir sənətin sahibiyik, gedəlim Şah Abbasın xəzinəsini kəsək.

Dərvişlər şahın sözünə razı olandan sonra, onunla bərabər şahın evinə tətəf getdilər.Dərvişlər Şah Abbasla bu həyətə gircək it hürməyə başladı.

Şah əvvəlinci dərvişdən itin hürməgini soruşdu.Dərviş dedi:

– İtin hürməgindən məlum olan budur. Deyir ki, başınızdakı sahibi xanədan ehtiyat lazımdır.

Dərvişlər itdən keçib xəzinənin bərabərinə gəldilər. Xəzinə keşikçisi bu dərvişləri görüb qışqırmaq istədikdə nəzəri şaha düşüb sükütlandı və şahın işarəsilə çıxıb getdi.

Xülasə şahın xəzinəsi bağlı olduğuna görə onun qapısını açmaq lazım oldu.

İkinci dərviş barmağını qapıya işarə edən kimi xəzinə qapısı laybalay açıldı və dərvişlərin dördü də xəzinənin içinə daxil oldu. Ondan sonra dərvişlər hərəsi özü üçün bir qədər pul xəzinədən götürdülər.

Şah Abbas dəxi özü üçün bir qədər pul götürüb xəzinədən bayıra çıxdılar və sonra dərvişlərdən hər biri öz evinə getdilər. Şah da dərvişlər gedəndən sonra öz imarətinə getdi və götürdüyü pulu geri xəzinəyə tökdü.

Səhər olcaq Şah abbas qırmızı paltarını geyinib təxtə çıxdı və öz xidmətkarına hökm eylədi ki, car çəksinlər:

– Şahın xəzinəsini bu gecə kəsiblər.



Sonra Şah Abbas üzünü dərvişinə tutub dedi:

– Filan yerdə üç dərviş var, gedib onları mənim hüzuruma gətir!

Vəzir dəxi şahın əmrin yerinə yetirməgə görə dərvişləri gətirməgə getdi.

Vəzir gedəndən sonra Şah Abbas təxtdən düşüb libasını soyundu, bir yolçu paltarı geyindi və gedib o yolda dayandı ki, haradan dərvişləri görəcək idi.

Bir neçə saat keçəndən sonra şah gördü ki, vəzir dərvişləri gətirir. Onlar gəlib şahın yanından sovuşduqda şah yolçu libasında nazik səsilə dedi:

– Görəsən şahın bu yazıqlara nə qəzəbi keçibdir bunları apardırır?

Üçüncü dərviş diqqətilə yolçuya baxıb dedi:

– Sən kimi insafsız adamın felinə düşmüşük.

Şah Abbas barmağını dişləyib və tez dərvişlərdən qabaq gedib genə qırmızı libasını geyindi və təxtə çıxdı.Vəzir dərvişləri Şah Abbasın hüzuruna götürdü. Dərvişlər şahın ayağına yıxılıb və qorxa-qorxa dedilər:

– Şah sağ olsun, özünə məlumdur ki, biz bu işdə təqsirkar deyilik.

Şah Abbas üzünü dərvişlərə tutub gülə-gülə dedi:

– Heç qorxmayın! Mən sizi sınayırdım ki, görüm siz dediginiz sənətin sahibisiniz ya yox?

Bu sözlərdən sonra Şah abbas dərvişləri əfh edib buraxdı.

## HÜSEYN ŞAHIN NAĞILI

Biri var imiş, biri yox imiş, Allahdan başqa heçə kəs yox imiş. Bir padşah var imiş. Bunun gözü kor imiş. Bir gün

dərviş gəlib padşahın qapısında bir qədər oxuyub gördü ki, bu padşahın gözü kordur. Padşaha dedi:

– Padşah, məni gecəliyə qonax saxla!

Padşah da bunu qonax saxladı. Dərviş gecə paşaha dedi:

– Mən sənin bu gözünə bir dərman bilirəm. Hərgah sənin övladın üzügünü götürsə, gözünə onu sürtən kimi yaxşı olar. Padşah dedi:

– Axə mənim heç oğlum yoxdur.

Dərviş dedi:

– Öz övladın gərək ola. Həmin mən dediyimi Yəmən padlşahın oğlunun üzüyüdür.

Padşah dərvişi yola salan kimi böyük qıza xəbər göndərdi ki, atan sizə qonax gələcək. Padşahın bu qızı böyük-böyük qonaxlıq eyləyib axşama çox adam çağırdı. Padşah gəldi, oturan kimi qızını çağırıb dedi:

– Qızım, sənə bir sözüm var, hərgah əlac eylədin, xörəgini yeyəcəyəm, yoxs adurub gedirəm.

Qızı dedi:

– Ata, de görüm nədir?

Atası əhvalatı qızına dedi. Qızı dedi:

– Ata, mən qız uşağı, mən hara gedə bilərəm?

Atası dedi:

– Sən ki gejdə bilməzsən, mən də xörəyini yeməyirəm.

Və yola düşdü. Padşah sabahı ortancıl qızına xəbər göndərdi ki, evinə qonax gedəcəyəm. Ortancıl qız da atası üçün tədarük gördü. Atası bu qızına da həmən təklifi etdi. Bu qız da acizliyni bəyan eylədi və padşah xörəyi yeməmiş yola getdi. Sabahısı günü genə padşah kiçik qızına xəbər göndərdi ki, gecə evinə qonax gələcəyəm. Bu qız da atasına layiq bir



ağır qoanxlıq eylədi. Atası əhvalatı ktiçik qızına dediyi vaxt kiçik qız çox şadlıqla atasının təklifini qəbul etdi. Və dedi:

– Ata, xöryini ye, lap ölüncə əlləşərəm, Allah kömək olarsa, gətirərəm.

Atası sevinib qızının xörəyindən yedi. Qızı sabah açılan kimi dərzi çağırıb özü üçün bir dəst oğlan paltarı kəsdirib tikdirdi. Bir ləlesi və bir də dil bilən tulası var idi, buları da götürüb yola düşdülər.

Bir qədər gedib axırda Yəmən padşahının şəhərinə çıxdılar və gedib Həmin Yəmən padşahının oğlunun mehmanxanasına düşdülər. Yəmən padşahının oğlu bunu görüb getdi öz anasına dedi:

– Anacan, bu gün biziim mehmanxanamıza bir gözəl oğlan gəlib düşdü, amma qıza oxşayır.

Anası dedi:

– Oğul, get onu qonax çağır gəlsin və qoymarıq gecə getməyə, yatan zaman bir xəlbir sənin döşəyinin üstə qızıl gül tökərəm, bir xəlbir də onun. Hərgah qız olsa, altındakı gül xəndan olar. Onda qız olmağı mənə məlum olar.

Qızın həmin dil bilən tulası bu oğlan ilə gəlmişdi. Bu sözləri eşidib getdi qıza nəql eylədi. Qızləlsinə dedi:

– Nə edim?

Lələsi dedi:

– Qorxma, gecənin bir vaxtında yuxudan durub sənin altındakı gülləri götürüb arxa axıdaram və bir xəlbir də təzəsini gətirib altına sərərəm və sənnki onunkindən də yaxşı qalar.

Axşam olanda Yəmən padşahının oğlu gəlib bunları qonax apardı. Xörəkdən sonra bunlar istdəlirə ki, durub mənzilə gəlsinlər, oğlan dedi:

– Daha nə üçün gedirsiiniz? Qalınız burada yatarsınız.

Bunlar da qaldılar. Oğlanın anası bunların yerini saldı və hərəsinin altındakı döşəyin üstünə bir xəlbir gül töküb üstünə ağ çəkdi. Bunlar yatdılar. Gecənin bir vaxtında qızın lələsi durub gəldi. Qızı durğuzub alıtndakı döşəyin üstünə bir xəlbilr təzə gül tökdü, qız uzanıb yatdı. Sabah oldu oğlanın anası gəlib bunların yerlərini yığdı. Baxıb gördü ki, qonağın gülü oğlunkindən yaxşı durubdur. Oğluna dedi:

– Oğul, bu qız deyil, oğlandır.

Bir-iki gündən sonra genə gəlib anasına dedi:

– Ana, bu oğlan deyil, sən mənim zənnimi itirmə.

Anası dedi:

– Oğul, mən onu qız bilmirəm. İstəyirsən sənə lap yaxşı məlum olsun, götür onu hamama apar.

Tula bunu da bilib gəlib tez xəbər verdi. Lələsi dedi:

– Ay qız, sən oğlan ilə hamama gedərsən, atları və şeylərimizi götürüb filan yerdə durub səni gözlərəm. Bir fənd ilə üzüyü götürüb gələrsən.

Oğlan gəlib dedi:

– Gəl gedək hamama.

Qız razı olub getdilər. Oğlan hamamda qıza dedi:

– Soyun qabaqca gir, mən də soyunuram.

Qız razı olmayıb dedi:

– Sən padşah oğlusan, gərək qabaqca sən girəsən, sonra mən girərəm.

Oğlan soyunub, barmağındakı həmən üzüyü çıxarıb cibinə qoydu və içəri girdi. Qız dərhal bir kağız çıxarıb yazdı ki, mərhaba sənin padşahlığına, oğlan gəldim, qız gedirəm! Kağızı büküb gizlin oğlanın cibinə qoydu, üzüyü çıxarıb su başına çıxmaq bəhanəsi ilə lələsinin tapşırdığı yerə qaçıb getdi və çatan kimi atıqna minib yola düşdülər. Oğlan bir qədər hamamda durub gözlədisə də, gəlmədi və çağırıb hamamçıya dedi:



– Hanı oğlan?

Hamamçı çıxıb gördü ki, oğlan su başına çıxmamış imiş və gəlib əhvalati-macəranı padşahın oğluna dedi. Oğlan tez yuyunub bayıra çıxdı və geyinib getdi. bunlar olan otağa baxıb gördü ki, heç bir şeyləri qalmayıbdır. Məgər yadlarından bir qızıl quşları çıxıb burada qalıbdır. Oğlan qızıl quşu götürüb anasının yanına getdi və dedi:

– Ana, mən sən deməbeing o qızdır? Budur hamama girməyib gizlin qaçıbdır.

Anası dedi:

– Nə bilim, oğul!

Oğlan bir az fikir edib üzüyü yadına düşdü. Əlini cibinə saldı ki, üzüyü çıxarıb barmağına taxsın, gördü ki, əlinə bir kağız dəydi. Kağızı çıxarıb yazılan sözü oxuduqda az qaldı ki, ürəyi parçalansın və dərhal küpəgirən qarı çağırıb dedi ki, hər kəs mənə o qızı gətirsə, özü ağırlığında ona pul verərəm. Küpəgirən qarının biri dedi:

– Mən gətirərəm.

Və yola düşdü. Qız isə üzüyü aparıb atasının gözlərinə çəkdi və atasının gözləri Allahın iznilə açılıb məşələ döndü. Atası qızın alnından öpüb dedi:

– Əməyim sənə halal olsun.

Qız öz otağına getjdi. Axşam oldu, yeyib içdilər, anası qızın yerin salıb qızı yatırtdı. Qız yuxuda deyirdi:

– Ay ana!

Anası:

– Can!

Qızı:

– Yəmən padşahının oğlunun bülbüllərinin səsi qulağımdan getməyib.

Anası deyirdi:

– Yat, qadan alım, yat.

Bu dəmdə küpəgirən qarı gəlib qulaq asırmış. Bir qədər durub qızı və anasını yuxuya verib içəri girdi və qızın burnuna bihuşdarı piləyib qızı bihuş eylədi və küpəyə qoyub havaya qalxdı, gəlib Yəmən padşahının oğlunun otağına düşdü. Qarı dedi:

– Bunun üçün yer salınız!

Oğlanın anası sevinib qız üçün yer saldı. Qarı qızı götürüb yerə saldı, oğlanın anası gördü ki, bu elə oğlan paltarının içindədir, hələ heç soyunmayıbdır. Qarıya dedi:

– Nə gördün, nə görmədin? Söylə görək.

Qarı dedi:

– Gördüm ki, bu qız yuxusunda deyir: "Ay ana! Anası deyir: Can! Qız genə deyir: Yəmən padşahının oğlunun bülbüllərinin səsi qulağımdan getməyir. Anası dedi: Yat, qadan alım, yat!" Eylə ki, .......... birdən sənə desə, belə deyərsən!

Oğlanın qarıdan çox xoşü gəldi, qarıya artıqlaması ilə pul verdi və onu razı etdi. Bir qədərdən sonra qız yuxuda dedi:

– Ay ana!

Oğlanın anası dedi:

– Can!

Qız dedi:

– Yəmən padşahının oğlunun bülbüllərinin səsi qulağımdan getməyir.

Oğlanın anası dedi:

Yat, qadan alım, yat.



Qız bir qədərdən sonra yuxudan durdu. Gördü ki, bura Yəmən padşahının oğlunun imarətidir və əl atıb cibindən bir bıçaq çıxarıb dedi:

– Məni buraya necəgətirmisiniz, eylə də aparın, yoxsa sizi öldürərəm. Mən özüm də padşah qızıyam.

Oğlanın anası bu qıza dil-ağız ilə yalvarıb yaxarıb bir az sakit etdi və sonra üzündən öpüb dedi:

– Qızım, sən nə üçün belə edirsən? Bir qız bir oğlanındır...

Xülasə, qızı şirin dillər ilə adldatdı və razı eylədi. Bundan sonra qırx gün-qırx gecə toy edib qız ilə şad-xürrəm ömür keçirməyə başladılar. Onlar çatdı muradına, inşallah sən də öz muradına çatacaqsan!..

# ŞƏBƏDƏLƏR

## Lotu Kəmanə və lotu Cəfər

Biri var idi: Mərd hər sübh durar səhər-səhər, ....... acı, qatıq zəhər, dad milçək əlindən! ....... qaçın bu iki lotunun əlindən!

Günlərin bir günündə bir lotu Kəmanə var idi. Bu bazara çıxdı və dedi ki, bən bijligində görəsən yer üzündə insan oloarmı? Biri bunu eşidib dedi:

– Lotu Kəmanə, sənin canın üçün Həmədanda bir bij var, bulağa susuz aparıb susuz gətirər.

Lotu Kəmanə bu sözü eşidən kibi çarığını ayatğına çəkib bir baş Həmədan şəhərinə getdi.

Şəhərə çatıb soruşdu ki, burada eşitmişəm bir bij adam var. Onun adı nədir? Dedilər onun adlı Lotu Cəfərdir.

– Bəs indi onu harada taparam?

Dedilər ki, imdi onu filan çayçı dükanında taparsan. Lotu Kəmanə birbaş üz qoydu haman çayçı dükanına. Çayçı dükanından içəri girən kimi Lotu Cəfər buna dedi:

– Xoş gördük səni, Lotu Kəmanə!

Bu dəxi dedi:

–Sağ ol, Lotu Cəfər.

Bir qədər bunlar burada çay içib söhbət etdilər. Lotu Cəfər bunu götürüb evə qonaq apardı. Lotu Cəfər çox kasıb olduğundan buna qara aftabada çay qoyub və saxsı dəngənədə də çörək gətirdilər. Bunlar yeyib içib yatışdılar.

Sabah yuxudan duran kimi Lotu Kəmanə dedi:

– Qardaş, dur imdi bizə qonaq gedəcəksən.



Lotu Kəmanə ilə Lotu Cəfər yola düşdülər və gəldilər çıxdılar Lotu Kəmanənin evinə. Lotu Kəmanə gedib gizlin padşahın evindən qızıl samavar, sərpic, nimçə, qızıl ləgən aftabaistəyib evinə gətirdi və övrətinə verib dedi:

– Dur çay qoy, aş bişir.

Övrəti dərhal durub çay və aş hazır elədi. Çayı aparıb övrəti bunların qabağına qoydu və soonra aşı qızıl nimçəyə çəkib üstə qızıl sərpici qoyub ortalığa gətirdi. Bunlar yeyib içdilər və xörək qutarandan sonra övrəti qabları yığışdırıb, yuyub təmizləyib, nə qədər ki, qızıl qab padşahın evindən gəlmişdi hamısını qapının üstə olan rəfə yığdı. Bu qabları Lotu Cəfər görüb öz-özünə dedi: Mənə qurban olasan, aparmasam. Sənə bir xəncər vuracağam ki, parça olacaqsan. Eylə ki, yatmağa başladılar, yerlər salındı, hərəsi öz yerinə girib yatdılar. Lotu Kəmanənin dediyinə görə övrəti xıncərini sivirib gizli Lotu Kəmanənin yerinə qoydu. Bunlar yatdılar. Gecənin yarısında Lotu Cəfər bir ağız bərkdən çığırdı:

– Ay Lotu Kəmanə!

Lotu Kəmanə səs vermədi. Lotu Cəfər durub bayra çıxdı və öz-özünə dedi:

– Bəlkə bu oyaxdı, qoy qabaqca ağacdan bir adam qayırıb öz paltarımı geydirib gətirim qapıya qoyum.

Bu qayda ilə ağacdan adam qayırıb öz paltarından buna geydirib götürüb qapıya söykədi və bir qoluna ip bağlayıb həyətin ortasına kimi apardı və ipi bir balaca dəbərdəndə bir qolu qablara dəydi. Lotu Kəmanə Cəfər bilib ayağa durdu. Bir xəncər bu ağaca vurdu. Lotu Cəfər həyətdən qışqırıb dedi:

– Ay qardaş! Nə olub?

Lotu Kəmanə dedi:

– Eylə bildim oğru gəlib.

Dedi:

– Ay qardaş, mən ölüm doğrusun de. Yoxsa eylə məni bilib vurmuşdun?

Dedi:

– Sən də olsaydın vuracaqdım. Mən bu qabları səni sınamaqdan ötrü padşahdan alıb gətirmişdim.

Lotu Cəfər dedi:

–Qardaş, sən məni sınadın. İmdi olan oldu, keçən keçdi. Gəl təzədən qardaş olaq. Bunlar ikisi qardaş olub bir şəhərə səfər eylədilər. Bir böyük şəhərə çatmışdılar. Gördülər ki, çox adam bir meyit gətirir. Gedib bunlar bir adamdan xəbər aldılar ki, bu ölən kimdi. Onlar dedi:

– Bu şəhərin ən böyük taciridi. Adı Hacı Əşrəfdi.

Bu lotular gənə xəbər aldılar. Barı bunun oğlundan, qnızından nəyi var? Dedilər:

– Bunun bircə oğlu var. o qədər dəmir sandıqlar dolu pulları ona qaldı.

Lotular soruşdular:

– Bu nə vaxt həccə getmişdi?

Dedilər:

– On il bundan qabax.

Xülasə bunlar hər üzün soruşdular və özləri dayandılar qəbiristanlıqda. Adamlar ölünü basdırıb evə qayıtdılar. Bu iki lotu ikisi də məsləhət eliyb dedilər. Yaxşı yağlanacağıq. Lotu Cəfər dedi:

– Qardaş, Lotu Kəmanə, sən gir qəbrə uzan. Mən işin fəndini bilirəm.

Lotu Kəmanə soruşdu:

– Yəni necə bilirsən, mənə də de.

Lotu Cəfər dedi:



– Sən gir qəbrə, sənə iki göz yeri qoyum. Ondan sonra mən gedəcəyəm bir oyun qurub oğlanı camaat ilə buraya gətirəcəyəm. Oğlanı sən uzaqdan görən kimi zarıya-zarıya deyərsən: Ay üzü qara oğul, dağdan ağır hacı kişini mənim üstümə gətirirsən. Gedərsən onu bax mən deyən kimi yola salarsan. Mən on il bundan qabax həccə gedəndə on min manat bundan pul borc almışam. Aparıb on min manatının üstə on min manat da qoyub ona verib onu razı yola salarsan. Məni bu qəbrdə dara çəkirlər, çox incidirlər, mən eylə bildim ki, o qədər sənə dəmir sandıqlar dolu qoyub gəlmişəm, daha məni rəhmətdə qoymazsan. Tez gedib haxını razı edib yola salarsan.

Lotu Kəmanə razı olub qəbrə girdi. Bunu basdırıb iki göz yeri qoydu və bir qədər də çörək qoyub özü bazara sarı getdi. bazara girib bir dükançının dükanından bir dəst özünə paltar, şal qurşaq alıb dərzi gükanına gətirib bir qaydalı hacı formasında paltar tikdirib, şal qurşağı belinə bağlayıb bir baş həmin ölən hacının evinə getdi. evə girən kimi papağını başından götürüb ağlamağa başladı.

– Ay hacı yoldaşım qardaş, ay belimi sındıran qardaş, ay məni qardaşsız qoyan qardaş.

Çox ağlşadı. Camaat bunu bir qədər sakit eylədli. Hörək gəldi, yedilər-işdilər, beylə camaat dağıldı. Oğlunu çağırıb dedi:

– Mən səni bala uşaq qoyub getmişdim. Şükür allaha, böyük oğlan olmusan. Allah səni bəd-nəzərdən saxlasın. Bir qədər otururlar. Gənə camaat yığılmağa başladı ki, qəbir üstünə getsinlər. Camaat içində bu oğlana dedi:

– Atan vəfat edəndə bir vəsiyyət etməyib?

Oğlan dedi:

– Nə barədə?

Bu dedi:

–Mən onunla ki Məkkəyə gedirdim on il bundan qabaq onun həmyanın ərəblər kəsib apardılar. Məndən on min manat borc pul almışdı, o barədə deyirəm.

Oğlan dedi:

– Mənim atamın heç kəsə borcu yodxdu. Olsa idi mənə deyərdi.

O dedi:

– O hacı çox müsəlman adamır. İndi qəbir üstə gedəndə ondan bəlkə səda gələ və mənim pulum da halal puldur. Ona görə yəqin səda gələr.

Camaat bunun sözünə dedilər:

– Çox yaxşı, yəqin sən deyən düz olmuş olsa, hacıdan da səs gələr.

Bu sözü deyib yola düşdülər. Qəbirstanlığa çatar-çatmaz Lotu Kəmanə bunları görüb zarıya-zarıya dedi:

– Ay üzü qara oğul, dağdan ağır kişini mənim üstümə gətirirsən. Onu mən deyən kimi bu saat yola salarsan. Mən on il bundan qabaq həccə gedəndə on min manat bundan borc pul almışam. Aparıb on min manatın üstə on min manat da qoyub buna verib bunu razı yola salarsan. Bu qəbirdə məni dara çəkirlər, çox incidirlər. Utanmırsan sənə o qədər dəmir sandıq dolusu pul qoya-qoya gənə məni haqqın ...da qoyursan...

Oğlan daha qəbrin üstə getməyib tez camaat ilə evə qayıdıb gəldilər. O saat iyirmi min manat pul lotuya verib bazardan da bir yaxşı at alıb lotuya yola saldı. Lotu Cəfər pulları xurcunlara töküb ata mindi. Bu yoldaşını qəbirdə qoyub üz qoydu getməyə.

Lotu Kəmanə bir qədər gözləyib gördü ki, yoldaşından bir haray olmadı, qəbrdən çıxıb üz qoydu bazara. Bazardan



bir cüt yaxşı çəkmə alıb yola düşdü. Bir qədər gedib gördü ki, yoldaşı qabaqda meşə ilə papağı kəllədə şikəstə oxuya-oxuya gedir. Lotu Kəmanə bərk yüyürüb kəsə yol ilə bundan qabağa çıxıb Lotu Cəfərin yolunun pğzına çəkmənin bir tayını atdı, bir qədər də gedib yarım verst kimi çəkmənin o biri tayını oraya – yol ağzına atıb özü bir ağac dalında gizləndi.

Lotu Cəfər at ilə gəlirdi. Gördü ki, yola bir çəkmə tayı düşüb, heç misli yoxdur. istədi götürsün, sonra öz-özünə dedi: "Bir tay çəkmədən nə olar, atdan düşməyə dəyməz".

Bir qədər də gəlmişdi ki, gördü həmin çəkmənin tayı da buraya düşübdür. Öz-özünə dedi: "Burada heç kəs yoxdur, düşüb atı bağlayım, gedib onu dla oradan gbtürüm". Və atından enib atını bir ağaca bağladı və üz qoydu ki, gedib çəkmənin tayını götürsün.

Lotu Kəmanə ağac dalından çıxıb, atı ağacdn açıb, ata minib bir baş evlərinə sarı atı çapdı. Övrətinə dedi:

– Mən at ilə zirhzəmidə gizlənirəm, buraya Lotu Cəfər gələndə onu qorxuzub qovarsan.

Lotu Cəfər çəkmə tayını götürüb gəldi gördü ki, atı yoxdur. öz-özünə dedi: "Bu iş Lotu Kəmanənin işidir". Çəkmələri əlinə alıb bir baş Lotu Kəmanənin evinə gəldi. Qapını döydü. Arvad çıxıb soruşdu:

– Kimsən?

Dedi:

– Lotu Cəfərəm. Kəmanəyə degilən bayıra çıxsın onunla bir iki kəlmə sözüm var.

Övrət bunu eşidən kimi bir qaraçılıq edib ağlamağa başladı ki, qonum-qonşu, divan-dərə buraya tökülüşdülər. Övrət dedi:

– Bu kişi mənim ərimi aparıb öldürüb.

Divan istədi bunu tutsun and içib dedi ki, mənə beş gün möhlət veriniz hərgah tapmasam onda boynumu vurunuz.

Divan razı oldu. Lotu Cəfər beş günü o yanı-bu yanı gəzdisə, bir şey duya bilmədi. Axırda öz-özünə dedi ki, "bu yəqin evdədir!" gəlib Lotu Kəmanənin evinin damına çıxıb bacasından evə baxırdı. Gördü ki, Lotu Kəmanə xörək yeyir. Lotu Cəfər sevindiyindən bir qışqırdı:

– Lotu Kəmanə, qardaş, xoş gördük!

Bu sözü Lotu Kəmanə eşidən kimi dərhal özünü bir yerə yıxıb ölülüyə qoydu. Arvadı başını yola-yola bayıra çıxıb ağlıya-ağlıya qışqırdı:

– Ay adamlar, bu mənim ərimi öldürüb bacadan gətirib ölüsünü atdı.

Divan-dərə yığılıb baxdılar gördülər ki, ba haçandı ölüb. İstədilər Lotu Cəfəri tutsunlar. Dedi:

– Mənə beş gün möhlət veriniz! Bu özünü yalandan ölülüyyə qoyub, çünki öydə xörək yeyirdi. Bir iş etməyib bu dirilər!

Divan razı oldu. Lotu Cəfər qaynar su qoyub, bunu soyundurub uzatdı ki, yusun. Və suyunu tökməmiş bunun qulağına yavaşdan dedi:

– Lotu Kəmanə, qardaş, suyu bərk qaynatmışam, səni yandırar. Pul da sənin olsun, dur ayağa.

Lotu Kəmanə dinmədi. Lotu Cəfər öz-özünə dedi: "Yəqin mən bacadan bunu çağıranda diksinib ölübdü". Bu qaynar su ilə bunu təmiz yuyub kəfəninə bükdü və bir qutuya qoyub qutunu dalına səriyib qəbirstanlığa apardı. Və aparıb bir kümbəzin içində qutuyu ayağı üstə qoyub yalvardı: " Lotu Kəmanə, qardaş, mənim boynumu beş gündən sonra divan vuracaq. İstəmədim, pul da sənin olsun, at da, dur ayağa".



Amma Lotu Kəmanədən bir səs çıxmayırdı. Demə, kümbəzdə qırx haram ........................

Lotu Cəfərin əli təmiz Lotu Kəmanədən çıxıb öz-özünə deyirdi: "Bu nə işdir mənim başıma gəldi". Bunu deyib təpəsinə vurub ağlayırdı. Birdən gözü kümbəzin küncünə sataşdı. Baxıb gördü ki, bir böyük bəstidi içi dolu pul ilə və dedi:

– Lotu Kəmanə, qardaş! o apardığın pullar, at sənin olsun, gəl bunu da bölək. Bir küp tapdım içi dolu pul ilə.

Lotu Kəmanə pul adını eşidib əlini bir-birinə vurub güldü və kəfənindən çıxıb pulu bölməyə başladılar. Ortalıqda bir pul artıq qalmışdı. Onun danışdılar. Lotu Kəmanə dedi:

– Mənə çatacaq!

Lotu Cəfər dedi:

– Mənə çatacaq.

Bu dəmdə qırx həramibaşılar gəlib istədilər ki, kümbəzə girib pullarını bölsünlər. Qabaqca birisi istədi içəri girsin. Lotu Kəmanə əlini uzadıb bunun başından papağını qapıb dedi:

– Lotu Cəfər, pul sənin olsun, papaq mənim.

Bu haramıbaşının qorxudan dili tutulub qaçmağa üz qoydu. O biriləri də onun dalınca. Sonra bir qədər dayandılar və papağı götürüləndən soruşdular:

– Bən nolu ki qaçdın?

Dedi:

– Ölülər bizim pulları ağ kəfən əyinlərində bölüşürlər. Bir pulun üstə davaları idi. Məni papağımı qapıb dedilər: "Pul sənin, ala, papaq da mənim!"

## Məlik Məmməd

*Nağıl deməmişdən bu şəbədəni oxuyurlar.*

Raviyanı-axbar, naqilanı-asar və tutiyani-şəkər, şəkəri-şirini-köftar, böylə rəvayət edir. Siir-süpür gəl pibkər, gəl sənə kimdən xəbər verim, şah oğlu Şah İsmayıl, mənzili məkan, iki qoz bir girdəkan təraziyə vurduq təkan, Kürü o taya keçdik, yaba ilə doğa içdik! Atovun goru dağılsın yalan yiyəsi, bir belə də yalan görməmişdik. Hindalan-hündlalan Kür qırağı köndələn, kəklik otu bəndalan. Xan sənsən, mən mənəm, qorxma, sənə dəymərəm. Hekayəti-məkati, ildə verər əlli batman zəkatı, boyaqçı küpü açdı boyadı məmləkatı, hamaçının tası yox, heç faydası yox. Qarışqa şıllaq atdı, dəvənin gözü çıxdı. ay ağalar, ay qardaşlar, bir milçək ovladıq. Acıqlandı qalxdı havaya, onun yağın tutduq saldıq yüz əlli altı tavaya. Onun sümüyündən bir dəryaya körpü düşdü. Yüklü-yüklü, cüklüc-cüklü sərçələr keçdi. Eniş gəldi, qəniş gəldi görək yazıq Məlikməmmədin başına nə gəldi. Ətçidə yox, mətçidə Koroğlu közətçidə yox, İbrahim xan nayçıda yox, Bayram xan zurnaçıda yox. mənə tapılmaz çaxmağı yox tüfəng. Çaxmağı yox tüfəngi götürüb çıxdım ova. Eylə vurdum dovşanı iki qabırğaları sındı, özünün xəbəri yox. Yapışdım bir əlindən, bir ayağından. Ay qarı nənə, bizə bir qazança ver aş eyləyək. Dedi: "Ay qadan alım, bu evdən o evə gedərsən üç qazança var, ikisi sınıq. birinin dibi yox". Bu dibi yox qazançada dovşanı elə bişirdik sümükləri həlli-məhəl oldu, ətinin xəbəri yox. O qədər yedik bundan dodaqlarımız çatladı, qarnımızın xəbəri yox. Ay qarı nənə! Yandıq susunnan! Dedi: "Ay qadan alım, bu evdən o evə keçərsən üç hovuz var, ikisi qurudu, birinin suyu yox". Hovuza qublanuban o qədər içdik ki, dodaqlarımız köpdü, qarnımızın



xəbəri yox. Dedik: "Ay qarı nənə, amanadı, götür bizim çarıqlarımızı". Dedi: "Ay qadan alım, bu evdən o evə gedərsən, çarıqlarınız ordadı". Bəli, Abı yoldaş dedi, Obu yoldaş dedi: Mən yoldaşın çarığının tayı yox. Bəli. səs saldıq, soraqçı saldıq xəbər verdilər bizə ki, çarığınız Küdrüdə zəni alıb. Bəli! Buradan üç yoladaş rəvan olduq Küdrü sarı. Belə deyirlər ki, az getdik, üz getdik, acı yovşanlıq, şirin biyanlıq, mənzil kəsdik yol getdik, dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyisərsər kimi açıldıq qəlblər kimi, yığıldıq kəmənd kimi, gündə bir iynə boyu yol getdik, getdik çıxdıq Küdrünün belinə. Hayiqət (həqiqət) gördük ki, çarıq bir zəni əkib ki, iki göz gərək tamaşaya. Bəli! Çini soluyub düşdük bu taxılı yavaş-yavaş biçməyə. Çin biçirdi, biz də dərz bağlayırdıq. Bir də gjördük həmin dovşanın biri qaçır. Çini silbələdik, çinini dəstəsi şup eləyib girdi dovşanın qarnına, dovşan biçdi, biz dərz bağladıq, vurduq tayaya. Yoldaşın biri istədi papurus çəksin. Paprosu yandlırcaq tayamızı od tutdu. Tayanın içindən bir palan çıxdı, palanıf yarldıq hamısı yalan çıxdı.

Biri varimiş, biri yoximiş, Allahdan başqa he kəs yoximiş. Günlərin bir günündə bir padşah var imiş. Bu padşahın yaxşı tutuquşusu var imiş. Vaxt gəldi, günlərin bir günündə bu quşun bacısının toyu oldu. Bu quş padşahdan izn istədi, padşah buna izn verdi, bu quş getdi. vaxt oldu bu tutuquşu toy qutarandan sonra öz-özünə dedi: "Bəs padşah üçün nə sovqat aparım?" almaya gücü çatmaz imiş, armuda gücü çatmaz imiş... Bu tutuquşu bir cüt alma toxumunu dilinin altına qoyub qalxdı havaya, gəldi düşdü həmin padşahın yanına. təzim eylədi, almanın toxumlarını padşahın qabağına qoydu və dedi:

– Almaya, armuda gücüm çatmadı, ona görə bu toxumları gətirdim. Bu toxumları əkərsən, böyük ağac olandan son-

ra gündə bir cüt alma gətirəcək, onu hər kəs yesə, ya arvad, ya kişi, on beş yaşında cavan olar.

Padşah bu toxumları götürüb əkdi, üç gündən sonra böyük ağac oldu. Bu ağac bir cüt meyvə verdi. Padşah bu meyvəni yeyəndə gördü ki, həqiqət on beş yaşında cavana döndü. Gələn gündən bir div bu meyvəyə aşiq oldu, div hər gün bu almaları dərib aparırmış. Padşah bu ağaca keşikçi qoydu. Nə qədər padşah keşikçi qoydu, gecə yarıyacan keşikçilər oyaq qalarmış, sonra yuxuları gələndə yatarmışlar, div gəlib bunlar yatandan sonra dərib apararmış. Padşah gördü ki, bu keşikçilərdən bir fayda olmadı. Labüd qalıb oğlanlarına dedi ki, gərək siz gedib keşik çəkəsiniz.

Padşahın üç oğlu və müəllimləri öz aralarında püşk atdılar. Püşk düşdü müəllimə. Müəllim getdi keşigə, gecənin bir vaxtı müəllimi yuxu tutdu, div gəlib genə almaları dərib apardı. Sabahsı gecə növbət böyük qardaşa – Məlik Mahmuda düşdü. Bunu da yuxu tutub yatdı... Sonra növbət ortancıl qardaşa düşdü. O dha bir şey bacara bilmədi. Axırda balaca qardaşlara Məlik Məhəmmədə növbət düşdü. Allah, ya Məhəmməd, ya Əli deyib getdi. barmağının birini kəsib arasına düz ödoldurdu. Barmağının göynəməsi buna yuxunu haram etdi. Gecənin bir vaxtı gördü ki, div gəldi. Div qıranı uzadıb istədi ki, almanı dərsin, Məlik Məhəmməd bir ya Allah nərəsi vurdu, div qorxub qıranı buraxıb qaçmağa üz qoydu. Məlik Məhəmməd divin dalına düşdü. Getha get getdilər. Məlik Məhəmməd gördü ki, bu div bir dəyirman daşını qalxızıb altına girdi. Məlik Məhəmməd bura nişan qoyub bağa sarı qayıtdı. Sabaha kimi gəlib bu almaların keşiyini çəkdi. Sabahnan atası baxıb gördü ki, həmin almalar ağacın üstündə durub. Atası qoşunlara hökm eylədi ki, Məlik Məhəmmədin sağlığına bu



gün şadlıq olunsun. Məlik Məhəmmədi **cəşn** ilə atasının sarayına apardılar. O günü padşah çox şadlıq eylədi. Oğlundan xəbər aldı ki, oğul, nə gördün? Məlik Məhəmməd başına gələn macaranı atasına nəql eylədi. Atası dedi:

– Buna gərək fətva olsun.

Məlik Məhəmməd bir qədər qoşun götürüb qardaşlarını və müəllimini götürüb yola düşdü. Həmin quyunun üstünə çatdılar, kəməndi çıxarıb bir-bir qoşunun belinə bağladılar. Bu qoşunun hamısını salladılar, "yandım" deyib qışqırdı. Bunların qoşunlardan əlləri çıxdı, heç kəs girə bilmədi. ............ qaldı üç qardaş ilə bir müəllim. Əvvəl müəllimin belinə kəməndi bağladılar və quyuya salladılar. Müəllim quyudan "yandım" qışqırdı, bunu da bayıra çıxartdılar. Böyük qardaşı da salladılar, ortancıl qardaşı da salladılar, bunlar da qabaqdakılar kimi deyib bayıra çıxdılar. Növbət Məlik Məhəmmədə düşdü. Dedi ki, məni də quyuya salınız! Nə qədər qışqırsam da qulaq verməyib tez-tez sallayınız.

Məlik Məhəmmədi sallamışdılar ki, bu da qışqırdı: "Yandım". Amma qulaq asmayıb tez-tez buraxdılar. Məlik Məhəmməd quyuya çatdı, yerə düşüb gördü ki, burada dəmir qapı var. Qapını açıb gördü ki, bir otaq var. Girdi otağa, gördü ki, bir nazənim sənəm oturub ki, yemə-içmə xətti xalına, gül camalına tamaşa eylə. Bu qız dedi:

– Məlik Məhəmməd, heyf deyilsən bu quyuya enmisən?! İndi səni bilsə, ətinə aşiq olar, qanına qaşıq!

Məlik Məhəmməd bu qıza dedi ki, de görüm div hardadı? Qız dedi:

– Bu otaqdan o otağa keçərsən, o otaqdan o birinə keçərsən, orada yatıbdır.

Məlik Məhəmməd bu biri qapını açdı, gördü ki, burada bir gözəl qız oturub ki, əvvəlki bunun əlinə su tökməyə də layiq deyil. Bu qız da buna dedi:

– Heyf deyilsən buraya gəlmisən?!

Məlik Məhəmməd dedi:

– Allah qoysa, sizi də, özümü də buuradan qutararam.

Məlik Məhəmməd üçüncü otağın qapısını açıb gördü ki, bu otaqda bir qız əyləşib ki, eylə bil on dörd gecəlik aydır. Və bu qızı Məlik Məhəmməd görüb bir könüldən min könülə ona aşiqoldu. Qız dedi:

– Ay Məlik Məhəmməd, bəs heyf deyilsən buraya gəlmisən?

Məlik Məhəmməd dedi:

– Allah qoysa, mən onu öldürərəm, sizi də onun cəngindən qutararam və özümü də.

Qız dedi:

– Bu bir kafir deyil ki, sən buniylə bacarasan? Oniylə bacarsam, mən bacararam, sən bacarmazsan!

Məlik Məhəmməd dedi:

– Sən bacararsan? Nə eybi var, sən bacar!

Qız bir sehr-cadu oxuyub Məlik Məhəmmədi bir süpürgə eylədi, qoydu divarın küncünə. Div yabtmış idi, yuxudan durub dedi:

– Ey çəpəl, adam badam iysi gəlir, yağlı gödəm iysi gəlir, de görüm buraya kim gəlib?

Dedi ki, ey kafir, o qədər yemisən ki, dişivin dibinnən gəlir. Div bir yaba götürüb dişinin dibini qurdalamağa başladı. Qutarandan sonra div dedi ki, mən yeddi günün ovuna gedirəm.



Div o yana getcəyin Məlik Məhəmmədi genə sehr-cadu oxuyub süpürgədən əvvəlki surətinə döndərdi. O biri qızlar da o biri otaqlardan gəlib məsləhətə oturdular. Kiçik qız dedi:

– Həyətdə bir çarhovuz var, onun suyunu qurudarsız. Ortasında bir daş var, onu qalxızın, divin canı onun altında olan bir şüşənin içindədir. Onu götürüb çəkiniz...................... onda div ölər.

Bu qayda ilə eylədilər. Div gəlib yıxıldı. Divin başın kəsdilər. Quyudan çıxmağa hazırlandılar. Qızlar dedilər:

– Əvvəl gərək Məlik Məhəmməd, sən çıxasan, sonra biz.

Məlik Məhəmməd razı olmadı. Dedi:

– Gərək qabaqca siz çıcxasınız, sonra mən!

.......... dedi ki, biz çıxandan sonra səni çıxartmazlar...

Xülasə, Məlik Məhəmmədonların təklifinə razı olmadı. Qızlar Məlik Məhəmmədə dedilər:

– Bizə yəqindir ki, bizdən sonra səni çıxartmayacaqlar, imdi belə olanda bizim bu şeylərimiz qalsın səndə!

O şeylərin biri qızıl qəfəs içində bir qızıldan bülbül idi, bu böyük qızın idi, ortancıl qızın bir qızıldan sərpiç nimçəsi var idi, balaca qızın isə bir ədəd qızıldan dəyirmanı var idi, susuz, özü-özündən işlərdi. Bunları Məlik Məhəmmədə verdilər. Dedilər:

– Sənin dünyaya çıxmağın bundan məlum olar ki, bu şeylər görünər.

Məlik Məhəmməd dedi:

– Bunları buradan mən necə apararam?

Kiçik qız bir topa tük çıxarıb buna verdi və dedi:

– Bu bizim yel atımızın tüküdür. Bunu harada oda tutsan, yel atı orada hazır olar. Və yenə dedilər:

– ..................... bir cüt qoç var, biri ağ, biri qaradır. Hər cümə günü onlar buraya gəlib döyüşürlər. Ağ qoçun üstə üzəngi atsan, səni ağ dünyaya aparar, hər gah qara qoçun üstə minsən səni bundan da qaranlığa aparar. Cəhd eylə üzəngini ağ qoçun üsdə tulla.

Bunlar hamısı quyunun ağzına getdilər. Məlik Məhəmməd səs eylədi, kəməndi saldılar. Qızları bir-bir yuxarı çəkdilər. Növbət gəldi Məlik Məhəmmədə. Məlik Məhəmmədə kəmənd sallamadılar. Müəllim Məlik Məhəmmədin iki qardaşı ilə belə məsələhət qoydular ki, onu çıxartmayaq, hərəmaiz bu qızların birin götürək, atasına da deyərik ki, Məlik Məhəmmədi div öldürdü. Qızları götürüb getdilər, daha Məlik Məhəmmədin səsinə qulaq asmadılar. Məlik Məhəmməd quyuda qaldı.

Atası qardalardan soruşdu ki, Məlik Məhəmməd necə oldu? Onlar dedilər:

– Onu div öldürdü.

Padşah əmr eylədi ki, camaat bir il gərək Məlik Məhəmməddən ötrü qara geyinsinlər.

Məlik Məhəmmədin qardaşlarından əli çıgxıb qoyunların gəlməyini gözlədi. Onlar deyən kimi cümə günü gördü ki, bir qara, bir ağ qoç gəldilər. bunlar başladılar döyüşməyə. Məlik Məhəmməd istədi ki, ağ qoçun üstə tullansın, bu halda düşdü qara qoçun üstə! Qara qoç Məlik Məhəmmədi tulladı qaranlıq dünyaya. Məlik Məhəmməd baxıb gördü ki, bir ev var, evə girib gördü ki, bir qarı cəhrə əyirir. Bu qarıya dedi:

– A nənə, məni tanrı qonağı saxlarsanmı?

Qarı dedi:

– Tanrıya da qurban olum, qonağına da! Gəl içəri!

Məhəmməd içəri girdi və dedi:

– Nənə, mənə bir qurtum su veor, içim.



Qoca qarı dedi:

– Neçə vatdır su tapılmaz.

Məlik Məhəmməd soruşdu:

– Nə üçün?

Qarı dedi:

– Bizim bulaxda bir əjgdaha vardır, o qoymur su götürməyə! Ancaq gərək ona bir adam aparaq, adamı yeyincə suyu buraxır. O dəmdə hər kəs nə qədər su götürərsə, götürər. Sabah növbət padşahın gözünün ağı-qarası bir qızı var, onundur.

Məlik Məhəmməd dedi:

– Nənə, sabah tezdən məni durğuz və o padşahın evini mənə göstər.

Sabah oldu, nənə tezdən Məlik Məhəmmədi durğuzub aparıb padşahın evin göstərdi. Məlik Məhəmməd gördü ki, dünya bura yığılıb qızı aparmağa. Məlik Məhəmməd dedi:

– Qızı aparmayınız, mən gedib o əjdahanı öldürərəm.

Və getməyə başladı, adamlar da bunun dalınca düşdülər, qız da bularnan gedirdi. Eylə ki əjdahaya yaxınlaşdılar Məlik Məhəmməd dedi:

– Mən bunun qarnına girəcəyəm, haçan üç dəfə Allahu Əkbər dedim, onda məni bunun qarnından çıxardarsınız.

Bu sözləri deyib Məlik Məhəmməd xəncərini sisirib getdi əjdaha bunu uddu. Bu əjdahanın qarnında başladı içəridən onu doğramağa. Əjdahanı öldürdü və üç kərə nərə vurdu. Camaat tökülüb bunu çəkib çıxartdılar. Padşahın qızı beş barmağın əjdahanın qanına basıb oğlanın kürəyinin ortasına vurdu. Qız atasının yanına getdi, dedi:

– Ata, bir oğlan əjdahanı öldürdü.

Padşah soraq salıb öldürəni istədi. O, bu gəldi, getdi ki, "mən öldürmüşəm". Padşahın qızı dedi:

– Ata, onu öldürənə mən nişan vurmuşam.

Məlik Məhəmməd gəldi, qız dedi:

– Ata, əjdahanı öldürən budur.

Dedi:

– Qızım, bu olmağın nədən bildin?

Dedi:

– Dalında beş barmağımın izi var.

Padşah oğlanın dalına baxıb gördü ki, həqiqət, qızının beş barmağının nişanı var. Padşah hökm eylədi məni istəyən buna xələt verin! Məlik Məhəmməd dedi ki, mənə heş bir şey lazım deyil, əyər məni istəyirsiniz, məni işıqlıq dünyaya çıxartdırınız.

Padşah hər bir yerə hökm eylədi ki, ağıllı adamdları cəm etdirdi. Bundlardan padşah soruşdu ki, işıqlıq dünyaya necə çıxarlar? Bir qoca kişi dedi:

– Filan yerdə bir Zümrüd quşu var, onun balasın əjdaha yeyir. Hzər kəs əjdahanı öldürsə, Zümrüd quşu onun dərdinə əlac qılar.

Oğlan bu sözü eşidib bir qədər təam götürüb, yarağını geyib yola düşdü. Məlik Məhəmməd həmin nişan vurulan yerə gedib çıxdı. gördü ki, ağacın üstündə Zümrüd quşunun balaları oturub. Məlik Məhəmməd burada yuxusuz olduğuna görə dirsəkləndi ki, bir az yatsın, gördü ki, quşlar qışqırırlar. Ayağa dürüb gördü ki, əjdaha ağaca dırmaşır. Məlik Məhəmməd şöşkəsini siyirib əjdaha tərəfə gəlib onu parçaladı və ətlərini Zümrüd balalarına tulladı. Məlik Məhəmməd arxayın olub ağacın kölgəsində yıxılıb yatdı. Zümrüd quşu gəlib gördü ki, ağacın dibində bir qaraltı var, öz-özünə dedi: "Mənim balalarımı yeyən yəqin budur". Acıqlı gedib bir böyük qayanı



caynağına alıb gəldi istədi oğlanın başına salsın. Balaları qışqırıb dedilər:

– Ana, düşmənimiz olan əjdahanı bu öldürdü və ətini bizə verdi. Biz payımızı yemişik, qalanını da sənin üçün saxlamışıq.

Anası bunu eşidən kimi qayanı o yana qoyub gəldi gördü ki, Məlik Məhəmmədin üstə gün düşübdür. Qanadın bu oğalnın üstə sərdi. Məlik Məhəmməd bir azdan sonra ayıldı, gördü ki, Zümrüd quşu qanadın bunun üstə sərib. Zümrüd quşu bundan soruşdu:

– Oğlan, nə dərdin varsa, mənə de, sənə dərman eyləyim.

Məlik Məhəmməd dedi:

– Mənim səndən təvəqqəm budur ki, məni işıqlıq dünyaya çıxararsan.

Zümrüd quşu dedi:

– Gedərsən gomuş dərisindən yeddi tuluq tikdirib su ilə doldurarsan, yeddi şaqqa da ət götürərsən. Ondan sonra mən səni işıqlıq dünyaya çıxararam.

Məlik Məhəmməd padşahın yanına gəldi. Dedi ki, mənə yeddi tuluq su və yeddi şaqqa ət verəsiniz. Padşah bunun dediyinə dərhal əməl eylədi. Zümrüd quşu havaya qalxdı. Hər mərtəbədə bir "qa" eylədi. Oğlan o saat bir şaqqa ət, bir tuluq su quşun ağzına atırdı. Bu qayda ilə altı mərtəbəni qalxdılar. Yeddinci mərtəbədə quş bir də "qa" eylədi. Məlik Məhəmməd istədi ət və suyu bunun ağzına atsın ət əlindən düşdü. Dərhal şəmşirini siyirib özünün bir budunu kəsib quşun ağzına atdı. Zümrüd quşu gördü ki, bu ət şirindir, yeməyib dilinin altında saxladı. Həmən quyunun üstünə gəldilər. Zümrüd quşu dedi:

– İmdi get vətəninə!

Məlik Məhəmməd dedi:

– Sən get, mən sonra gedəcəyəm.

Zümrüd quşu dedi:

– Olmaz, gərək sən yeriyəsən, sonra mən gedəm.

Məlik Məhəmməd durdu ki, getsin, Zümrüd quşu gördü ki, qıçın çəkə bilməyir. Zümrüd quşu dedi:

– Nə üçün yeriyə bilmirsən?

Dedi:

– Elə ki sən "qa" eylədin, onda ət düşmüşdü, naəlac qalıb öz budumu sənə verdim.

Dedi:

– Eylə bildin yemişəm? Xeyir, ağzımda saxlamışam.

Əti qıçına qoyub ləabından vurdu və sağaltdı. Zümrüd quşu Məlik Məhəmmədlə görüşüb aralandılar. Məlik Məhəmməd öz şəhərlərinə tərəf gəldi. Yolda paltarını bir çobanla dəyişib bir zərgərə şagird durdu. Bir neçə vaxtdan sonra gördü ki, atasının vəziri bir çuval qızılı bir tnökərin dalına verib bazara gəlirlər. Hər bir zərgərə deyir ki, bu qızldan bir ədəd qızıl qəfəs qayırarsan, içində bir qızıl bülbül. Heç bir zərgər buna boyun tutmayırdı. Axırda Məlik Məhəmməd ustasına dedi:

– Ay usta, çağır gətirsin qızılı, mən dediyini qayıraram.

Ustası dedi:

– Birdən qayıra bilməzsən, padşah boynumu vurar.

Oğlan yalvardı, dedi:

– Sənə söz verirəm ki, qayıraram, hər gah qayırmasam, mənim boynumu vurdur!

Ustası uzun danışıqdan sonra razı oldu, vəziri çağırıb söz verdi ki, mən qayıraram. Qızılı alıb, içəri qoyub üç gün vaxt verdi ki, üç gündən sonra apararsınız, ya da özüm göndərərəm.



Axşam evə gedən kimi Məlik Məhəmməd həmin yel atının tükünü ......... oda tutuzdurdu. O saat yel atı gəldi. Həmin qızılı götürüb, ata minib quyu tərəfə getdi. Quyuya enib qızıl qəfəsi götürüb apardığı qızılları qoyub ata minib dükana gəldi. Qəfəsi içəri qoyub atı buraxdı. Məlik Məhəmməd başını qoyub yıxılıb yatdı.

Sabah olan kimi Məlik Məhəmməd dükan açıb oturmuşdu və qəfəsi dükanın qabağına qoymuşdu, hər kəs görürdüsə, bu qəfəsin tamaşasına gəlirdi. Ustası gəldi gördü həqiqət o qəfəsi qayırıbdır. Dedi:

– Məlik Məhəmməd, bir hammal çağır, qəfəsi verək padşahın evinə aparsın.

Məlik Məhəmməd dedi:

– Mən özüm apararam.

Qəfəsi də götürüb getdi. Qapıdan içəri girən kimi həmin böy ük qız bunu gördü. Bunlar danışdılar. Oğlan dedi:

– Qorxma, bunun vayına oturaram.

Aparıb qızıl qəfəsi padşaha verdi. Bayıra çıxanda Məlik Məhəmmədin öz atası bunu gördü və çox qəmgin olub ağladı. Məlik Məhəmmədi aparıb yedirib dedi:

– Sənin gözün mənim balaca oğlumun gözünə oxşayır.

Məlik Məhəmməd bir söz deməyib dükana tərəf gəldi. Üç gündən sonra xəbər çıxdı ki, padşahın oğlunun toyu olmağa görə hər kimin yaxşı atı var isə Cədilə (cıdıra) gəlsin. Məlik Məhəmməd ustasına dedi ki, usta, bu gecə bir yuxu görmüşəm. Bir adam ağ atlı, ağ paltarlı, ağ ələməli gəlib padşahın oğlunu vurub öldürdü. Ustası buna dedi ki, belə qələt eyləmə, heyvərə oğlu, heyvərə! Məlik Məhəmməd ustasından acığı gəlib dedi:

– Bir təpik də sənə vurdu və qoluvu da sındırdı.

Camaat cədələ yığılmağa başladı, ustası da getdi. Məlik Məhəmməd yel atın tükünü göy oda tutdu. Yel at dərhal hazır oldu. Ata minib quyuya tərəf getdi. quyuya düşüb ağ atı, ağ ələmi, ağ paltarı götürüb bayıra çıxdı. qıvraq geyinib, yaraq-əsbaba dolub ağ ata minib ağ ələmi əlinə alıb bir baş cədilə tərəf gəldi. Meydanda at oynadıb, bir şeir oxuyub qılıncın siyirdi, həmin müəllimin boynun vurdu, atın qulağına dedi ki, o kişinin cumub qoluna bir təpik vurarsan.

Bat çapıb ustasının qoluna bir bərk təpik vurub qolun sındırıb qaçmağa başladı. Qoşunlar nə qədər çapdılar bu ata çapa bilmədilər. Məlik Məhəmməd atı, paltarları yerlərinə qoyub yel atına süvar olub dükana gəldi. Dükana düşüb atı buraxdı, gördü ki, ustası qolun boynundan aşırıb budur gəlir. Məlik Məhəmməd soruşdu:

– Ay usta, qoluva nə olub?

Ustası dedi:

– Nahamvar oğlu, nahamvar, başına görməyə yuxu qəhət idi. Padşah oğlun o dediyin formu adam öldürdü, mənim də qolumu sındırdı.

Bir qədər vaxt keçdi bir gün ustası da dükanda olan vaxtı həmin vəzir bir çuval qızıl ilə gəlib dedi:

– Buna gərək bir ədəd qızıl sərpic nimçə qayırarsınız öz-özündən fırlansın.

Usta Məlik Məhəmmədin üzünə baxdı. Məlik Məhəmməd göz eylədi ki, qəbul eylə, usta! Usta qızılları alıb içəri qoydu. Axşam olcaq tustası evə getdi. Məlik Məhəmməd əvvəlki kimi edib qızılı aparıb qızıl sərpiç, nimçəni gətirib dükana qoydu. Usta gəlib gördü və çox sevinib dedi:

– Apar padşaha!



Məlik Məhəmməd qızıl sərpiçi götürüb getdi. Gedən kimi bunu ortancıl qız görüb tanıdı, genə buna himnən qandırdı ki, "qorxma, namərdə qismət eyləməm" deyib sovuşdu və dükana gəldi.

Bir gün bundan sonra usbasına dedi:

– Usta, bu gecə bir yuxu görmüşəm, Allah xeyirliyə.

Usta bunu söyüb dedi:

– Genə nə bəlalı yuxu görmüsən?

Məlik Məhəmməd dedi:

– Usta, gördüm yaşıl ələmli, yaşıl paltarlı bir adam gedib padşahın oğlunun boynunu vurdu və bir təpik də sənə vurdu. Qabırğaların sındı.

İki gündən sonra bunun da gədəlinə adam çağırıldı. Usta cədələ gedən kimi Məlik Məhəmməd atın tükünü oda tutan kimi yel atı hazır oldu. Ata minib gedib quyuya düşdü. Və yaşıl at minib, yaşıl donu geyinib, yaşıl ələmi götürüb, qılıncını bağlayıb cədilə tərəf rəvan oldu. Bir dəfə meydanı seyr edib padşahın oğlunun gün kimi qılıncın siyirib boynunu vurdu və atın qulağına dedi:

– O kişinin gedib qabırğasından bir təpik vur!

At dərhal gedib ustanın qabırğasından bir təpik vurdu və at çapıb getdi, ona çbatan olmadı.

Məlik Məhəmməd paltarını soyunub dükana qayıtdı. Bir müddətdən sonra həmin vəzin genə bir çuval qızıl nökərin dalına verib gəldi və dedi:

– Gərək bu qızıldan bir dyirman qayrarsınız, susuz işləyə.

Usta bunu da qəbul eylədi və Məlik Məhəmməd də öz vaxtında gedib gətirdi. Ustası səhər tezdən dükana gəlib dəyirmanı görüb çox təəccüb eylədi və dedi:

– Apar ver padşaha!

Məlik Məhəmməd dəyirmanı götürüb getdi. Kiçik qız Məlik Məhəmmədi görcək istədi ağuşqadan özünü atsın, bir tövr özünü saxladı. Məlik Məhəmməd işarə ilə onu qandırdı ki, qorxma, səni də qurtararam. Məlik Məhəmməd dəyirmanı aparıb padşahın qabağına qoydu və öz dükanına tərəf gəldi.

Sabahkı gün ustasına dedi:

– Usta, yazıxsan, fağırsan, padşahın cədəlinə getmə, bu səfər çox pis yuxu görmüşəm.

Ustası dedi:

– Daha demə!

Bir qədərdən sonra ustasının ürəyi dava etməyib dedi:

– İndi de görüm nə görmüsən?

Məlik Məhəmməd dedi:

– Gördüm bir adam gəlir al paltarlı, al ələmli, qara atlı, gəlib meydanda dövrə vurub padşahın oğlunun boynunu vurdu. Sən lə uzaxda durmuşdun, gəldi sənə də bir təpik vurdu, sən də öldün. Sonra gedib girdi padşahın evinə.

Ustası başladı buşnu söyməyə. Məlik Məhəmməd ürəyində deyirdi: "Saxla yadında, bu söyüşməyi sənə qusduraram".

Genə xəbər çıxdı ki, padşahın oğlunun cədəlidir. Ustası genə cədələ getdi və gedib bir dərədə gizləndi. Məlik Məhəmməd atın tükünü oda tutdu, at gəldi. Atı minib, quyuya gedib al paltarı geyinib yarağ-əsbabını taxdı, al ələmi götürüb qara atı mindi, yola düşüb cədələ gəldi. Bir dövrə vurub qılıncını siyirdi, bir nərər çəkib pādşahın oğlu tərəfə atı çapdı, dərhal boynunu vurdu. Ustasına nəzər edib gördü ki, bir dərədə gizlənib. Ona tərəf atı çapdı, atın qulağına pıçıldadı, at ayağını qalxızıb ustaya bir təpik vurdu ki, ustanın bir ayılmağı İsrafilin sur çalmağına qaldı.



Məlik Məhəmməd atın bir baş padşahın sarayına tərəf sürdü. Padşahın sarayına çatıb atdan düşüb padşahın otağına tərəf getdi. Padşaha baş endirib gördü ki, tamam vəzir-vüzəra, əyan-əşxaş, cümləsi burada hızrdırlar. Və dedi:

– Padşah! Bir şəxs ki, şəxsin barəsində xəyanət edə, onu cəzası nədir?

Padşah dedi:

– Onun cəzası odur ki, boynunu vurasan.

Bu sözü eşidən kimi padşaha bir kağız verib dedi ki, qol qoy! Padşah qol qoydu. Sonra Məlik Məhəmməd soyundu. Atası bunu tanıyıb gördü ki, bu həmin bunun oğlu Məlik Məhəmməddir. Atası bunun üzündən öpdü. Bu halda çapışmada olan faciə səsi qılxdı. Bu xəbər padşaha gələndə dedi:

– Çox yaxşı eylədi öldürdü.

Və hökm eylədi qoşunlar sakit olsunlar. Atası bundan sonra əhvalatı soruşdu, oğlu başına gələn əhvalatı kıma-huva nəql eylədi. Padşah çox şad oldu, bu halda anası da oğlunun gələməsini eşidib yanına çağırdı. Məlik Məhəmməd anasıylan bir qədər ağlaşdılar və sonra başına gələn macəranı anasına nəql eylədi. Anası dedi:

– Oğlum, südüm sənə əhalal olsun.

Atası qırx gün-qırx gecə toy etdirib kiçik qızı Məlik Məhəmmədə verdi. Və Məlik Məhəmmədin bu igidliyindən atasının çox xoşu gəldi və öz sağlığında bunu taxta mindirib padşah eylədi. Məlik Məhəmməd padşah olandan sonra böyük qızı vəzirin oğluna və ortancıl qızı vəkilin oğluna verdi. Ondan sonra nətqədər quüyuda qızıl, gümüş və sair dövlət vardısa, cümləsini gətirib xəzinəsinə doldurdu. Məlik Məhəmməd mətləbinə yetişdi, siz də mətləbinizə yetişiniz!

# MƏRASİM FOLKLORU

## Məişət mərasimləri

### Toy mərasimi

### Bakı toy adətləri

Bakı toy adətləri və muğamat haqda olan material Hüseynov Əli Səhabın söylədiklərindən yazılmışdır.

Toy adətləri haqdakı hissədə nəzərə çarpan ilk kəsir faktlrın müxtəsər, təfsilatsız verilməsidir. Toy adətləri dedikdə, şübhəsiz ki, buraya sevişmə, görüşlər, elçilik, nişan gecesi də dxildir. Söylənmiş materialda isə yalnız toy gecesi və toy gecesinə hazırlıq təsvir olunur.

Başlanğıcda belə yazılır:

"1875-ci ildə Bakı toy adətləri". Xalq adətlərini illə ölçmək, bir ilə bağlamaq doğru deyildir. Hər il bir toy adətimi olmuş? Şübhəsiz yox. Heç bir vaxt adətləri belə dar çərçivədə olmamışlar.

Toy şənliyindən bəhs edilirkən lotu oyunları da verilir. Misal olaraq göstərilən bir oyun təmamilə din nümayədələrini ifşa edir.

Oxucu din nümayəndələrinin bu oyuna münasibətini bilmək istərkən materialdan heç bir qeyd tapmır.

Kəsrlərin əksəri hadisələrin müxtəsər təsvirindən doğur. Istər-istəməz kənt toylarının şəhər toylarına nisbətən saflığı nəzərə çarpır. Ms.: Kənt toylarında yığılan pul az olur və toy xalq şənliyi məclisinə dönür. Lakin şəhər toylarında yığılan



pul, pul əldə etmək məqsədi daşıyır; bundan başqa ən kiçik bir mebahisə kəskinləşib vuruşmaya varır.

Şəhər toyların çağrılanların siyahısı tutulursa (bu zaman varlılıq da nəzərdə tutulur), kənt toyları daha sərbəst olur.

Kənt toylarından danışılırkən çox maraqlı bir yerə təsadüf olunur.

Toydan sonar oğlan qıza yaxın durmurkən (bunun müxtəlif səbəbləri olur: ailənin ağır dərdi, yoldaşı istədiyi qız olurkən, bəzən utanır...) qəbirstanlığı gəzdirib qızın yanına buraxırdılar. Bunda məqsəd həyatın faniliyini, hamının bir sona çatacağını, yəni öləcəyini işarə etməkdir. Bu moment çox incə düşünülmüşdür. Toy adətlərindən bəhs edən hisənin çatmamazlığı hadisələrin müfəssəl verilməməsidir. Ikinci böyük hissə oxuyan və çalanlar haqqındadır. Burada bir neçə məşhur oxuyan haqda ayrı-ayrı danışılıb yaxşı tərəfləri göstərilir. Ms.: Baladadaşın sözləri aydın deməsi, Sabunçulu Qiyasın düz oxumağa çalışması, Hacı Hüsünün "Şüşrər"I yaxşı oxuması, Məzşədi İsanın bədii parçalar seçməsi, Ağa Kərim Zeynalovun xüsusi müsiqi məlumatına malik olması, Mirzə Səttarın həssas çalması, Alapalas oğlunun oxu metodları göstərilir. Bütün bu momentlər Azərbaycan musiqisi tarixini yazırkən Azərbaycanda vokal sənətinin imkişafınə göstərən, onun dolğunluğunu isbat edecək faktlardır.

Yenə oxuyanlardan bəhs olunan hissədə muğamatın strukturası, sxeması verilir. Bu hissədə də başlıca bir kəsir vardır. Ms.: "Nəvahi", "Nişaburi" və "Şüştər" dəstgah deyildir, çünki sonradan yaranmışlar. Yuxarıda sayılan muğamlar (avtorun saydığı) hamısı bir vaxtdamı yaranmış? Bu mümkün deyil. Şübhəsiz, hərəsi bir vaxtda, biri digərindən sonar yaranmış. Bu halda "Nəvahi"nin, "Nişaburi"nin və Şüştəri"n də

dəstgah olmaması səbəbini sonar yaranmalarında görmək olmaz. Bu maraqlı məsələni doğru həll etmək olmur (nə üçün onlar dəstgah sayılmır). Burada mütləq avtorun geniş kommentarisi lazımdı. Başqa yerdə söylənir ki, sazəndə toy gedəndə əvvəl Ərək – pəncgah çalardı. Nə üçün? Bəlkə bunun metodik, texniki əhəmiyyəti var. Bu kimi momentlərə mütləq komentari verilməlidir. Material başqa əsas iş üçün xammal olar.

*16.04.1940*

## Pullu toylar

### Arvad toyları barəsində məlumat, 1875-ci ildə Bakı kəntlərində toyların qaydası

Bu qayda il olmuşdur: toy başlanmamışdan qabaq, bazarlığa gedərdilər gəlin üçün paltar almağa. O vaxt oğlanın evindən bir adam qızın evinə göndərərdilər ki, sabah bazaarlığa, yəni paltar almağa gedəcəyik, sizdən də bir adam gəlsin bizimlə getməyə. onda qızın tərəfindən də bir adam gələrdi, gedərdi onlarla paltar almağa. Çünki qanun belə idi ki, alınan paltarları qızın adamı bəgəneydi. Ona görə də qəzən adamı gələrdi və paltarları alıb gətirərfilər. O zaman paltarların xüsuzi adları var idi. Məsələn: "şəmsi - qəmər", "qeyçi kesməz", alışdım - yandım", oturma – sındı", həcbəri bax" kibi adlarla adlanırdı və o palfarlar üçün bafta, zəncirə alardılar ki, tumanın balağına və donun ətəyinə dövrü-ha-dövr 1 varşav enində bafta qoyardılar, sonar paltarları qızın evinə aparardılar. Paltarları aparmamışdan qabaq oğlanın evindən, qızın evinə mətbəx xərci göndərərdilər:ət, noxud, soğan, ona görə ki, qız evinə gələn adamlarçın xörək bişirsinlər və qız evinə



xəbər verərdilər ki, by gün paltar gətirəcəyik. Sonra paltarları aparardılar. Paltarları aparanda 5 dənə xonça tutardılar. Qayda belə idi ki, xonça gərək tək olaydı, cüt yaramzdı. Xonçanın birisinə paltarları qoyardılar, ikisinə yemiş qoyardılar, ikisinə də çörək qoyub aparardılar qız evinə. Arvatlar dəf, qarmon çala-çala xonçaları qızın evinə aparardılar. O günü qızın evində çalğı çalardılar və paltarları kəsib tikərdilər. Qızın anası da xonça aparanlara cehiz verərdi. Hər adama: ya ipək yaylıx və ya ipəkdən tikilmiş bir kisə və ya bir dənə tuman bağı.

Toydan bir gün qabaq kəndin adamlarını toya çağırmağa bir yengə və iki ayrı arvad ayırardılar: arvadların biri oğlan adamı olardı, biri də qız adamı. Gəlinin təzə paltarlarını iki arvad geyərdi. Paltarların yaxşısını oğlan adamı, ondan alçağını qız adamı geyərdi. Yengənin əlində bir meşoq olardı. Iki arvad ilə bir yengə çıxardılar kəndin içinə. Hər evə girəndə ev yiyəsinə xəbər edərdilər ki, sabah filankəsin qızının toyudur, buyurub gələsiz. O zaman çarşabı götürüb gəlinin təzə paltarlarını göstərərdilər. Onda yengəyə evlərdə pay verərdilər. Əgər gəlinin paltarını göstərməsə idilər, onlara pay verməzdilər. Verilən pay bunlar idi: əncil qurusu, movüc, kudu, balqabaq, yumurta, onları alıb tökərdilər meşoğa və özlərilə gəzdirərdilər. Torba şey ilə dolanda onu aparıb qoyardılar bir evə, yenə evlərə xəbər verərdilər. Kəndi xəbərdar edib qurtarandan sonar o şeyləri yığıb özlərilə aparardılar.

Sabahı günü qızın toyu başlanardı. Toy iki gecə davam edərdi. Bir gecə sərpayı, bir gecə də böyük toy. Toyun ikinci gecesi oğlanın evindən qızın evinə bir kisə xinə, iki dənə ipək yaylıq, iki dənə şam, bir dənə kifəndaz, bir dənə zərli yasdıq göndərərdilər ki, buna qülfə diyərdilər. Gəlini axşam toyxanaya xınaya gətirərdilər. Gəlinin iki dənə sağ soldaşı olardı.

Gəlin toyxanaya daxil olanda onu oturdardılar, sağ-soldaşın əllərində şam, biri gəlinin sol tərəfində, biri də gəlinin sağ tərəfində otarardılar. O vaxt stul yox idi. Kifəndazı salardılar yerə. Balışı qoyardılar kifəndazın üstünə, gəlin ortada oturardı. Sağ soldaşdı biri sağında biri solunda. O vaxt arvadların biri qarmon çalardı, biri də dəf əlində oynaya-oynaya gəlini tərif edərdi. Xinəni bir mis qabın içində isladardılar, yengə o xinədən yaxardı gəlinin ovucuna, xınanı gəlinin ovucuna yaxandan sonar yengə xinəni toyxanada olan arvadların qabağında gəzdirərdi, arvadlardan kim istəsə idi barmaq salıb sürtərdilər ovucuna ki, toy xinəsidir. Gəlin ortada ikən, toy sahibi başlardı camaatdan toy pulu yığmağa. Pulu yığıb qurtarandan sonar deməli toy qurtardı. Sağ- soldaş da yanan şamları piləyib söndürməzdilər ki, şuyumu yaxşı deyil. Şamı yana-yana basardılar o islanmış xınanın içinə söndürərdilər.

## 1875-ci ildə Bakı kəndlərində oğlan toyunun barəsində məlumat

Kəndlərdə oğlan toyunu başlamaq üçün toyxana qurardılar. Qış zamanında töylələrdə toyxana qurardılar, toyu töylələrdə edərdilər. Yaz zamanında bayırda toyxana qurardılar. Toy yiyəsinin bir toyxanalıq taxta-şalbanı olmadığına görə, toy yiyələri araba qoşub hər həyətdən bir dənə, iki dənə taxtadan, şalbandan yığıb gətirərdilərtoyxana yerinə. Sonra dost-aşna, qohum-qardaş yığışıb gələrdi o toyxananıqurub düzəldərdilər. Sonra yenə bu dost-aşna, qohum-qardaş kəndin içindən xalça-palaz, qazan, lampa gətirərdilər toyda işlətməyə. Həman xalça-palazla toyxananın dövrəsi ilə üstün tutardılar.



Toyxana üçün taxta-şalban azlıq edəndə hündür Salyan arabaları var idi, taxta-şalban çatmayanda həmin arabalardan gətirərdilər, toyxananın yanına düzərdilər bir-birinin yanında. Onun da üstünü köhnə kürsü yorğanı ilə örtərdilər. Toyxanaya stul yerinə evlərdən kürsü yığardılar, gətirib toyxanaya düzərdilər. Üstünə palaz çəkərdilər ki, toya gələnlər otursunlar. Toyxananı qurub qurtarandan sonra iki nəfər baş cahıllardan gedərdilər şəhərə, sazanda gətirməyə. Şəhərdən bir dəstə zurnaçı gətirərdilər, bir dəstə də mütrüb gətirərdilər, bir də lotu oyun çıxaran gətirərdilər. Mütrüb dəstəsində: bir nütrüb, iki qavalçalan, bir də kamançaçalan və oxuyan olardı. Sazandaları gətirəndən sonra toy başlanardı. Toy üç gün-üç gecə davam edərdi.

Toydan qabaq kəndə xəlfə çıxardı ki, adamları toya çağırsın. O zaman qanun belə idi ki, başqa kəndlərin qohum üçün, dost-aşna üçün öz adlarilə kağız göndərərdilər, onları toya dəvət edərdilər, omlar da toya gələrdilər. Toy başlanan gecəsi axşamdan zurnaçını çıxarardılar dama, zurnaçı çalardı ki, camaat eşidib toya gəlsin, təxminən yarım saat çalardı. Özü də əvvəl çalanda "Oraq-pəncgah" çalardı. Sonra gələrdilər toyxanaya. Toyxanada başlardılar çalmağa. O zaman tanınmış məşhur zurnaçalan Balaxanlı Ağagül olub. Özü çox kamil və musiqişünas bir adam olub, demək olar ki, zamanəsində onun kimisi olmayıb. O toyxanada çalanda musiqi bilən adamlar ondan "Humayun" dəstgahı istərdilər çalmağa. O da təmamən "Humayun" dəstgahını müfəssəl çalardı. Xalq onun çalmağına heyran qalardı. Ağagül belə kamil çalan idi. O dəstgahı qurtarandan sonra başlardı zurnada mütrüb oynatmağa. Ta saat 10-a qədər. Saat 10-dan sonra oxuyan yastı balaban ilə oxuyardı.

O vaxt stul yox idi. Sazandalar üçün yerdə döşək, yorğan salardılar, oturardılar döşək üstə. Qabaqlarında bir manqal. Manqalın içində də od olardıki, qavalı qızdırmağa. Çalan və oxuyan iki diz üstə yerdə oturardılar. Balabançının da başında tirmə araxçın olardı, oxuyanın da başında tirmə araxçın olardı. Əyinlərində uzun don, qara lastikdən döşləri də açıq, bellərində ipək qurşaq olardı.

O vaxt camaatdan, bilən adamlar sərpayıya deyərdilər ki, gedin oxuyana deyin ki, filan havanı oxusun; ya "Mahur", ya "Segah-zabul" kimi havalar sifariş verərdilər. Camaat hər havanı istəsə idi, onu oxudardı. Oxuyan qolunu çırmalayıb qavalı qoyardı iki dizi üstə və camaat istəyən muğamatı öz qaydasilə tamam, mükəmməl oxuyardı (təsniflərilə) o vaxt orada dirəngə çalardı, mütrüb oynardı və o zaman xanəndəni gündə 4 dəfə oxudardılar. Əvvəl səhər sazandaların mənzilində, sazandalar çay içən vaxtda ona çayüstü deyərdilər. Bir də günorta toyxanada camaat yığışıb ixtilat edərdilər, oxuyan onda oxuyardı. Bir də 4-də qurşaq olardı, camaat qurşaqdan qayıdandan sonra yenə gəlib sazandaların mənzilində orada ixtilat edib oxuyanı oxutdurardılar.

Bir də axşam toyxanada çalıb oxuyanda gecə qadınlar da damın üstündən, palazın arasından baxardılar və toyxananın yanından da gizlin baxardılar. O vaxtda bir də görürdün ki, bayırdan, toyxananın yanından bir qiyamət qopdu və qalmaqal oldu. Xəbər alardılar ki, nə var, nə qalmqaldır? Deyərdilər ki, azvadlar toyxanaya palaz arasından baxırlar. Onları qovardılar ki, baxmasınlar. Bədbəxt arvadları qoymazdılar toyxanaya tamaşa etsinlər.

Elə ki, oxuyan, oxuyub qurtardı, onda lotu gəlib toyxanada oyun çıxarardı. O cümlədən, axund oyunu çıxarardı.



Lotu özü də iranlı idi, ərdəbilli. Adı da Lotu İsmayıl idi. Məhşur nəməki gözəl bir lotu idi. O vaxt axund libası geyərdi, başına böyük bir əmmamə qoyardı, çiyninə də bir əba salardı, əlində də bir əsa, yanında da bir pişxidmət olardı. Pişxidmətinin də adı Qasım idi. Pişxidməti də dalınca gəlib oturardı toyxananın ortasında, əlində təsbeh zikr edərdi. Qarabağında bir dənə səccadə əmmaməni də təhtülhənək eləmişdi. Bu əsnada bir dənə qoca arvad gəlib axundun yanına, arvad gələn zaman pişxidmət çıxır qabağına, soruşur ondan nə istəyirsən, nə üçün gəlmisən, arvad deyir ki, bir məsələ var gəlmişəm axunddan soruşmağa. Qasım deyir ki, dayan gedim axunddan izn alım sonra get. Qasım gedir axundun yanına, deyir:

– Bir arvad gəlib sizi görmək istəyir.

Axund deyir:

– Qasım əlində bir şey var, yoxsa boş gəlib?

Qasım deyi:

– Xeyir ağa bir şey yoxdur əlində.

Axund deyir:

– Eybi yoxdur, göndər gəlsin.

Qasım gəlib arvadı aparır axundun yanına. Arvad gəlib axunda salam verir. Ərz edir ki:

– Ağa, mənim bir məsələm var sizdən soruşmağa.

Axund soruşur:

– Nədir sənin məsələn, bir de görüm!

Arvad deyir ki:

– Mənim iki dənə toyuğum var, onun birisi banlayır, qalmışam məəttəl, onu satım pul eləyim, yosa kəsim verim uşaqlara yesin.

Axund deyir:

– Ay arvad, de görüm toyuğu gətirmisən ya evdədir?

Arvad deyir:

– Xeyr ağa, gətirməmişəm, evdədir.

Axund acıqlanır ona:

– Axmağın qızı axmaq, toyuğu evdə qoyub, özün tək gəlmisən bura. Get toyuğu gətir, gəl baxım, banlayan toyuğun cürbəcür nöqsanları olur, siz onu başa düşməzsiniz. Gərək mən baxam sonra sənə cavab deyəm.

Bu vaxt arvad gedib toyuğu gətirir axunda. Axund alır toyuğu əlinə baxır və deyir:

– Ay arvad, bu toyuq yumurtlayan toyuqdur ki.

Arvad deyir:

– Bəli ağa, yumurtlayan toyuqdur. 10 dənə də yumurtası var evdə.

Axund deyir:

– Get yumurtaları da gətir gəl. Baxım onlara, bəlkə sənin üçün birtəhər düzəldim.

Arvad gedir 10 dənə yumurtanı da gətirir verir axunda. Axund yumurtaları əlinə alıb deyir:

– Vay, vay, vay, nə müzürzü və bedşüküm heyvandır bu. Nə yaxşı bunun sədəməsi sizə toxunmayıb. Yumurtaları heç toyuq yumurtalarına bənzəmir, ilan yumurtasına oxşayır.

Onda axund çağırır pişxidmətini:

– Ədə Qasım, Qasım bura gəl.

Qasım da gəlib deyir:

– Ağa, nə qulluğunuz var.

Axund deyir:

– Qasım, sən dünyagörmüş adamsan, bax gör bu cür-yumurta və belə toyuq görmüsən?

Qasım deyir:



– Ağa, başına and olsun, bu cür heyvan birinci dəfədir ki, görürüəm.

Axund deyir:

– Ay arvad, iş xarabdır. Mən istəyirdim sənin üçün birtəhər düzəldim ki, şəriətnən müvafiq olsun. Görürüəm heç düz gəlmir.

Arvad deyir:

– Ağam, bəs mən indi nə edim?

Axund deyir:

– Heç nə, sən bu toyuğu nə kəsib yeyə biləcəksən, nə də sata biləcəksən.

Arvad deyir:

– Bəs nə olsun?

Axund deyir:

– Allahü əzimüşşən Qurani-Şərifində banlayan toyuğun barəsində ayə buyurub. Ayə də budur, oxuyum sənin üçün, get xatircəm ol otur yerində:

Cəllə cəlalühu və əzzəmə şənihi və rəfə sultanihu,

Bannıyan toyuğun əti və yumurtası ilə mollaya həlalihu.

Yazıq arvad görür ki, axund toyuğu da, yumurtaları da halalladı özü üçün götürdü. Arvad deyir:

– Ay ağa, mənim iki dənə yetimlərim var bu toyuğun yumurtası ilə dolanırlar, birtəhər eləginənki, heç olmasa bu toyuğun yumurtalarını aparım onlar üçün.

O vaxt axund acıqlanır arvada və deyir:

– Məlunə, məni istəyirsən ki, biiman edəsən və dindən xaric eləyəsən! Oğlanların da batsın, sən də onların üstündə, mən Allah qoyan qanunu poza bilmərəm. Bircə rədd ol buradan! Yoxsa səni verrəm səngusar eləyərlər.

Sonra çağırır Qasımı:

– Qasım, gəl bura, bu məlunəni buradan rədd elə çıxsın getsin.

Qasım da gəlib tutur arvadın qolundan çıxarır bayıra. Deyir arvada:

– Rədd ol buradan, çıx get nə qədər başın salamtdır! Şəriətlə zarafat olmaz.

Biçarə arvad kor-peşiman düşür yola, çıxıb gedir.

Sonra axund çağırır:

– Adə Qasım, Qasım bura gəl.

Qasım gəlib deyir:

– Ağa , nə buyurursunuz.

Axund deyir:

– Gördün ki, arvad nə bic arvad idi, istəyirdi yumurtaları alsın məndən. Yandırdım atasını, vermədim yumurtaları ona. Adə Qasım, mən ölüm gördün ki, ayəni nə cür oxudum onun üçün. Axmağın qızı elə bildi ki, doğrudan da Quran ayəsidir.

Qasım deyir:

– Ağa başına dönüm, başına and olsun mən də Quran ayəsi bildim.

Axund deyir:

– Qasım, biz yaxşı edirik ki, bunları avam saxlayırıq. qoymayırıq oxmağa. Əgər bir balaca qara - qura oxusaydı, bu arvad başa düşərdi ki, bu, Quran ayəsi deyil. O zaman nə o toyuğu bizə verərdi, nə yumurtanı. Hamısını alıb aparacaq idi.

Qasım deyi:

– Bəli ağa, sən biləni kim biləcək.

O zaman axund verir toyuğu Qasıma və deyir:

– Apar bunun üçün dən tökginən ac qalmasın, bəlkə sabah bundan bir toyuxpilov yeyək.



Sonra axund yenə deyir:

– Qasım, gəlsənə bu gecə bir keyf edək. Sabah gecəyə ki, toyuxpilovumuz hazırdır.

Qasım deyir:

– Ağa, baş üstə, nə cür buyurursunuz o cür də edək. O zaman axund 5 manat çıxarır cibindən verir Qasıma və deyir:

– Get Martirosun dükanına, mənim adımı ver, deynən axund deyir ki, mən apardığım araqdan versin. Ancaq arağı gətirəndə elə gətir ki, görən olmasın.

Qasım da gedib arağı heç kəs görmədən alıb gətirərdi.

Axund Qasıma deyərdi:

– Adə, Qasım, qapını bağla.

Qasım da qapını bağlardı. Axund ilə Qasım keyflə məşğul olardılar. O zaman 2 dənə fincan qoyardılar ortalığa, bağlardılar araq içməyə. Əvvəl tökərdilər fincana götürərdilər əllərinə.

Axund deyərdi:

– Qasım, gəsənə bunu içək o arvadın sağlığına ki, toyoğu gətirib bizə verib.

Başlardılar içməyə. Bir balaca keyfli olurdular. O zaman axund deyərdi:

– Qasım, mənim üçün bir diringi çal, oxuyub oynayacağam.

O zaman axund əmmaməni atır bir tərəfə, əbasını tullayır bir tərəfə Qasım da götürür qavalı əlinə başlayır xırda - xırda çalmağa. Axund başlardı bu cür oxuyub oynamağa. Bu əşarı oxuyurdu:

Şüşəni vur piyaləyə saqi can
Xoş rəngi dönsün laləyə can.

Axundla Qasımın keyfi bununla qurtarardı. Bundan sonra başlardı mütrüb oynamağa. Mütrübə kəmərcik geyindirərdilər. Kəmərcikdə sancaq, zəncirə olardı. Qadın tumanı kimi. Mütrübü kamançaçalan oynadardı. Bəzi vaxtda camaat zurnaçıdan xahiş edərdi, böyük zurna ilə oynadırdılar. Mütrüb oynayanda ona qırmızı örpək verərdilər ki, örpək ilə oynasın. Ona da "Xalabacı" havası deyərdilər. Mütrüb oynayıb qurtarandan sonra başlayıb "Şahsevən" oynardılar, yəni turna-turna. Bir dənə qurşağın ucunu eşərdilər, olardı ağac kimi. Turnanı bir nəfər alardı əlinə, girərdi toyxananın ortasına. Bir nəfər adam çağırardı oturdardı toyxananın ortasına. Bir dizini vurardı yerə sağ əlini uzadardı və ovucunu açardı. O zaman nağaraçı da nağaranı çalardı. O biri var qüvvəsilə turnanı vurardı onun əlinə. Turna qalardı həmin vurulan adam üçün. O da qeyrisini çağırardı vurardı əlinə. Bu qayda ilə turna oyunu təkrar olunardı. Azı iki saat davam edərdi. Hər kimi kim çağırsa idi o adamın ixtiyarı yox idi ki, gəlməsin, gərək gələ idi. Turna o dərəcədə bərk olardı ki, çox adamın əli turnadan şişərdi. O adam o biri gecə toya gəlməzdi turnanın qorxusundan, toyun pulunu göndərərdilər, özləri isə gəlməzdilər. Toyun ikinci günü gəlinköçdü aparardılar. Yəni qızın evinə şey aparardılar. Bir dənə qoyun, bir kisə un, üç-dörü pud düyü qız toyunda işlətməyə.

4-5 dənə araba qoşardılar, o şeyləri qoyardılar arabaya cahillər, zurnaçılar da minərdi, mütrübü də mindirərdilər qabaqkı arabanın şanasının üstünə. Çala-çala gedərfilər qızın evinə. Qızgilin həyətində zurna çalardılar. Mütrübü oynadardılar. O vaxt qız evində arabaçılara, sazandalara cehiz verərdilər. Hər adama bir dənə ipək yaylıq, ya bir dənə araxçın verərdilər. Şeyləri verəndən sonra qayıdıb gələrdilər.



2-ci gecə oxuyan oxuyub qurtarandan sona bəyi xınaya gətirərdilər. Bəyin də iki sağ-soldaşı olardı. Birisi qızın qohumlarından, birisi də oğlanın dost-aşnasından. Bəyin qohumları hərəsi bir xonça tutardı. İçi şirniyyat ilə dolu xonçanı tutardılarəələrində oynardılarbəyin qabağında. Sonra çağırardılar bəyin atasilə-anasını, - xonçalardan birini atası alardı, birini anası, qoyardılar başlarına bəyin qabağında oynardılar. Sonra o yemişləri dövrə ilə tutardılar toyxanada olan camaatın qabağına, camaat da hərəsi bir ovuc götürərdilər ondan, çünki tou şirnisi idi. Bəy xınadan qurtardıqdan sonra aşıq nağıl deyərdi. Aşıq yanında bir dənə balaban çalan olardı. Gedərdilər toyxananın o başına, balabançı da onun dalınca, gələrdilər bu başına. Aşıq nağılı qurtardıqdan sonra başlardılar mütrübü oynatmağa, turna-turna oynamağa. Bununla da toyxana qurtarardı və adamlar dağılıb gedərdilər.

Toyun 3-cü günü bəyi hamam aparardılar saat 4- də. Hamamı hamamçıdan danışıb alardılar 3 manata. Bəy hamamdan çıxınca nə qədər dost-aşna hamama getsə idi hamamçının ixtiyarı yox idi damışmağa. Hamama bir-iki kisə xına aparardılar. Orada adamlar başlarına, əllərinə yaxardılar. Hamamda çimib çıxandan sonra xəlifə bəyin paltarlarını gətirərdi bəy üçün. Bəy çıxıb paltarlarını geyərdi. Zurnaçılar da mütrüb dəstəsilə çala-çala gələrdilər hamamın qabağına. Hamamın qabağında çalardılar mütrüb oynardı, ta bəy hamamdan çıxanacan. Bəy hamamdan çıxıb düşərdi adamların qabağına, iki dənə sağ-soldaş, yanında zurnaçılar çala-çala, mütrüb də bəyin qabağında oynaya-oynaya gələrdilər bəyin həyətinə. Bəy həyətə çatanda bəyin başına qara pul, ağ pul atardılar. Tökülərdi yerə, xırda uşaqlar yığardılar. Sonra bəyi gətirərdilər toyxanaya, oturdardılar yerə, sağ-soldaşı da yanında. O

vaxt bəyin qabağında oynardılar. Oynayandan sonra xanəndə gəlib bəyi tərif edərdi:

### Bəyin tərifi

Əcayib məclisdir, əcayib gülrəng,
Geyinib şuxi şəng hamıdan qəşəng.
Əynindəki libas hərəsəi bir rəng,
Görüm ay bəy toyun mübarək olsun.

Nimçəyə düzmüşəm noğulla badam,
Toyunu eylərəm ürəkdən şadam.
Sağ olsunlar buraya yığılan adam.
Görüm ay bəy toyun mübarək olsun.
Ay gözəl bəy.

Saqi hamı alsın ələ camını,
Tərif edək bu məclisi hamını.
Atan-anan aldı arzu-kamını,
Görüm ay bəy toyun mübarək olsun.
Geydiyin xələtin mebarək olsun.
Ay gözəl bəy.

Sultan deyim sənə və ya paşasan,
Xoşbaxt olub bu dünyada yaşa sən.
Yoldaşınla vur ömrünü başa sən,
Görüm ay bəy toyun mübarək olsun.
Qohum qardaşın elin sağ olsun.
Ay sağ olsun



Əyninə geymisən məxnər parası,
Ürəyimin silinib qalmayıb pası.
Sən olasan on iki oğul atası,
Görüm ay bəy toyun mübarək olsun.
Sağdışın, soldaşın elin sağ olsun.

Bəyi tərif edib qurtardlqdan sonra başlayıb "xan-xan" oynardılar. "Xan-xan" oynayıb qurtarınca bəy yerindən tərpənməzdi. O vaxt bir nəfəri xan seçərdilər. Vəziri, vəkili və bir də pəgərdi (yasoul) olardı. Xan başlardı divan eləməyə və bəyin qohum aşnalarından gətirib cərimi edərdi. Cərimə verməyənlərin bağlardı ayaqlarını, salardı yerə. Tatarı ilə ayaqlarına döyərdi. Sonra alardı cəriməsini, elə ki, xan qurtarardı sonra bəy durub gedərdi. O yığılan pulları xan paylardı sazandalara, bundan sonra adamlar dağılıb çıxıb gedərdilər.

Toyun 3-cü gecəsi, yəni axırıncı gecə o qayda ilə çalan çalıb oynardı, oxuyan oxuyub qurtarandan sonra çağırardılar toy sahibini ki, süfrəni gətir pulunu yığaq. Toy sahibi bir süfrə gətirərdi salardı toyxananın ortasına. Kəndin rəislərindən 3-4 nəfər oturardı süfrənin dövrəsində, bir dənə xəlifə, iki dənə də ona köməkçi başlardılar camaatdan pul yığmağa, toy yiyəsi üçün çoxlu pul verərdilər. Əvvəl qohum-qardaşdan yığardılar, sonra dost-aşnadan, sonra başlardılar camaatdan pul yığmağa. Məsələn: filənkəs 1 manat, xəlifə deyərdi, evi abadan. Filankəs 3 manat xəlifə deyərdi, toyunda qulluq eləyim inşallah. Filankəs 5 manat, xəlifə deyərdi, Allah ona oğul versin inşallah. Beləliklə, pulu yığıb qurtarardılar. Pulu yığanda süfrənin qırağında bir nəfər yazan əlində kağız-qələm, pul verənlərin adlarını və miqdarını yazardı. Sonra o kağızı verərdilər toy yiyəsinə. Onlar da toy eləyəndə baxsın görsün kim nə qədər verib, o da o qədər versin onların toyuna. Pulu yığıb qurtarandan

sonra başlardılar mütrüb oynatmağa, turna-turna oynatmağa. Aşıq nağıl deməyə, bundan sonra camaat dağılıb gedərdilər.

Oğlan toyu qurtardıqdan sonra gəlin gətirmək fikrində olardılar, qız adamları isə gəlin köçürmək fikrində olardılar. Oğlan evindən iki kisə xına, bir qədər də yemişdən xonça tutardılar gedərdilər gəlinin evinə. Bu gecə gəlinin ayağına xına yaxardılar ki, o gecəyə də xınanahan gecəsi deyərdilər. Həmin xınadan qohum-qardaş da yaxardılar əl-ayağına. Sabahı günü gəlini aparardılar hamama. Hamamdan gələndən sonra axşamı gəlini köçürərdilər. Qız evində gəlinin tədarükündə olardılar. Gəlinin əyər-əksiyini düzəldərdilər. Axşamı bəyin qohum-qardaşı yığışardı, araba qoşub gedərdilər gəlini gətirməyə, o vaxt kişilər də gedərdilər, arvadlar da gedərdilər. Elə ki, gedib çatardılar qızın həyətinə, deyərdilər ki, biz hazırıq gəlmişik siz hazırsınınz ya yox. Qız adamları deyərdilər ki, xeyr hazır deyilik, hələ gəlinin zinəti qurtarmayıb. Təxminən bir saat oğlan adamını bayırda saxlardılar. Çünki qanun elə idi ki, evin ortasından pərdə çəkərdilər, pərdənin dalında qıza zinət verərdilər. Zinət verib qurtarandan sonra qızın adamları çıxardılar bayıra, oğlan adamlarına deyərdilər ki, hazırıq, çəkin arabanızı qapıya. Araba da Salyan arabaları kibitkəli, yəni üstü örtülü olardı. Arabanın yanlarına palazlar tutardılar. Kibitkənin üstünə də bir qırmızı örpək çəkərdilər, yəni bilinsin ki, bu, gəlin arabasıdır. Arabanı çəkərdilər qapıya, arabanı qapıya çəkdikdən sonra çıxıb bir dənə kişi aparardılar, oğlanın atası olsaydı atasını aparardılar, olmasa idi yaxın adamlarından bir nəfər kişi gələrdi gəlin olan evə, o kişi öz qurşağını belindən açardı bağlardı gəlinin belinə, o qurşağı gəlinin belinə bağlayanda qıraqda duran bir dənə arvad götürüb kişinin papağını qoyardı gəlinin başına, o kişi yenə öz papağını



götürərdi qoyardı öz başına. Həman qurşaqda gedərdi oğlan evinə. Oğlan özü açardı qızın belindən qurşağı. Sonra gəlinin qapısından arabayadək iki tərəfli palaz tutardılar ki, gəlin görünməsin. O vaxt qız adamı deyərdi ay camaat çəkilin bir tərəfə mindirək. Adamlar da çəkilərdilər bir qırağa, qızı bayıra çıxaranda bi sözü oxuyardılar qız üçün:

Anam bacım qız gəlin
Əli-ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız, gəlin.

Sonra deyərdilər ki: get, çörəyin isti olsun, suyun soyuq. Gəlin arabaya minməmiş onun boxçasının içinə bir dənə çörək qoyardılar, bir dənə ayna, bir dənə şam, bir də bir qrafinka şərbət verərdilər bir arvada, şamla aynanı da verərdilər yegənin əlinə. Bir dənə torbanın içinə qənd doğrayıb tökərdilər, verərdilər qızın qohumu olan bir arvada. Sonra gəlini mindirərdilər arabaya, üç arvad da minərdilər gəlin ilə arabaya. Arabanı sürəndə gərək üzü Qibləyə sürə idilər. O vaxt arabanı çəkib çala-çala düşərdilər yola. O zaman bir məhəllədən digər məhəlləyə keçəndə, ya bir kənddən digər kəndə gedəndə o məhəllənin cahılları gəlib kəsərdilər arabanın qabağını. Əllərində bir uzun ip, biri o başdan tutardı, biri də bu başdan, qoymazdılar arabanı getməyə, deyərdilər ki, gərək qazaqyana verəsiniz. Onda oğlanın adamı çıxarıb onlara pul verərdi, buraxardılar arabanı. Elə ki, çatardılar oğlanın həyətinə yenə arabanın yanından qapıyacan iki tərəfli palaz tutardılar. Gəlini düşürüb aparardılar evə. Elə ki gəlin evə girir o vaxt gəlinin taxtının altına bir az qənd atrdılar ki, gəlin oğlan üçün şirin olsun. Gəlinin taxtının üstünə də bir oğlan uşağı salardılar ki, gəlin oğlan doğsun. Gəlini saxlayardılar ayaq üstə, onun

qabağında çalıb oynardılar. O zamanda gəlinin dalında o arvad dayanardı ki, gəlinin evindən qənd gətirmişdi. Hərdən bir dənə o qənddən, gəlinin çiyninin üstündən verərdi gəlinə, gəlin də qəndi verərdi oğlan adamının ağzına, ta ki torbadan qənd qurtarınca, ancaq qəndi adamların əlinə verməzdi. Gəli gələn gecesi aş bişirərdilər. Gəli dolu qazan üstə gələrdi ki, ruzisi bol olsun. Sonar çalıb oynayıb çıxıb gedərdilər. Sonra oğlanın dost –aşnalarından bir dənə oğlan bəyi gətirib salır evinə və çıxıb gedir. Sonra oğlan gəli gəlinin yanına, oğlan həmən qurşağı açır gəlinin belindən. Sonra oğlan istəyir ki, məqsədinə nail olsun, o zaman bəzilərini həya basardı, ya əsəbləri xarab olardı, məqsədinə nail ola bilməzdi. Yengə də oturardı səhərə qədər o biri evdə, gözlərdi bəyi ki, gəlin evinə xəbər aparsın. Elə ki, məqsədinə nail ola bilməzdi, iki gün gözlərdilər. Başa gəlməyən zaman o vaxt kənddən bir neçə nəfər qoca arvadlardan çağırardılar. Deyərdilər ki, bizim oğlanımız belədir onun üçün nə edək. Qoca arvadlar da deyərdilər ki, bəti aparın quyunun üstündən atlandırın, qəbiristanlığı gəzdirin ki, çıxsın başından. Sonra aparırlar onu quyunun üstündən atlandırırlar, qəbirstanlıqda gəzdirirlər, onda yenə düzəlmir, çarələri kəsilib gedərdilər mollanın yanına. Mollaya əhvalatı deyərdilər. Molla da baxır Kitaba deyir ki:

– Bunu dua ediblər, bağlayıblar bir qara qıfılla aparıb atıblar dənizə. Bunun üçün dua yazmaq lazımdır.

O vaxt onlar molla-ilə danışardılar bir qiymət, o pulun yarısını molla qabaqca alar, qalanını da sonraya vaxt qoyardı. Sonra molla üç dənə dua yazıb verir oğlanın adamına deyir ki:

– Bunun birini qəbirstanlıqda basdırın, birini dənizə atın, birini də bir istəkan suyun içinə verin suyu ona içsin.



Sonra oğlanın adamı o duaları gətirib öz qaydasilə işlədir. Bir neçə vaxtdan sonra oğlan qız ilə açılışır, həya mane olmur ona və o vaxt məqsədinə nail olur. Məqsədinə nail olandan sonra camaat deyərdi ki, filan molla oğlanın işini düzəltdi. Elə ki, molla eşidərdi ki, oğlanın işi düzəlib həman vaxt xəbər göndərərdi oğlanın ata-anasına ki, mənim pulumu göndərin, əyər göndərməsəniz elə bağlaram ki, qiyamətədək açılmaz. O vaxt oğlanın atası elə bilərdi ki, elə mollanın duasilə iş düzəlib, qorxusundan pulu həmin gün aprıb verərdi. Hətta qızın tərəfindən mollaya xələt də verərdilər. Oğlan məqsədinə nail olandan 3 gün qızın evindən xörək gələrdi damadla gəlin üçün. Birinci gün quymaq ilə qayğanaq, ikinci gün pilov, üçüncü gün düşbərə gələrdi. Bu, qanun idi. Üçüncü gün gəlinin adamları gələrdilər gəlin ilə görüşməyə. O vaxt yengə bir qırmızı örpək salardı gəlinin başına. Təzədən zinət verərdilər. Onda bir dənə arvad qucağında oğlan uşağı gələrdi evə. Bir dənə oxlov verərdi uşağın əlinə gəlini durquzardılar ayaq üstə, uşaq oxlovu uzadıb gəlinin örpəyini oxlov ilə götürərdi. Arvad durardı oynamağa. O vaxt örpəyi də oxlovun üstündə oynadardı. Ondan sonra gəlin 7 gün təxtin üstündə qalardı. 7 gündən sonra oğlan adamı, qızın adamı yığılıb gələrdilər gəlinin təxtini yığmağa. Qızın evindən bir böyük qabda pilov gələrdi. Qızın taxtını yığandan sonra gəlini aparardılar hamama. Hamama gedən zaman bir dənə podnosun içində gəlinin zinətini qoyardılar: kirşan, pudra, ətir, güzgü 3 dənə yastı qəmbərin üstünə qaş yağı mazudan, rusuqdan qayırardılar. Podnosun üstünə zərli örtük salardılar. Aparardılar hamama və hamamdan çıxan-çıxan arvadlar gərək o qaş yağından yaxardılar və üzlərinə qara xallar vurardılar. Sonra gəlini hamamdan gətirərdilər. Evə gələndən sonra qızın evindən bir

nimçə pilov gələrdi. Çünki bunlar qanun idi. Pilovu yeyib qurtarandan sonra çalıb oynardılar, hər kəsən çıxıb gedərdi.

Bu idi kənd toylarının qaydası.

O vaxt ki, toy olardı, 3 gecə toy olanda, 3 gün də qurşaq olardı. Məsələn: bir kənddə 4 dənə toy olanda dalbadal 12 gün də qurşaq olardı. Bu vaxt bir açıqlıqda meydan edərdilər, orada qurşaq tutardılar. Məsələn: bir kənddə toy olanda ayrı kəndlərdən də qonax çağırardılar toya. O vaxt qonaxlar toya gələndə, özləri ilə yaxşı qurşaq tutan gətirərdilər və toy pulusunu da verərdilər, qurşaq tutmağa. Qurşaq başlanardı gündüz saat 4-dən gün batana qədər. Bu vaxt qeyri kəndlərdən də cahıllar araba qoşub minərdilər arabaya, gələrdilər qurşağa. Ondan əlavə hər kim kənddə davakar idi, yəni ağac vuran idi onu da gətirərdilər özlərilə, çünki o vaxt qurşaqda dava çox olardı. O vaxt qurşaq məxluqun arasında mütədavil adət idi. Qurşaq başlanan zamanda kəndin bir nəfər hörmətli adamlarından ağac əlində gəzərdi meydanın içində, adamları soyundurmağa, qurşaq tutmağa. O kəndin adamından, başqa kəndin adamı ilə qurşaq tutardılar. Qurşaq tutan zamanda birisinin bir balaca yanı dəyərdi yerə, o birisi düz durardı ayaq üstə və onun adamları deyərdilər ki, saxla basdı. Basılan adamın adamları deyərdi ki, basmadı. Düşərdi aralarına bir böyük dava və ağac bərgəsi. Vurub bir-birinin başını dağıdardılar. O dəstədə ki, ağac vuran adam var idi o biri dəstəni döyərdi. Onda camaat girərdi onların arasına onları ayırardılar. O vaxt yaxşı pəhləvanlar var idi. O cümlədən, bu axırlarda məşhur maştağalı altıaylıq pəhləvan var idi. Onu da gətirərdilər toya. yaxşı, ehtiramla ona hörmət edərdilər.

Qurşaq olan günlərdə, cahıllar qurşaq tutub qurtarandan sonra, o pəhləvan soyunub girərdi meydana, meydanı yaxşı



gəzərdi. Bir 6-7 nəfər cahıllardan soyundurardılar, salardılar meydana. Bir-bir onunla qurşaq tutardılar. Qurşaqda hərəsini bir yolla basardı. Bir parasını götürərdi əli üstə yuxarı, yenə qoyardı yerə. Qurtaran zaman meydanda olan kişi tutardı əlindən gəzdirərdi camaatın qabağında, camaat da ona pul verərdi. Bir qədər pul yığılandan sonra qurşaq da qurtarardı gedərdilər. Ondan sonra kəndlərdə məxluaun arasında yenə bir qayda var idi. Bir dənə köhnə qoçun qolunu (cecəsin, qərisin) gətirərdilər, o çox canlı (yoğun) olardı. Götürərdilər axşam onu toyxanaya. Axşam toyxanada çalıb oxuyub qurtarandan sonra o qolu atardılar toyxananın ortasına, deyərdilər kim istəyir bu qolu sındırmağa buyursun. O vaxt bir nəfər cahıl girərdi ortalığa, o qərini götürərdi əlinə, qərinin bir ucunu qoyardı sol əlinin içinə onu qurşaqla bərk biləyindən sarıyardı, sonra onu qoyardı sağ böyrünün altına, salardı özünü üstünə. Zurnaçı da, böyük zurnanı çala-çala o güc eliyərdi ki, o qolu sındırsın. Bu sınıdra bilməzdi. Bir ayrısı gələrdi, beləliklə, bir neçəsi güc eləyəndən sonra sınıdra bilməzdilər.

Toyun ikinci gecəsi bəy xınaya gəldikdə bəyin xınasından o qəriyə də yaxardılar, onu olduqca əziz saxlardılar. Toyda qərini sındıra bilməzdilər, sazandalar bir ayrı kəndə toya gedərdilər. O vaxt sazandalar həman qərini özlərilə başqa kəndə apardardılar. Onlar da axşam toyxanada çalıb oxuduqdan sonra o qolu atardılar ortaya. Həmən qayda ilə adamlar qərini sındırmağa çalışardılar. Birinci gecə sındıra bilməzdilər, kəndin içinə yayılardı ki, filan kəndə bir dənə qəri gəlib onu sındırmaq olmur. İkinci gecə camaat tökülərdilər toyxanaya və ən nəhayət. cahıllardan biri sındırardı qərini. Sındırandan sonra səs düşərdi kəndə ki, filan kənddən gələn qərini filankəs sındırdı.

Budur, XIX əsrin axırlarında kənd toyunun qaydası.

## Şəhərdə olan pullu toyların qaydası (XIX əsrin axırlarında)

Pullu toylar bu qayda ilə olardı: tiy sahibi qabaqca öz qohum-əqrabasını çağırardı evə bir-birilə məsləhətləşərdilər ki. Kimi çağıraq məsləhətə. Onlar məsləhətləşib şəhərin hörmətli cahıllarını yazardılar və siyahını verərdilər xəlifəyə. Xəlif gedib o adamlara bir-bir xəbər verərdi ki, filan gün filankəsin oğlunun məsləhətinə vədəniz var. O adamlar da həman gecə gələrdilər. O gecə də orada məsləhət aşı bişirərdilər. Bir dəstə çalan-oxuyan gətirərdilər ki, onlar toyda da oxuyardılar. Axşam çalıb oxuyandan sonra başlardılar admları yazmağa. Hər adam öz qohum-qardaşın, dost-aşnaların yazdırardılar. Yazıb qurtardıqdan sonra yeyərdilər xörəklərini çıxıb gedərdilər. Toy başlanmamışdan bir gün qabaq o kağızı verərdilər xəlifəyə. Xəlifə də düşərdi şəhərin içinə, bir-bir o adamları xəbər edərdi ki, səni filankəs filankəsin oğlunun toyuna çağırıb, sabah toy olacaq. Toy da iki gecə olardı. Özü də gündüz olmazdı. Haman toyda camaata xörək verməzdilər. Toyun birinci gecəsi sərpayı olardı. İkinci gecəsi pul yığardılar. Toyda bir dəstə zurnaçı olardı, bir mütrüb, bir də oxuyan. Axşam toyun axırında mütrüb oynardı. Oxuyan oxuyardı. pulu yığardılar və sonra toy qurtarardı.

## Bakıda pulsuz toyların qaydası (XIX əsrin axırında – yəni ürəfa toyları)

O vaxt toy sahibi çağrardı öz qohum-qardaşından hansı ki ürəfa və sinli adamlar idi. Onlarla məsləhətləşərdi ki, toya hansı çalan və oxuyanları gətirək və toyu neçə gecə edək. O



vaxt öz aralarında məsləhətləşərdilər. Toy: 10-8-6 və ya gecəyəcən olardı. Çalanın ən yaxşı tarçalanını gətirərdilər və oxuyanın da hansı ki savadlı idi, musiqişünas idi, onu gətirərdilər. Toyda bir oxuyan olardı, bir də tarçalan. Tarla kamançaçalan az olardı. Çox vaxt tək tarçalan olardı. Toya çağrılacaq adamları başlardılar yazmağa. Əvvəl öz məhəllələrinin cahıllarını çağırardılar. Toya çağıranları dəstə-dəstə çağırardılar. Hər dəstəni də iki gecə toya dəvət edərdilər. Bir gecə sərpayı olardı, ikinci gecədə xörək yeyib çıxıb gedərdilər, sonra ayrı məhəllədən çağırardılar. Onlar da hələ o qayda ilə olardı. Toyda tarçalandan və oxuyandan başqa mütrüb də olmazdı, zurnaçı da olmazdı və oynayan arvad da olmazdı.

Çalıb oxuyan da 3 dəstə olardı. 3 dənə otaq olardı. Növbə ilə oxuyub qurtaranda bir-birlərinin yerinin dəyişdirərdilər. Bu keçərdi o otağa, o keçərdi bu otağa. Bəzi yerərdə toy yiyəsindən cahıllar təvəqqe edərdilər onlar üçün zurna ilə mütrüb gətirərdilər. Onlar üçün bir otaq ayırardılar ki, bu otağın da qapılarını bərk bağlardılar ki, zurna çalanda səs o biri otağa gəlməsin, çalıb oxuyana mane olmasın. Bu qayda ilə toy davam edərdi. Bu məsləhətdə olan adamlar toyun əvvəlindən axırıncı gecəsinə qədər toyda olardılar. Toyun axırıncı günü bəyi aparardılar hamama, bəyi hamadan gətirəndən sonra həyətdə camaata şərbət verərdilər, adama bir stəkan. Bəyi gətirib əyləşdirərdilər evdə, yanında iki dənə sağ-soldaşı olardı. Onda bir dənə xan seçərdilər. Xan bəyin qohum-qardaşından, dost-aşnalarından adama bir kəllə qənd cərimə edərdi. Sonra o qəndləri paylardılar çalıb oxuyanlara. O günün axşamı gəlin gələrdi. Gəlin gələn gecəsi toyda çalıb oxuyan olmazdı. CAcaq üləmaları (axundları, mollaları) çağıradılar. Onlar üçün bir də dərviş gətirərdilər. Dərviş oxuyardı, çörəklərini yeyər-

dilər sonra gedərdilər gəlin üçün. O zaman çalan və CAların arasında təfavüt var idi. Belə çalan oxuyan var idi ki, gecəsi 5 manat olardı, beləsi də bar idi ki, gecəsi 10 manat olardı. Bəzi yerlərdə bir parasına xələt də bağışlardılar.

## Gəlinə necə ziynət verərdilər

Gəlinə ziynət verəndə əvvəlcə bir arvad dəlləyi götürərlər. Dəlləy gəlinin üzünü alardı ipliylə və kirşanla. Necə dəlləy oğlanın üzünü qırxar, arvad da gəlinin üzünü ondan təmiz alardı. Sonra qaş yağı yandırardılar, mazidən qara rənginən. Sonra məşşatə başlardı gəlinə ziynət verməyə. Əvvəl ona qaç yaxardı, sonra gəlinin 2 üzünə də xal vurardı. Bir də çənəsinə qara xal vurardı. Bir də 2 qaşının arasına xal vurardı. Sonra başına ətir tökərdilər. Bunlarla məşşatə onu ziynətləndirirdi. Bir də gəlinin başının tükündən ziynət verərdilər. Qayçı ilə və darqla. Əvvəl bir çin başının tükündən alnından çətir qoyardılar. Bir çin də qulağının qabağında gözünün altınacan: ona da balabilçeh və gözaltı deyirlər. Budur gəlinin ziynəti.

## Gəlinin başına papaq qoymaq və belinə qurşaq bağlamaqdan məqsəd nədir?

Gəlinin başına papaq ona görə qoyurlar ki, oğlan evinə gedəndən sonra oğlan – başıpapaqlı – doğsun və qurşaq bağlamaqdan məqsəd budur ki, biz qızı göndərdik oğlan evinə bikr ( bağlı), qurşaq kimi. Qurşağı da qızın belindən oğlan gərək açsın. Özgəsi onu aça bilməz. Əl aqilü yek filişarə[1]. Budur papağın və qurşağın mənası.

[1]Aqilə bir işarə (red.).



Kənt toylarında qurşaq alarkən qoç döyüşdürərdilər. Məsələn: Balaxanı kəndində hər kimin qoçu vardı, meydanda döyüşdürərdilər. Məsələn, bir qeyri kəntdə kimin ki, qoçu vardı qoyardı ərəbəyə, beş adam da ayrı ərəbədə gələrdilər toy olan kəndə qoçu döyüşdürməyə. Qoç döyüşdürəndə çox dava düşərdi, ona görə ki , qnun belə idi. Hər qoç sahibləri qoçu döyüşdürən zaman çəkərdilər biri meydanın bu başına, o biri meydanın o biri başına. Qoçları buraxan zaman ikisi də birdən buraxardılar. Birisi tez buraxanda, onda dava düşürdü və bir də qoçu buraxanda qoç yiyəsi gələrdi, qoçilə gələndə qışqırardı qoç üçün: ay atama, o biri qoçun sahibi deyərdi nə üçün gəldün, neyçün qışqırdın ki, mənim qoçum qorxdu. Beləliklə, dava düşərdi.Vurub bir-birinin başını dağıdardılar.

Kəntlərdə begi hamamdan gətirəndə bir qayda var idi ki, tapança atardılar. Hər adam 10-15 güllə atardı. Bəzi vaxt da səhvən açılardı əllərindən degərdi bir adama. Necə ki, XIX əsrin axırlarında Kürdəxanı kəndində begi hamamdan gətirəndə tapança səhvən açıldı güllə degdi Bəxşəəli Kəblə Mürsəl oğluna, bu adam öldü. Belə olardı kənt toylarının qaydası.

## YAS MƏRASİMİ

...Görərdin ki,bir qadın ucadan oxşayır:

– Əlivin gümüş qələminə, başının oynaq papağına, ağır gəlişinə ata-anan qurban.

Başqası onun ağzından alardı:

– Qıfıllı qapına, bəzənməyən süfrənə, yanmayan cırağına, başı bəlalı xalan qurban. Arabir bayatı da deyərdilər:

Gəlmişəm görəm səni
Dərmişəm hörəm səni
Əlimdə açarım yox
Bir acam görəm səni

Dalımı dağa verrəm
Dağdan da daqa verrəm
Bilsəm hacan gələrsən
Canımı sadağa verrəm

Mən aşiq adı qardaş
Ağzımın dadı qardaş
Çağırram hay verməsən
.................................

Dəvə gəlir Dərbənddən
Yükü dolu qənddən
Fələk özün dadeydin
Bizə verən zərbədən

Mən aşiq ..............
Yanmışam .............



O qəmlər ki,sənin var
Mənim də xəbərim var.

Dəryanın başı yandı
Dibində daşı yandı
.........cavan adını
Ürəyimin başı yandı.

Bayquş mənəm- bayquş mən
Hamı quşlardan sayquş mən
Nə bəlalı quş oldum
Sızıldaram yay-qış mən.

Fələyi dindireydin
Bilməzin bildireydin
Mən yazı yazanda
Qələmin sındıreydin.

Bu daqda mal mələdi
Bəs niyə lal mələdi
İtirmişəm balamı
Mənə bir yol belədi.

Mən aşiq yasa mənsiz
Xallarn yasa mənsiz
Bülbülün gülü ölüb
Getməyir yasa mənsiz.

Mən aşiq ya səməni
Xalların yasəməni
Aparmadı şadlıqa
Apardı yasa məni.

# TƏQVİM MƏRASİMLƏRİ

## Günəşi çağırmaq nəğmələri

Dodu, Dodu ha Dodu Dodu!
Dodu Dodunun gördünüzmü?
Doduya salam verdinizmi?
Dodu burdan ötəndə
Qırmızı gün gördünüzmü?

* * *

Gün çıx,çıx!
Kəhər atı min çıx!
Oğlanlar ova çıxsın
Qarı nənə aş bişirəndə
İçindən siçan çıxsın.

* * *

Bulut günəşin qabağını tutanda maşa ilə od götürüb oxuyurlar:

Mən anamın ilkiyəm
Quyruğu qırmızı tülküyəm
A gün səni dağlaram
Sən də gəl məni dağla!



# NOVRUZ MƏRASİM NƏĞMƏLƏRİ

Ay kosa-kosa gəlmisən
Gəlmisən meydana sən
Almayınca payını
Çəkilmə bir yana sən.

Beş, yumurta payındır
Almaya allanasan
Mənim kosam oynayır
Gör necə dingildəyir,
Qulaq asanların
Qulağı zingildəyir,
Mənim kosam canlıdır,
Qolları mərcanlıdır
Kosama əl verməyin
Kosam yazıq canlidir.
Əmirə börk başında
Qələm oynar qaşında
Yüz əlli beş yaşında
Lap cavan oldu kosa.

* * *

.....İndi söhbətimizin ardına keçəlim. O vaxtlar novruz bayramı çox təntənəli və zənzənə ilə keçərdi. Bir ay qabaqdan....... -çərşənbə saqlardılar. Çərşənbə gecəsi hər həyətdə od yanaraq üzərlik yandırardılar. Həyətdə nə qədər adam olsa onun üzərindən atılmalı idi. Onlar atılaraq bu sözləri deyərdilər:

Üzərliksən həvasan
Cəmi dərdə dəvasan

Hər yerdə sən yanarsan
Qada bala salarsan
Gilavar gəl xəzri yat
Atam gəlsin səfərdən.

Bayrama iki həftə qalmış evlərdə ciddi tədarük görünərdi. Uşaqlara yeni əlvan paltarlar tikərdilər. Evi,eşiyi səliqəyə salardılar. Al-əlvan boqca bəzənərdi. Nə bəzənərdi. Evin xalça palazını təmiz döşərdilər, onluq, igirmilik, yüzlük lampalar təmizlər və hazırlardılar.

Ay kos-kosa gəlsənə
Gəlib salam versənə
Çömçəni doldursana
Kosanı yola salsana

Ay uyruğu-uyruğu
Saqqalı it quyruğu
Kosam bir oyun eylər
Qurdunu qoyun eylər
Yığar savan düyüsünü
Mahmudun toyun eylər

* * *

Novruz-novruz bahara
Güllər –güllər nahara
Bağçamızda gül olsun
Gül olsun,bülbül olsun.

* * *

Bal olmasın yağ olsun,
Evdəkilər sağ olsun.



Xanım dursun ayaqa
Kosanın payın versin.

* * *

Mərmər hovuzun dörd qırağında
Bülbüllər oxur şah budağında
Hərnə istəsən xudadan allam
Dəllək dükanı yadıma sallam
Dəllək dükanı tamam çıraqban
Məscidə qədər əlində quran
Qurbanin olum yaşıl çuxalı
Dərbəndlisən,yoxsa buralı?

Kosa murd deyib yerə yıxılardı.Bu sualları ona verərdilər və əvəzində kosadan cavab alardılar:

– Kosa hardan gəlirsən?
– Qubadan.
– Nə gətirmisən?
– Qax-qoz.
– Qax-qozu neylədin?
– Satdım.
– Pulu neylədin?
– Arvad aldım.
– Arvadı neylədin?
– Döydüm öldü.

Sonra bu mahnını oxuyardılar:

Başın sağ olsun kosa
Arşın uzun bel qısa
Kəfənsiz öldü kosa.

Kosaya sual verdikdən sonra uşaqlar ağız-ağıza verib bu mahnını oxuyardılar:

Bazarda həsir mələk sərmani
Göydə yel əsir mələk sərmani
Kosam tələsir mələk sərmani
Bazarda uzum mələk sərmani
Nimçəyə duzum mələk sərmani
Bir ala gözum mələk sərmani
Bazarda dibçək mələk sərmani
Al suyun içək mələk sərmani

* * *

Sallanma birçək mələk sərmayi
Pazarda it var mələk sərmayi
Quyruğunda bit var mələk sərmayi
Kəndində kut var mələk sərmayi

Bu mahnıdan sonra ev sahibi kosaya pay verərdi. Payı aldıqdan sonra hamı ağız-ağıza verib yeni bir mahnı oxuyardılar:

Xəstə könül onu görçək dincəldi
Sizin bu təzə bayramınız mübarək
Ayınız, gününüz, həftəniz mübarək.
..............................
Durarlar səhnə xanəni gəzərlər
Olanda il tərifi qonça bəzərlər
Sizin bu təzə bayramınız mübarək
Ayınız, gününüz həftəniz mübarək.

Bayramı təbrik etdikdən sonra kosa oynayıb dayanardı. Əl- əlvan bəzənmiş qızlar,gəlinlər hər kəs özünə görə kosaya pay verərdi.

* * *

Gecələr isə beş-altı uşaq bir yerə yığılıb bir kisənin ucuna ip bağladıqdan sonra damdan-dama gəzib bacalardan bu



kisəni salladardılar və yavaşcadan aşağıdakı sözləri söyləyərdilər:

Verin bizim payımızı
Aparaq ustamıza
Ustamız bizi azad eyləsin
Nin...nin...nin

Bu oyunun adına ninnini oyunu deyirdilər.

Bakının binaları o vaqtı çox alçaq olardı. Özüdə hamısı bir birinə yapışıq. Belə ki, şəhəri damdan-dama gəzmək olardı.Ya biri ev tikdikdə qonşusundan təvəqqə edərdi ki,- Kəblə Səfdər mənim həyətimə iki caxca qoyginən - o da qonşusunun xətrinə dəymədən öz divarında onun həyətinə iki caqca qoyardı.

Bunlar öldükdən sonra varislərdən biri evini söküb təzədən tikmək istədikdə digəri isə .......

* * *

Bakıda gəmiçilik edən, dənizdə işləyən çox olardı. Hələ buna görə də oğlu əri, dənizdə olan bir ana, bir arvad ya atasının səfərdən gəlməsini gözləyən bir uşaq bu sözlərə bu misraları da əlavə edərdi:

Əs xəzri,mən də verim nəziri
Əs gilavar əs qadasın aldığım
Xəzri yat gilavar gəl...........
/Atam/ yaxud oğlum,ərim/gəlsin səfərdən

* * *

Çərşənbə gecələri xonça düzəltmək, şam yandırmaq adətdir.

* * *

Novruza iki həftə, on gün qalmış hər kəs öz halına görə hazırlıq görərdi. Qapı,bacanı əhənglə ağartmaq,evləri bayir-bacanı sürtmək, palaz-xalçanı çırpıb təmizləmək, evi, otağı səliqəyə salmaq, yeni ili bir təmizlik içərisində qarşılamaq, ümumi bir həvəs idi.

Varlılar, tacirlər və alverçilərin hazırlığı daha geniş olardı. Onlar, bayrama xüsusi şəkərçörəyi, badamcörəyi, paxlava və sairə bu kimi şirniyyat bişirib hazırlardılar. Belə şirniyyat bişirməyə imkanı olmayanlar, bayramı sadəcə xüşkəbar ilə keçirərdilər.

Bir həftə əvvəldə istər aşağı bazarda, istərsə yuxarı bazarda bir qızğınlıq müşahidə edilərdi. Baqqallar dükanlarını güzgülər, Firdovsinin Şahnaməsindən alınaraq ağ parça üstünə çəkilmiş cürbəcür şəkillər, kağız fasunlar ilə bəzərdilər. Hər dükançı qapısından bir zəng asardı. Onu çalaraq qışqırıb malını tərifl ədiyi kimi yola saldığı müştərisinin arxasınca da o zəngi təkrar çalardı.

Bayrama bir neçə gün qalmış məhəllə uşaqları həyətləri gəzməklə "Kosa-kosa" adlanan xüsusı bir oyun oynar, tamaşaçılardan pul, xüşkəbar toplardılar.

Rəqs etməyi bacaran bir uşağın əyninə tərsinə çevrilmiş bir kürk geyindirərdilər, üstünə kağızdan qayrılmış üzlük/ maska/ taxıb başına da kəlləqənd kagızından uzunca şiş papaq qoyardılar. Belinə zınqırovlu bir kəmər bağlanardı. Habelə boynundan zınqirovlar asardılar.bu şəkildə hazırlanan kosanı məhəllə uşaqları araya salıb həyətləri gəzərək xüsusi bir hava ilə aşağıdakı sözləri xor halında oynayardılar. Kosa isə oynayardı.



A kosa, kosa gəlsənə
Gəlib salam versənə
Çömçəni doldursana
Kosanı yola salssana

* * *

Ay uyruğu,uyruğu,
Saqqalı it quyruğu
Kosam bir oyun eylər,
Qurdun qoyun eylər
Yığıb şabyan düyüsün
Mahmudun toyun eylər.

* * *

Novruz,novruz baharə
Güllər, güllər nahara
Bağçanızda gül olsun
Bal olsun həm yağ olsun
Evdəkilər sağ olsun.

* * *

Verənə oğul versin
Verməyənə qız versin
Xanım dursun ayağa
Kosanın payını versin.

* * *

Mərmər hovuzun dörd qırağında
Bülbüllər oxur şax-budağında,
Hər nə istəsəm xudadan allam

Dəllək dükanın yadına sallam
Dəllək dükanı bütün çırağban
Məclisə gedər əlində qəlyan
Qurbanın olum yaşıl çuxalı
Dərbəndli isən yoxsa buralı.

Bu nəğmə ilə qaytağı oynayan kosa "Kosa mord"/yəni kosa öldü/ söyləndikdə kosa yerə yıxılıb uzanardı. Onunla aşağıdakı sual- cavab başlanardı.

– Kosa haradan gəlmisən?
– Qubadan.
– Nə gətirmisən?
– Qax,qoz!
– Qax,qozu neylədin?
– Satdım.
– Pulunu neylədin?
– Arvad aldım.
Arvadı bəs neylədin?
– Döydüm öldü!...

Kosanın bu cavabı üzərinə yenə xor halında aşağıdakı sözlər oxunardı:

Başın sağ olsun kosa
Canın sağ olsun kosa
Arşın uzun bez qısa
Kəfənsiz öldü kosa

Sonra uşaqlar iki dəstəyə ayrılıb birinci dəstə aşağıdakı sözləri oxuduqca ikinci dəstə bu söxləri təkrar edərdi.

Bazarda üzüm
Mələk salmanı
Nimçəyə düzüm
Mələk salmanı



Sallama birçək
Mələk salmanı
Bazarda it var
Mələk salmanı
Quyruğunda bit var
Mələk salmanı
Təndirdə küt var
Mələk salmanı.

Bu mahnılar bitdikdən sonra,kosa papağını açıb ev yiyəsindən və başqalarından pay yığar,aşağıdakı mahnı ilə həyətdən çıxardılar.

Bahar gəldi,bahar gəldi,xoş gəldi
Xəstə könül onu görçək dincəldi
Sizin bu təzə bayramınız mübarək
Ayınız, gününüz, həftəniz mübarək.

Bayramda damları gəzib "nünnünü" getmək adəti də vardı. Bakı evləri əksəriyyətlə alçaq, birmərtəbəli evlər olduğundan küçədən onların damına çıxmaq asan idi. Nünnünü gedən adam ip ucuna kiçik bir torba bağlar, onu mətbəxin bacasından /əgər mətbəxin bacasında adam olarsa/ və ya sadəcə evin damından,bacasından evə sallar. Özünü tanıtdırmamaq məqsədilə şahadət barmağını burnuna vurmaqla "nünnünü" səsi çıxarıb ev yiyəsinə xəbərdar edərdi. Belə nünnünü gəzənlər qətiyyən boş qaytarılmazdı. Onun torbasına bir şey salmaq lazım idi.

Bayram axşamı arvadlar əlvan xonçalarla qəbiristanlığa gedərdilər. Qəbiristanda hər kəs öz xonçasını ölüsünün qəbri üzərinə düzərdi və sonra oxşayıb ağlamağa başlardı.

Görərdin ki, bir qadın ucadan oxşayır: "Əlinin gümüş qələminə,başının oynaq papağına, ağır gəlişinə anan qurban".

Bir başqası onun ağzından alardı: "Qıfıllı qapına,bəzənməyən süfrənə,yanmayan çirağına,başıbəlalı xalan qurban".

Arabir bayatı da deyərdilər:

Gəlmişəm görəm səni
Dərmişəm hörəm səni
Əlimdə acarım yox
Bir açam görəm səni

Dalımı dağa verrəm
Dağdan da dağa verrəm
Bilsəm haçan gələrsən
Canımı sadağa verrəm

Mən aşiq adı qardaş
Ağzımın dadı qardaş
Cığırram hay verməsən
Tutaram yadı qardaş.

Qəbir üstündə qadınların ürək yandıran oxşama sözləri, mollaların, "........" və "yasın" ölgün şüalar saçan günəşli dağlar arxasında gizlənməsinə qədər davam edərdi. Sonra hər kəs öz evinə qayıdardı.

Bayram axşamının gecəsi bütün ailə evə toplaşardı. Qələmkar süfrə ortalığa döşənərdi. Evin yuxarı başında uşaqların atası üçün xüsusi döşəkçə salınardı. Süfrəüstü hazırlanmış xonçaya əl uzatmağa kimsənin ixtiyarı yoxdı. Kiçik yaşlı uşaqlardan birisi ara-sıra xına ilə qızardılmış əlini yemiş almaq üçün qorxa-qorxa xonçaya uzatdıqda böyük bacisi onun əli üstə vurub yavaş səslə"çək əlini ağa ....................deyib onu qorxudardı...



Evin kişisi icazə verməyincə heç kəsin ixtiyarı yoxdur ki,əlini xonçaya uzatsın. Kişi isə hələ məşquldur. O bir bucaqda salınmış qələmkar canamaz üstündə qiraətlə namaz qılır. Onun qırxılmış başında paxlava çəkili ağ araqçın. Əynində qara şaldan beli büzməli don,donun altında tirmə döşlük, belində ağ qurşaq, ayağında göy lifəli qara mahud şalvar və qırmızı badamı puta corabı vardır.

O, heç tələsmədən namazını bitirdikdən sonra "həvvil haləna ila əhsənül-hal"duasını oxur. Bu halda 18 yaşlı böyük oğlu tələsik evə daxil olub küçələrdə tüfəng atıldığını, beləliklə də ilin təhvil olduğunu xəbər verir. Ata qoltuğundan üstü güləbətin çəkili saatqabını çıxarır,gümüş saatını qapağını açıb, saata baxır, ilin təhvil olmasına belə bir neçə dəqiqə qaldığını bildirir. Canamazı büküb yığışdırır. İrəli gəlib süfrə başında salınmış döşəkçə üstə oturaraq arxasına qoyulmuş nazbalışa söykənir. Hamı xonçanın başına toplandıqdan sonra bir qədər bayram yemişindən yeyir, anaları südlü pilov qazanını yerə qoyur. Hər uşağın öz payını öz boşqablarına tökərək verir. Südlü pilov yeyilib bitdikdən sonra süfrə yığılır. Sübh açıla-açılmaya məscidlərin minarələrində sübh azanının səsi eşidilərdi. İçəri şəhərdə cümə məscidində Molla Qasım adlı bir azançı var idi. Hündür boylu qara saqqalı olan bu şəxsin başında ağ,Təbriz araqçını olardı.Hərdən bir şəbkülah da qoyardı. Döşü açıq kəyanəsi topuğundan bir qarış yuxarı /dördətək donu/ qırmızı çalan sarı döşlükü, belində üstü sarı ipəklə çəkilmiş naxışlı, ağ qurşağı, qıçında genbalağlı ağ kətandan lifəli yalamat tumanı var idi. Ayağına qara meşindən dikdaban Təbriz dübəndisi və bəzi vaxt sarı rəngli nə`leyin geyərdi. Bu şəxs əcayib bir şəxs idi. Günə baxmaqla vaxtı düzgün söyləyərdi............birisi ondan soruşsaydı ki, Molla Qasım əmi

saat neçədir, günə baxıb deyərdi: Saat on birdir. Saata axdıqda isə düzgün on bir tamam olduğunu deyərdilər. Onun güclü səsi vardı. Qədim musiqiçilər bilər. Bu adam ruhülə dügah, nəva ilə azan verərdi. Molla Qasımın azanı Bakı xalqını yuxudan oyadardı. Şəhərdə yavaş-yavaş həyat başlanardı. Küçələrdə uşaqların rəngbərəng paltarları, xınaya boyanmış kəkil birçəyini, heydərili başlarını və tinlərdə dəstə-dəstə olub əlvan yumurta döyüşdürənlər gözə çarpardı. Ara-sıra tapanca da atılardı.

* * *

Bayram günləri həyət və otaq qapılarının açıq saxlanması ev sahibinin evdə olduğunu bildirərdi. Həyətlərin bəziləri qırlı bəziləri boş torpaq olardı. Bəzi həyətlərdə su quyusu və çarhovuz görünərdi. Həyətin o biri tərəfində nazik bir daş divarla müntəəm tikilmiş qapı, pəncərəsi biri-birindən hündür alçaq.damı,şirəli mətbəx yanında isə dörd bir tərəfi metr yarım əhənglənmiş toyuq hini bəzi həyətlərdə kəpək damı da görmək olardı.Mətbəxin damında əhənglə ağardılmış qoşa alçaq bacaları nəzəri cəlb edirdi.Mətbəxdə mütləq təndir, biri böyük, digəri kiçik iki ocaq, biri kürə olmaq şərtdir. Mətbəxin divarında xırda taxcalar, təndirlər üzbəüz divarın içinda beş çörək enində üç arşın hündürlüyü olan suaxan görmək olardı. Suaxan nədir? Uşaqları çox vaxt burada çimdirib yuyundurardılar. Suyu böyük mis qazanında isidərdilər. Bəzən gecə ev sahibləri də burada yuyunardı. Mətbəxin taxçalarında təndir üstə qazan. yuxayan, aşsüzən, mis qablar, divara söykənmiş mis məcməilər üstündə ət döymək üçün ət taxtası, qiyməkeş, taxtadan qayrılmış hövsər tabağı, yenə eləcə böyüklükdə bir çərək dərinliyində xəmir tabağı, divarlarda asılmış ələk,xəlbir,qaşıq səbəti, şalbanlardan asılan qışdan qalmış balqabaq, kudu, .....ilə soğan.



quru sərdabı balıq, dəstə ilə qurumuş qarğıdalı, narın süpürgə, bezdən qab dəsmalları nəzərə çarpardı.

* * *

Evin kənarında /başmaq çıxarılan yer/palaz parçasından salınardı. Otaq qiymətli xəlilərlə döşənərdi. Divarları ağardılmış otağın küncləri xırda döşəkçələr dər-döşəyi bəzəndə Təbrizdən və Ərdəbildən gəlmə ağ abı putalı kifqandazarla döşənərdi. Otağın divarlarında cumaxatandan böyük sandıqların üstə ipək, zərzər üzlü yorğan-döşəklər, qu tüklü balışlar qoyulardı.Taxçalarda xırda mücrülərin üstündə əlvan, çin-çin ipək boxçalar qoyulardı. İki cüməxatanın arasında, döşəmə ən bir qədər yuxarı bir cüt bədənnüma ayna, iki taxçanın arasında divar saatı, saatın sağ və solunda maral başları, həyətə açılmış pəncərələrin sütunlarında isə ətəkləri qırmızı xoruz şəkilli ağ, üz dəsmalları asılardı. Burada ara-sıra məxmər, üstünə güləbətin çəkilmiş daraqqabı, saatqabı da nəzəri cəlb edərdi.

Otağın bütn divarlarında ləmə olardı.Ləməyə ikinci əlvan zərli çini kasa və boşqab düzülərdi. Ləməyə bəzən bürünc avtavaləyən, sini gülabzən,böyük görkəmli dayaz düşbərəxor, dərin pilov nimçələri, bəzən də əlvan yağlı rənglərlə şəkilli dəmir podnoslar düzülərdi.ləmənin küncləri düşbərəxor /supnik/ və qeyrə bu kimi ev ləvazimatı ilə bəzənərdi. Pəncərədən sarı şamdanlar, bəzi evlərdə isə saxsıdan çir-çıraq /tunc rəngli/ asılardı. Evin ortasında, xalının üstünə böyük qələmkar süfrə döşənərdi.

* * *

Süfrə üzərinə rəngli nimçələrdə şəkərçörəyi, şəkərbura, paxlava, noğul, püstə, badam, əlvan boyanmış yumurta,

kasalarda islanmış albuxara, bunu yemək üçün naxışlı taxta qaşıqlar, düzülərdi. Süfrənin ortasında ara-sıra boşqablarda yaşıl səməni qoyulardı. Səməni bayramdan bir həftə qabaq isti otaqlarda, nimçələrdə bir qarış göyərdərdilər. Yuxarıda saydığımız şirniyyatdan başqa süfrədə tut qurusu miyanpur, innab, ləbləbi, kişmiş, səbzə, alma, portağal da olardı. Evdə bayram görüşünə gələnləri qəbul etmək üçün evin ya böyük oğlu, ya bacıoğlu,yainki qardaş oğlu təmiz yəni bayram paltarını geyib xınalı əlində gülabzən qapı ağzında əli döşündə, ayaqüstə dayanıb, gələnlərin əlinə gülab səpər, görüşdükdən sonra onlara yer təklif edərdi. Ev sahibi həmən adama işarə edərdi ki, qonaq üçün çay gətirsin. Bayram zamanı hil, darçın zəncəfil, qəhvə çayı da vermək adət idi. Bundan əlavə şərbət də verərdilər. Bayram görüşündə gələnlərə süfrədə olan şirniyyatdan yeməyi təklif edər və onlarla söhbətə başlardılar. Bu zaman yan otaqdan qapı arasından evin kiçik uşaqları, yeniyetişmiş qızları uşaqların anası gələn nəfərin kim olduğunu bilmək üçün qapı arasından baxardılar. O dəqiqə uşaqların üstbaşını qaydaya salıb Hacı Novruzqulu əmilə bayramlaşmağa göndərərdilər.

Uşaqların gəlməsini görən Hacı Novruzqulu qollarını uşaqlara doğru uzadıb, barmaqlarını tərpədərək özünə tərəf çağırardı.

– Po...qədə....qədə....qədə....gəl hacı əminin yanına... Uşaqlar da utanar, bir ayağı gedir, bir ayağı getməz, bir-birini itələyərək hacı əminin yanına gedərdilər.

Hacı əmi onları öpüb sığallayıb hərəsinin ovcuna bir ağ pul bayramlıq basardı. Bayramlaşmağa gələnlər yerin azaldığını görüb, xudahafizləşib gedərdilər ki, başqa gələnlər üçün yer açılsın.Bayram bu qayda ilə üç gün davam edərdi.



Üç gündən sonra qadınlar işə başlar. Bir həftə də qadınlar bayram edərdi.Novruzdan bir ay ya ay yarım keçmiş hər məhəllənin cahilləri pul qoyub şəhərin ətrafında seyrə çıxardılar. Bu yerlər: Yasamalüstü, Biləcəri qayası, Pirvəzəri üstü və Bibi-heybətdən ibarət idi. Burada da onlar bəzən həftələrlə çalıb-oynamaqla vaxtlarını keçirərdilər. O yerə qonaq gedən gənclər xəcalətli olmamaq üçün ya bir kəllə qənd,bir girvənkə çay və ya bir qoyun ya da, bir dəstə çalqıçı aparardılar. O zaman əsas etibarilə Quba meydanı,Kömür meydanı, Şamaxı yolundan ibarət olan şəhərin geniş meydançalarında çox vaxt Dağıstandan gəlmiş çobanlar camaata tamaşa verərdilər. Onlar iki möhkəm şalbanı biri-birinə çatıb yerə mayılı surətdə basdırdıqdan sonra ikisini də eləcə 10-15 metr məsafədən sancırdılar. Sonra şalbanların yuxarıdakı haçalarına kəndir bağlayıb birindən o birinə uzadardılar. Taram çəkəndən sonra həmin kəndiri möhkəmcə bağlardılar.

Bir gənc əlində uzun bir ağac məvazinət ağacı/ləngər/ olaraq ip üstə qalxar, zurnanın çaldığı havanın ritmi ilə kəndirin üstündə rəqs edərdi. Kəndir üstə oynanan rəqslər qaytarı, təkçalma və sairədir. Bunların ahəngi altında oynayan və atılıb düşənə rüstəmbaz ya kəndirbaz deyərdilər. Onun təlxəki də olardı. O, çuxanı tərsinə geyib, boynundan və qollarından zinqürov asar, üzünə dəridən bir üzlük geyib aşağıda təqlid çıxarır və yamsılamaqla pul yığardı. Təlxək hərdən yuxarıya xitabən:

Can Qardaş!<br>
Hünər kimin üçündür?<br>
Hünər sənin üçündür.

* * *

Ay kos-kosa, gəlmisən,<br>
Gəlmisən meydanə sən.

Almayınca payını
Çəkilmə bir yanə sən.

Beş yumurta payındı,
Olmaya allanasan.
Mənim kosam oynayır,
Gör necə dingildəyir.
Qulaq asanların da
Qulağı cingildəyir.

* * *

Mənim kosam canlıdı,
Qolları mərcanlıdı.
Kosama əl vurmayın
Kosam yarıq canlıdı.

Əmiri börk başında,
Qələm oynar qaşında.
Yüz əlli beş yaşında
Lap cavan öldü kosa.

* * *

Xonçaya qoydum balığı,
Ta bəzəyim ortalığı,
Gərdişə sal çalmalığı,
Çünki yetişüb Firuz
Xoş keçəcəkdür Novruz.

* * *

Taxçaya qoydım çırağı,
Roşən eyləsün bucağı,



İşıqlandırsun otağı,
Çünki yetişüb Firuz
Xoş keçəcəkdür Novruz.

* * *

Əsgidür bu çəhərşənbədür,
Atəş yanır şğləmdədür,
Zərdəşt dəyir kölgəmdür
Çünki yetişüb Firuz
Xoş keçəcəkdür Novruz.

* * *

Taxçaya qoydum noxudu,
Sanadım biri yox idi,
Zondanı həfti oxudi
Çünki yetişüb Firuz
Xoş keçəcəkdür Novruz.

* * *

Çar əski yəqumi boş
Cümləsinin qəlizi xoş,
Sörx yanır al atəş
Çünki yetişüb Firuz
Xoş keçəcəkdür Novruz.

* * *

Xonçaya qoy sim zəri
Əlavə aylə təbəri
Zondavəz oxur öqəri
Çünki yetişüb Firuz
Xoş keçəcəkdür Novruz.

* * *

Atəşə səp üzərligi
Qarnı yarıq bəzərligi
Suxt eyləsün əgərligi
Çünki yetişüb Firuz
Xoş keçəcəkdür Novruz.

* * *

Gəndüm codan səməni
Atil batil ilə ləpəni
Həft kahə aç Ösəni
Çünki yetişüb Firuz
Xoş keçəcəkdür Novruz.



**Кеса-кеса**

За несколько дней до Новруза-байрама /праздник весенного равноденствия / ребятишки квартала /мехле/ начинали обходить дворы и, распевая песни, собирать сушеные фрукты и деньги. На одного из мальчиков, умеющего танцовать, надевали вывертнутую на изнанку шубу /тулуп/, закрывали лицо самодельно бумажной маской, а не голову – свернутый конусом бумажный колпак / обычно с сахарной головы /. К поясу пришивали бубенцы, на шею также вешали ленту с бубенцами. Такого наряженного кесу / безбородой сопровождала по дворам ватага мальчишек, распевавшая следующую песню, под которую плясал кеса :

Эй, кеса, кеса, подойти-ка !
Подойди и поздоровайся !
Наполни - ка свой ковш,
Проводи - ка кесу !
А уйругу, уйругу[2]
Борода его из собачьего хвоста,
Мой коса напроказит,
Волку отдаст овцу
……………………/ непереводимо /
Сыграет свадьбу Махмуду.

После окончание этой песни, кто нибудь из ватаги выкрикивал:

«Кеса мурд! / по фарсидски: кеса умер! /

Тогда кеса падал наземь, и происходил следующий диалог между ним и ребятами:

---

[2] Припев без особого смысла.

– Кеса, ты откуда прибыл?
– Из Кубы.
– Что принес?
– Сушеные фрукты, орехи.
– Куда же ты дел их?
– Продал?
– А куда девал деньги?
– Купил жену / женился /.
– А где жена?
– Побил, она и померла.
После этого запевал хор:
Пусть голова твоя будет цела кеса ![3]
Пусть тело твое будет здорово, кеса !
Аршин велик, а бязь коротка,
Ты умер без савана, кеса!

По окончании песни Кеса поднимался на ноги и, раскрыв полу, просил у хозяев подарка. При этом он распевал вместе с хором :

Пришла весна, пришла весна, пивет ей!
Больная грудь, увидя ее, обрадовалось.
Поздравляем вас с новым байрамом,[4]
Да будут светлы ваши годы, месяцы, дни и недели!
Новруз[5], новруз – весна
Цветы, цветы распустились.
Да покроется цветами ваш сад!
Да будут цветы и соловьи.

[3] Этими словами обычно выражается соболезнование по поводу смерти близкого человека.
[4] Байрам - праздник.
[5] Новруз – значит, новый день / новый год /



Да будут масло, и будет мед!
Да будут здоровы все в вашем доме.
Кто нам подаст, у того сын родится,
Кто не подаст, у того дочь родится.
Пусть ханум[6] встанет
И принесет подарок Кесе.
Получив подарок, ватага переходила на другой двор.

[6] Ханум – госпажа.

# DİNİ MƏRASİMLƏR

## Orucluq nəğməsi

Orucun on beşinə
Gəldik sizə,
Qazanın qazmacağını
Veriniz bizə.
Nə verirsiniz veriniz bizə.
Şilə, şirni, ya da firni.
Paca da bazardan gəldi.

* * *

Orucun on beşinə
Gəldik sizə.
Orucun niyazını
Veriniz bizə.
Xanım ayağa dursun,
Boşqabı doldursun.
Uşağın oğlan olsun.
Allahı sevər isən,
Bizi yola tez sal sən.



## Один из религиозных обрядов старого Азербайджана /Магеррам/

В прошлом Баку делился на квартал / мехле / имел свою мечеть. Во внутреннем городке / в приделах старой крепости / были следующие мечети: Джума-мечеть, Мамед-яр-мечеть, Килей-мечеть, Шахская-мечеть, Гаджи Бану-мечеть. А во внешнем городе были мечети: Тазапир, Касимбей, Ширванлылар, Гаджи Бану-мечеть. А во внешном городе были мечети: Тазапир, Касимбей, Ширванлылар, Гаджи-Пирверди, Гаджи-Джебраиль, Гаджи-Мамалы, Чемберекенд, Гаджи-Джавад. Кроме мечетей были еще «текийе / религиозно-траурн. собрания/: кубинцев, иранцев, даглинцев, карабахцев.

В начале месяц магеррама в каждом квартале мечеть убиралась, украшалась, в них производилась победка стен и потолков постоялые дворы, где происходили «текийе», также готовились к магерраму: на дворе устраивали навесы, стелили ковры и паласы. Каждая мечеть и текийе имела своего розехана /полудуховное лицо, рассказывающее религиозные предания/.

После заката солнце население каждого квартала собиралось в своей мечети. Молодые выстраивались в два ряда лицом друг к другу и обнажали грудь. Один из них запевал марсие / религиозная элегия / :

О пророк! Ночью я видел деда на площади,

Обезглавленный, он лежал, залитый кровью.

Остальные подхватвали песню хором и в такт ей шлепали себя по груди. Это называлось «тяжелая маарсие».

Затем такт менялся.

Увидя запекшиеся губы бойцов, Хазрат-Аббас[7],

Как море, приходит в волнение Хазрат-Абас.

Это называлось «джуши» / быстрая марсие /. Наконец, розехан поднимался на минбар / трибуна в мечети /, рассказывал нараспев предание, люди плакали, и этим заканчивался. Все первые девять дней магеррама проходили таким образом.

В десять дней магеррама выступала процессия, предшествуемая знамене и «комнатой Касима».[8] Разодев нескольких девочек в арабские платья и распустив им волосы, сажали их в комнату Касима. Перед нами насыпали кучу соломенной мякины. Девочки, то и дело нанося себе удары по голове и по груди рассыпали мякину. Мужчина лет 30-35, стоя на крыше «комнаты» распевал «минаджат» /славословие Магомету/.

Украшали лошадь, к седлу прикрепляли чалму, саблю и пару походных сапог. Покрывали седло вымазанной красной краской простыней. Эта лошадь должна была изображать «Зульджалала», коня имама Гусейна.

На другую лошадь сажали мужчину в белом халате без рукавов с красными пятнами. Всадник держал в зубах кинжал. На голове его под чалмой или другой повязкой прикреплялась сабля, получалось такое впечатление, что голова рассчена застрявшим в черепе кинжалом. Этот всадник изображал сына Али, Абуль-Фазля, иначе говоря Хазрат-Аббаса, верхом на его коне Угабе. Эта сцена имела свою марсие, которую распевали окружавшие коня мальчики в черном.

[7] Имя одного из святых / имамов/

[8] Обычно : паланкин на спине лошади.



Кроме того, готовили чучело человека в сапогах, укладывали его на доске, а вокруг привязывали белых голубей. Чучело и голубей красили в красный цвет.

Кого нибудь еще с вечера брали в круг и, массируя обнаженное до пояса тело, беспрерывно распевали маарсие, чтобы соответственно настроить взятого в круг человека. Затем, не переставая петь они вонзали ему спереди в кожу груди и в кожу спины по паре кинжалов крест-накрест; в кожу плеч, груди, лопаток, живота вдевали замка, кольца, стрелы, куски дерева, лампы /?/, зеркальца и всякую такую мелочь. Не довольствуясь этим, перекидывали через плечо тяжелую цепь. Затем давали ему в руку обнаженную саблю. Этот человек должен был вести за собой шеренгу белорубашечников.

Таким манерам каждая церковь сколачивала свою процессию и, выйдя за город, занимала какую нибудь плошадь. Тут люди, одетые в черное, с обнаженными спинами /материя на спине вырезывалась /, били себя по спине пучком железных цепей, прикрепленных к железной ручке. При этом они распевали :

Как нам не бить себя цепями,

Когда били цепями Абдина!...

Удары цепями производились под такт пению, которое все ускорялось; при этом люди ритмично двигались по площади. Многие, не выдержав боли, лишались чувств. У многих лопались кожа на спине. После них наступал черед белорубашечников, которые наносили кинжалами раны себе по бритым головам. Они пели так:

О боже, что за день,
Похожий на страшный суд!
В этот миг Фатима,
Неся в руке голову Гусейна,[9]
Придет изливать скорбь.
Эй-вай, бедствие Кербелы,[10]
Увы, бедствие Кербалы!...

Песня приводила народ в трепет, и начиналась работа кинжалами. Некоторые, увлекшись так сильно ударяли себя кинжалом по голове, что тут же падали замертво, некоторых выносили из шеренги в бессознательном состоянии и, завернув в палас, отсылали домой.

После этого начинался шебих, т. е. представление религиозный театр /мистерия/ .

Протянув веревку, образовывали круг, за которым становились зрители. В кругу находились в разных концах его две группы людей: Бени-Умейя, т. к.войско Езида, и хашимиды, т.е. 72 мученика во главе с Гусейном. Первые бывали одеты в кровавокрасные платья и устраивались перед тактой /троном/ Омар-Сеида; их военначальники рассаживились на скамьях. Над их головами развевалось знамя Езида /врага святых/. На стороне вторых разбивались палатки, в которых скрывались семьи святых.

Между двумя лагерями, пересекая круг, проходила канава, изображавшая реку Ефрат. Мистерия начиналась так:

Зейнаб /святая/, взяв маленькую Секину за руку, подходила к палатке Хазрат-Аббаса. Роли женщины при

[9] Имя святого.
[10] Город в Иране, где произошло убийство святых.



этом исполнялись мужчинами. Зейнаб обясняла Хазрат-Аббасу, что девочка умирает от жажды. Расстроенный Хазрат-Аббас, подняв кувшин на плечо, отправлялся к реке за водой. Противная сторона не давала ему набрать воды, и на этой почве начинался бой. Хазрат-Аббас один бился против многочисленных врагов. Хазрат-Аббас, узнав, что дядя его ушел к Ефрату за водой, подходил к Гусейну и, получив его благословение, спешил на помощ Хазрат-Аббасу.

Гусейн наблюдал за боем со стороны. Он видел, как Касим, схватив Эзрега за пояс, поднял его над своей головой и хочет ударить оземь. Тогда Гусейн начинал петь:

Бросай наземь, лиши врага жизни,
Отомсти кровь моего сына Али-Акбера!

Через некоторое время воины святых, узнав о происходящей, бежали с разрешения Гусейна на помощь своим.

В бою Хазрат-Аббас лишался руки, а 72 воина погибали мученической смертью. Тогда очередь доходила до имама Гусейна. В бою он также падал, весь израненный. Под конец выступало войско Джинни-Джафар, составленное из ребят, одетых в арабские одежды и вооруженных арабским старинным оружием, с выведенными углем усами и бородами.

Подбежав к Гусейну, они останавливались перед ним, прося разрешенения вступить в бой. Гусейн отказывал им в разрешения и, они, понурив головы, возвращались обратно. Враги убивали Гусейна, поджигали палатки и оставшихся сторонников имамов забирали в плен. Так заканчивалось представление гибели имамов.

Ночью в каждой мечети составлялись группы в 50-60 человек, одетых в черное, и со свечами в руках, начинали обходить другие мечети. Это называлось «шами герибан» / ночь соболезнования /.

Эти группы пели следующую элегию:
Мы прищли, о шииты,
Справить траур по убитым,
Выразить соболезнование
Несчастной Зейнаб.

Находившиеся в мечети отвечали им:
Добро пожаловать, о пришедшие на траур
Пришедшие выразить
соболезнование несчастной Зейнаб.

Это слова произносились быстро и высоким голосом. В конце тушили свет, и народ в темноте начинал плакать, ударял себя по голове.

Многим от слез делалось дурно.



# PİRLƏR, ZİYARƏTGAHLAR

## Pir çinar

Qüllədən şərq Cənube tərəf 450 metroluqda Pir-çinar adlı pir vardır. Uzunluğu 80 metro, eni 57 metro məsafəni işğal edir. Həyətin şərq tərəfindən Bakı Xan sarayı 994- ci ildə (1586 miladi) tikilmiş üçüncü Soltan Murad dərvazəsinə bənzər bir dərvazə vardır, pir çinarın şimal tərəfində Kərbəlayı Qılman Süleyman oğlunun evləri, şərq tərəfindən yol və Kərbəlayı Rəfi Əfi oğlunun bağı və cənub tərəfdən Nədim Kazım oğlunun bağıdır. Həyətin şimal divarı axır vaxtlarda təmir olunmuşdur. Şərq tərəfindəki divarda isə Xanıkah və Suraxanı atəşpərəstlər məbədində və İranda Şah Abbas adına olan bütün darvazalarda olduğu kimi, burada daha at bağlamaq üçün 12 daz halqa keçirilmişdir.

Həyətin ortasinda iki dənə çinar ağacı vardır. Şərq tərəfdə olan çinarın yoğunluğu 3,6 metro, qərb tərəfdə olanın yoğunluğu isə 3,2 metrodur. Şərq tərəfdəki çinarın altında 9 metro dərinliyində bir su quyusu vardır. Quyunun dərinliyinə 3,5 metro endikdə, şərq divarından küləyə tərəf gedən yel atı, yolların birisi olsa gərək. Quyunun şimal şərq tərəfində 1,3 metro hündürlüyündə yonulmuş daşdan natamam bina hal hazırda mövcuddur.

Quyunun qabağında mürəbbə şəkildə yonulmuş hovuz durur.

Hovuzdan qərb tərəfə 6 metro məsafədə, burada olan sabik evin daşından 12 metro uzunluğunda, 6,5 metro enində taxta səqəfli bir məscid tikilmişdir. Məscidin məhrab tərəfində qoz(cövuz) ağacından qayrılmış bir mənbər vardır.

Pir-çinar burada yaşayan əhali tərəfindən ad verilmişdir.

Pir-çinarın həyətində çinarlardan əlavə incir, tut və gilənar ağacları əkilmişdir.

Bütün Azərbaycanda vakə olan pirlərdə qəbirlərə təsadüf edilir, amma burada çinarlardan başqa heç bir qəbir olduğu məlum deyildir. Görünür burası keçmişdə pir deyil, ancaq Bakı xanlarının yay sarayı olub həyətində dəxi, Nuxa Nardaran və sair xan sarayı həyətindəki kimi çinar ağacları əkilmişdir.

Pir-çinar binası barəsində olan yazılara gəldikdə, Kərbəlayı-Rəfi Əfi oğlunun söylədiyi məlum olurdu, binaya aid olan yazı həyətə girəcək qapı üstündə 1920-ci ildə dək varmış, amma hal hazırda məhv olmuşdur.

**Məsumə piri**

Kulədən..... kilometro şimala tərəf dəniz kənarında dövlət at zavodu yanından 175 metro şərqə tərəf getdikdə "Məsumə Piri" adıyla məşhur bir tikinti vardır. Binanın uzunluğu 7,2 metro, eni 4,5, hündürlüyü isə 3,25 metrodur.

Pirə giriləcək qapı üstündə ərəb dilində belə bir yazı vardır. Haza kəbril mərhumə-əlməgfyrə Məsume bint Seyyid Musa rəhəmələllahu sənəti usna və xəmsinə və əlf.



# MUSİQİ FOLKLORU

## XIX ƏSRİN AXIRLARINDA OLAN TARÇALAN VƏ XANƏNDƏLƏR BUNLAR OLMUŞDUR

Əvvəli Baladadaş olub, Bakılı, çox yaxşı və gözəl səsi olub. Hansı ki məşhurdur. Qəzəli çox aşikar oxuyurmuş. O oxuyanda o qədər aydın oxuyarmış ki, uzaqdan onun oxuduğu qəzəlləri yazardılar. Bir də oxuyan Buzovnalı Əbdülhüseyn olub. O da qəzəli çox aşkar oxuyardı.

Bir də sabunçulu Qiyas olub. O çox musiqiyə bələd olub. Ona görə ki, Mirzə Səttarın yanında olmuşdu və ondan təlim götürmüşdü. Özünün də savadı yox idi, amma qəzəli və muğamları çox düz oxuyardı. Demək olar ki, iki nəfər musiqişünas olsa idi biri də Qiyas idi. Onun sənəti xanəndəlik idi. Ondan sonra şəhərdə orli İskəndər olub. Onun da oxumağı təmiz idi. Bir də Qarabağlı Hacı Hüsi olub. Gözəl oxuyan və xoşxan olub və yaxşı "Şuştər" oxuyardı. Ondan sonra Qarabağlı Məşədi İsa olub. Çox qəzəlxan və təsnifxan olub. Səsi az idi, amma gözəl əşarlar və rübailər oxuyardı. Özü də çox xoşqılıq bir insan idi. Bir də Ağabala olub, Ağa Seyid oğlu, özü də Bakılı. O xanəndəliyə getməzdi. Ürəfa toylarına, yəni pulsuz toylara xahiş edərdilər onda gedərdi. O vaxt toyda oxuyanlar oxuyub qurtarandan sonra, Ağabala ürəfa olan otaqda başlardı oxumağa. Camaat da balkondan-zaddan qulaq asardı. Özü də çox savadlı idi. Çox yaxşı oxuyan idi. Demək olar ki, həqiqətən, xanəndəlikdə tək olub. Oxuyanda havaların hamısını yaxşı oxuyurdu. Ələlxüsus "Mayeyi-Zabul"u çox yaxşı oxuyardı. "Segah-Zabul" u oxuyub qurtarardan sonra tarçı Fərəc arada bir diringə çalardı. Onu o qədər uzadardı ki,

qabaxkı səs camaatın aulağından itərdi. Öze də " Çargah, Həsarmüxalifin" in yerində çalardı. Sonra başlardı "Həsarmüxalif" çalmağa. Ondan sonra Bakılı Mirzə Ağa Kərim Zeynalov olub. O çox gözəl musiqişünas, qəzəlxan və təsnifxan olub. Özü də savadlı şair olub. Onun musiqiyə çox həvəsi olduğuna görə atasından qalan mal dövlətin hamısını satıb getdi İrana. Orada musiqini təmamən öyrəndi və qayıdıb gəldi Bakıya. Bir neçə müddət Mirzə Səttar ilə bir yerdə oldu və ondan da bir çox şeylər öyrəndi və hər nə oxuyurdusa hamısı mirzə Səttarın nəfəində oxuyurdu. O kəndlərə, pullu toylara getməzdi, pulsuz toylara gedərdi. Mirzə Ağa Kərimin səsi yox idi, onun tutqun səsi var idi. Amma o oxuyanda nə qədər oxusa idi xəlq daha da istərdi oxusun. Çünki qəzəlləri məclisə münasib oxuyardı və muğamatı düz oxuyardı. Ağa Kərimin oxuduğu qaydalar, nəfəslər, təsniflər və qəzəllər hamısı Mirzə Səttarın qatdasında idi. Ağa Kərimin mənzili farslar karvansarasında idi. O vaxt tarçalanların və oxuyanların da orada mənzili var idi. O vaxt tarçalanlar və oxuyanlar yığışardılar tarçalan Cavadın mənzilinə, orada çalıb oxuyardılar. O vaxt musiqi barəsində ya qəzəl barəsində aralarında mübahisə olsa isin gedərdilər Ağa Kərimin yanına. Ağa Kərim məsələni həll edərdi onlar üçün.

Bir də İrandan gələn xanəndələrdən Ala – palaz oğlu olub, bir də Mirzə Səttar olub. O həm kamança çalardı, həm də oxuyardı və tarçalanlar da Bəylər Mirzə Sadıq olub. Bir də Lazır olub. Bir də musiqişünas, tarçı Fərəc olub. Bunlar öz vaxtlarının gözəl çalanları idi. Mirzə Səttarın əhvalatı isə belə olmuşdur: O iranlı idi, özü də Ərdəbildən. O, bir balaca axsıyırdı. Mirzə Səttar Ərdəbildən müşdəhid Hacı Mirsaleh qovub xaric eləmişdi. Çünki, Mirzə Səttar molla azan verəndə, "Dügah" havası ilə əzanın səsinə uyğun kamançasını



çalarmış. Molla necə əzanı deyirdi Mirzə Səttar da eynən kamançanı o cür çalırdı və oxuduğu kəlmələri də kamançada çalırdı. Bu xəbər çatır müşdeidə, müşdeid də ona görə qovur onu Ərdəbildən. Sonra gəlir Bakıya, düşür İçərişəhərdə Ağa Hüseynqulu karvansarasında. Onu yavaş-yavaş aparırlar toylara. Sonra məşhur olur Bakıda və gəlir düşür Bayıl şəhərinə Hacı-Hacıağanın karvansarasına. Mirzə Səttarın bir dənə kamançası olur ala, özü də iri. Özü də həmişə uzun don geyərdi. Çiynində əba, başında da əmiri papaq. Ancaq kamil ustadı əzzəm olur, çalmağı necə idisə, oxumağı da elə idi.

Ondan sonra Ala- palaz oğlu olub. Adı Molla Rıza. Özü kosa, rəngi də qap-qara. Öze xanəndə deyildi. O molla idi, rozaxan, başında əmmamə. Rozaxanlıqda çox şakəri yox idi. Xalq ona çox talib deyildi. Kəndlərin qanacaqlı adamları, oxumağına və səsinə görə onu aparardılar rozaxanlığa, evdə oxumağa, Onu oxutdurardılar təlimlə. Elə vaxt olurdı ki, axşamdan başlardı oxumağa azı-azı dörd saat oxuyardı. Özü də sulu qəlyan çəkən idi. Elə ki, qəlyanı doldurardılar, alardı əlinə başlardı oxumağa. Bəzi vaxtlar da deyirdilər ona ki, oxu, oxumazdi düşərdi boynuna.

Onun da şakərin bilirdilər, Onu oxutdurmaq istəyəndə ayrı adam başlardı yanında zümzümə eləməyə. O adamın oxumağından daıxardı, başlardı özü oxumağa. Onun oxumağı da deməK olardı ki, xariqüladə bir şey idi. Məsələn, oxuyanda ağzını yumub səsini salardı burnuna. Başlardı zümzümə eləməyə. Eıə ki ağzını açardı elə bil top açılır. Məsələn, "Əraq" oxuyanda, "Pəncga" yerində oxuyanda. Orda 4-5 cür ləhcə vururdu, kənarkə (bülbül) kimi.

Demək olar ki, onun oxumağı aləmdə buçağacan olmuyub.

Bu idi bunların tercümeyi halları.

## ŞİKƏSTƏLƏR

Əziz avçı bəni
Qoy vursun avçı bəni
Mələrəm, mələrəm taparam,
Ya qoy vursun avçı bəni

Əzizim dalda yeri
Mey vurar dalda yeri
İki ürək bir olsa,
Tez tapar dalda yeri

Əzizim bəni
Qul eyləyib yoldaşım olsa,
Vəfalı yoldaşım olsa,
Axtarıb tapar bəni

Əzizim gedər qalmaz,
Axar su gedər qalmaz
Vəfalıya can qurban,
Bivəfa gedər qalmaz

Əzizim gecədən gedər,
Karvan gecədən gedər.
Gecə uzum həmdən yox
Zəhləm gecədən gedir.

Əzizim gülə naz,
Bülbül eylər gülə naz.
Zamana pis əsirdir,
Ağlayan çox gülən az.

Əzizim nə bağlar,
Dost dosta nə bağışlar
Başım cəllad əlində,
Nə kəsər, nə bağışlar.

Əzizim bu vətəndə
Gözüm yoldan ötəndə,
Qəribə təsir eylər,
Tənəli söz yetəndə.

Əzizimüzmə barı,
Nimçəyə dümə barı
Aşnalığı üzmüsən,
Dostluğu üzmə barı

Əzizim hər zülmə,
Ərzəm var Ərzuruma
Dözərəm hər zülümə.

Xoruz ban verəndə gəl
Sinəm qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı can verəndə gəl

Arazam Kürə bəndəm,
Bülbüləm gülə bəndəm
Dindirməyin ağlaram,
Yanıqlı dilə bəndəm.



Şirvanın yastı yolu,
Su gəldi basdı yolu
Gedirdim dost sevməgə,
Zalımlar kəsdi yolu

Kür qırağını dolannam,
Dərya kibi bulannam,
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam

Əzizim üzə düşdü,
Sürmələr gözə düşdü
Hər kəs öz keyfində,
Ayrılıq bizə düşdü.

Qaynadım daşdım,
Hicran dəftərin açdım,
Hicran güclü, mən gücsüz,
Götürdüm başımı qaçdım.

Qızıl gül olmıyaydı,
Saralıb solmıyaydı
Bir ölüm, bir ayrılıq,
Heç biri olmamaydı

Əzizim yaz göndər,
Payız göndər, yaz göndər
Bağda kağız olmasa,
Yapraq üstə yaz göndər.

Gögərcinəm uçdum gəl,
Dost bağına düşdüm gəl,
Bir gününə dözməzdim,
Yaman günə düşdüm gəl.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarbansız.
Aləmə dərman oldu,
Mən ölürəm dərmansız.

Əzizim bu dağından,
Gül bitər budağından.
Mərdin töyləsi yaxşıdır,
Namərdin otağından.

Gök yüzü damar-damar,
Gökdən yerə nur damar.
Yürək ki var şişədir,
Sındırarsan kim yamar.

Aq alma, qızıl alma,
Nimcəyə düzül alma.
Alırsan çirkin al,
Bədəsil gözəl alma

* * *

Əziz avçı bəni
Qoy vursun avçı bəni
Mələrəm, mələrəm taparam,
Ya qoy vursun avçı bəni

Əzizim dalda yeri
Mey vurar dalda yeri
İki ürək bir olsa,
Tez tapar dalda yeri

Əzizim bəni
Qul eyləyib yoldaşım olsa,
Vəfalı yoldaşım olsa,
Axtarıb tapar bəni

Əzizim gedər qalmaz,
Axar su gedər qalmaz
Vəfalıya can qurban,
Bivəfa gedər qalmaz

Əzizim gecədən gedər,
Karvaŋ gecədən gedər.
Gecə uzum həmdən yox
Zəhləm gecədən gedir.

Əzizim gülə naz,
Bülbül eylər gülə naz.
Zamana pis əsirdir,
Ağlayan çox gülən az.

Əzizim nə bağlar,
Dost dosta nə bağışlar
Başım cəllad əlində,
Nə kəsər, nə bağışlar.

Əzizim bu vətəndə
Gözüm yoldan ötəndə,
Qəribə təsir eylər,
Tənəli söz yetəndə.

Əzizimüzmə barı,
Nimçəyə dümə barı
Aşnalığı üzmüsən,
Dostluğu üzmə barı

Əzizim hər zülmə,
Ərzəm var Ərzuruma
Dözərəm hər zülümə.

Xoruz ban verəndə gəl
Sinəm qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı can verəndə gəl

Arazam Kürə bəndəm,
Bülbüləm gülə bəndəm
Dindirməyin ağlaram,
Yanıqlı dilə bəndəm.

Şirvanın yastı yolu,
Su gəldi basdı yolu
Gedirdim dost sevməgə,
Zalımlar kəsdi yolu

Kür qırağını dolannam,
Dərya kibi bulannam,
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam



Əzizim üzə düşdü,
Sürmələr gözə düşdü
Hər kəs öz keyfində,
Ayrılıq bizə düşdü.

Qaynadım daşdım,
Hicran dəftərin açdım,
Hicran güclü, mən gücsüz,
Götürdüm başımı qaçdım.

Qızıl gül olmıyaydı,
Saralıb solmıyaydı
Bir ölüm, bir ayrılıq,
Heç biri olmamaydı

Əzizim yaz göndər,
Payız göndər, yaz göndər
Bağda kağız olmasa,
Yapraq üstə yaz göndər.

Gögərcinəm uçdum gəl,
Dost bağına düşdüm gəl,
Bir gününə dözməzdim,
Yaman günə düşdüm gəl.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarbansız.
Aləmə dərman oldu,
Mən ölürəm dərmansız.

Əzizim bu dağından,
Gül bitər budağından.
Mərdin töyləsi yaxşıdır,
Namərdin otağından.

Gök yüzü damar-damar,
Gökdən yerə nur damar.
Yürək ki var şişədir,
Sındırarsan kim yamar.

Aq alma, qızıl alma,
Nimcəyə düzül alma.
Alırsan çirkin al,
Bədəsil gözəl alma

Qəribəm bu vətəndə
Gözüm yoldan ötəndə
Qəribə əsər eylər
Tənəli söz yetəndə.

Mən aşiq gülə naz,
Bülbül eylər gülə naz.
Əzizim dünyaya bax,
Ağlayan çox gülən az.

Yaşı pəlməli dağlar
Dibi kölgəli dağlar
Oturub yol gözlərəm
Haçan el gəli dağlar.

## AZƏRBAYCAN QADINLAR MAHNISI

Adaxlı qızlar da öz sevgililərinə belə mahnılar qoşardılar.

Nəmçilər ay nəmçilər
Qapını kəsib elçilər
Ana deyir verməram
Atam deyir dur görək
Ağzına qurban dayı
Sən də bir danış barı

Qızıl üzüyüm laxladı,
Vərdim anam saxladı
Anama qurban olum
Tez məni adaxladı!

Qızıl üzük firuzə
Gedin deyin xoruza
Bu gecə bannamasın
Yar gəlib məhləmizə

Bir maralı qova-qova gətirdim,
Gətiribən məzilgaha yetirdim
Duman oldu, ciskin oldu itirdim
Bu dağa bir maral nə yaman ağlar

Dağların başında lalalar bitər,
Qırılır qolbağım danası itər
Yar yardan ayrılmaq ölümdən betər
Qadaların mənə nə dedim sənə.



Bağ evləri bağımıza yanaşa
Meynələri meynəmizə dolaşa
Yar gəlib keçəndə anam savaşa
Ver bağı-bostanı verməram yar

Həştərxana gedib alarsan ciyər
Yığılar kampulat kababın eylər
Vaxt başa gələndə muzdur zəng deyər
Əs gilavar gəl qadasın aldığım.

Əyninə geyinibdir hümayın ağı,
Belinə bağlayıb gümüş belbağı,
Belbağıya dəyər saatın bağı,
Bu sözümün sağı Gülməmməd tağı

Çıxdım divar üstə gördülər məni
Yarım əzazildir öldürər məni
Anama deməyin o, döyər məni
Qadaların mənə nə dedim sənə

Qatı yaxdım çıxdım divar üstünə
Əmim oğlu gördü məni dəstinə
Bir də gördüm anam gəldi üstünə
Qadaların mənə nə dedim sənə

Getdim Bibiheybətə bişirdim aşı
Çağırdım Allahı tökdüm göz yaşı
Allah saxlasın bircə qardaşı
Əlin ver əlimə gec gələn bəla.

Mənim yarım ətirlidir, hillidir
İndiki cahillər ikidillidir
Alnında çətiri qoşa tellidir
Qadaların mənə nə dedim sənə

Kababı bişirəndə səpərsən sumaq,
Mən burada yerliydim olmuşam qonaq
Salaram başına mən bir ağ duağ
Qadaların mənə nə dedim sənə

Başına dörd rəngli düyüt bağlayıb
Nəzərə gəlibdi başın bağlayıb
Yarın araqçının yaza saxlayıb
Getm, gəl başına can dolandırım

Çıxdım eyvanına göründü bağın
Baxdım əhvalına keçibdir çağın
Şirmayı xəncəlin, gümüş biçağın
Batsa ürəyimə dönən deyiləm

Gördüm səni ağlım çıxdı başımdan
Oduva yanıram on beş yaşından
Elçi göndər məni al qardaşımdan
Səninlə gedərəm yol gedən oğlan

Qaşların qaradır, gözlərin girdə,
Xəbər göndərərəm gəl bizə birdə
Dərdimi danışım sən olan yerdə
Getmə gəl başına can dolandırım



Qaşların cadıdır, kipriyin almas,
Hər yerdən oxlasan yaram sağalmaz
İyid istəklisin bu dərdə salmaz
Qaragöz yarımın bənd divanıyam

**Oğlan**

Mən səni bir qız bilirdim
Göydəki ildır bilirdim
Doğru bilib dür bilirdim
Bilsəydim almaz idim
Canım oda salmaz idim

**Qız**

Eyləmişəm səhvi-xəyal
Aldı məni dərdi-məlal
Kağızımı ver yola sal
Mən sənə allanmaz idim
Canım oda salmaz idim

**Oğlan**

Sənə məhəbbət eylədim
Almağa curət eylədim
İndi də nifrət eylədim
Bilsəydim almaz idim
Canım oda salamz idim

**Qız**

Görməmiş idim səni məm
Bəs niyə gəldim sənə mən
Gündə burub buğunu sən
Mən sənə allanmaz idim

**Oğlan**
Fikrini de indi mənə
Başımı ağrıtma daha
İtil cəhənnəmə gora
Bilsəydim almaz idim
Canımı oda salmaz idim

**Qız**
Söyləmişəm fikrimi ta
Bir neçe dəfə mən sənə
Gəl məni rədd eylə boşa
Mən sənə aldanmaz idim
Canım oda salmaz idim

**Oğlan**
Ax o imansız anam
Söylədi evlən ay balam
Qoy sənə mən bir qız alım
Bilsə idim almaz idim
Canımı oda salmaz idim

**Qız**
Mənə də o dinsiz anam
Söylədi ki, qoyma yanam
Gəl ərə get sən ay balam
Mən sənə allanmaz idim
Canımı oda salmaz idim

**Oğlan**
Boşamaq dişvardır
Namus ilə ardır



Anam günahgardır
Bilsəydim almaz idim,
Canımı oda salmaz idim

**Mən gəlmişəm**

**Qız**
Mən gəlmişəm qənddana qənd qoymağa,
Gəlməmişəm ürəyimə dərd qoymağa

Mən gəlmişəm birçəyi yan qoymağa,
Gəlməmişəm yürəyimə qan qoymağa

Mən gəlmişəm məxmər tuman geyməyə,
Gəlməmişəm qaynananı söyməyə

Mən gəlmişəm yetimləri cimdirim,
Gəlməmişəm qəm odunu söndürüm

Mən gəlmişəm sağrı başmaq cütdəyəm,
Gəlməmişəm yetimləri bitdəyəm

Mən gəlmişəm yasa gedib ağlayam,
Gəlməmişəm dana, buzov bağlayam

Mən gəlmişəm ipək geyib sallanam
Gəlməmişəm çitə, bezə allanam

Mən gəlmişəm qızıl qatar taxmağa,
Gəlməmişəm azarlıya baxmağa

Mən gəlmişəm qızıl toqqa qurşuyam,
Gəlməmişəm bir ölümü oxşayam

Mən gəlmişəm qızıl üzüklü olam,
Gəlməmişəm qızıl təsəksiz qalam

Mən gəlmişəm ürəyimi sağlayam
Gəlməmişəm keçəl başı yağlayam

Mən gəlmişəm simavara od salam,
Gəlməmişəm yalqız otaqda qalam

Mən gəlmişəm istəkana qənd salam,
Gəlməmişəm gecə-gündüz ac qalam

Mən gəlmişəm stəkana çay töküm,
Gəlməmişəm ağlayıb qan-yaş töküm

Mən gəlmişəm uşaq doğub bələyəm,
Gəlməmişəm qoyun kimi mələyəm

Mən gəlmişəm ələ hənа bağlayam,
Gəlməmişəm gecə-gündüz ağlayam

Mən gəlmişəm gözəl üzə baxmağa,
Gəlməmişəm saqqala rəng yaxmağa

Mən gəlmişəm bu evə ziynət üçün
Gəlməmişəm böylə müsibət üçün



Mən gəlmişəm xanım kimi gəzməyə,
Gəlməmişəm qara günə gəzməyə

Mən gəlmişəm arvad olum lap düzü,
Gəlməmişəm baldız deyə "it qızı"

**Qız ərə gedəndən iki il sonra**

**Qız öz-özünə**

Mən nə günah eyləmişəm ay xuda
Gəldim ərə oldu da günüm qara
Başıma gəldi nə cəfa, nə bəla,
Qızıl boz oğlan nə vəfasız olur
Xuruz göz oğlan nə vəfasız olur

Bəxtəvər olsun başıma ərliyəm
Ipəkli, qumaşlı, gümüş rəngliyəm
Azca qalıb at kimicə çərliyəm,
Qəddi düz oğlan nə vəfasız olur
Gözəlüz oğlan nə vəfasız olur

İt günüdür günüm bəxti qarayam,
Çarə tapılmaz mənə biçarəyəm
Məərliyəm, nə də dulam avarayam
Şirin söz oğlan nə vəfasız olur
Gözəlüz oğlan nə vəfasız olur

Bağlarına uyub ərə gəlmişəm,
Ərə gələndən nə deyib, nə gülmüşəm

Lap saralıb incəlib ölmüşəm
Qızılboz oğlan nə vəfasız olur,
Xoruzgöz oğlan nə vəfasız olur

### Qız ilən oğlan

**Qız**
Ər nə idi qanmaz idim,
Səni belə sanmaz idim
Mən sənə allanmaz idim
Buğların allatdı məni
Gül topun allatdı məni

**Oğlan**
Bağrımdan asılsaydım
Səni belə bilsəydim
Doğranıban ölsəydim
Səni mən almazdım
Canım oda salmaz idim

**Qız**
Qoyma günü qara məni
Salma bu odlara məni
Mən sənə allanmazdım
Canım oda salmaz idim



## XALQ MAHNILARI

### Yarın can

Başıma kulli bağlaram
Sinəmi carpaz dağlaram
Sen gedərsən mən ağlaram
Yarın can,turun can
Sen olasan yarın can.

Baqlarında var boyana
Qorxuram anam oyana
Bir zaman sən get oyana
Yarın can,turun qan
Sən olasan yarın can.

Evlərində var əhrişin
Özgə ilə yoxdur işim
Hələ səninlə coxdur işim
Yarin can,turun can
Sən olasan yarın can.

### Dağlar

Bizim dağlar yuxarıdır
Qoynundakımirvaridir
Arpa, buğda çox varlıdır-
Bizim dağlar, bizim dağlar

Şal örtübdür ipəklərdən
Baş əsdirməz küləklərdən
Al güllərdən çiçəklərdən
Geyib əlvan bizim dağlar,
Geyib əlvan bizim dağlar

Qolxozların gulu var
İpəklərdən olub taxt
Günə baxan səhər var,
Heyran-heyran bizim dağlar (2)

Traktorlar çıxır bağa
Yağış gəlir yağa-yağa
Qara neftə, ağ pambığa,
Oxur meycan bizim dağlar (2)

### Gözəlim sənsən

Gözəlim sənsən gözümün nuru
Sən təki olmaz cənnətdə huri
Öldurdun məni məni məcnuni
Ona mən yar oldum, ona mən qul oldum
Yaralıyam dəymə, dəymə, dəymə
Başındakı fəsni əymə, əymə

### Bülbüllər oqur
### (I variant)

Bülbüllər oqur çəh-çəhələr bağda gül üstə
Ay oğlan boyu bəstə gəl əyləş dizim üstə
Sən mənnən busə istə, mən deyim gözüm üstə



Altımda göy at beldə qatar əldə tatarı
Ay oğlan səni tarı,dolan gəl bizə sarı
Ay oğlan qadan allam,qolum boynuna sallam
Gedərsən yola sallam, qalarsan yerin sallam.

### Bülbüllər oxur
### (II variant)

Bülbüllər oxur çəh-çəh elər bağda gül üstə
Ay oğlan boyu bəstə, gəl əyləş dizim üstə
Sən məndən öpüş istə, mən deyim gözüm üstə.

Altında boz at, belində qatar,əlində tatar
Ay oğlan səni tar, dolan gəl bizə sarı
Ay oğlan qadan allam, qolum boynuna sallam
Gedərsən yola sallam, qalarsan dərdin allam.

### Saray xanım

Duyunu tökdüm tabaqa
Bişmədi qaldı sabaha
Çilovdar duşsun qabaqa
Apardı sellər Sarayı
Bir başı şallı cananı.
Bir ala gozlü maralı.

Arpa çayı dərin olmaz
İçmə suyun sərin olmaz
Saray kimi gəlin olmaz
Apardı sellər Sarayı

Bir başı şallı cananı
Bir ala gözlü maralı.

Beş manat verdim qoyuna
Bəylər yığıldı toyuna
Baxmadım saray boyuna
Apardı sellər sarayı
Bir başı şallı cananı
Bir ala gözlü maralı.

Pəncərədən gördüm ayı
Gözəllikdə yoxdur tayı
Çox daşqındır arpa çayı
Apardı sellər sarayı
Bir başı şallı cananı
Bir ala gözlü maralı.

Külək dəyəndə o al dodağa
Gumuş sırqan salıb qulağa
Saray gələndə sərin bulağa
Apardı sellər sarayı
Bir başı şallı cananı
Bir ala gözlü maralı.

### Yeri dam üstə yeri

Yeri dam üstə yeri bala
Ay qızıl cam üstə yeri
Ayaxların incisə bala
Ay çıx sinəm üstə yeri



Getdim gördüm yar otaxda
Əli uzun yar yumaqda
Qoşa-qoşa xal buxaxda, hay buxaxda.

Ayaqında çəkməsi balam
Ay qızıldandır duyməsi
Məni yandırdı yaxdı balam
Ay nazlı yarın hiləsi.
Getdim gördüm yat otaxda
Əlin uzun yar yumaxda
Qoşa-qoşa xal buxaxda hay buxaxda

### Dərya kənarında bir ev tikmişəm

Ay dərya kənarında bir ev tikmişəm
Hasarın çəkməmiş ustun örtmuşəm
Ay bu gələn Sonaya gözum tikmişəm
Bağçada gullar, oxur bülbüllər
Belə deyirlər təzə yar gəlir.

Ay Həştərxana gedən gəmi bənd olur
Ay qayıdıb gələndə yuku qənd olur
Gözəlin köhnəsi gözə bənd olur
Bağçada gullar,oxur bülbüllər
Belə deyirlər təzə yar gəlir.

### Bəri bax, bəri bax

Bayramınız mübarək,
Pəncərədən baxanlar

Üstünüzə od yaqar
Tez soyunub yatanlar.
Ay bəri bax, bəri bax
Açıxlanıb bəri bax.

Pəncərənin milləri
Açıb qızıl gülləri
Oqlanı yoldan eyləyən
Qızın şirin dilləri.
Ay bəri bax,bəri bax
Açıxlanıb bəri bax.

Pəncərədən daş gəlir
Xumar gözdən yaş gəlir
Səni mənə versələr
Allaha da xoş gəlir.
Ay bəri bax,bəri bax
Açıxlanıb bəri bax.

**Uca dağlar başında**

Uca dağlar, qarlı dağlar başında
Bir yar sevdim aqlı, şyuru başında
Aman balam,körpə balam,gül balam
Kusdurmüşəm gəl üzümə gül balam (2)

Araxçının baftalıdır başında
Eyibin yoxdur kirpiyində qaşında
Aman balam,körpə balam,gül balam
Kusdurmişəm gəl könlumu al balam (2)



Qurban olum səni doğan anaya
Səni doğdu məni saldı bəlaya
Aman balam,körpə balam,gül balam
Kusdurmüşəm gəl könlumu al balam.

Qarqamışam bənövşələr bitməsin
Bülbül gəlib daldasından ötməsin
Aman balam,körpə balam,gül balam
Küsdurmüşəm gəl könlümü al balam (2) .

**Kəklik**

Kəkliyəm (2) ovla məni maralım, ceyranım
Dağlara (2)qovma məni
Gecələr al qoynuna
Gündüz (2)buxovla məni.
Gəl, gəl ay mənim maralım
Sənsiz(2)gəlmir qərarım.

Quşlar (2) nə çiq-çiq eylər maralım, ceyranım
Həyəti (2) palçıx eylər
Zəhləm (2) o yerdən gedər
Gündüz (2) bir açıx eylər
Gəl,gəl ay mənim maralım
Sənsiz(2)gəlmir qərarım.

## MEYXANALAR

**Görünür çeşmimə**
(Pambığı havasında dəxi oxunar)

**Əliağa Vahid:**
O kəslər ki düşmüşdü bəd xəyala
Fikri bu idi zərbə vursun Kamala
Yetmədi məqsədə düşdü məlala
Hali pərişan görünür çeşmimə

**Bağır Cabbarzadə**:
Konstantinin bu idi fikir xəyalı
Sofiyada yıqsın yerə halalı
Şir görüb o Mustafa Kamalı
Xofi-Xorasan görünür çeşmimə.

**Əliağa Vahid**:
Qriqlər də eşitmişdi xam xəyal
Fikirləri bu idi yıxılsın Kamal
Aqibət oldu özləri payımal
İmdi peşiman görünür çeşmimə.

**Bağır Cabbarzadə**:
İngilislər qoydu onları girə
Yüz əlli min qırıldı birdən birə
Qaçıb soxdular özlərin İzmirə
Tamamı nalan görünür çeşmimə.



**Əliağa Vahid:**
Anglican hər tərəfi avlayıb
Danikini, gah Qalçağı tovlayıb
Qaçırdıb bolşevik hamın qovlayıb
İndi lehistan görünür çeşmimə.

**Bağır Cabbarzadə**:
Denikində Qolçaqla birləşdilər
Şura hökümətilə çəkişdilər
Axırda tab etməyib sürüşdülər.
Həpsi sərkərdan görünür çeşmimə.

**Əliağa Vahid**:
Kamalçılar o gün bəxtiyar oldu
Şura hökümətinə tərəfdar oldu
Antantanın dünya gözünə dar oldu
Dərdi bidərman görünür çeşmimə.

**Bağır Cabbarzadə:**
Çox yaşasın xalq üçün zəhmər çəkir
Düşmənləri qırıb tut kimi tökür
Baş komandan türk oğlu Qara Bəkir
Rüstəm - dastan görünür çeşmimə

**Əliağa Vahid**:
İsmət paşa durub mərdi-mərdanə,
Yanayunlara (Yunanlara) qarşı çıxıb meydanə.
Düşmənlərin bağrın döndərib qanə,
Hərbdə aslan görünür çeşmimə.

**Bağır Cabbarzadə**:
Düşmənlərin bağrını qan edərlər.
Antantaya güclərini bildirərlər.
Cəng edərlər: ölürlər, öldürərlər
Bütün cani-fəşan görünür çeşmimə.

**Gələni vur!**

**Əliağa Vahid:**
Buraxma cəhd elə qumarbazlığı!
Eyləmə heç bir kəsə karsarlığı!
Adət elə çalış danosbazlığı!
Tərk eyləmə adətini, gələni vur!

**Bağır Cabbarzadə:**
Nə işin var mənimlə qumarbazam
Nə borcuna loşam, ördəyəm, qazam
Adətimdir qədimdən donosbazama
Gözlə sən öz hörmətini, gələni vur!

**Əliağa Vahid**:
İstəmə yoldaşın İmamverdini
Çəkməgilən camaatın dərdini
Çayçı dükanlarında ovur nərdini
Sən eylə öz işarətini, gələni vur!

**Bağır Cabbarzadə**:
Arif olub başlama çox nərdidən
Sən kişisən danışgilən mərdidən



Çox bahalıqdır gəl qaçaq şəhərdən
Götür sən ibrətini, gələni vur!

**Əliağa Vahid**:
Dövlətini yedin düşmüsən yoxsulluğa
Gir qəbrə, ölgilən bir yolluğa
Ya rüşvət ver yazdır özün qulluğa
Sən də get al rüşvətini, gələni vur!

**Bağır Cabbarzadə**:
Bir nəfərdən eşitmişəm günorta
Deyir çıxıb otuzminə yumurta
Mən qoyun almışam dönüb oqurta
Baqqala vur töhmətini, gələni vur!

**Əliağa Vahid:**
Qurban olum kababçının şəstinə, şişinə
Yaxşı durub camaatın qəsdinə
Gündə gəl on min pitinin üstünə
Qoy etsinlər qeybətini, gələni vur!

**Bağır Cabbarzadə**:
Vaxt keçir yetişmədik mətləbə,
Qəssab ki var gəlməz dinə, mərhəbə
Görən zamanda degilən qəssaba
Ay tanrı töksün ətini, gələni vur!

**Əliağa Vahid**:
Çörəkçisən gəlmə rəhmə, mürvətə
Nə borcunə aclar düşüb zillətə

Sat çörəyi sən birə beş qiymətə
Artıq eylə dövlətini gələni vur!

**Bağır Cabbarzadə:**
Müsəlmansan sənə demək nə hacət
Əsgərlikdən qaçmağı eylə adət
Qoy keçsin düşmən əlinə vilayət
Sən çəkmə öz qeyrətini gələni vur!

**Əliağa Vahid:**
Əsgər olsaq olar namımız
Bu işdən asılıdır sərəncamımız
Gərək bir əsgərlik edək hamımız
Gözləmə öz şöhrətini gələni vur!

**Dolanmaq olmur!**

**Əliağa Vahid:**
Danışmayırsan bahalıqdan nədən?
Güman səni var iştə bir öyrədən!
Çox bahalıqdır ölürəm qüssədən
Bu əsrdə adə, dolan olmur!

**Bağır Cabbarzadə:**
İstəmir deməgə açam mətləbi
Bahaçılıqda yox dini, məzhəbi
Heç salmayırsan yadına qəssabı
Gəlmişik fəryada dolanmaq olmur



**Əliağa Vahid:**
Günbəgündən bahalanır mampası
Yağ çıxıb üç yüz minə girvənkəsi
Elə adam var heç yoxdur qüvvəsi
Ömrü gedir bada dolanmaq olmur!

**Bağır Cabbarzadə:**
Ağıllı ol dinc olub rahat otu
Neft səpib üstümə vurdun otu
Dörd milyona çıxıbdır onun putu
Qərəz bu düyada dolanmaq olmur

**Əliağa Vahid:**
Aclıq tutub hər tərəfi hər yanı
Acların göyə çıxıb əfğanı
Yardım edər hər kimin var vicdanı
Belə bu əsnada dolanmaq olmur!

**Bağır Cabbarzadə:**
Çörəkçilər yaxşı alıb meydanı
Əllafın ki, zərrə yoxdur vicdanı
Gizlədir ambarda arpa, buğdanı
Bəzi haramzada dolanmaq olmur!

**Gəl, gəl ay evi yıxılmış**
**(Bahalıqdan şikayət)**

**Əliağa Vahid:**
Otuz minə yumurta, yetmiş minə çörək
Yüz on minə ət çıxıb, kasıb dolansın gərək

Bu işə bir mən bilən çarə olunsun gərək
Əllimin kartof, soğan gəl gəl ay evi yıxılmış

**Bağır Cabbarzadə**:
Bunca bahalıq olmaz xərc əlindən töküldüm
Bu köç külfət əlində kaman kimi büküldüm
Qalmayıb məndə tavan dağıldım həm söküldüm
İşim olubdur yaman gəl, gəl ay evi yıxılmış

**Əliağa Vahid**:
İşarədir bu sözlər arif olan əsnafa
Söyləsinlər görəndə çörəkçiyə, əllafa
Aləm bilir acından bircə gəlin insafa
Xalqda yoxdur tavan gəl, gəl ay evi yıxılmış.

**Bağır Cabbarzadə**:
Gəl bu nəsihətləri tullagilən bir....
Qorxum odur kim məni axır salasa...
Möhtəkirə yüz desəm gəlməyəcək
İşim olubdur fəğan gəl, gəl evi dağılmış

**Əliağa Vahid**:
O günləri bazarda düşmüş idim....
Həqiqət baxdım işə bildim nədir
Bir nəfər gördüm deyir bir qədər gets....
Aləm ölər acında gəl, gəl ay evi dağılmış

**Bağır Cabbarzadə**:
Dəyişdirdin halımı sən genə axşam
Hər gün səhər yeyirsən şit yağ ilə qa....



Mənim qızım tapmayır ayağına baş...
Səninkində tik daban gəl, gəl ay evi dağılmış!

**Əliağa Vahid**:
Hökumət istər alsın bahalığın qabağın
Bu yanda möhtəkirlər salladıb qaşqabağın
Qəssab ətin gizlədit, çörəkçilər tabağın
Qaçıb durublar nəhan gəl, gəl ay evi dağılmış!

**Bağır Cabbarzadə**:
Bir sözüm vardır qonşumuz baqqala
Aşnam olub millyoder salam vermir saqqala
Xalqa baha satmağa malın yığıb padvala
Yoxdur dərdinə dərman gəl, gəl ay evi dağılmış!
.... bax!

## Görürəm

**Əli İslam**:
Cür olduq bu gecə qızışdır meyxananı
Bilirəm artislərin yoxdur heç ürək yananı
Xərcini çıxarmasa, boş yola sala tar çalanı
Baxıram mən zala düz altı min ziyan görürəm

**Mir Paşa:**
İstərəm mən də deyim burda meyxanə,
Bax bu artistlərə səhnə olub toyxanə.
Qəm üstən tökülüb könlüm olub qəmxanə
Cəmi insanları mən nəfi - cibişdan görürəm.

**Əli İslam:**

Bu nə küdür şəhrə buraxmısan mərdəm azar,
Eylə bildin ki, bu sözlərlə bizim məxluq azar.
Yığılıb dükanlara mitinq demə azma bazar
Falçım rəməl atıram baxanda əfğan görürəm.

**Mir Paşa:**

Heç yalan xəbərləri bu şəhrə salmagilən,
Bir manatlıq iş görüb mincə manat almagilən.
Bu gedən kasıblardan sən geri qalmagilən,
Baxıram hər tərəfə sel tək axan qan görürəm.

**Əli İslam:**

Fikrin ancaq odur ki, hər yeri sən eyləyəsən,
Bu yazıq müsəlmanın başını sən piyləyəsən.
Qarabağda neylədin, Naxçıvanda neyləyəsən,
Lənkəran xaxolların paran-paran görürəm.

**Mir Paşa:**

Nə yamandı bu ay lirə düşübdür aşağa,
Baxgilən sərrafə sən oxşayır ağlar uşağa.
Bir tərəfdən də pesok salladıb başın aşağa,
Kibrtin halını mən xeyli pərişan görürəm.

**Əli İslam:**

Rəşddən mən Bakıya gəlmişən alışverişə,
Bənd olub qalmışam axır nə yaman düşdüm işə.
Nə qədər cəhd elədim tapılmadı burda peşə,
Qayıdıb getsəm, əgər yolda kiçik xan görürəm.



**Mir Paşa:**

Baxgilən milləti-islam dağılıb hər tərəfə,
Cümləsi əsir olub oxşayırlar naxələfə.
Biri ac, birisi tox möhtac olublar ələfə,
Gedirəm mən İrana molla ilə xan görürəm.

**Əli İslam:**

Neçə illər ağlayıb indi bir ildir ki, gülürük,
Qalan ilə qalırıq, ölənlərlə ilə ölürük.
Pişigin qaçan yeri samanlıqdır biz bilirik,
Gecələr yatanda da yuxumda siçan görürəm.

**Mir Paşa:**

İstərəm indi gedən Yurapaya səyahətə,
Baxgılən sən Parijin eylədiyi ədalətə.
Lenin işlərin oxşadıram xəyanətə,
Bolşevik planını onlara üsyan görürəm.

**Hara çıxdı getdi?**

**Əli İslam:**

Başlagilən nağaranı çalmağa,
Sözlərim ta yadıma salmağa.
O gəlmişdi Qafqaziyada qalmağa,
Qalıbdı mehman hara çıxdı getdi?

**Mir Paşa:**

Çul çuvalın yığışdırıb bağladı,
Qomşumuzun ürəyini dağladı.

Olar getdi Anna İvan ağladı,
Ol mahı-taban hara çıxdı getdi?

**Əli İslam:**
Gələn kimi quyruğuvu buladın,
Sovünduğündən it kimi uladın.
Qarna fətir qatırların suladın,
Dərdüvə dərman hara çıxdı getdi?

**Mir Paşa:**
Qoy getsinlər daşlarını sən at,
Min altı yüz bir almışıq qatır, at.
Olar getdi dul qaldı çoxlu arvat.
Ol can alan can hara çıxdı getdi?

**Əli İslam:**
Quman quman boydu sənin qumanın,
Indi balam kimə gəlir gumanın?
Sən dinin, sən mərhəbin, sən imanın,
Şapkəsi fincan hara çıxdı getdi?

**Mir Paşa:**
Dilləri pis danışırlar tat kimi,
Söz deyəndə qalırdılar mat kimi.
Çoxlarının tumanı arvat kimi
Bığın qırxdıran hara çıxdı getdi?

**Əli İslam:**
Kəndlərdə yaxşı kənddü Bülbülə,
Mətəl olma bıg balavu zənbilə.



O, Batuma sən də ki, Ərdəbilə,
Podrat İran hara çıxdı getdi?

**Mir Paşa:**
Gəlmişdi əsir edə birləri,
Finiş xaraşoydu tamam sözləri.
Belə ol əcnəbilər qızları,
Bir dəstə reyha hara çıxdı getdi?

**Əli İslam:**
İstəyirəm cəmi sirləri açam.
Sora baş götürüb Bakıda qaçam
İşqalad almışam qalıb izdaçım
Alaydım ondan hara çıxdı getdi?

**Mir Paşa:**
O gundən ki, başladılar gəlməyə,
Cəhd etdilər hər bir işi bilməyə.
Neft alıban pulları yox verməyə
Ol qatır satan hara çıxdı getdi?

**Əli İslam:**
Mən demirəm qazet yazanlar deyir,
Əfqan onilən zarafat eyləyir.
Mirzə Kiçik Xan dodağın çeyniyir,
Hur kedi o heyvan hara çıxdı getdi?

**Mir Paşa:**
Pencəkləri oxşayırdı lap dona,
O çətin işdi yarı yoldan dönə.

Bir nəfəsə gedirlər lap Londona,
Aləmə sultan hara çıxdı getdi?

**Əli İslam:**
Bildir bu vaxt ürəgimi dağlayırdın,
Vedrə açıb jalunkə bağlayırdın.
Aşna dünən vağzalda ağlayırdın,
Deyirdi qan-qan hara çıxdı getdi?

**Mir Paşa:**
Tarçalanlar tolladılar tarını,
Qazar kirvə heyvasını, narını.
Ingilisə oxşadan paltrını,
Dərzi Avaqyan hara çıxdı getdi?

**Əli İslam:**
Fikir eyləmə pencəgi satdırarsan,
Şapkəni də çevirtdirib qoyarsan.
Olmasa ver rəngə boyartdırarsan.
Bir qarış tuman hara çıxdı getdi?

## Bizim oldu

**Əli İslam:**
Açıldı bahar fəsli gülüstan bu gün oldu,
Meyxanə deməkdən ürəgim lap dügün oldu.
Sındı beli din düşmənin sərəngün oldu,
Dövran sizin oldu de görək bizim oldu?



**Mir Paşa:**
Bundan sora siz bir dəxi üsyan edəcəksiniz,
Toplar atban məscidi viran edəcəksiniz.
Lap pis gününüz dalbadaldu əfğan edəcəksiniz,
Dövran sizin oldu de görək ya bizim oldu.

**Əli İslam:**
Firon kimi mırac eyləyib ərşə çıxırdınız,
Cöl məscidinin minbəri tərsə çıxırdınız.
Şümür olmuşdunuz çəkmə ilə fərşə çıxırdınız,
Dövran sizin oldu de görək ya bizim oldu?

**Mir Paşa:**
Bir eylə xəyal eylədiniz İran sizə çatdı,
Osmanlı sizin Qars ilə Şirvan sizə çatdı.
Ay siz öləsiz Ərdəbil, Səlyan sizə çatdı,
Dövran sizin oldu de görək ya bizim oldu.

**Əli İslam:**
Mehrabda at bağlamaq heç dində tapılmaz,
Heç vəhşi Denikin kimi bidində tapılmaz.
Gündüz gəzir, indi gecələr hində tapılmaz,
Dövran sizin oldu de görək ya bizim oldu.

**Mir Paşa:**
Bəsdir genə baş qaldırıb İrana sataşma!
Qoy rahat olaq evləri viranə sataşma!
Qurt olmagilən biz təki ceyranə sataşma!
Dövran sizin oldu de görək ya bizim oldu!

**Əli İslam:**
Fikrin nədir bildir yığışıbsız bizə gəldiz?
Nahaq yerə kirvə mənilən siz sözə gəldiz?
Indi nə olub asma bələnçik görə gəldiz?
Dövran sizin oldu de görək ya bizim oldu?

**Mir Paşa:**
Türkün yarısın kirvə Hayastana verirlər?
Şamil qalanı bil ki, Dağıstana verirlər?
Bakı şəhərin türk kimi aslana verirlər?
Dövran sizin oldu de görək ya bizim oldu?

**Əli İslam:**
Siz söylərdiz yay bizim, yaz da bizimki
Ördək də bizim, loş da bizim, qaz da bizimki
Hər kəlmə başı bir iki Qafqazda bizimki
Dövran sizin oldu de görək ya bizim oldu.

**Ata və oğul**

**Əli İslam:**
Getdigin yer Gəncədir.
Meydanda dəst pəncədir
Gəl get oğlum, yazığam,
Məxluq məni incidər.

**Mir Paşa:**
Mən getmərəm ay ata,
Salma məni sən oda.
İnteligent olmuşam,
Oxşamıram saldata.



**Əli İslam:**
Dur dolanım başuva,
Baxgilən yoldaşuva.
Əsgərligə düşərsən,
Molla baxıb yaşuva.

**Mir Paşa:**
Molla gomurnat degil,
Düşmən degil, yad degil.
Rüşvəti bas ovcuna,
Üç-dörd min bir zad degil.

**Əli İslam:**
Rüşvət deyirsən verim,
Gül tək səni bəsləyim.
Işdi gəldi, mart ayı,
Onda oğul neyləyim.

**Mir Paşa:**
Biz qaçarıq İrana,
Vətən qalsın virana.
Cibdə də pul olmasa,
Yan allıq kiçik xana.

**Əli İslam:**
Qabaq vardi hörmətim,
Izzətim, həm şövkətim.
Indi gedim İrana,
Əsir düşər övrətim.

## UŞAQ FOLKLORU

### Yanıltmac

Bazarda nə ucuz? Mis ucuz küncüt ucuz, duz ucuz.

* * *

Bu mis nə pis mis imiş, bu mis koşan misi imiş.

* * *

Ay qıl quyruq qırqovul, gəl bu kola gir qıl quyruq qırqovul.

### Nazlamalar

Dağda darılar
Sünbülü sarılar,
Qoca qarılar,
Bu balama qurban!

Dağda tağan bar
Bir-birini boğanlar,
Oğlan doğanlar,
Bu balama qurban.

Bir bölük otlar,
Atlar gök otlar,
Ərsiz arvadlar,
Bu balama qurban.

Dağın maralı,
Gözü qaralı,
Dünyanın malı,
Bu balama qurban!



* * *

Bala bala bal dadır.
Bala adam aldadır.
Şirini ha şirindir.
Acısı da bal dadır.

### Düzgülər

Motal, motal, tərsə motal
Yağ atar qaymaq tutar
Hacı oğlu Mustafanın
Qoltuğundan bir top atar..

Əkilkə bir quş idi,
Divarda oturmuş idi
Getdim onu tutmağa
O məni tutmuş idi,
Meydana salmış idi
Meydanın ağacları
Dən gətirib ucları.
Çəpər çəkdim yol açdım
Qızıl gülə dolaşdım
Bir dəstə gül dərməmiş
Anası gəldi mən qaçdım.

İynə-iynə ucu düymə
Şam ağacı qotur keçi
Happan-huppan
Su iç qurtul.

# OYUNLAR

## Gözü bağlı

Bu oyunu oynayan uşaqlar ələlə verib bir dairə təşkil edirlər və öz aralarından bir başçı molla seçirlər. Başçı iki uşaq çağırar gözlərini bağlar və birinin əlin zəng verərək dairəyə salar. Bu uşaq zəngi çalar və tez yerini dəyişər, gözü bağlı ikinci uşaq da zəngin səsi gələn tərəfə qoşaraq zəng çalan uşağı tutmaq istər. Əl ələ verib dairə şəklində duran uşaqlar isə bu iki gözü bağlı uşaqları dairədən xaricə çıxmağa qoymazlar. Zəng çalan uşaq tutulduqda oyun qurtarar. Yenə də iki uşağın gözləri bağlanaraq oyun yenidən başlanar.

## Südlü plov
## (lağlağı oyunu)

Uşaqlar qabaqca özlərinə bir molla seçirlər. Mollanın əmrilə oynayanlar cərgə ilə durub, əllərini arxalarına tuturlar və ovuclarını açıq saxlayırlar. Molla əlinə bir balaca daş alıb,"südlü plov lağlağı"," südlü plov lağlağı" deyə-deyə cərgəni daş ilə gəzib daşı uşaqlardaç birinin məsələn Həsən adlı uşağın ovcuna qoyur.Həsən qaçıb"mərə" adlanan yerə gedir.Sonra molla qalan uşaqlara adlar qoyub, Həsənə deyir:

- Həsən atan gəlmişdir?

Həsən:

- Nə gətirmişdir?

Molla:

- At, qoyun, dəvə, maral, keçi.. Sənə hansı gərəkdir?

Həsən:



– Mənə maral gərək!

Bu vaxt maral adlanan uşaq cərgədən çıxıb əlindəki torna ilə Həsəni vurmağa gedir.Maral mərəyə çatanda Həsən cəld qaçıb özünü yoldaşlarına yetirə bilsə o vaxt döyülməkdən azad olar.

## Göz bağlıcı

Bu oyun oynananda uşaqlar əl-ələ verib dövrə dururlar. Aralarından bir dənə də molla intixab edirlər.Molla iki uşağı çağırıb,gözlərini yaylıq ilə bağlayır.Bunlardan birinin əlinə zəng verir.Bu uşaq zəngi çalıb tez yerimi dəyişir,ikinci gözü bağlı uşaq da zəngin səsin gələn yerə gedib,zəng çalan gözü bağlı uşağı tutmaq istəyir. Əl-ələ tutub, dövrə duran uşaqlar da bu iki gözü bağlı uşaqları dövrədən çıxmağa qoymurlar. Zəng çalan uşağı yoldaşı tutanda oyun qurtarır.molla yenə təzədən iki başqa uşağın gözlərini bağlayır.Bu qayda ilə oyun davam edir.

* * *

Kiçik gəlinciklər qayırırdılar və omları yeşiyin divarına söykəyirdilər. Bəzən bu qızlar bir qonşudan o qomşuya (Bu yeşikdən o yeşiyə) cehiz verən dəsgahla gəlin köçürərdilər. Bunların da mahnısı vardı.

– Nəmçilər ay nəmçilər
Qapını kəsib elçilər
Anam deyir verməræm
Atam deyir dur görək
Ağzına qurban dayı
Sən də bir danış barı

Qızıl üzük laxladı
Verdim anam saxladı
Anama qurban olum
Tez məni adaxladı

Araxçının məndədir
Sərmişəm çəməndədir
Aləmdə gözəl çoxdur
Mənim gözüm səndədir

Bağ evləri bağımıza yanaşı
Meynələri meynəmizə dolaşa
Yar məhəllədən keçmə anam savaşa
Ver bağı bostanı verməcəm yarı

Bir evdə ağlaram,bir evdə gülləm
Bir evdə gözümün yaşını silləm
Bir az gec gəlsən çərrərəm ölləm
Əs gilavar, gəl qadasın aldığım.

Unu ələdim basdım çuvala
Başı qara qurtlar yeriyər divara
Yar gəlib çıxmadı qaldım avara
Qara göz oğlanın mən divanıyam

Bakının bağları cod tutub sirkə
Təpildim kişiyə birinci kulkə
Yarım evə gələ mənimlə birgə
Qara göz oğlanın mən divanıyam



Bir ev tikmişəm dört yanı şişə
Bir oğlan sevmişəm bığı bənövşə
Yarım nar göndərib hamı gülöyşə
Əlin ver əlimə gec gələn oğlan

Dalıma sallan üstən...........
Oğlun evə gec gələr gərək az danış
Yar inciyib məndən mən eliyim barış
Ala göz oğlanın mən divanıyam

Mən belə dəmyəni yeyə bilmərəm
Dərdimi sərdara deyə bilmərəm
Sən gedərsən mən ağlaram dalınca
Yaylıq eylə məni apar yanınca

Mən belə dəmyəni yeyə bilmərəm
Dərdimi sərdara deyə bilmərəm
Qoltuğumda bağlama
Mən gedirəm ağlama
Mən belə dəmyəni yeyə bilmərəm
Dərdimi sərdara deyə bilmərəm

Gedərəm tez qayıdaram
Özgəyə bel bağlama
Mən belə dəmyəni yeyə bilmərəm
Dərdimi sərdara deyə bilmərəm

Sonra üç-dört qız əl-ələ verib birinciyi dövrəyə alıb deyərdilər:

– Miyo-miyo
Xor

– Nə pişiyisən
– Xan pişiyi
– Nə üçün gəlmisəm?
– Ələk üçün
– Bizdə deyil o xaladadır.

* * *

Əyər sən ip üstündə bir qaytağı oynasan bura yığlan ağlar bizə cib xərcliyi verərlər. Usta balabanı kök elə! Bu qayda ilə uzun zaman davam edərdi. Bayram günlərində gedən oyunların bir də cızıq turnası oyunu idi. Geniş küçələrin birində, yerdə 5-6 kvadrat sajen dövrə çəkərdilər. Cızıq turnası oynunda iştirak edənlər iki dəstəyə bölünərdi. Çevrənin kənarında olan uşaqların əlində turna olardı. Uşaqlar qurşaqlarını bellərindən açıb eşər və düyümlərdilər ki, ona turna deyərdilər. Çalışmalı idilər ki, xaricdəkilər təpik vursunlar, kənardakılar çalışmalı idilər ki, əllərində olan turna ilə daxildəkiləri döysünlər. Fəqət hər kəs ayağını cızıqdan içəri və ya kənara qoysa idi, onu tez bərk vurardılar ki, içəri girsin və yaxud ayağını xaricə qoysa idi,həmçinin onu da turna ilə döyərək içəri qovardılar. Əgər xaricdəkilərdən birisinə təpik dəysəydi o zaman dəstələr dəyişməli idilər... Bu növ davam edən oyuna cızıq turnası deyərdilər. Cızığın içinə girməyə birinci dəfə heç kəs razı olmazdı. Bu səbəbdən cızıq turnası oyununun mahnısı vardı. Həmin mahnının axırıncı gəlməsi hansı dəstəyə düşsəydi o azad idi. O biri dəstə cızığın içərisinə girməli idi.

Motal, motal, tərsə motal
Yağ atar qaymaq tutar
Hacı oğlu Mustafanın
Qoltuğundan bir top atar..



Əkilkə bir quş idi,
Divarda oturmuş idi
Getdim onu tutmağa
O məni tutmuş idi,
Meydana salmış idi
Meydanın ağacları
Dən gətirib ucları.
Çəpər çəkdim yol açdım
Qızıl gülə dolaşdım
Bir dəstə gül dərməmiş
Anası gəldi mən qaçdım.

İynə-iynə ucu düymə
Şam ağacı qotur keçi
Happan-huppan
Su iç qurtul.

Bəziləri mahnını bu aşağıdakı şəkildə oxuyardı:

Bülbülü çala-çala getdim bağa
Bir sürü qızlar ilə oynamağa
Əl atdım kiçik qızın məməsinə
Böyüyü haray çəkdi nənəsinə
Nənəsi xəncər-bıçaq o böyrümə bu böyrümə
Böyrümü tuta-tuta getdim həcə
Yeddi gün yeddi gecə ağlamışam
Atımı çəllərdə bağlamışam
Atıma kişmiş gərək kişnəməyə
İtimə sümük gərək gəmirməyə.

Əkilkə Məkilkə
Stotdi namala
Qəbil- təbil eşil-vəşil
Adı var....padıval
Atdım, matdım
Mən səni aldatdım.

Sən gedərsən mən ağlaram dalınca
Yaylıq elə məni apar yanınca
Qoltuğunda bağlama, mən gedirəm ağlama
Gedərəm tez qayıdaram, özgəyə bel bağlama.

Yuxarıdakı mahnıların axırı hər kəsdə qurtarsaydı, o dəstə azad idi. Yəni cizginin kənarında uşaqlar" Qələndər ay qələndər"oyunu oynayardılar. Bu oyunu belə oynayardılar: Uşaqlardan bir nəfər nüfuzlusu ana olardı /oyun başçısı/ O, əldəki turnanı verərdi və aşağıdakı tapmacanı söyləyərdi:

Bir quşum var bu xartana
Xor: Qələndər-ay qələndər
Dimdiyi var bu xartana
Xor: Qələndər ay qələndər.
Su içər bu xartana
Xor: Qələndər ay qələndər
Ayaqları bu xartana
Xor: Qələndər ay qələndər
Gözləri var bu xartana
Xor: Qələndər ay qələndər
Qantları bu xartana
Xor: Qələndər ay qələndər
Başı mənim, ayağı sənin tap görək?



* * *

Bu zaman uşaqlardan biri yaxınlaşıb deyərdi:
Qarğa Ana:
– Ver qarğaya /yəni bilmədin/
Uşaq əlindəki turnanı tapmadığı üçün yoldaşına ötürərdi.
O biri. Ördək:
– Ver ördəyə.
Uşaq verərdi o birinə.
Daha o birisi:
– Toyuq.
Ana:
– Ver toyuğa.
Daha başqası göyərçin.
Ana:
– Qalan /yəni tapmısan/.
Uşaq turnanı alıb yanındakı uşaqları döyməyə başladı.

Ana isə bu zaman: – palan, palan deyərək bir qədər davam etdikdən sonra uşağın dalınca yüyürüb tutar və qapazlamağa başlardılar. Əgər turnaçı özünü vaxtında mollanın yanına yetirsə idi,o zaman oyun yenidən mollanın "qalan" sözü ilə başlanardı. Oyun yenə lap əvvəlindən başlanardı.

## Kosaldıqaç

Bir oyunda bir istiqamətdə üç ayrı-ayrı məhəllə olardı. Birinci kosalan,ikinci isti məhəllə, üçüncü isə qaçan məhəllə.

Kosalan məhəllədən isti məhəlləyədək məsafə 12 metr olardı. Qaçan məhəllə,isti məhəllədən dayanardı.Bundan başqa oyunda iştirak edənlərdən bir neçə nəfər də isti məhəllədən

olardı.Bu vaxt kos verən, kosu adm yuxarı atıb tutmalı idi. Bu zaman isti məhəllədəkilər fürsət tapıb birbaş dal-dalı qacan məhəlləyə yüyürərdilər. Bu yürüş zamanı kosu tutan bu kosla bunlardan birini vurmalı idi. Əlindən başqa kos harasına dəysəydi o məğlub olurdu.Hərgah qaçanlardan biri kosu əlilə geri qaytarsaydı o zaman kos verənin yoldaşı kosu tutub qaçanlardan birinə vurmalı idi. Bədəninə dəysə idi o məğlub olurdu. Hərgah o da əlilə qaytarmış olsaydı kosu verənin yoldaşı uzaqlara kosun dalınca yüyürərdi. O zaman, bu uşaqlar yüyürüb isti məhəllədə dayanardı.

### Gizlənpaç /Gizlən-Paç/

Bu oyunda on nəfərdən on beşədək adam iştirak edə bilərdi. Uşaqlardan bir nəfər yuxarıda söylədiyimiz mahnılardan birini oxuyardı. Mahnının axırı kimə düşsəydi,o azad hesab olunardı. Axırıncı kim qalırdısa o gözlərini yumardı. Ta onlar gizlənənədək gözlərini yummalı idi. Onlar gizləndikdən sonra gözlərini açıb,gizlənənləri tapmalı idi.Onlardan birisini tapsaydı,o adam gərək yenidən gözünü yumaydı. Oyun təzədən başlayaydı. Hərgah gizlənənlər aşikara çıxıb qaçsaydılar o zaman gözyuman adam onları qovmalı və birini tutmalı idi. Qaçanlar yüyürə-yüyürə bu sözləri söyləyərdilər.

Gəl məni tut ştotdu
Gəl məni tut ştotdu

Və özlərini məhəlləyə çatdırmaya çalışardılar. Hərgah qovan adam onlardan birisini tutsaydı tutulmuş adam göz yummalı idi. Hərgah heç birisini tuta bilməsəydi, o zaman təzədən gözlərini yumub oyun yenidən başlanmalı idi.



### Oğru-oğru

Bu oyunda iştirak edənlər öz aralarında birini “Xan” seçərdi. “Xan” uşaqları iki dəstəyə bölüb birinə oğru o birinə isə yasavul adını verərdi. Oğrular qaçıb qapı dalında, damda, təndirdə, töylədə, mətbəxdə gizlənərdilər.

Onlar gizlin getdikləri kimi gizlin də gəlib özlərini “xana” təslim etməli idilər. Hərgah yolda onların birisini yasavullardan görən olsaydı o vaxt o tutlmuş hesab olunardı. Bir azdan sonra kimi gizli, kimi tutulmuş hamısı gəlib 5-10 turna və əllərində yasavulluq vəsiqəsi verərdi. Oğruları tutmuş yasavullar bu dəfə həmin tutulanları əvəz edər və “oğruluğa” gedərdilər. Yasavulların borcu oğruları axtarıb tapmaq idi. O adamlar tutulmasa və görünməsəydi, oyun yenidən başlana bilməzdi. Bəzən bu oyun 2-3 saat çəkərdi.

### Şumaqədər oyunu

Şumaqədər oyunu yumşaq şum yerdə oynanardı. Əvvəlcə bir parça yeri qazıyardılar. Şumaqədərin ucunu sındırmasın deyə torpağın içindəki daşları təmizləyərdilər. Sonra onu ayaqları ilə tapdalayıb, əzişdirərdilər. Uzun ağac parçalarının ucunu yonub iynə kimi şiş edərdilər. Hər adam əlində 3 ağac almaq şərtilə o qazılmış və hazırlanmış yerə gəlirdi. Əlindəki ağaclardan birini yerə vuraraq o biri yoldaşı isə öz ağacını isə həmin yerə elə vurmalı idi ki, həmin yerə sancılmış ağac bunun zərbəsindən yerindən çıxsın və bu özü yerə möhkəm sancılsın. Ağacın bir dəfə yerdən çıxarılması kifayət deyildi. Gərək ağac yerindən iki dəfə çıxarılaydı. Bunun birini borc birinə də xərc deyərdilər. Bəzən ağacı yerə vuranda hər iki ağac

yerindən oynayıb düşərdi. Buna car deyərdilər. Car salan adam yenidən yortmalı /vurmalı/ idi. Ağac yerdən oynadılmış adam müqabil tərəfə üzünü döndərib "Car salmasan, yort" deyərdi. Hərgah hərə biri-birinin ağacını bir dəfə yerdən çıxarsaydı, həm xərcini həm də borcunu verib ağaca sahib olardı. Hərgah uduzan adam uduzduğu ağacı ............ gərək əlindəkilərdən birini verəydi. Bu qayda ilə oyun xeyli davam edərdi.

## Dəniz dalğalanır

İsbu bu oyunda iştirak edənlər biri-birinə arxalarını çevirərək iki cərgə sandaliyalara otururlar. Aralarından bir nəfər "oyun başı" seçilir.

"Oyun başı" hərəyə bir ad qoyur və oynayanların ətrafında gəzməyə və nağıl söyləməyə başlayır.

Nağılda oynayanlara qoymuş olduğu adların hamısı olmalıdır. Hər kəsin adı söylənilirsə dərhal durar və başçının dalına düşər gəzərlər. Nağıl bitdikdə başçı "Dəniz dalğalanır" deyə-deyə surətini artırır. Artıq sandaliyaların ətrafında bir qədər yüyürərlər. Başçı "Dəniz dalğalanır" sözünü kəsərək, sandaliyanın birində oturar, oynayanlar da dərhal özlərinə sandaliya seçib oturmağa səy edərlər.

Axıra qalan və sandaliya tapmayan "oyun başı" olar və oyunu yenidən başlar.

## Happan-Huppan

Uşaqlar dairə şəklində oturub ayaqlarını bir yerə uzadarlar. Aralarından seçmiş olduqları "Başçı" bu sözləri söyləyərək ayağlar sayar:



İynə-iynə ucu düymə,
Bal ballıca ballı keçi.
Şam ağacı şatır keçi,
Qoz ağacı qotur keçi
Happan-Huppan, pırıl-yırtıl,
Su iç qurtul.

Əmimoğlu uzun boylu Haldır - Huldur dedi:

Göyə bir ağac atdı qarğı sayı, qarğı sayı, gül budağı, motala motal, tərsə motal eylər atar, qaynaq qatar ağca quşum, ağarcinim, göy quşum göyərçinim: qara qarğa vur nağara çənbər çarıq "Çıx qırağa".

"Çix qırağa" sözləri kimin ayağına düşsə, o, ayağını çəkər. Bu qərar ilə uşaqlar bir-bir ayaqlarını çəkərlər. Kimin ayağı sona qalsa, onu üzü üstə yıxarlar və uşaqlar yumruqlarını bir-birinin üstə qoyaraq ondan soruşarlar: "Əl üstə kimin əli?" Uşaq taparsa, ayağa qalxar, tapmazsa, "Götürün vurun yalandır" deyə-deyə onu uslubca döyərlər. Və genə də üzü üstə yıxaraq soruşmağa başlarlar. Əl üstə kimin əli olduğunu tapdıqda, uşaq azad edilər və oyun da yenidən başlanar.

## Gözü bağlı

Bu oyunu oynayan uşaqlar əl-ələ verib dairə təşkil edərlər və öz aralarından bir başçı (molla) seçərlər. Başçı iki uşaq cağırar, gözlərini bağlar və birinin əlinə bir zəng verərək dairəyə salar. Bu uşaq zəngi çalar və tez yerini dəyişər, gözü bağlı ikinci uşaq da zəngin səsi gələn tərəfə qaçaraq zəng çalan uşağı tutmaq istər. Əl-ələ verib dairə şəklində duran uşaqlar isə bu iki gözü bağlı uşaqları dairədən xaricə çıxmağa qoymazlar. Zəng çalan uşaq tutulduqda oyun qurtarır, yenə də iki uşağın gözləri bağlanaraq yenidən başlanar.

## Поиски красавицы
## (игра девушек)

10-12 девушек взявшисьза руки, составляли круг и начинали кружиться вокруг одной, которая становилась в середине круга. Покружившись немного, девушки садились наземь, а девушка в кругу запевала следующую песенку :

Красавица, поднимись на ноги, встань !
Накинь на себя алый дуваг, алый дуваг ![11]
Ты отвернулась от нас,
Но мы готовы отдать жизнь за тебя, встань ! /2р./

Девушки поднимались и, кружась, повторяли песенку. Девушка в кругу запевала снова :

Моя девушка вся в шелку,
Серьги твои на гвозде,
Золото твое у менялы,
Твои украшения на свадьбе,
Твой бархат в сундуке.
Я ищу красавицу !
Я ищу красавицу !

Девушки вновь повторяли эту песню, не переставая кружиться быстро. Девушка, стоявшая в кругу, за красавицей пробегала между девушками из круга и в круг, пока не поймает красавицы. Поймав красавицу, она запевала:

Красавица моя, где ты была ?
Красавица отвечала:
Я ходила к роднику
Помыть руки и лицо !
Хор подхватывал песню :

[11] Подвенечной фаты.



Красавица ходила к роднику,
Помыть руки и лицо.
Дальше игра начиналась снова.

## Товарищ, кто тебя увел

Пять человек становились в один ряд. За ними в пяти шагах от них становились в ряд другие пять человек. У каждой группы бывал свой судья /жюри/. Один из заднего ряда подходил на цыпочках к переднему ряду и тихонько прикасался пальцем к одному из них. Тот, не оглядываясь, делал три шага вперед и останавливался, а ударивший занимал прежнее свое место. Тогда судья спрашивал :

– Товарищ, кто увел тебя ?

Вышедший из строя называл имя. Если он угадывал, тогда садился на того, кто его тронул и катался на нем на определенное расстояние. В противном случае, он должен был покатать того, что его тронул и кого он не разгадал.

После этого опять каждый становился на место, и игра продолжалась.

## Игра в бенефше
## (фиалка)

Это – старинная игра. Участники игры делятся на две группы и становятся друг против друга на расстоянии 10 шагов. В каждой группе участнике игры крепко брались за руки. Один из группы обрещался к другой:

– Бенефше !

– Попадет в сеть ! – отвечали из той группы.

– Кого из нас вы желаете ?

– Из вас мы хотим такого то.

Названный отходил назад и с разбега бросался к противному ряду, желая прорвать ценъ. Если это ему удавалось, он забирал кого нибудь из группы и уводил в плен к своим, если нет, то сам оставлся пленникам у группы.

Случалось, что одна группа перетягивала всех участников другой группы на свою сторону, и та группа сливалась с ней.

### Игра девушек и мальчиков

До 20 девушек и мальчиков собирались на большом дворе или на поляне. Одному из участников завязывали глаза платком. Затем начинали ударять его в спину и убегать стараясь не быть пойманным. А тот, у кого завязаны глаза, старался поймать ударившего. Если это ему удавалось, он снимал повязку, и завязывали глаза пойманному.

### Игра девочек / в куклы /

В старину маленькие девочке брали у матерей, тетушек, бабушек куски-бархата,щелка и пр. материй и делали себе кукол. Забрав из дому старые паласы, коврики и пр., они стелили их на заднем дворике, раскладывали подушки, расставляли посуды, тарелки, кастрюльки. Так они убирали свой домик. Посередине ставили табурет, на котором размещали свои куклы.



Затем начиналась игра с девочками из соседного дома. Они посылали друг к другу свах и проводили все обряды, связанные со сватовством и свадьбой. Выдавали куклу, «замуж», потом собирались у «жениха». Если «умирала» кукла, устраивали поминки, когда она «рожала», ходили с поздравлениями.

Так играли в куклы девочки в прошлом.

### Развлечения бакинской молодежи на дача

В каждом квартале дачного поселка у кого нибудь из влиятельных дачников отводилась комната для развлечений. Вечерам, после 9 ч. молодежь собиралась в этих комнатах. Один начинал петь, а другие тихо подпевали ему. Еще один бил в бубен. Запевала :

Ломтик желтой дыни.<br>
Хор . Бай, бай, моя роза – хай ! роза – хай !<br>
Зап. Я выпустил моего соловья !<br>
Хор. Бай, бай, моя роза – хай ! роза – хай !<br>
Зап. Отведи комнату !<br>
Хор. Бай - бай, моя роза – хай ! роза – хай !<br>
Зап. Я выскажу тебе мое горе !<br>
Хор. Тот – же припев.<br>
Зап. Твоя тюбетейка вышита !<br>
Хор. Тот - же припев.<br>
Зап. Куда мне положить голову ?<br>
Хор. Тот же припев.<br>
Зап. Тебя не выдадут за меня.<br>
Хор. Припев.

Зап. Не проливай слез.

Хор. Припев.

Внезапно вбегали в комнату двое: один, наряженный старухой, а другой в вывернутой на изнанку шубе / тулупе /, с привязанной к голове парой башмаков вместо шапки. Они начинали плясать, а находившиеся в комнате кричали «ура» и поднимали гвалт.

– Ни каши, ни хлеба не есть.

– Хорошо, пляшет этот пес.

– Ни дыни, ни арбуза не есть.

– Хорошо пляшет эта свинья.

---------------------------

- Просеивает муку, вертит задам.

– На что мне вдовая баба !

– Хлеб выпекает, огрызается.

– На что мне вдовая баба !...

В этот момент кто нибудь подходил тайком и обливал их водой или, протянув руку, тушил висящую лампу. Тогда участники игры начинали бить друг друга. На игра кончалась.

## Игра в кучу

Один из самых сильных юношей прислонялся обеими руками к стене, клал голову на руку и крепко упирался ногами землю. Другой обхватывал его сзади за талию и клал голову ему на спину. Третий, разбежавшись, прыгал на них и, став на их спине ногами, считал до 20. Следующий также прыгал на них и считал до 40. Третий, став рядом с предыдущими двумя, считал до 60. И так,



каждый следующий, прыгнув на спину стоявших у стены, увеличивал счет на 20.

Число счета зависело от выдержки стоявших у стены. Иногда счет доходил до 180-200. Тогда этих юношей, выдержавших тяжесть наибольшего количества людей, называли сильными и выносливыми.

## Игра девушек

10 -15 девушек, взявшись за руки, составляли круг. Одна оставалась внутри круга и произносила.

– Мийо, мийо ! / мяу / мяу/

– Ты чья кошка ? – спрашивал круг.

– Я ханская кошка.

– За чем пришла ?

– За ситом.

– У меня нет, спроси у той тетки.

Девушка в кругу обходила всех девушек, составлявших круг, и вдруг, ударив одну из них, убегала прочь из круга. Девушки бросались за ней, выкрикивая :

– Черная кошка ! Чтоб твой дом развалился ! Черная кошка ! Чтоб у тебя дом развалился !

Девушка, поймавшая бежавшую, наносила ей по тыловой стороне 5-10

5 руки 5-10 ударов.

Затем игра начиналась снова.

## Игра мальчиков

Собиралась группа мальчиков и выбирала одного – маткой. Ему давали в руку скрученную из кушака плетку.

Матка. У меня есть птичка вот такая.

Хор. Гелендер, ай, гелендер.[12]

Матка. У нее клюв вот такой.

Хор. Припев.

Матка. Ноги ее вот такие.

Хор. Припев.

Матка. Хвост у нее вот такой.

Хор. Припев.

Матка. Крылья у нее вот такие.

Хор. Припев.

Запомнив загаданную птицу, матка обрещается к одному:

– Голову мне, а ноги тебе. Разгадай.

– Гусь! – отвечал мальчик.

– Матка: Передай гусю!

Мальчик передавал конец кушака – плетки второму. Значит, он не разгадал.

– Утка! – гадал второй.

– Передай утке! – говорила матка и конец кушака переходил к третьему.

– Петух! – говорил третий.

– Передай петухе.

Наконец, кому нибудь удавалась разгадать задуманную маткой птицу.

– Голубь!

– Разгадал! – признавалась матка и передавала кушак мальчику.

---

[12] Припев без особого смысла.



Тот брал кушак и начинал бить остальных мальчиков, которые разбегались; матка наблюдала за ними. Когда они отбегали далеко, матка вдруг кричала:

– Палан, палан, палан ! / без особого смысла /

Тогда мальчик с кушаком бросался к матке, а остальные начинали преследовать его. Тот кому удавалось догнать, поймать и привести этого мальчика к матке, садился на его спину, и тот возил поймавшего на 20 шагов от матки и обратно. Затем игра возобновлялась.

# EL ŞAİRLƏRİ

## El şairi Aşıq Cavad

El üçün aşiqanə sözlər, qoşmalar oxumağı özlərinə sənət edib kənd-kənd gəzərək ömür sürdükləri üçün onlara xalq "aşıq" demişdir. Aşıq Cavad Bakının Bülbülə kəndində 1840-cı illərdə yaşamış bir kəndlidir. Onun əsl adı Cavaddır.

Aşıq Cavad uşaq vaxtlarında xirda-xirda bayatılar, şikəstələr söyləməyə başlamayıb get-gedə istedadını artırır. O, toylarda, məclislərdə iştirak edir və beləliklə Bülbülə kəndində 70ilə qədər ömür sürüb özünü öylə tanıtmışdır.

Aşıq Cavadın bayatılar, şikəstələri, başqa ibrətamiz və hikmətli sözləri çoxdur, nə etməli onların hamısı itib batmışdır.

Əsli olan əsl kökünü itirməz,
Namərd adam mənzil başa yetirməz
Qabaq tağı tər şamama bitirməz.
Gög sögütdə heyva olmaz, nar olmaz!
Özündən kiçiyə heç iş buyurma
Sözün yerə düşə qüvvəti olmaz!
Hər işi ki öz əlindən çıxartsan,
Cəvəsi şox olar,minnəti olmaz!
Əli şoban ilə qoyun otardım,
Üstü açıq hər yer olsa yatardım,
Qızıl alma verib başımı qurtardım.
Ədalətli şanım, eylə divanım!



## El şairi Dəli Mehdi

Dəli Mehdi 60 il bundan əvvəl Bakı qəzasının Maştağa kəndində fağır bir ailədə mücuda gəlmişdir. 20 yaşından bayatı və şikəstə söyləməyə başlamışdır. Onun bostanı kəndin " Təmənis " adlı bağlarda idi.

Fəqət Dəli Mehdi türkülərini Coşqun bir hal ilə dediyi üçün xalq ona " Dəli Mehdi " deyirdi:

Mən aşığam yalan gəlməz dilimə,
Həsrət qaldım bülbülümə gülüməş
Qanlı köynəyimi aldım əlimə,
Gün çıxandan gün batana vay dedim!

Baxça məndə, bağ məndə.
Heyva məndə, nar məndə.
Könlüm əttar dükanıdır,
Hər nə desən var məndə.

Bu dağlar kömürdəndir,
Gün keçir ömürdəndir
İnsafa gəl a bimürvət
Məgər ürəyin dəmirdəndir?

Göyərçin qalxar gedər
Qanadı salxar gedər
Mən yara nə demişəm?
Küsülü baxar gedər.

Şaftalıyam kalam mən,
Dilim yoxdur lalam mən
Çarxı-fələk qoymadı,
Arzu kamım alam mən.

## QEYD VƏ İZAHLAR

***Atalar sözləri.*** Hənəfi Zeynallı. Azərbaycan atalar sözü (Bakı: Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, 1926), Abbas Mollazadə. Türk dili yaxud türkcə qiraət (1907), Məmmədvəli Qəmərlinski. Ana dili, I kitab (1911), Sofi Şeyda (1911), Soltanməcid Qənizadə (1911), Çernyayevski və Vəlibəyov. Vətən dili, II cild (1888), Rəşidbəy Əfəndizadənin "Bəsirətül-ətfal" (Bakı, 1901) kitablarından, "Tuti", "Rəhbər" (1922, №1), "Məktəb" (1912, № 10, №19, №22; 1913, №3, № 14, №16, №21/№22, 1914 № 2, №5, №7, № 9, № 13; 1915, №1, №10; 1918, № 1, №2, №11; 1925, №1) dərgilərindən götürülmüşdür.

"Rəhbər" jurnalındakı aralar sözləri Gövhər Yusifov, İzzət Xəlilzadə tərəfindən toplanmışdır.

***Zərbi – məsəllər. İdiomlar*** Hənəfi Zeynallı. Azərbaycan atalar sözü (Bakı: Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, 1926) kitabından götürülmüşdür.

***Tapmacalar.*** Vəli Xuluflu. Tapmacalar (Bakı: Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, 1928) kitabından, "Məktəb" (1912 №11, №12; 1914 №3, №4, №9, №13; 1915 № 1, № 4, ,№ 5, № 7, № 9, № 10, №13, №14, №15; 1916 № 1, № 2, № 3, № 8, № 9; 1918 №3; 1928 № 2), "Rəhbər" (1922 №4) jurnallarından götürülmüşdür.

Vəli Xuluflunun təqdim etdiyi örnəklər Bakının Buzovna kəndindən toplanmışdır.

***Bayatılar.*** "Rəhbər" dərgisindən (1922 №1), H.Sarabskinin fondundan götürülmüşdür.

***Lətifələr.*** "Məktəb" (1911 №1; 1912 №5, № 6, № 7, № 8, № 9, № 11, №13; 1913 №3; 1914 №1, №3, №4, №10, № 12; 1916 №1), "Dəbistan" (1906 №2, №10), "Rəhbər" (1922 №1) dərgilərindən, Hüseynqulu Sarabskinin fondundan (F-15, s.v. 344) götürülmüşdür. "Məktəb" dərgisinin 1916-cı il №1-dəki lətifə Mərdəkandan K.Quluzadə tərəfindən toplanmışdır.

***Nağıllar.*** "Güli-Qahqah" nağılı ilk dəfə Azərbaycanı öyrənmə yolu" jurnalının 1928-ci il №1 dərc edilmişdir. Nağıl Bakıdan Məhəmməd Rəsul Nəcəfəli oğlundan Hənəfi Zeynallı tərəfindən yazıya alınmışdır. "Ağıllı qız" nağılı müəllim Ağabəy İsrafilbəyov tərəfindən toplanmış və 1913-cü ildə Bakıda Orucov qardaşlarının elektrik mətbəəsində çap edilən "Ağıllı qız" qiraət kitabına salınmışdır. "Tülkünün nağılı" Hüseyn Həsənzadə tərəfindən toplanmış və 1914-cü ildə Bakıda Orucov qardaşlarının elektrik mətbəəsində çap edilən "Üç hekayə" kitabına salınmışdır. "Gülməli nağıllar" Ağasıbəy Gəraybəyov (Şirvanlı) tərəfindən toplanmış, 1915-ci ildə naşir Həsənbəy Axundov tərəfindən Bakıda Tulu mətbəəsində çap edilmişdir.

***Şəbədələr.*** Ağa Həsən Mirzəzadə tərəfindən toplanmış Məşədi Əyyub Əliəkbərov İrəvani tərəfindən 1912-ci ildə Bakı şəhərində Bakı mətbəəsində çap olunmuşdur.

***Mərasim folkloru.*** Bakı və ətrafının mərasim folkloruna dair materiallar (yas mərasimi, Novruz bayramı, Məhərrəm ayı keçirilən dini mərasimlər və s.) Hüseynqulu Sarabski fondundakı köhnə Bakının Bakının həyat və sərgüzəştləri haqqında "Xatirat"dan (F-15, s.v. 42), Ərtoğrol Cavidin Bakıda qız və oğlan, kasıb və varlı toyları haqqında qeydlərindən () (yazıya alan Əlisəhab Hüseynov), Kosa-kosa nəğmələri (toplayanı Məmmədağa Axundzadə) "Məktəb" jurnalından (1914 №11) götürülmüşdür. "Orucluq nəğməsi" "Məktəb" jurnalının 1915, №12-dən götürülmüşdür.

***Pirlər, ziyarətgahlar.***

***Musiqi folkloru.*** Bu bölmədəki XIX əsrin axırlarında Bakıdakı tarçalan və xanəndələr barədə material Ərtoğrol Cavidin arxivindən, "Bülbüllər oqur", "Yarın canı", xalq mahnıları, şikəstələr, Azərbaycan qadınlar mahnısı Hüseynqulu Sarabskinin arxivindən (F-15, s.v.350), şikəstələr Cəfər Bünyadzadənin "Kəşkül və yaxud nəğmələr məcmuəsi" (Nəğmə və şikəstə) (Bakı, Səda, 1919) kitabından götürülmüşdür.

Bu bölməyə daxil edilən meyxanalardan "Meyxanə" (Əliağa Vahid ilə Bağır Cabbarzadə tərəfindən Azərbaycan səhnələrində söylədikləri meyxanələrindən (bir nümunə)" adı ilə 1922-ci ildə "Türk dram krujoku nəşriyyatı" tərəfindən Bakıda nəşr edilmişdir. Digər mətnlər – Azərbaycan Dövləti teatr aktyorları Əli İslam və Mir Paşanın meyxana deyişmələri Abbas Mirzə Şərifov və Rza Darablı tərəfindən qeyd edilərək "Hal hazıra dair meyxanə" adı ilə 20 oktyabr 1919-cu ildə nəşr olunmuşdur.

***Uşaq folkloru.*** "Məktəb" jurnalından (1912, №14 (A.Səhhətin toplamaları); 1913 №9; 1914 №15), "Rəhbər" jurnalından (1922 № 1), Hüseynqulu Sarabskinin fondundan (F-15/s.v.42) götürülmüşdür.

***El şairləri.*** El şairi Aşıq Cavad barədə material Məmmədağa Axundzadə, el şairi Dəli Mehdi barədə material Əbdürrəhman Dai tərəfindən toplanmışdır.



## BAŞLIQLAR

**Tərtibçilərdən (*Rza Xəlilov, Afaq Xürrəmqızı*) .......7**

**ATALAR SÖZLƏRİ, MƏSƏLLƏR ........................8**
**ZƏRBİ-MƏSƏLLƏR, İDİOMLAR........................58**
**TAPMACALAR ...................................................59**
**BAYATILAR ........................................................85**
**LƏTİFƏLƏR .........................................................92**
**NAĞILLAR**
Çömçənin başı..................................................118
Dəvə zəmidə......................................................119
Güli-qahqah.......................................................119
Ağıllı qız ...........................................................131
Tülkünün nağılı ................................................135
Şah Abbas və dərvişlər.......................................147
Hüseyn şahın nağılı............................................149
**ŞƏBƏDƏLƏR ......................................................156**
**MƏRASİM FOLKLORU**
Toy mərasimi ....................................................180
Yas mərasimi .....................................................206
Təqvim mərasimləri ...........................................208
Novruz mərasim nəğmələri................................209
Dini mərasimlər ..................................................230
**PİRLƏR, ZİYARƏTGAHLAR...............................237**
**MUSİQİ FOLKLORU**
XIX əsrin axırlarında olan tarçalan və
xanəndələr bunlar olmuşdur.................................239
Şikəstələr............................................................242
Azərbaycan qadınlar mahnısı...............................246

Xalq mahnıları ....................................................255
Meyxanalar .......................................................262
**UŞAQ FOLKLORU** ..................................................**278**
**OYUNLAR** ...........................................................**280**
**EL ŞAİRLƏRİ**
El şairi Aşıq Cavad ..........................................300
El şairi Dəli Mehdi ...........................................301
**QEYD VƏ İZAHLAR** ..............................................**302**



**Bakı folklor örnəkləri, 1-ci kitab,**
Bakı, "Elm və təhsil", 2014.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**V.Əsgərova**

Kompyuterdə yığan:
**S.Cəfərli**
**Ş.Haqverdiyeva**

Korrektor:
**A.Hüseynova**
**N.Məmmədova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 308 səh
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.